AMEA RƏYASƏT HEYƏTİ
TERMİNOLOGİYA KOMİSSİYASI

# «İZAHLI TARİX TERMİNLƏRİ LÜĞƏTİ»

*Azərbaycan Milli Elmlər Akademiyası Terminologiya Komissiyasının qərarı ilə nəşr olunur.*

İBRAHİM ZEYNALOV

# İZAHLI TARİX TERMİNLƏRİ LÜĞƏTİ

3379

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

«Azərnəşr»
Bakı-2006

BBK 46.2.3

Z-40

Elmi redaktor: tarix elmləri doktoru, professor
**T.T.Vəliyev**

Redaktor: filologiya elmləri doktoru
**S.A.Sadıqova**

Rəyçilər:

tarix elmləri doktoru, professor **F.F.İbrahimli**

tarix elmləri namizədi, dosent **M.Q.Abdullayev**

filologiya elmləri namizədi **N.F.Seyidəliyev**

Zeynalov İbrahim Xudaverdi oğlu. **İzahlı tarix terminləri lüğəti, Bakı, «Azərnəşr» 2006, səh. 284**

Lüğətdə 2500-ə qədər sözlük verilmişdir. Burada, həmçinin tarix fənni ilə bağlı və ona yaxın olan fəlsəfi, ictimai-siyasi, dini-terminlərin də bəziləri qısa şəkildə izah edilmişdir.

Lüğət orta məktəb şagirdlərinə, abituriyentlərə, müəllimlərə, tarix fənni keçilən ali məktəblərin tələbələrinə, eləcə də tarix məsələləri ilə maraqlanan geniş oxucu kütləsinə yardım göstərə biləcək bir vəsait kimi tərtib edilmişdir.

4602030000 qrifli nəşr
M-651 (07) 2006

© İbrahim Zeynalov, 2006

# ÖN SÖZ

Əziz oxucular, sizin istifadənizə verilən «İzahlı tarix terminləri lüğəti» prof. İ.Zeynalovun uzun illər sərf etdiyi gərgin əməyin bəhrəsidir. Lüğət tərtib etmək olduqca çətin bir işdir. Lakin buna baxmayaraq, müəllif qarşısına qoyduğu belə ağır bir problemin öhdəsindən ləyaqətlə gələ bilmişdir.

«İzahlı tarix terminləri lüğəti» orta məktəb şagirdlərinə, abituriyentlərə, müəllimlərə, tarix fənni keçilən ali məktəblərin tələbələrinə, eləcə də tarix məsələləri ilə maraqlanan geniş oxucu kütləsinə yardım göstərə biləcək bir vəsait kimi tərtib edilmişdir.

Doğrudur, «Tarix terminləri lüğəti» (*rusca-azərbaycanca*) Azərbaycan dilində ilk dəfə 1931-ci, ikinci dəfə isə 1956-cı ildə nəşr olunmuşdur. Birinci lüğət 24, ikinci lüğət isə 76 səhifədən ibarətdir. 1956-cı ildə nəşr olunan lüğət hələ o vaxt Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun müvafiq şöbələri tərəfindən toplanılmış, yenidən baxılmış və institutun elmi şurası tərəfindən təsdiq edilərək müzakirə məqsədi ilə əlyazma hüququnda çap edilmişdir. Bundan sonra, uzun bir fasilə yaranmış və fundamental bir lüğət hazırlanmamışdır. Yalnız SSRİ dövründə çap olunmuş 10 cildlik Azərbaycan Sovet Ensiklopediyasında verilmiş bəzi terminlər və söz-termin birləşmələrindən müəyyən anlayış əldə etmək olar. Lakin onun da çoxu imperiyanın təzyiqi ilə təhrif olunmuş formadadır.

Bundan əlavə, Ə.Qocayevin, Ş.Quliyevanın və S.Əliyevanın müəllifliyi ilə «Tarixi anlayışlar və terminlərin izahlı lüğəti»

çapdan çıxmışdır. Müəlliflərin də göstərdikləri kimi, bu lüğət orta məktəb şagirdləri və abituriyentlər üçün bir vəsait kimi buraxılmışdır. Lüğətdə 800 terminin izahı verilmişdir.

İ.Zeynalovun tərtib etdiyi hazırkı «İzahlı tarix terminləri lüğəti»ndə isə 2500-ə qədər terminin izahı öz əksini tapmışdır. Burada, həmçinin tarix fənni ilə bağlı və ona yaxın olan fəlsəfi, ictimai-siyasi, dini terminlərin də bəziləri qısa şəkildə izah edilmişdir.

Lüğətin həcmi nəzərə alınaraq görkəmli tarixçi alimlərin, tarixi şəxsiyyətlərin həyatı və yaradıcılığına aid məlumat verilməmişdir, çünki bu, ensiklopedik lüğətin işidir.

Lüğət tərtib olunarkən tarix kitablarından, müxtəlif lüğətlərdən, dövri mətbuatdan, yardımçı vəsaitlərdən və s.-dən istifadə edilmişdir.

Bununla yanaşı, qeyd edək ki, tarix fənninə dair ilk dəfə nəşr olunan belə bir irihəcmli izahlı lüğətdə nöqsan və çatışmayan cəhətlər də vardır. Prof. İ.Zeynalov lüğət üzərində işi davam etdirmək niyyətindədir. Odur ki, lüğət haqqında rəy və təkliflərinizi müəllifə göndərməyiniz xahiş olunur. Əvvəlcədən sizə təşəkkürümüzü bildiririk.

Ümidvaram ki, lüğətdə gözdən qaçmış xırda-para nöqsanları nəzərə almasaq, bütövlükdə kitab sizlərin ürəyincə olacaqdır.

**Prof.Tofiq VƏLİYEV**



## LÜĞƏTİN QURULUŞU

1. Lüğət Azərbaycan dilinin latın qrafikası əlifba sırasına uyğun tərtib edilmişdir.

2. Lüğətdə tarixi şəxsiyyətlər haqqında məlumat verilməsi nəzərdə tutulmamışdır, yalnız leksik vahid təşkil edən terminlər öz əksini tapır.

3. Hər bir termin böyük hərflərlə verilir və alınma sözlərin qarşısında hansı dilə mənsub olması dillərin adlarını bildirən ixtisarlarla verilir, ixtisarların açılması isə şərti ixtisarlarda göstərilir.

4. Hər bir terminin ayrı-ayrılıqda ensiklopedik deyil, qısa şəkildə izahı verilir.

5. Çoxmənalı sözlərin mənaları bir-birindən rəqəmlərlə ayrılır.

6. Omonimlər ayrı-ayrı lüğət məqalələri ilə verilir.

7. Sinonim terminlər ayrı-ayrılıqda izah edilmir və əsas sözə baxdırılır, bəzi terminlər haqqında məlumat almaq üçün mötərizədə (bax) sözü ilə həmin terminə istiqamətləndirilir.

8. Söz birləşməsi şəklində olan terminlər həmin terminin baş hərfinə uyğun axtarılmalıdır.

9. Sonda terminlərin ümumi siyahısı və hər bir terminin hansı səhifədə yerləşdirilməsi termin göstəricisində öz əksini tapır.

## ŞƏRTİ İXTİSARLAR

| | |
|---|---|
| *alm.* | – almanca |
| *arx.* | – arxaik termin |
| *çex.* | – çexcə |
| *dan.* | – danışıqda |
| *fr.* | – fransızca |
| *gürc.* | – gürcücə |
| *hol.* | – hollandca |
| *ing.* | – ingiliscə |
| *irl.* | – irlandca |
| *isp.* | – ispanca |
| *ital.* | – italyanca |
| *kelt.* | – keltcə |
| *köhn.* | – köhnəlmiş söz/termin |
| *qəd.* | – qədim söz/termin |
| *lat.* | – latınca |
| *məc.* | – məcazi mənada |
| *monq.* | – monqolca |
| *pol.* | – polyakca |
| *port.* | – portuqalca |
| *rus.* | – rusca |
| *sanskr.* | – sanskritcə |
| *türk.* | – türkcə |
| *yap.* | – yaponca |
| *yun.* | – yunanca |

## AZƏRBAYCAN ƏLİFBASI

**A a, B b, C c, Ç ç, D d, E e, Ə ə, F f, G g, Ğ ğ, H h, X x, I ı, İ i, J j, K k, Q q, L l, M m, N n, O o, Ö ö, P p, R r, S s, Ş ş, T t, U u, Ü ü, V v, Y y, Z z.**





**ABBASI** XVII-XVIII əsrlərdə İranda səfəvi şahı I-ci Abbasın dövründə və Cənubi Qafqazda işlədilmiş gümüş sikkə; 20 qəpiklik metal pul. I-ci Şah Abbasın adı ilə adlandırılmışdır.

**ABBASİLƏR** – Məhəmməd peyğəmbərin əmisi Abbasın adı ilə adlanan ərəb (Bağdad) xəlifələri sülaləsi (750-1258). Əbu Müslüm üsyanı nəticəsində abbasilər hakimiyyətə gəlmişdi. Sülalənin əsasını Əs-Səffah (750-754) qoymuşdu. 1258-ci ildə monqol-hülakilər tərəfindən devrilmişdir. Abbasilər sülaləsinin xəlifələri bunlardır: Əbül-Abbas əs-Səffah (750-754), Mənsur (754-775), Mehdi (775-785), Hadi (785-786), Harun ər-Rəşid (786-809), Əlin (809-813), Məmun (813-833), Mütəsim (833-842), Vasiq (842-847), Mütvəfəkkil (847-861), Müntəsir (861-862), Müstəin (862-866), Mütaz (866-869), Mütədi (869-870), Mühtəmid (892-902), Müktəfi (902-908), Müqtədi (908-932), Qahir (932-934), Razi (934-940), Müttəki (940-944), Müstəkfi (944-946), Qadir (991-1031), Qaim (1031-75), Müğtədi (1075-94), Müstəzhir (1094-1118), Müstərşid (1118-35), Rəşid (1135-36), Müktəfi (1136-60), Müstəncid (1160-70), Müstəzi (1170-80), Nasir (1180-1225), Zahir (1225-26), Müstənsir (1226-42), Müstəsim (1242-58).

**ABBASİLƏR XİLAFƏTİ** Abbasilər sülaləsinin idarə etdiyi feodal dövlət, 750-ci ildə yaranmış, 945-ci ilədək müstəqil olmuşdur. Mərkəzi Bağdad şəhəri olduğu üçün Bağdad xəlifəliyi də adlanırdı. 1258-ci ildə monqollar Bağdadı işğal edəndən ta Misir 1517-ci ildə türklər tərəfindən işğal olunanadək xilafətin nümayəndələri Qahirədə hökmranlıq etmişlər.

**ABBAT** – 1 kişi katolik kilsəsində monastır başçısı,

rəisi, rahibi; 2. Fransada katolik keşişi.

**ABBATLIQ** – Abbatın idarə etdiyi katolik monastırı: VI əsrdə yaranmışdır.

**ABDALİLƏR** – Əfqanıstanda iri tayfa birləşməsi; 1747-ci ildən dürranilər adlanır.

**ABDALLAR** – 1923-cü ilə qədər Laçın şəhərinin adı.

**ABİDƏ** – 1. sənət və tarixi dəyəri olan tikili. 2. şəxsiyyət və hadisələrin şərəfinə yaradılan heykəltəraşlıq əsəri. 3. qədim dövrlərə aid mədəniyyət əsəri.

**ABİTURİYENT** *lat.* – "getməyə hazırlaşan". Bir çox ölkələrdə orta məktəbi bitirən şəxs və ya ali və orta ixtisas məktəbinə daxil olmaq istəyən şəxs

**ABOLİSİONİSTLƏR** abolisionizm tərəfdarları; quldarlığın ləğv edilməsinin tərəfdarları.

**ABOLİSİONİST HƏRƏKATI** – ABŞ-da XIX əsrin 30-cu illərində quldarlığa qarşı çıxanlar. Quldarlığın ləğvini tələb edənlər.

**ABOLİSİONİZM** *ing. əsli lat.* – 1. hər hansı bir qanunun ləğvinə çalışan ictimai hərəkat; 2. ABŞ-da XVIII-XIX əsrlərdə zənciləri köləlikdən azad etmə hərəkatı.

**ABORDAJ** *fr.* – "gəmi bortu". Avarlı və yelkənli gəmilərlə döyüş üsulu. Hücum edən gəmi yarmaqla o birinə bağlanır və döyüşün nəticəsi əlbəyaxa vuruşmadan asılı olurdu. Uzaqvuran topların və buxarla işləyən gəmilərin meydana çıxması ilə XIX əsrdən abardaj üsulu öz əhəmiyyətini itirmişdi.

**ABORİGENLƏR** *lat.* – ölkənin qədim, ilk yerli sakinləri; yerli əhali, avtoxton.

**ABSENTEİZM** *lat.* – nümayəndəli orqanların, yaxud vəzifəli şəxslərin seçkiləri zamanı seçicilərin səsvermədən boyun qaçırmaları; kütləvi imtina.

**ABSOLYUTİZM** *bax* – mütləqiyyət.

**AÇIQ QAPI** – 1899-cu ildə ABŞ dövlət katibi Hey verdiyi notada "açıq qapı" doktrinasını elan etdi. Burada tələb edilirdi ki, Çindəki dövlətlərin bütün "nüfuz dairələri" Şimali Amerika mallarının gətirilməsi üçün açıq olmalıdır. Bununla, ABŞ rəqiblərini Çindən sıxışdırıb çıxarmaq istəyirdi.

**ADIGEY** – Şimali Qafqazda xalq adı.

**ADIQLAR** – Şimali Qafqazın mənşəcə qohum olan bir çox qədim tayfasının ümumi adı.

**ADİLŞAHLAR** – Hindistanın mərkəzi hissəsində (Bicanur) hökmranlıq etmiş sülalə (1490-1686).

**ADMİRAL** – hərbi dəniz donanmasında hərbi rütbə. Avropada 12, Rusiyada XVII əsrin sonu – XVIII əsrin əvvəllərində təsis olunmuşdur.

**AEROPAQ** *yun.* – Attikanı idarə edən ağsaqqallar şurası.

**AFRODİTA** – qədim yunan əsatirində məhəbbət, gözəllik ilahəsi; Zevsin və okeanida Diananın qızı. Romalılarda Venera ilə eyniləşdirilir.

**AGENT** *lat.* – 1. bir idarə və ya müəssisənin tapşırığı və ya vəkaləti ilə iş görən adam; 2. casus, xəfiyyə.

**AGENTLİK** – 1. müəyyən tapşırıqları yerinə yetirən təşkilat; 2. hər hansı bir idarənin, müəssisənin nümayəndəliyi; 3. mətbuat, radio və s. üçün məlumat toplayan idarə, müəssisə.

**AGENTURA** *lat.* – 1. bir müəssisə, idarə və ya təşkilatın agentləri; 2. başqa bir hökumətin casus və diversantları//casuslar, casusluq.

**AĞ** *bax* ağqvardiyaçı.

**AĞ QVARDİYA** – 1918-20-ci illərdə vətəndaş müharibəsi dövründə əksinqilabçı qoşunların ümumi adı.

**AĞA** *köhn.* – 1. istismarçı siniflərə mənsub adam; bəy, zadəgan, hakim, mülkədar, hökmdar; 2. sahib, yiyə, sahibkar.

**AĞACƏRİLƏR** – İranda yaşayan türkdilli tayfa. Səlcuqlar, monqollar və qaraqoyunlar dövründəki hadisələrdə iştirak etmişlər. V əsrdən Azərbaycana gəldikləri məlumdur.

**AĞALIQ** – hakimiyyət, hökmranlıq; sahiblik.

**AĞBİL TÜRBƏLƏRİ** – XVI əsrdə Quba rayonunun Ağbil kəndində tikilmiş abidələr.

**AĞQOYUNLU DÖVLƏTİ** (1468-1501) – XV əsr feodal dövləti. Azərbaycan (Kürdən cənuba), Qərbi İran, İran, Şərqi Gürcüstan və s. əraziləri əhatə edirdi. Paytaxtı Təbriz idi. Əsas şəhərləri: Təbriz, Naxçıvan, Marağa, Gəncə, Şüştər, Mosul, Şiraz, Yəzd, Girman, İsfahan, Rey və s.

**AĞQOYUNLULAR** – XV əsrdə Cənubi Azərbaycanda və ona qonşu olan bəzi ölkələrdə hakmiyyət sürmüş oğuz-türkmən qəbilələrindən biri; türkdilli tayfa birləşməsi; Ağqoyunlu dövləti (*bax*) ağqoyunlularla bağlıdır.

**AĞQOYUNLULAR** – Ağqoyunlu hökmdarları sülaləsi (1370-1503). Banisi Pəhləvan bəydir. Ağqoyunlu hökmdarları: Pəhləvan bəy (1370-88), Əlaəddin (Turəli) (1388-92), Fəxrəddin (1392-94), Qara Yuluq Osman (Qara Osman) (1394-1434), Əlibəy (1434-53), Uzun Həsən (1453-78), Xəlil Mirzə (1478), Sultan Yaqub (1478-90), Baysunqur Mirzə (1490-92), Rüstəm (1492-97), Gödək Əhməd (1497), Məhəmməd Mirzə (1499), Əlvənd Mirzə (1499-1501), Sultan Murad (1499-1501). Səfəvilərin hakimiyyətə gəlməsi ilə Ağqoyunluların hökmranlığına son qoyuldu.

**AĞQVARDİYAÇI** – Ağ qvardiya sıralarından olub keçmiş Sovet hökuməti əleyhinə mübarizə etmiş adam; ağ.

**AĞMƏSCİD** – indiki Simferopol şəhəri.

**AĞSAQQALLAR ŞURASI** – 1. 1775-ci il Fransa Konstitusiyasına görə parlamentin palatalarından biri. 18-ci brümer (10 noyabr) 1799-cu il çevrilişi zamanı ləğv edilmişdir; 2. keçmiş SSRİ Ali Sovetinin palatalarının yaratdıqları məşvərətçi orqan.



**AĞSONQURİLƏR (AĞSUNQURİLƏR)** – Marağa hakimləri sülaləsi (1122, yaxud 1123-1228). Banisi Ağsonqurdur. Nümayəndələri: Ağsonqur (1122-1132, başqa məlumata əsasən 1123-33), Nüsrətdin Xassbəy Arslan Abe (1132-47, başqa məlumata görə 1133-75), Fələkəddin (1174, yaxud 1175), Əlaəddin körpə Arslan (1174-1208), Dezbanu (1208-22). Ağsonqurilər səlcuqlar və Eldəgizlər dövlətinin vassalı idi... Xarəzmşah Cəlaləddinin Azərbaycana hücumları nəticəsində Ağsonqurların hakimiyyətinə son qoyulmuşdur.

**AXÇA** – pul vahidi, gümüş sikkə.

**AXİLL** – qədim yunan mifologiyasında Troya müharibəsi dövründə ən güclü qəhrəmanlardan biri.

**AXİLL DABANI** – "ən zəif yer" mənasında işlənir. Əfsanəyə görə Axillin anası dəniz ilahəsi Fetida oğlunu ölməz və yenilməz etmək üçün onu yeraltı Stiks çayının müqəddəs suyuna salmışdır. Anası onun dabanından tutduğuna görə ora müqəddəs su dəyməmiş və dabanı Axillin yeganə zəif yeri olmuşdur. Parisin atdığı zəhərli ox dabanına dəyərək onu öldürmüşdülər.

**AXİLLES** – qədim yunan əsatirində ən güclü pəhləvan.

**AXUND** – 1. İslamda müsəlmanların bəzi baş ruhanilərinə verilən ümumi ad; dini rütbə; 2. təhsil görmüş din xadimi.

**AXUNDLUQ** – axund sənəti, işi.

**AJİOPAJ** *fr.* – qiymətli kağızların və ya malların qiymətinin süni surətdə artırılıb-əksildilməsi.

**AKADEMİYA** *yun.* – bir çox elmi-tədqiqat idarələri, cəmiyyət və tədris müəssisələrinin adı.

**AKIN** – qazax və qırğızlarda xalq aşığı; ozan.

**AKMEİZM** *yun.* – 1912-13-cü illərdə rus ədəbiyyatında "sənət sənət üçündür" nəzəriyyəsinə əsaslanan yaradıcılıq cərəyanı.

**AKR** *ing. köhn.* – hər gün bir cüt öküzlə şumlanan yer, sahə. 1 akr=4046,86 kvadratmetr.

**AKROPOL** *yun.* – qədim yunan şəhərlərinin adətən təpə üzərində yerləşən möhkəmləndirilmiş hissəsi.

**AQORA** *yun.* – Afrikanın ən izdihamlı yeri, bazar meydanı.

**AQRAR** *lat.* – 1. torpaq sahibliyinə, torpaqdan istifadəyə aidiyyəti bildirir; torpağa və əkinçiliyə aid olan; 2. kənd təsərrüfatının sənayedən yüksək olması ilə səciyyələnən.

**AQRAR ÇEVRİLİŞ** – kənd təsərrüfatında muzdlu əməyin kütləvi şəkildə tətbiqi nəticəsində kapitalist münasibətlərinin bərqərar olması.

**AQRAR İSLAHATLAR** – torpaq sahibliyi və torpaqdan istifadə sisteminin dəyişdirilməsi. XVII-XIX əsrlərdə Qərbi Avropanın bir sıra ölkəsində keçirilmişdir.

**AQRAR MƏSƏLƏ** – sinifli cəmiyyətdə torpaq üzərində mülkiyyət haqqında, torpaq mülkiyyəti ilə əlaqədar olaraq siniflər arasında münasibət və bununla bağlı olan sinfi mübarizə haqqında məsələ.

**AQRARİ** *lat.* – iri torpaq sahibi, mülkədar.

**AQRARİLƏR** – bəzi ölkələrdə iri zadəgan, qolçomaq; torpaq mülkiyyətini müdafiə edən bir sıra partiyaların üzvlərinə verilən ad.

**ALAGÖZ YAYLAQLARI** – Oğuzlar Göyçə gölü ilə Arpa çayı arasındakı dağlar.

**ALANLAR** – Kubanətrafı yerlərdə yaşayan tayfalar.

**ALARLILAR** – şahsevən tayfalarından biri. Əsasən İran Azərbaycanında yaşayırlar.

**ALBAN** – qədimdə Qafqaz Azərbaycanının şimalında yaşamış xalqın adı.

**ALBAN KİTABƏLƏRİ** – Qafqaz albanlarının erkən orta əsr epiqrafik abidələri.

**ALBANİYA** – Şərqi Zaqafqaziyada qədim dövlət. İndiki Azərbaycan Respublikasının və Dağıstan Respublikasının cənub hissəsini əhatə edirdi. e.ə. IV-III əsrlərdə formalaşdığı ehtimal olunur.



**ALBANİYA** – Azərbaycanda qədim şəhər.

**ALİ BAŞ KOMANDAN** – ən yüksək hərbi vəzifə. 1914-cü ildə Rusiyada təsis edilmişdir. ABŞ, Fransa və başqa ölkələrdə olduğu kimi, hazırda Azərbaycanda da icra edilir.

**ALİ MƏHKƏMƏ** – dövlətin yüksək məhkəmə idarəsi.

**ALİ MÜSƏLMAN SİLKİ** – I Nikolayın 1843-cü il 10 mart tarixli fərmanına əsasən təsis edilmişdir. Bu silkə keçmiş xanlar, bəylər, ağalar və məliklər daxil idilər.

**ALİ SOVET** *köhn.* – Keçmiş sovet dövlətində ali dövlət hakimiyyəti orqanı və keçmiş SSR İttifaqı, müttəfiq, muxtar respublikalarının qanunverici orqanı.

**ALLAHAXTARICI** – allahaxtarıcılıq tərəfdarı, allahaxtaran.

**ALLAHAXTARICILIQ** – 1905-ci il inqilabından sonra rus burjua ziyalılarının arasında yayılmış dini-fəlsəfi cərəyan.

**ALLAHARAYICI** *bax* allahaxtarıcı.

**ALLAHARAYICILIQ** *bax* allahaxtarıcılıq.

**ALLOD** *alm.* – feodalizm dövründə Qərbi Avropada irsi torpaq mülkiyyəti.

**ALMANLAR** – Avropanın Almaniya və başqa ölkələrin ərazisində yaşayan xalq.

**ALTERNATİV** *fr.* əsli *lat.* – 1. bir-birini istisna edən imkanların hər biri; 2. bir-birini istisna edən imkanlardan birini seçmə.

**ALYANS** – müqavilə öhdəliklərinə əsaslanan ittifaq, birlik (məs.; dövlətlərin, təşkilatların ittifaqı, birliyi).

**AMAZONLAR** – qədim yunan əsatirinə görə cəngavər qadınlar (Kiçik Asiyada yaşamış və qonşu ölkələrə hücum etmişlər).

**AMFİTEATR** – 1. Qədim Romada qladiator döyüşləri üçün tikilən müasir sirklərə oxşar tikililər; 2. müasir teatrın tamaşa zalında parterdən müəyyən hündürlükdə yerləşən və pillə-pillə qalxan oturacaq yerləri.

**AMFORA** *lat.* – qədim yunanların və romalıların içki və s. tökmək üçün işlətdikləri ikiqulplu yumurta formalı, boğazıdar qab (gildən, bəzən də metaldan hazırlanırdı).
**AMİL** *köhn.* – məmur, vəkil (ərəblər dövründə mülki işlərə baxan adam).
**AMİLDAR** – Moğol imperatorluğu dövründə hərbi xidmət müqabilində şərti torpaq sahibliyinə malik olan sərkərdə.
**AMNİSTİYA** *yun.* – məhkum olunmuş şəxslərin cəzadan azad edilməsi və cəzasının yüngülləşdirilməsi; əfv-ümumi.
**AMON** – qədim Misir əsatirində Günəş allahı, Fiv şəhərinin himayəçisi.
**AMPULA** *fr.* – aktyorun xüsusiyyətinə görə ifa etdiyi rollar. (Antik teatrda, klassik Şərq və XIX əsr rus teatrında çox yayılmışdı).
**AMUNİSİYA** *pol.* – əsgərin silah və geyimindən başqa, lazım olan sair şeyləri; əsgəri təchizat.
**ANABAPTİST** *yun.* – anabaptizm tərəfdarı.
**ANABAPTİZM** *yun.* – dini reformasiya cərəyanlarından birinin adı.
**ANARXİST** *yun.* – anarxizm tərəfdarı.
**ANARXİYA** *yun.* – 1. hakimiyyətsizlik, hərc-mərclik, başlı-başınalıq, hökumətsizlik; 2. hər cür hakimiyyəti inkar etmə.
**ANARXİZM** *yun.* – proletar elmi sosializmə zidd olan xırda burjua ictimai-siyasi cərəyan. XIX əsrin 40-70-ci illərində meydana gəlmişdi.
**ANAXRONİZM** *yun.* – 1. xronoloji dəqiqliyin pozulması; 2. bir dövrün hadisə və əlamətlərinin səhvən, yaxud şərti olaraq, başqa dövrün hadisə və əlamətlərinə aid edilməsi.
**ANARXO-SİNDİKALİST** – anarxo-sindikalizm tərəfdarı.
**ANARXO-SİNDİKALİZM** – fəhlə hərəkatında anarxizmin ideya və siyasi təsiri altında olan cərəyan. XIX əsrin axırlarında İsveçrə, İtaliya, Fransa, İspaniya, Latın Amerikası ölkələrində yaranmışdır.



**ANAYASA** *(türkcə)* – əsas qanun, konstitusiya.
**ANİMİZM** *lat.* – ibtidai insanların hər şeydə ruh olmasına inanması; ruhlara sitayiş.
**ANQLİKAN KİLSƏSİ** – İngiltərədə protestant kilsələrindən biri; dövlət kilsəsi.
**ANQLOFOB** *köhn.* – ingilis düşməni, ingilisləri sevməyən adam.
**ANQLOFOBLUQ** – ingilisləri sevməmə.
**ANNENFELD** – indiki Şəmkirə bitişik olan kənd.
**ANŞLYUS** *alm.* – almanlar yaşayan ərazilərin dinc yolla Almaniyaya birləşdirilməsi siyasəti.
**ANTAQONİST** – bir-birinə düşmən olan, zidd olan, barışmaz düşmən.
**ANTAQONİZM** *yun.* – barışmaz ziddiyyət, düşmən qüvvələr.
**ANTANTA** *fr.* – İngiltərə, Fransa və çar Rusiyasının ("Üçlər sazişi") Almaniya, Avstriya-Macarıstan və İtaliyaya (Üçlər İttifaqı) qarşı 1904-1907-ci illərdə yaratdıqları blok. Birinci Dünya müharibəsi (1914-18) dövründə Antanta Almaniya və onun müttəfiqlərinə qarşı müharibə edən bütün ölkələrin (həm də ABŞ, Yaponiya və Antanta tərəfinə keçən İtaliyanın) ümumi ittifaqı oldu.
**ANTEY** *yun.* – qədim yunan əsatirində məşhur pəhləvan; dəniz allahının və yer ilahəsinin oğlu.
**ANTİFAŞİST** – 1. faşizmin (*bax*) düşməni, faşizmlə mübarizə iştirakçısı; 2. faşizm əleyhinə yönəldilmiş, ona qarşı mübarizə aparan.
**ANTİK** *lat.* – 1. qədim, köhnə; 2. qədim yunan və Roma tarix və mədəniyyətinə aid olan.
**ANTİK KALONİYALAR** – qədim xalqların özgə torpaqlarında saldıqları məskən.
**ANTİK MƏDƏNİYYƏT** – qədim yunan və Roma mədəniyyəti.
**ANTİKLİK** – 1. qədimlik; 2. qədim yunan və Roma dünyası və onun mədəniyyəti.

**ANTİKOMMUNİST** – kommunizmə zidd, kommunizm əleyhinə olan, kommunizmə qarşı olan.

**ANTİKOMMUNİZM** – imperialist irticasının başlıca ideya-siyasi silahı; kommunizmə zidd, kommunizm (*bax*) əleyhinə hərəkat.

**ANTİSEMİT** *köhn.* – yəhudiləri sevməyən adam, yəhudi düşməni.

**ANTİSEMİTİZM** *köhn.* – alman nasistlərinin yəhudilərə qarşı ədavət və düşmənçiliyi; dini ayrı-seçkilik forması.

**ANTİSOSİALİST** – sosializmə (*bax*) zidd olan, ona qaşı çıxan.

**ANTİSOVET** – Sovet hökuməti əleyhinə yönəldilmiş, ona düşmən olan.

**ANTİSOVETİZM** *yun. rus.* – Sovet hökuməti əleyhinə yönəldilmiş başlıca ideya-siyasi silahı.

**ANTLAR** *yun.* – IV-VI əsrlərdə Dnestr ilə Dnepro çayları arasında yaşamış Şərqi slavyan tayfalarının adı.

**ANTROPOLOGİYA** – insan haqqında elm. «Antropos» – insan, «loqos» öyrənirəm – sözündəndir.

**APARTEİD** – (ayrı yaşamaq) CAR (Cənubi Afrika Respublikası) hakim dairələrinin yerli Afrika əhalisinə, «rənglilərə» və Asiyadan köçüb gələnlərə qarşı apardıqları sərt irqi ayrı-seçkilik siyasəti.

**APOKALİPSİS** – 1. xristian dinində: peyğəmbərlik, vəhy; 2. axır zamandan xəbər verən Əhd-cədid kitablarından biri.

**APOLLON** – qədim yunan və Roma dinlərində işıq və incəsənət allahı.

**APOSTOL** – 1. həvariyun, əshabə (İsanın 12 həvariyunundan biri); 2. həvarilərdən bəhs edən dini kitab.

**ARABESK** – kəsişən xətlərdən yaranmış mürəkkəb naxışlar.

**ARAKÇEYEVÇİLİK** *rus.* – (Rusiya çarı I Aleksandr dövründə nazir olmuş Arakçeyevin adından). XIX əsrin əvvəlində Rusiyada: qeyri-məhdud polis istibdadı hərbi zümrənin başlı-başınalığı və xalq üzərində zülm rejimi.



**ARAN** – türkcə ərən, cəsur, qoçaq, mərd.

**ARAZ** – Türk respublikası – 1918-ci il noyabr – 1919-cu ilin martından fəaliyyət göstərmiş müstəqil dövlət.

**ARBALET** *fr.* – Orta əsrlərdə Qərbi Avropada istifadə edilmiş qundaqlı ox, yay (silah növü).

**ARENA** *lat.* – səhnə, sirkdə tamaşa meydanı (qədim Romada).

**ARENDA** *bax* icarə.

**ARENDAÇI** *bax* icarəçi.

**ARENDATOR** *bax* icarəçi.

**AREOPAQ** *yun.* – qədim Afinada hakimiyyət orqanı; ali məhkəmə.

**ARXA DÖYÜŞÇÜLƏRİ** – müharibə vaxtı cəbhə arxasında çalışan adamlar haqqında.

**ARXAİKA** *yun.* – hər hansı bir hadisənin tarixi inkişafında erkən mərhələ.

**ARXAİZM** *yun.* – köhnəlik, köhnənin qalıqları.

**ARXEOQRAF** *yun.* – arxeoqrafiya ilə məşğul olan, arxeoqrafiya mütəxəssisi.

**ARXEOQRAFİYA** *yun.* – yazılı tarixi məxəzlərin nəşrinin nəzəriyyə və təcrübəsini, metodlarını öyrənməklə məşğul olan köməkçi tarix fənni.

**ARXEOLOGİYA** *yun.* – maddi mənbələr əsasında bəşəriyyətin tarixi keçmişini öyrənən elm.

**ARXEOLOJİ ABİDƏLƏR** – insanların yaratdığı qədim maddi mədəniyyət abidələri (əmək alətləri, silahlar, məişət şeyləri, insan məskənləri, şəhər və qala xarabalıqları, qədim yazılar və s.)

**ARXEOLOJİ QAZINTILAR** – arxeoloji abidələri aşkar etmək və xalqın keçmiş tarixini öyrənmək məqsədi ilə aparılan tədqiqat.

**ARXEOLOQ** *yun.* – arxeologiya ilə məşğul olan adam, arxeologiya mütəxəssisi.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI
5549

**ARXEOZOY ERASI (QRUPU)** – yer qabığının ən qədim çöküntüləri.

**ARXEY ERASI** – Yerin geoloji tarixinin ən qədim dövrü.

**ARXİMANDRİD** – Pravoslavlıqda yepiskopdan yüksək ali monaxlıq rütbəsi; baş monax, baş rahib.

**ARXİV** *lat.* – 1. qədim sənədlərin və yazılı abidələrin saxlandığı müəssisə; 2. idarənin köhnə sənədlər saxlandığı şöbə; 3. yazılı abidələr və ya ayrı-ayrı adamlara mənsub materialların toplusu.

**ARXİVÇİ** *bax* arxivşünas.

**ARXİVÇİLİK** *bax* arxivşünaslıq.

**ARXİVŞÜNAS** – arxiv işləri mütəxəssisi.

**ARXİVŞÜNASLIQ** – arxiv işləri üsullarından bəhs edən elm.

**ARXİYEPİSKOP** *yun.* – yüksək dini rütbə; pravoslavlıqda baş keşiş (yepiskop).

**ARXONTLAR** *yun.* – qədim Yunanıstanda şəhərin, hökumətin baş məmurları.

**ARİLƏR** əsli *sanskp.* – 1. burjua etnoqrafiya və tarixində xalqların Hind və İran qrupuna verilən ümumi ad: ari irqinə mənsub qövmlər; 2. Hind-Avropa dillərində danışan xalqlara verilən qeyri-elmi şərti ad.

**ARİSTOKRAT** *yun.* – əsilzadə, kübar; aristokratiya zümrəsinə mənsub adam (qədim Attikada)

**ARİSTOKRATİYA** *yun.* əyanlar hakimiyyəti forması – qədim Yunanıstanda zadəganların dövlət hakimiyyəti formalarından biri.

**ARİSTOQRAFİYA** Yunanıstanda adlı-sanlı adamlar özlərini belə adlandırırdılar - Yuxarıların hakimiyyəti.

**ARMADA** *isp. köhn.* İspaniyada böyük hərbi flot, eskadra, donanma.

**ARRAN** Qafqaz Albaniyasının ərəb mənbələrində adı.

**ARSENAL** *bax* cəbbəxana.

**ARŞAKİLƏR (ARSAKİLƏR)** – eradan əvvəl 250-ci ildən eramızın 243-cü ilinədək Parfiyada hakimiyyətdə olmuş sülalə.



**ARŞIN** *köhn.* – vaxtilə bir neçə ölkədə (Rusiya, Əfqanıstan, İran, Türkiyə, Bolqarıstan, Azərbaycan) işlədilən uzunluq ölçü vahidi. (təxminən 0,71 metr); bu uzunluqda olan ölçü aləti.

**ARTEL** – müəyyən şərtlərlə birlikdə işləmək üçün düzəldilən təsərrüfat birliyi, şirkət, emalatxana.

**ARTELÇİ** artel üzvü.

**ARTEMİDA** *yun.* qədim yunan əsatirində məhsuldarlıq, ay ilahəsi.

**ARTİKUL** *lat.* I Pyotrun hazırladığı hərbi nizamnamə, kodeks (1715).

**ARTİKUL** *lat.* II qanun, müqavilə və s. sənədlərdə maddə, bənd, paraqraf.

**ARTİLLERİYA** *fr.* - 1. top, topxana; 2. topçu dəstəsi, topçu qoşunu; 3. topçuluq elmi.

**ASARİ-ƏTİQƏ** – qədimdən qalmış maddi mədəniyyət abidələri, tarixi abidələr.

**ASILILIQ** birinin hökmünə, iradəsinə tabelik; sərbəstliyin, müstəqilliyin olmaması.

**ASİYA** *yun* Planetdə ən böyük qitə. Şimaldan Cənuba 8200 km. Şərqdən Qərbə 8500 km-ə qədər uzanır.

**«ASLANLAR YUVASI» VƏ «QAN ŞƏHƏRİ»** – Assuriya (Aşşur) imperiyasının paytaxtı Nineviyanı belə adlandırırdılar.

**ASSİQNAT** *köhn.* 1789-96-cı illərdə işlənmiş kağız pul.

**ASSOSİASİYA** – birlik, ittifaq: ümumi bir təsərrüfat məqsədinə, siyasi, elmi, mədəni və ya hər hansı başqa bir məqsədə çatmaq üçün təşkilatların və ya şəxslərin birləşməsi.

**ASSURİLƏR** – eramızdan əvvəl III minilliyin axırından VII əsrin axırına qədər Qərbi Asiyanın ən qədim dövlətlərindən biri olan Assuriyanın əhalisi.

**ASSURİOLOGİYA (aşşurişünaslıq)** - Qədim Mesopotamiya xalqlarının dil, yazı, tarix və mədəniyyətlərini öyrənən elmlər komplekslərinin şərti adı; geniş mənada, mixi

yazılardan istifadə edən sivilizasiyaların tədqiqi ilə məşğul olan elm. Şumerşünaslıq, hettşünaslıq, hurrişünaslıq elamşünaslıq və b. şərqşünaslıq fənlərini əhatə edir.

**ASSURİŞÜNAS** – qədim Assuriya tarix və mədəniyyətini tədqiq edən alim.

**ASSURİŞÜNASLIQ**–qədim Assuriya tarixi və mədəniyyətinə aid elmlər məcmusu.

**ASSURİYA (AŞŞUR)** – indiki İraq ərazisində qədim dövlət. (Onun əsasını Aşşur təşkil edirdi).

**ASSURİYALILAR** – İraq, İran, Suriya, Türkiyə, İordaniya, Livan, ABŞ, keçmiş SSRİ və Avropanın bir sıra ölkələrində yaşayan xalq.

**ASTARTA** – finikiyalıların baş ilahəsi Aştartın yunanca adı.

**ASTEKLƏR** – Meksikada ən böyük hindi xalqı.

**ASTROLOGİYA** *yun.* – münəccimlik, nücum elmi (qədim zamanlarda: ulduzlar haqqında sxolastik elm).

**ASTRONOMİYA** *yun.* – göy cisimləri haqqında elm.

**AŞAĞI PALATA** – bəzi ölkələrdə birinci qanunvericilik instansiyası.

**AŞAR** – Osmanlı dövlətində müsəlman əkinçilərdən alınan onda bir vergi.

**AŞŞUR** – 1. əfsanəyə görə baş allah, Assuriya padşahlarının himayəçisi; 2. Assuriyada şəhər (indi İraqda Qəlat-Şərqət xarabalığı).

**AŞŞURŞÜNASLIQ** *bax* assuriologiya.

**ATABƏY** – Səlcuq hökmdarlarının sarayında sultanın böyük oğlunun tərbiyəçisinə verilən ad.

**ATABƏYLƏR** səlcuq sülalələri. Atabəylər sülaləsinə aşağıdakılar daxildir:

**1. Burilər** (Diməşq və ya Şam atabəyləri); Seyf əl-İslam Tuğməkan (1104-28), Tac əl-mülk Buri (1128-32), Şəms əl-mülk İsmayıl (1132-35), Şihab əd-din Mahmud (1135-39), Cəmal əd-din Məhəmməd (1139-40), Müçir əd-din Anaz (1140-54).



**2. Zəngilər:** 1. Mosul və Hələb atabəyləri: İmad əd-din Zəngi (1127-46), I Seyf əd-din Qazi (1146-49), Qütb əd-din Məvdud (1149-70), II Seyf əd-din Qazi (1170-80), I İzz əd-din Məsud (1180-93), I Nur əd-din Arslanşah (1193-1211), II İzz əd-din Məsud (1211-18), II Nur əd-din Arslanşah (1218-19), Nəsr əd-din Mahmud (1219-33), Bədr əd-din Lulu (1233-59), İsmayıl ibn Lulu (1259-60); 2. Suriya atabəyləri: Nur əd-din ibn Zəngi (1146-74), Salih İsmayıl (1174-81); 3. Sincar atabəyləri: İmad əd-din Zəngi ibn Məvdud (1170-97), Qütb əd-din Məhəmməd (1197-1219), İmad əd-din Şahənşah (1219), Mahmud (1219-20); 4. Cəzirə atabəyləri: Müizz əd-din Sincarşah (1180-1208), Müizz əd-din Mahmud (1208-12), Məsud (1212-50).

**3. Bektekinlər** (İrbil atabəyləri): İrbildə: Zeyn əd-din Əli ibn Bektekin (1144-68), Zeynəd-əd Yusif ibn Əli (1168-90), Müzəffər əd-din Qöyburi ibn Əli (1190-1233).

**4. Artukilər** (Diyarbəkr atabəyləri): 1. Kayfə (indiki tayfa) Artukiləri: Müin əd-dövlə I Sökman (1101-04), İbrahim (1104-08), Rükn əd-din Davud (1108-48), Fəxr əd-din II Sökman (1185-1200), Nəsr əd-din Mahmud (1200-22), Rükn əd-din Məvdud (1222-31). 2. Mərdin Artukiləri: Nəcm əd-din İlqazi (1108-22), Hüsam əd-din Teymurtaş (1122-52). Nəcm əd-din Alpi (1152-76). Qütb əd-din İlqazi (1176-84), Hüsam əd-din Yuluq Arslan (1184-1200), Nəsr əd-din Artuk Arslan (1200-39), Nəcm əd-din I Qazi (1239-60), Qara Arslan Müzəffər (1260-92), Şəms əd-din Davud (1292-94), Nəcm əd-din II Qazi (1294-1312), İmad əd-din Əli Alpi (1312), Əhməd Mənsur (1363-67), Mahmud Salih (1367), Davud Müzəffər (1406), Salih (1406-08).

**5. Sökmanilər** (Xilat atabəyləri): I Sökman əl-Qütbi (1100-12), Zəhir əd-din İbrahim (1112-27), Əhməd (1127-28), Nəsr əd-din II Sökman

(1128-83), Seyf əd-din Bektemur (1183-93), Bədr əd-din Ağsunqor (1193-98), Mənsur Məhəmməd (1198-1206), İzz əd-din Balban (1206-07).

6. **Eldəgəzlər** (Azərbaycan atabəyləri): Şəms əd-din Eldəgəz (1136-74), Məhəmməd Cahan Pəhləvan (1174-86), Qızıl Arslan (1186-91), Əbu Bəkr (1191-1210), Özbək (1210-25), Qızıl Arslan Xamuş (1225-29).

7. **Salqarilər** (fars atabəyləri): Sunqur (1148-62), Zəngi (1162-75), Təklə Bərk (1226-60), Səlcuqşah (1262-63), Əbiş Xatun (1263-87).

8. **Xəzərəsbilər** (Luristan atabəyləri): Əbi Tahir ibn Məhəmməd (1148-1203), Nüsrət əd-din Xəzərəsb (1203-52), Təklə (1252-59), Şəms əd-din Əli Arqu (1259-74), I Yusif şah (1274-88), I Əfrasiyab (1288-96), Nüsrət əd-din Əhməd (1296-1333), II Yusif şah (1333-39), I Əfrasiyab (1339-55), Şəms əd-din Hüşəng (1355-78), Əhməd (1378-1408), Əbu Səid (1408-17), Hüseyn (1417-23), Qiyas əd-din (1423).

9. **Xarəzmşahlar Anuştəkin** (1077-97), Qütb əd-din Məhəmməd (1097-1128), Atsız (1128-56), İl Arslan (1156-72), Sultanşah Mahmud (1172), Təkiş (1172-1200), Əla əd-din Məhəmməd (1200-20), Cəlal əd-din Məngburini (1220-30).

10. **Qutluxanlar** (Girman atabəyləri): Bəraq Hacib Qutluq xan (1222-35), Rükn əd-din (1235-52), Qütb əd-din Məhəmməd (1252-57), Qutluq xatun (1257-82), Cəlal əd-din Süyürqatmış (1282-93), Səfvət əd-din Padşah xatun (1293-95), Cəlal əd-din Məhəmməd şah (1295-1301), Qütb əd-din Şahcahan (1301-03).

**ATAMAN** – 1. kazak vilayətlərində və qədim kazak qoşunlarında hərbi-inzibati vəzifələrin adı; 2. Vətəndaş müharibəsi dövründə: ağqvardiyaçı dəstələrin başçısı (Ukraynada, Donda və s.- də).

**ATANARİX SƏDLƏRİ** indiki Moldova ərazisində hunların hücumlarının qarşısını almaq üçün tikilən sədlər.



**ATEİST** – ateizm tərəfdarı; allahsız, dinsiz.

**ATEİZM** *yun.* – hər cür dini və dini təsəvvürləri inkar edən baxışlar sistemi; allahsızlıq (XX əsrin ortalarında meydana gəlmişdir).

**ATƏŞGAH** – atəşpərəstlərin ibadətgahı, məbədi (Azərbaycanda, Orta Asiyada, İranda, Hindistanda, Əfqanıstanda geniş yayılmışdır).

**ATƏŞGƏDƏ** *bax* atəşgah.

**ATƏŞPƏRƏST** – oda ibadət edən; zərdüşt dinindən olan.

**ATƏŞPƏRƏSTLİK** – oda, atəşə sitayiş etmə; atəşpərəstlərin dini.

**ATLAS** – tarix, coğrafiya xəritələri məcmuəsi; xəritələr toplusu.

**ATLI** – süvari, ata minmiş.

**ATROPAT MİDİYASI** – Atropatenanın (*bax*) qədim yunan mənbələrində çəkilən adlarından biri.

**ATROPATENA** *yun.* – Azərbaycan ərazisində tarixi vilayət və dövlət.

**AUKSİON** – əmtəənin və ya əmlakın ən çox pul təklif edənə verilmək üçün açıq satışa qoyulması: hərrac, müzaidə.

**AUL** – Dağıstanda və Mərkəzi Asiyada kənd.

**AUTODAFE** *port.* – "kafirlər"in və din əleyhinə olan kitabların tonqalda yandırılması (orta əsrlərdə İspaniya və Portuqaliyada).

**AVANQARD** *fr.* – sinfin, cəmiyyətin qabaqcıl hissəsi, öncül hissəsi; öndə gedən, qabaqda gedən.

**AVANPOST** *fr.* – bəzi xarici ordularda və XVIII-XIX əsrlərdə Rusiyada keşikçi postu.

**AVANS** *fr.* – əvvəlcədən ödəmə, beh (pul haqqında).

**AVANTÜRA** – real şəraiti nəzərə almağa edilən, bir qayda olaraq başa çıxmağa və məğlubiyyətə düçar olan riskli və təhlükəli hərəkət. Hitler Almaniyasının İkinci Dünya müharibəsini törətməsi siyasi avanturizmin nümunəsidir.

**AVAR** *bax* avarlar.

**AVAR XANLIĞI** - Dağıstanın mərkəzi hissəsində feodal dövləti (XII əsrin axırları – XIX əsr). Erkən orta əsr Sərir "padşahlığı" ərazisində yaranmış, Umma xan (1639) dövründə müstəqil olmuşdur. 1964-cü ildə çar hökuməti xanlığı ləğv etmiş və ərazisini Avar mahalına çevirmişdir.

**AVARLAR** – Dağıstanda yaşayan Qafqaz xalqlarından birinin adı və bu xalqa mənsub adamlar. Azərbaycanın Zaqatala və Balakən bölgələrində məskunlaşan türk xalqı.

**"AVESTA"** – zərdüştliyin müqəddəs kitablar külliyyatı (İran, Mərkəzi Asiya, Azərbaycan və Əfqanıstanın qədim xalqlarında).

**AVQUST BLOKU** (avqust antipartiya bloku) – RSDFP-nin VI (Praqa) konfransından sonra özünü partiyaya qarşı qoyan antipartiya qrup və cərəyanlarının (trotskiçi, təsviyəçi və bundçuların) ittifaqı. 1912-ci ilin avqust ayında Vyanada Trotskinin təşəbbüsü ilə təşkil edilmişdir.

**"AVRORA"** – Baltik donanmasının Böyük Oktyabr sosialist inqilabında iştirak etmiş kreyseri. 1900-cü ildə suya salınmış, Rusiya-Yaponiya müharibəsində (1904-1905) iştirak etmişdir. 1917-ci il fevralın 28-də (martın 13-də) Avropanın inqilabçı matrosları üsyan edərək hakimiyyəti ələ aldı. Oktyabr ayının 25-də Avrora toplarından açılan atəş Qış sarayına hücumun başlanğıcı oldu. Abidə kimi Neva çayı (Sankt-Peterburq) sahilində əbədi dayanmağa (1948-ci il noyabrın 17-dən) qoyulmuşdur.

**AVŞAR (LAR)** – qədim Azərbaycan tayfalarından biri.

**AVTOXTON** *bax* aborigen.

**AVTOKRATİYA** *yun.* – bir qeyri-məhdud və nəzarətsiz tam hakimiyyətdən ibarət idarə forması; mütləqiyyət.

**AVTOQRAF** *yun.* – 1. əsərin müəllif əlyazması; 2. xatirə qeydi.



**AVTORİTARİZM** *lat.* – siyasi rejim, burada siyasi hakimiyyət bir nəfərin və ya bir şəxsin əlində cəmləşir.

**AYİN** – 1. qayda, qanun; dəb, adət; 2. dini mahiyyətdə olan mərasim.

**AYRI-SEÇKİLİK** – hüquqların azaldılması: 1. Beynəlxalq münasibətlərdə digər dövlətin və yaxud onun vətəndaşlarının istifadə etdiyi hüquqlarla müqayisədə hər hansı bir dövlətin və ya onun vətəndaşlarının hüquqlarının azaldılması; 2. İrqi ayrı-seçkilik – müstəmləkə ölkələrində və asılı ölkələrdə yerli əhaliyə imperalistlər tərəfindən zülm edilməsi, kapitalist ölkələrində azlıqda qalmış millətlərə zülm edilməsi, onların ən adi hüquqlardan məhrum olması.

**AYSORLAR** *bax* assuriyalılar.

**AZAD** – 1. sərbəst, başqasına tabe olmayan; 2. heç nə ilə məhdudlaşdırılmayan, müstəqil.

**AZAD** – nəcib «qəbilə daxilində qoyulmuş». Erkən feodalizm dövründə xırda və orta feodallar.

**AZADLIQ** – 1. müstəqillik, heç kimdən asılı olmama; 2. sərbəstlik.

**AZADLIQ KAĞIZI (VƏSİQƏSİ)** – azad edilən təhkimli kəndliyə verilən şəhadətnamə.

**AZADOLUNMUŞLAR** – qədim Yunanıstan və qədim feodalizm dövründə Qərbi Avropa ölkələrində azad edilən və ya azadlıqlarını satın alan qullar.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ** – 1918-20-ci illərdə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət.

**AZƏRBAYCANLILAR** – Azərbaycan Respublikasının əsas əhalisi; türk xalqlarından biri.

**«AZIX ADAMI»** – Azıx mağarasında 1968-ci ildə ibtidai insanın alt çənə sümüyünün a..ğı tapılmışdır. Bu, dünyada ən qədim belə

tapıntılardan biri dördüncüsüdür. Antropoloqlar bu insanı Azıxantrop yəni, «Azıx adamı» adlandırmışlar. Onlar 350-400 min il bundan əvvəl yaşamışlar.
**AZIX MAĞARASI** – Azərbaycanda ən iri mağara. Aşağı Paleolis dövrünə aid mağaralardan biri.
**AZIXANTRON** – 1968-ci ildə Azıx mağarasında (Azərbaycan Respublikasında) alt çənə sümüyünün bir hissəsi tapılmış ibtidai insana verilən ad.
**AZİL DÖVRÜ** – erkən mezolit dövrü.
**AZİL MƏDƏNİYYƏTİ** – erkən mezolit dövrünə aid arxeoloji mədəniyyət.
**AZNAUR** *köhn.* – Gürcüstanda olmuş iri feodallar.

# B

**BABƏK HƏRƏKATI** (816-838) – Babəkin başçılığı ilə Azərbaycan xalqının islam dini, ərəb əsarəti və feodal zülmünə qarşı mübarizəsi; orta əsrlərdə Yaxın və Orta Şərqdə ən qüdrətli antifeodal hərəkat.
**BABƏKİLƏR** – XI əsrdə Babəkin başçılığı ilə ərəb istilaçılarına qarşı mübarizə aparmış Babək tərəfdarları.
**BABƏKİLİK** *bax.* xürrəmilik.
**BABİ ÜSYANLARI** – İranda feodal quruluşuna, habelə ölkənin müstəmləkə halına salan xarici kapitala qarşı xalq üsyanları (1848-1852).
**BABİL** – Babili «Allahın qapısı». Mesopotamiyanın şimalında, Fərat çayı sahilində qədim şəhər.
**BABİLİK** - XIX əsrin 40-cı illərində İranda şiəlik əsasında yaranmış dini təriqət («*Bab» təxəllüslü Mirzə Əli Məhəmməd tərəfindən təsis edilmişdir*).
**BABİLİSTAN** – Mesopotamiyanın (indiki İraqın) cənub hissəsində qədim dövlət. Eramızdan əvvəl 2-ci minilliyində yaranmış və e.ə. 539-cu ildə istiqlaliyyətini itirmişdir.
**BABİLLİLƏR** – Qabaq (Ön) Asiyada ən qədim dövlətlərdən biri olan Babilistanın əhalisi (*eramızdan qabaq V-I əsrlər*).
**BABİZM** *bax* babilik
**BAC** *köhn.* – 1. qalib ölkənin məğlub ölkədən aldığı vergi təzminatı; 2. orta əsrlərdə, həmçinin Azərbaycanda vergi rüsumu (yol haqqı).
**BAC** – Sasanilərdə sənətkar və tacirlərdən alınan vergi.
**BACARIQLI İNSANLAR** – daşdan əmək alətləri düzəltməyi bacaran insanlar.
**BACDAR** – bac alan, vergi alan.
**BAĞ-ŞUMAR** – orta əsrlərdə bir sıra yaxın Şərq ölkələrində, həmçinin Azərbaycanda bağı olanlardan alınan vergi.
**BAĞBAŞI** *köhn.* – bağ məhsullarından alınan vergi.
**BAHADIR** – qəhrəman, qoçaq, igid; pəhləvan.
**BAHADIR VƏ NOYON** – monqollarda hərbi şəxs.
**BAHADIRLIQ** – qəhrəmanlıq, qoçaqlıq, igidlik, pəhləvanlıq.
**BAXUS** *köhn.* – antik mifologiyada: şərab. (Şərab allahı Baxusun adından).
**BAKI** - Azərbaycanda ən qədim şəhər. Hazırda Azərbaycan Respublikasının paytaxtı.
**BAKI XALQ KOMİSSARLARI SOVETİ** – Zaqafqaziyada Sovet hakimiyyətinin ilk səlahiyyətli hökumət orqanı.
**BAKI XANLIĞI** – XVIII əsrin 40-cı illərində Abşeron yarımadasında yaranmış feodal dövləti. Bu xanlığa 39 kənd daxil idi.
**BAKI KOMMUNASI** - 1918-ci ildə Bakıda və Azərbaycanın bir sıra rayonlarında sovet hakimiyyəti.
**BAKI ŞƏHƏR DUMASI** – 1917-ci il inqilabından əvvəl şəhər bələdiyyə idarəsinin sərəncamçı orqanı. 1878-ci ildə çar senatının fərmanı ilə yaradılmışdır.

**BAKI TƏTİLLƏRİ** – Bakıda baş vermiş siyasi tətillər (1903,1904,1905,1906,1907, 1913, 1919, 1988-1989).

**BALFUR BƏYANNAMƏSİ** – 1917-ci ilin noyabrında irəli sürülüb. Böyük Britaniya gələcəkdə Fələstini özünün etibarlı istinadgahına çevirmək üçün tərtib etdiyi sənəd.

**BALKAN MÜHARİBƏLƏRİ** – 1-ci Balkan müharibəsi (9.10.1912-30.5.1913) Balkan ittifaqı (1912) ilə (Bolqarıstan, Serbiya, Yunanıstan və Çernoqoriya) Osmanlı imperiyası arasında olmuşdur. Müharibənin gedişində Albaniya müstəqillik qazandı. 2-ci Balkan müharibəsi (29. 6. 1913 -10.8.1913) Bolqarıstan ilə Serbiya, Yunanıstan, Çernoqoriya, Rumıniya və Türkiyə arasında olmuş, Bolqarıstanın məğlubiyyəti ilə qurtarmışdır.

**«BALIQ»** – söytürklərdə şəhərlərdə verilən ad.

**BALLADA** – ədəbiyyatda lirik əhvali-ruhiyyə ifadə edən epik şeir forması.

**BANDİT** *ital.* – quldur, soyğunçu, təxribatçı.

**BANDİTİZM** *ital.* – quldurluq, soyğunçuluq, zorakılıq, təxribatçılıq və s. məqsədi ilə silahlı quldur dəstələri yaratmaqdan, bu dəstələrdə və onların düzəltdiyi basqınlarda iştirak etməkdən ibarət cinayət işi.

**BANK** *ital.* – «banka» sözündəndir, bu da «skamya», «İdarə stolu» deməkdir. Orta əsrlərdə Qərbi Avropa şəhərlərində sərrafların oturduğu skamya belə adlanırdı.

**BARAT** – bank və s. maliyyə müəssisəsi və ya poçt vasitəsilə göndərilən pul.

**BARBARLAR** *yun.* – 1. qədim yunanların, sonra isə romalıların dil və mədəniyyətcə onlara yabançı olan başqa tayfa və xalqlara verdikləri ad. Yeni dövrün tarix ədəbiyyatında, barbarlar termini Roma imperiyasını istila edib, onun ərazisində müstəqil krallıqlar (barbar krallıqlar) yaradan xalqları müəyyənləşdirmək üçün işlədilmişdir; 2. vəhşi, mədəniyyətsiz adam.



**BARBARLAR** *yun.* – «barbaros» sözündən olub «əcnəbi», anlaşılmaz dildə danışan deməkdir. Romalılar və yunanlar Avropanın alman tayfalarını belə adlandırmışdılar. Sonralar kobud, vəhşi mənasında işlədilmişdir.

**BABARLIQ** – XVIII əsrin 60-cı illərində şotland filosofu A.Fergüsonun irəli sürdüyü və 18-19-cu əsrlərdə Avropa elmində bəşəriyyət tarixinin üç dövrün (vəhşilik, barbarlıq, mədəniyyət) orta mərhələsini bildirmək üçün qəbul edilmiş termin.

**BARBAROSSA** – müqəddəs Roma imperatoru I Fridrix Barbarossanın adından götürülmüşdür. İkinci Dünya müharibəsi dövründə nasist Almaniyasının SSRİ-yə qarşı qısa-müddətli hərbi əməliyyat planı idi.

**BAROKKO** *ital.* – "təmtəraqlı", "qəliz" mənalarındadır. Avropa incəsənətində hakim bədii üslub ( XVI-XVIII əsrlər).

**BARON** *fr.* – Qərbi Avropada və 1917-ci il inqilabına qədər Rusiyada qrafdan aşağı zadəgan rütbəsi və bu rütbənin sahibi olan adam.

**BARONLUQ** – Baron rütbəsi.

**BARRİKADA** *fr.* – küçə səngəri (küçə vuruşmasında inqilabi kütlələrin müxtəlif iri şeylərdən, şalban, torpaq dolu kisələr və s.-dən düzəldilir).

**BASKAK** *rus.* – qədim Rusiyada tatar-monqol xanlarının bac, töycü yığanı.

**BASKAK** – Monqol və Qızıl Orda dövlətlərində xanın işğal edilmiş ərazilərdəki nümayəndəsidir. Yerli hakimlərin fəaliyyətinə nəzarət edir, vergiləri toplayır, mükəlləfiyyətləri icra etdirirdilər.

**BASQIN** – qəflətən hücum, gözlənilmədən edilən hücum, zorla girmə.

**BASMA** – Rusiyada monqol-tatar istilası dövründə: üstündə tatar xaçının şəkli olan möhür.

**BASMAÇI** – quldur, bandit. Mərkəzi Asiyada basmaçılıqda iştirak etmiş adam.

**BASMAÇILIQ** – quldurluq, banditizm (Mərkəzi Asiyada 1917-26-cı illərdə vətəndaş müharibəsi dövründə əksinqilabi hərəkat).
**BASTİLİYA** – Parisdə qala (1370-82-ci illərdə tikilmişdir).
**BAŞ ŞTATLAR** – XVI-XVIII əsrlərdə Fransada silki nümayəndəliyin ali orqanı.
**BAŞÇI** – rəhbər, sədr, rəis (bir işin başında duran adam).
**BATALYON** *fr.* – bir neçə rotadan (bölmədən) ibarət hissə.
**BATAREYA** *fr.* – 1. bir neçə top və minaatandan ibarət taktik vahid; 2. bu hissənin yerləşdiyi istehkam.
**BATAREYAÇI** – batareya döyüşçüsü, batareya nəfəri.
**BATIR** – qazaxlarda igid və şücaətli adamlara verilən ad.
**BATİNİLƏR** – batinilik təliminin üzvləri.
**BATİNİLİK** – İslam dinində təfriqətçi-fəlsəfi təlim (8-ci əsrdə yaradılmışdır).
**BATMAN** – 20 girvənkə (8 kq) ağırlığında olan köhnə çəki vahidi.
**BAYANDURLAR** – ağqoyunlu tayfalarından biri. XIV əsrin əvvəllərində Qarabağda və Göyçə gölü ətrafında yaşamışlar.
**BAYATLAR** – türkdilli tayfa: oğuz tayfalarından biri. Oğuz tayfaları ilə birlikdə bayatlar da IX əsrin 2-ci yarısında Azərbaycana gəlmişlər. İranda, Anadoluda, İraqda da yayılmışdılar.
**BAYAT QAPISI** – oğuzlar Dərbənd səddindəki qapılardan birini bayat tayfasının şərəfinə «Bayat qapısı» adlandırmışdılar.
**BAYAT TORPAQLAR** – Hülakilərin dövründə istifadəsiz qalmış boş torpaqlar.
**BAYRAQ** – uzun və nazik bir ağacın baş hissəsinə bərkidilmiş, üzərində dövlətin xüsusi nişanı çəkilmiş bir və ya müxtəlif rəngdə olan parça.
**BELARUS** – Şərqi Slavyan xalqları qrupuna daxil olan xalq.
**BENEDİKTÇİLƏR** *lat.* – Qərbi Avropada qədim katolik rahib ordeni (530-cu ildə yaratmışdılar).



**BENEFİSİYA** *lat.* – 1. feodalizmin ilk dövründə qulluq əvəzində kral tərəfindən bağışlanan torpaq; 2. katolik ruhanilərinin hər cür əmlak və gəliri.
**BERDANKA** *rus.* – 1870-1891-ci illərdə rus ordusunda işlədilən bir-patronlu tüfəng.
**BERDIŞ** *rus.* – nacaq, təbrizin (başı aypara bənzər balta) (qədim silah).
**BERNŞTEYNÇİLİK** – təftişçiliyin ilk növlərindən biri.
**«BEŞİNCİ KOLON (DƏSTƏ)»** – ölkə daxilində düşmənə işləyən xəyanətkar qüvvəyə deyilir. Faşist Franko Madridi dörd tərəfdən mühasirəyə alarkən şəhərdəki müdafiə xuntası onun tərəfinə keçdi. Həmin qüvvəni «Beşinci dəstə» adlandırırlar.
**BEŞYÜZLƏR ŞURASI** – Püşkatma yolu ilə 30 yaşına çatmış Afina vətəndaşlarından seçilmiş icra hakimiyyəti (*Qədim Yunanıstanda*).
**BEYKOF** – iqtisadi və siyasi mübarizə üsulu. Hər hansı bir ölkənin və ya müəssisənin mallarını almaqdan imtina etmək.
**BEYNƏLMİLƏL** – 1. beynəlxalq birləşmə; 2. proletariatın beynəlxalq inqilabi himninin adı "İnternasional" (*bax*).
**BEYNƏLMİLƏLÇİ** – beynəlmiləlçilik tərəfdarı.
**BEYNƏLMİLƏLÇİLİK** – 1. istismarçı siniflərin hakimiyyətini devirmək və kommunizm qurmaq uğrunda beynəlxalq həmrəylik; 2. bütün xalqların azadlıq və bərabərliyini müdafiə etmə və şovinizm əleyhinə mübarizə; internasionalizm.
**BEYTÜLMAL** *köhn.* – xalqdan toplanılan vergi pullarından və müharibə zamanı məğlub edilən xalqlardan alınan qənimətlərin və s.-nin saxlandığı yer, ev. Dini termin kimi də işlədilir.
**BƏDƏVİ (LƏR)** – 1. Ön Asiyada və Şimali Afrikada yaşayan köçəri ərəblər;
2. köçəri (lər).
**BƏDƏVİ** – səhra adamı deməkdir. Ərəbistandakı səhralarda köçəri həyat keçirən ərəblər.

**BƏDƏVİLƏR ÜSYANI** – 1253-cü ildə ağır vergilər üzündən Misirdə baş vermiş və Bəhriməmlüklərinin hakim feodal qrupuna qarşı çevrilmiş Şimali Afrikada yaşayan köçəri ərəblərin, əsasən bədəvilərin üsyanı.
**BƏHAİLƏR** – XIX əsrin ortalarında babi üsyanının məğlubiyyətindən sonra təqiblərdən qaçan babilərin təriqəti.
**BƏHAİLİK** – kosmopolit dini-siyasi cərəyan. Yaxın Şərq, Qərbi Avropa ölkələrində, ABŞ-da, qismən də çar Rusiyasında yayılmışdı. Banisi Babın şagirdi Bəhaüllə ləqəbi ilə məşhur olan Mirzə Hüseyn Əli idi.
**BƏHRƏ** – keçmişdə mülkədarların kəndlilərdən aldıqları natural vergi. Bu vergi keçmişdə Yaxın Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da torpaqdan və sudan istifadəyə görə alınırdı.
**BƏXTİYARİLƏR** – İranın cənub-qərbində, əsasən Luristanda (Bəxtiyariyyə) yaşayan tayfalar qrupu.
**BƏLƏDİYYƏ** – 1.şəhər idarəsi; 2. seçkili hakimiyyət forması.
**BƏLƏDİYYƏ İDARƏLƏRİ** – Qərbi Avropa və Şimali Amerika ölkələrində və Azərbaycanda yerli özünüidarə orqanları.
**BƏNGÜDAŞ(LAR)** – Göytürklərin öz hökmdarlarının (xaqanlarının şərəfinə qoyduqları sütun(lar)). Həmin sütunların üzərində yazılar da vardır.
**BƏRBƏR(LƏR)** – xalq; vaxtı ilə Afrikanın şimalında yaşamış, hazırda isə ərəblərə qarışmış bir xalq.
**«BƏRDƏ FACİƏSİ»** – 944-cü ildə slavyanların basqını zamanı Bərdənin dağıdılmış vəziyyəti.
**BƏRİL** – ərəb xilafətinin müxtəlif əraziləri ilə paytaxt arasında əlaqə yaratmaq məqsədilə yaradılmış rabitə mərkəzi.
**BƏRMƏKİLƏR** – iranlı vəzirlər ailəsi. Abbasilər xilafətinin ilk dövrlərindən Harun ər-Rəşidədək hakimiyyəti müstəqil idarə etmişlər.



**BƏRZƏX** – əsasən, iki geniş sahəni birləşdirən ensiz quru zolağı.
**BƏST** – İranda hökumətin təqibindən və ya dini təqibdən qaçıb xarici səfirliklərə pənah aparan şəxsin daldalandığı yer, sığınacaq.
**BƏSTƏ OTURMA** – İranda geniş yayılmış etiraz forması. Etiraz edən qüvvələr toxunulmaz hesab edilən yerlərdə toplaşaraq hökumətə öz etirazlarını bildirirdilər.
**BƏY** – 1. başçı, hakim, rəis; 2. inqilabdan əvvəl Zaqafqaziyanın müsəlman əhalisi arasında zadəgan təbəqəsinə mənsub olub, kəndliləri istismar edən mülkədar, ağa.
**BƏYANAT** – bir məsələ və s. haqqında hökumət və ya bir idarənin rəsmi məlumatı.
**BƏYANNAMƏ** – xalq, xalqlara, camaata xitabən yazılı müraciət: müraciətnamə.
**BƏYLƏRBƏYİ** – yüksək vəzifə və titul. 1. Səfəvilər dövlətində bəylərbəyilikləri idarə edən canişin; 2. Osmanlı imperiyasında əyalət hakimi.
**BƏYLƏRBƏYİLİK** – Osmanlı imperiyasında və Səfəvilər dövlətində (16-18-ci əsrlər) ən bəylərbəyinin idarə etdiyi böyük inzibati ərazi vahidi.
**BİBLİOQRAF** *yun.* – biblioqrafiya (kitabiyyat) mütəxəssisi.
**BİBLİOQRAFİYA** *yun.* – 1. kitabların elmi təsviri; 2. müəyyən bir məsələyə aid kitablar və məqalələr siyahısı; 3. yeni çıxan kitablar haqqında resenziyalar.
**BİBLİYA** *yun.* – Tövrat və İncil; iudaizmə və xristianlığa aid müqəddəs kitablar külliyyatı (eradan əvvəl 8-ci əsr - eramızın 2-ci əsri). Birinci kitab - "Əhdi-ətiq" (Tövrat və s.) qədim vəsiyyətlər, ikinci kitab - "Əhdi-cədid" (İncil və s.) yeni vəsiyyətlər adlanır. "Əhdi-ətiq" qədim yəhudi (qismən arami), "Əhdi-cədid" qədim yunan dilində yazılmışdı. Bibliya bütövlükdə 77 kitabdan ibarətdir.

**BİDƏT** – dindarların dinə müğayir olan hər bir yeniliyə verdikləri ad: küfr.
**BİDƏTÇİ** – «yenilik gətirmək». Küfr deməkdir. Bütün dinlərdə olduğu kimi xristian dinində də əsas dini ehkamları qəbul etməyən «yeni təlim tərəfdarları»na verilən ad.
**BİDƏTÇİ** – dönük, mövcud kilsə təliminə qarşı çıxanlar.
**BİLL** *ing.* – bəzi ölkələrdə (ABŞ və İngiltərə) parlamentin müzakirəsinə verilən qanun layihəsi. Parlament tərəfindən qəbul edilir və qüvvəyə minir.
**BİRİNCİ ƏMƏK BÖLGÜSÜ** – əkinçilik və maldarlığın sürətlə inkişaf edib bir-birindən ayrılması.
**BİRJA** – 1. fond birjası – qiymətli kağızlar alınıb satılan idarə; 2. valyuta birjası – valyuta alınıb satılan idarə; 3. əmtəə birjası – standartlar və ya nümunələr üzrə kütləvi əmtəələr alınıb satılan yerlər; 4. əmək birjası – əmək bazarında müntəzəm olaraq vasitəçilik əməliyyatları aparan dövlət idarəsi.
**BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI (BMT)** – beynəlxalq təşkilat, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyur, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirir.
**BİRONÇULUQ** – XVIII əsrin 30-cu illərində Rusiyada ən mürtəce rejim.
**BİSTİ** *köhn.* – XVII əsrin axırlarınadək dövriyyədə olan iyirmi dinarlıq xırda mis pul. Səfəvi şahı I Təhmasibin dövrünə təsadüf edir.
**BİY** – qazaxlarda ayrı-ayrı tayfalardan ibarət aulun başçısı.
**BİYAR** – işləyib ödəmə rentası *(feodal torpaq rentasının formalarından biri)* feodalizm dövründə geniş yayılmışdı.
**BİYARLIQ** – biyar yolu ilə görülməli olan, biyara mənsub və aid olan.
**BİZANS İMPERİYASI** – IV əsrdə Roma imperiyasının parçalanması nəticəsində onun şərqində yaranmış əsrin ortalarına qədər mövcud olmuş dövlət. Paytaxtı Konstantinopol idi. 395-ci ildə Roma imperiyası qəti olaraq Şərqi Roma (Bizans) və Qərbi Roma imperiyalarına parçalandı. *Bizanslılar özlərinin romalı*, öz dövlətlərini isə Roma adlandırırlar.
**BLANKİST** – blankizm tərəfdarı.
**BLANKİZM** – XIX əsr fransız inqilabçısı O.Blankın xalq kütlələrinin sinfi mübarizəsi olmadan kapitalizmi inqilabi sui-qəsd yolu ilə devirmək tələbini irəli sürən xırda burjua nəzəriyyəsi və taktikası.
**BLOKADA** *ing.* – mühasirə, təcrid. 1. Ərazi, şəhər, qala və s.-nin xarici aləmlə əlaqəsini kəsmək məqsədilə mühasirəyə alınması; 2. Hər hansı dövlətə təzyiq göstərmək üçün onun siyasi və ya iqtisadi cəhətdən təcrid olunmasına yönəldilmiş tədbirlər sistemi.
**BMT** *bax* Birləşmiş Millətlər Təşkilatı.
**BOKSÇU** *bax* boksyor(lar).
**BOKSÇULAR ÜSYANI** – 1899-1901-ci illərdə Çində antiimperialist xalq üsyanı (bu, İxetuan üsyanı da adlanır).
**BOKSYOR(LAR)** *ing.* boksçu; 1900-cü ildə Çində boksyor hərəkatı iştirakçısı.
**BOQDIXAN** – Mancur imperatorlarına verilən titul.
**BOLŞEVİK** – bolşevizm (*bax*) tərəfdarı, kommunist.
**BOLŞEVİKLƏŞDİRİLMƏK** – bolşevizm ideyası ilə silahlandırılmaq.
**BOLŞEVİKLƏŞDİRMƏK** – bolşevizm təsirini gücləndirmək, bolşevizmin ideya və təşkilat prinsiplərini həyata keçirmək.
**BOLŞEVİKLƏŞMƏK** – bolşevizm mahiyyəti almaq, bolşevizm ideyası ilə silahlanmaq.
**BOLŞEVİKLİK** – bolşevizm, bolşevizmə mənsubiyyət.
**BOLŞEVİZM** *rus.* – V.İ.Lenin tərəfindən hazırlanaraq rus və beynəlxalq miqyasda fəhlə sinfinin mübarizəsi təcrübəsinə əsaslanan proletar inqilabı hərəkatı və kapitalizm cəmiyyətinin kommunizm cəmiyyətinə çevrilməsi haqqında nəzəriyyə və taktika; bolşeviklik.

**BOMBARDA** *fr.* – 1. 14-16-cı əsrlərdə daşatan artilleriya topu; 2. toplarla silahlanmış gəmi.

**BONAPARTÇI** *bax* bonapartist.

**BONAPARTÇILIQ** *bax* bonapartizm.

**BONAPARTİST** – bonapartizm tərəfdarı, bonapartçı.

**BONAPARTİZM** – (Fransa imperatorları Napoleon Bonapart və Lui Bonapartın adından) burjuaziya hökumətinin, bir-birinə düşmən olan siniflər arasında gedən mübarizədən istifadə edərək, demokratiyanı hərbi qüvvə ilə boğmağa çalışma, burjuaziyanın diktatura formalarından biri.

**BONAPARTLAR** – fransız imperatorları sülaləsi. Əsasını 1804-1814-cü və 1815-ci illərdə hakimiyyətdə olmuş Napoleon I qoymuşdur.

I Napoleon Lüsyen Bonapart müstəsna olmaqla bütün qardaşlarını fransız ordusunun işğal etdiyi dövlətlərə başçı təyin etmişdi. Jozef Bonapart Neapol kralı (1806-1808) və İspaniya kralı (1808-1813); Lui Bonapart Hollandiya kralı (1806-1810); Jerom Bonapart Vestfaliya kralı (1807-1813) olmuşdur və s.

**«BONİC SİSTEMİ»** – bu sistemə əsasən, İranda hər bir kəndli təsərrüfatı orduya bir əsgər verməli və onu təmin etməli idi.

**BONZA** *fr.* – Yaponiya və Çində budda kahini.

**BORC DAŞI** – Afinada kəndlilər aristokratlardan borc taxıl alanda kəndlinin sahəsində qoyulan daş. Bu daşın üzərində kəndlinin kimdən, nə qədər borc aldığı və nə vaxt qaytarmalı olduğu yazılırdı. Kəndli borcunu vaxtında qaytara bilmədikdə, ailəsi və özü qula çevrilirdi.

**BORODİNO VURUŞMASI (1812)** – Vətən müharibəsində Rusiya ordusu ilə Fransa ordusu arasında vuruşma. Avqustun 26-da (sentyabrın 7-də) Moskvadan 124 km. Qərbdə, Borodino kəndi ətrafında olmuşdur. Rus



ordusunun baş komandanı M.İ.Kutozov, Fransa ordusunun baş komandanı I Napoleon idi.

**BOYAR** *rus.* – 1. qədim Rusiyada: zadəganlar, əyanlar silkinə mənsub adam, mülkədar; 2. qədim Moskva dövlətində yüksək rütbə və bu cür rütbəli olan şəxs.

**BOYAR DUMASI** – qədim Moskva dövlətində varlı boyarlardan ibarət məclis; əyanlar məclisi.

**BOYARLIQ** – 1. boyar rütbəsi; 2. boyarlar.

**BOYKOT** *ing.* – bu tədbiri ilk dəfə 1880-ci ildə İrlandiya icarədarları onlarla sərt rəftar edən malikanə müdiri Boykota qarşı tətbiq etmişlər. «Boykot» termini də onun adından götürülmüşdür. Beynəlxalq hüquqda boykot bir dövlətin başqa dövlətlə və ya bir qrup dövlətlə ticarət, maliyyə əlaqələri yaratmaqdan və ya saxlamaqdan imtina etməsidir. Boykot iqtisadi və siyasi mübarizə üsuludur.

**BÖHRAN** – xırda istehsalçıların iflasına, istehsalın azalmasına səbəb olan davranışı nisbi həddən artıq əmtəə istehsalı.

**BÖHRANLI** – həddindən artıq, çox ağır, qorxulu.

**«BÖYÜK DƏYƏNƏK» SİYASƏTİ** – ABŞ-da XX əsrin əvvəllərində Q.Ruzvelt hökumətinin (1901-1909) xarici siyasətində Latın Amerikası ölkələrinə qarşı zor işlətmək siyasəti.

**BÖYÜK OKTYABR SOSİALİST İNQİLABI** – 1917-ci ildə ilk sosialist inqilabı. Bununla da Sovet sosialist dövləti yarandı. 72 il yaşadı və 1991-ci ildə dağıldı.

**BÖYÜK ORDA** – tatar feodal dövləti 1433-cü ildə Qızıl Ordanın süqutu dövründə Dnepr və Don çayları arasında yaranmışdı.

**«BÖYÜK YASA»** – Monqol dövlətində qanunlar məclisi.

**BRAHMA** – Hinduizm tərəfdarlarının sitayiş etdiyi allahlardan biri.

**BRAXİKEFAL** *yun.* – qısabaşlıq adam; başının eni uzunundan artıq olan adam.

**BREST QALASI** – strateji əhəmiyyətli qəhrəman qala (I Dünya müharibəsi ərəfəsində I dərəcəli möhkəm qala).

**BRƏHMƏN** *sanskr.* – 1. Hindistanda kahin, rahib; 2.Hindlilərin qədim dini olan brəhmənlik dininə mənsub adam.

**BRƏHMƏNİZM** – Hindistanda sinfi münasibətlərin inkişafı dövründə (e.ə. 1-ci minilliyin 1-ci yarısında) Veda dininin dəyişikliyə uğraması nəticəsində yaranmış dinlərdən biri.

**BRƏHMƏNLƏR** – Hindistanda yüksək kasta (*bax*) qrupunun üzvləri; hind kahinləri.

**BRƏHMƏNLİK** *bax* brəhmənizm.

**BRİQADA** *fr.* – bir neçə polkdan, batalyon ya batareyadan ibarət quru qoşun birləşməsi.

**BRİQADİR** *alm.* – XVIII əsrdə Rusiyada polkovnik ilə general arasında hərbi rütbə.

**BUDDA** – buddizmdə ən müqəddəs varlıq.

**BUDDAÇI** – budda dininə mənsub olan adam; buddist.

**BUDDİST** *bax* buddaçı.

**BUDDİZM** – dünyada ən geniş yayılmış dinlərdən biri. Eradan əvvəl VI-V əsrlərdə Hindistanda yaranmışdır. Banisi Budda adı ilə məşhur olan Siddhartha Qautama hesab edilir.

**BUFER DÖVLƏT** *ing.* – bir-birinə düşmən olan iki dövlət arasında olan hərbi və siyasi cəhətdən zəif (kiçik) dövlət.

**BUXENVALD** *alm.* – alman faşist hərb düşərgəsi. Vaymar şəhəri ətrafında 1937-ci ildə yaradılmışdı. İlk adı Ettereberq idi. 8 ildə təqribən 239 min antifaşist və hərbi əsir Buxenvaldın məhbusu olmuşdur.

**BULANJİZM** – XIX əsrin 80-ci illərində Fransada meydana çıxmış şovinist hərəkat (başçısı general Bulanje idi).



**BULAVİN ÜSYANI** – Rusiyada 1707-1709-cu illərdə kəndli və kazakların antifeodal hərəkatı (başçısı K.A.Bulavin idi).

**BULAVİNÇİLƏR** – Bulavinin tərəfdarları, Bulavin hərəkatının iştirakçısı.

**BULIGİN DUMASI** – çar Rusiyasında məşvərətçi nümayəndəli dövlət orqanı yaradılması haqqındakı layihənin tarixə düşmüş adı (Layihəni 1905-ci ildə A.Q.Bulıgin hazırlamışdır).

**BULQARLAR** – erkən orta əsrlərdə Cənub-Şərqi Avropada türkdilli tayfa birləşmələri. Onaquzlar, sarıqurlar, itriqurlar, kutriqurların Hun türkləri ilə qaynayıb-qarışmasından törəmişdir.

**BULQAR-TÜRK DÖVLƏTİ** – VII əsrdə Cənub-Şərqi Avropa ərazisində yaranmış müstəqil dövlət.

**BULLA** *lat.* – 1. Roma papasının fərmanı, sərəncamı, hökmü; 2. orta əsrlərdə dövlət sənədlərinə bağlanan girdə möhür, diyircək.

**BUMERANQ** *alm.* – Avstraliya qəbilələrinin təxminən uzunluğu 60-90 sm (bəzən 2 metr) olan ağac silah (döyüşdə və ovda istifadə edilərdi).

**BUNÇUK** *rus.* – keçmişdə kazak atamanlarının və getmanların hakimiyyət simvolu olaraq ağac başına keçirilən at quyruğu.

**BUND** *alm.* – Rusiyanın qərb quberniyalarında yaradılmış yəhudi, menşevik, xırda burjua millətçi təşkilatı (1897-ci il).

**BUNDÇU** – bund təşkilatının üzvü; bund tərəfdarı.

**BUNDESTAQ** *alm.* – Almaniya Federativ Respublikasında (AFR) nümayəndəli orqan.

**BUNDESVER** *alm.* – Almaniya Federativ Respublikasının (AFR) silahlı qüvvələrinin adı.

**BURJUA** *fr.* – burjuaziya sinfindən olan adam, burjuaziya nümayəndəsi.

**BURJUA DEMOKRATİYASI** – parlamentarizmdən burjua diktaturasını pərdələmək üçün istifadə edən siyasi quruluş.

**BURJUA İNQİLABI** – ictimai inqilab (əsas vəzifəsi feodalizm quruluşunu, yaxud onun qalıqlarını məhv etmək, burjuaziyanın hakimiyyətini qurmaq və burjua dövləti yaratmaqdır); burjua-demokratik inqilabı.
**BURJUALLAŞMAQ** – burjua olmaq.
**BURJUAZİYA** *fr.* – istehsal alət və vasitələrinin sahibi olan və muzdlu əməyi istismar etməklə izafi dəyər olaraq kapitalist gəliri ilə yaşayan hakim sinif.
**BURJUY** *dan. bax* burjua.
**BURQOMİSTR** *alm.* – Avropanın bəzi ölkələrində və I Pyotrın vaxtında Rusiyada bələdiyyə rəisi.
**BURLAK(LAR)** – yedəkçi (keçmişdə: çaylarda iplərlə gəmiləri başıyuxarı yedəkdə çəkən fəhlə(lər).
**BURLAKLIQ** – yedəkçilik.
**BURMİSTR** *pol.* əsli *alm.* – təhkimçilik dövründə: mülkədarların mülkləri və kəndliləri üzərində dağalıq edən vəkil, koxa.

**BUŞMENLƏR** – Cənubi Amerikada yaşayan və vaxtı ilə bütün Cənubi Afrikanın əsas əhalisini təşkil edən qəbilələrin adı.
**BUZ DÖYÜŞÜ** – 1242-ci il aprelin 5-də buz bağlamış Çud gölü üzərində rus qoşunu ilə almanlar arasında olan döyüş, müharibə, vuruş.
**"BUZOVLAR ÖLKƏSİ"** *yun.* – İtaliya sözünün hərfi mənası. Bu adı burada çoxlu mal-qaranın və otlaqların olmasını görüb heyrətə gələn yunanlar vermişdilər.
**BÜDCƏ** *ing.* – dövlətin müəyyən müddət üçün tərtib olunmuş pul gəliri və çıxar smetası.
**BÜDCƏ DEFİSİTİ** – dövlət büdcəsi məxaricinin onun mədaxilindən artıq olması.
**BÜDCƏ HÜQUQU** – ölkənin büdcə quruluşunu müəyyən edən və ümumdövlət pul vəsaiti fondunun yaranması və istifadəsi ilə əlaqədar ictimai münasibətləri tənzimləyən hüquq normaları.



**BÜRC** – qədim şəhər hasarlarının üzərində müşahidə və müdafiə qülləsi; qala çıxıntısı.
**BÜRGER MƏKTƏBİ** *alm.* – XVII-XVIII əsrlərdə Almaniya şəhərlərində sənətkar, xırda tacir və başqalarının uşaqları üçün açılan ibtidai məktəb.
**BÜRO** *fr.* – 1. bəzi orqanların, idarələrin, təşkilatların və s.-nin rəhbərlikedici hissəsinin ağır və həmin büro heyətinin iclası; 2. bəzi idarələrin, yaxud onların şöbələrinin, kontorlarının və s.-nin adı.
**BÜROKRAT** *fr.* – öz vəzifəsini, işin mənafeyi zərərinə olaraq, formal surətdə yerinə yetirən adam; rəsmiyyətçi.
**BÜROKRATİYA** *fr.* – 1. burjua cəmiyyətində: hakimiyyəti əllərində saxlayan istismarçı sinfin imtiyazlı təbəqəsi, yüksək rütbəli məmurlar; 2. bürokratizm (*bax*); 3. süründürməçilik, rəsmiyyətçilik.
**BÜROKRATİZM** *fr.* – 1. rəsmiyyətə riayət etmək xatirinə olaraq işin mahiyyətinə laqeydlik göstərmə; rəsmiyyətçilik, süründürməçilik; 2. sinifli cəmiyyətdə: dövlət hakimiyyətinin xalq ilə heç bir əlaqəsi olmayan və hakim siniflərin mənafeyini müdafiə edən məmurlar tərəfindən həyata keçirildiyi idarə üsulu.
**BÜT** – bütpərəst xalqların Allah kimi sitayiş etdikləri heykəl, şəkil və s. dini sitayiş.
**BÜTXANA** – bütlərə ibadət olunan ev; bütpərəstlərin ibadətxanası, ibadətgahı.
**BÜTPƏRƏST** – bütlərə sitayiş edən adam.
**BÜTPƏRƏSTLİK** – 1. bütlərə sitayiş; 2. təbiətin cisim və əşyalarını ilahiləşdirən, ibtidai dinlərin zəminində yaranmış dini etiqad.
**BÜVEYHİLƏR** – 935-1055-ci illərdə Qərbi İranda və İraqda hakimiyyətdə olmuş İran sülaləsi. Əsasını əvvəllər İranda ziyarilər sülaləsinin sərkərdələri olan Əhməd, Əli və Həsən Büveyhi qardaşları qoymuşlar. Büveyhilər 935-ci ilədək Qərbi İranı, 945-ci ildə Bağdadı işğal edərək Abbasilər xilafətinin siyasi hakimiyyətinə son qoydular və öz sülalələrinin adı ilə adlanan feodal büveyhilər dövlətinin müstəqil hakimləri oldular.

**CAMAAT** – ayrıca bir icma, bəzən isə müəyyən sosial-siyasi vahid mənasında icmalar ittifaqı.

**CAN VERGİSİ** *bax* cizyə.

**CANAXIR ABİDƏSİ** – Azərbaycanın Xaçmaz bölgəsində Canaxır kəndində orta əsrlərə aid arxeoloji abidə.

**CANİŞİN** – çar Rusiyasında: ucqar vilayəti padşah adından idarə edən və ali hakimiyyət hüquqlarına malik olan şəxs.

**CANİŞİNLİK** – canişin vəzifəsi, adı; canişin idarəsi.

**"CANLI ÖLÜLƏR"** – qədim Misirdə qulları "canlı ölülər" adlandırırdılar (məcazi mənadadır).

**CARÇI** *köhn.* – car çəkən, uca səslə bir xəbəri və s.-ni camaata elan edən (bildirən).

**CARİYƏ** – keçmişdə Yaxın Şərqin bir sıra ölkəsində, o cümlədən Azərbaycanda saraylarda və varlı evlərində xidmət edən qulluqçu; qaravaş, kəniz.

**CASUS** – casusluqla məşğul olan adam.

**CASUSLUQ** – dövlət sirri olan məlumatı, materialları və s.-ni başqa dövlətə vermək üçün gizli surətdə toplamaqdan ibarət cinayətkar fəaliyyət.

**CAVAD XANLIĞI** – XVIII əsrin ortalarında Azərbaycanda yaranmış kiçik feodal dövləti.

**CAVAD QƏZASI** – 1868-ci ildə Bakı quberniyasının tərkibində yaradılmış ərazi bölgüsü.

**CAVANŞİR QALASI** Azərbaycanda tarixi qala (İsmayıllı rayonu ərazisindədir).

**CAVANŞİR QƏZASI** 1883-cü ildə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində yaradılmış qəza.

**CECİM** – ipəkdən toxunan xalça.

**CENEVRƏ KONVENSİYALARI** – 12 avqust 1949-cu ildə müharibə qurbanlarını müdafiə haqqında imzalanmış 4 beynəlxalq konvensiya.



**CENEVRƏ MÜQAVİLƏSİ** – 1955-ci ilin iyulun 18-23-də keçmiş SSRİ, ABŞ, Böyük Britaniya və Fransa ilə Cenevrədə olmuş və Almaniya məsələsini, Avropa təhlükəsizlik, tərk-silah, Şərqlə Qərb arasında əlaqələrin inkişaf etdirilməsi məsələsini müzakirə etmişlər.

**CENEVRƏ SAZİŞLƏRİ** 26 aprel - 21 iyul 1954-cü ildə SSRİ, ÇXR, Böyük Britaniya, ABŞ və Fransa xarici işlər nazirlərinin Koreyada və Hind-Çində vəziyyəti dinc yolla nizama salmaq məsələsi ilə əlaqədar çağırılmış müşavirədə qəbul edilmişdir.

**CENTRİ** *ing.* 1. öz təsərrüfatlarını kapitalist münasibətləri əsasında quran "burjualaşmış" dvoryanlar. XV-XVI əsrlərdə meydana çıxmışdır; 2. feodal Çinində imtiyazlı mülkədarların avropasayağı adı.

**CERMUX** – Giləbörd mahalının qısaldılmış adı. Ayrıca bir icma, bəzən isə müəyyən sosial-siyasi vahid mənasında icmalar ittifaqı.

**CƏBBƏXANA (ARSENAL)** – silah, döyüş sursatı, texnika və s. hazırlanıb saxlanan yer.

**CƏBRAYIL QƏZASI** – 1873-cü ildə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində yaradılmış qəza.

**CƏLAİRİLƏR** – Cəlairi hökmdarları sülaləsi (1341-1431). Cəlairi tayfasından biri.

**CƏLAİRİLƏR DÖVLƏTİ** – Orta əsr feodal dövləti. Tərkibinə İraqi-ərəb, İraqi-əcəm, Gürcüstan, Azərbaycan (Şirvandan başqa), Kürdüstan, Ermənistan, Deyləm, Xorasan, Cəzirə, Luristan, Xuzistan və başqa ərazilər daxil idi. Paytaxtı Bağdad, sonra isə Təbriz olmuşdur.

**CƏLALİLƏR** – XVI-XVII əsrlərdə osmanlı imperiyasında antifeodal xalq üsyanlarının iştirakçıları.

**CƏLALİLƏR HƏRƏKATI** – XVI-XVII əsrlərdə Türkiyə, Azərbaycan və s. ərazilərdə antifeodal kəndli hərəkatı.

**CƏLLAD** – 1. ölüm hökmünü icra edən adam; 2. məcazi mənada: mərhəmətsiz, qəddar adam.

**CƏMİYYƏT** – 1. insan toplusu; tarixən müəyyənləşmiş iqtisadi quruluş və ona uyğun üstqurum; 2. təşkilat.

**CƏNG ARABALARI** – qədim Misirdə və Ön Asiya ölkələrində bir cüt at qoşulmuş sürətlə hərəkət edən döyüş arabaları.

**CƏNGAVƏR** – 1. Qərbi Avropada xırda feodal;
2. döyüşçü, müharib, yaxşı vuruşan, cəsarətli və mahir əsgər.

**CƏNGAVƏR ŞƏRƏFİ** – Qərbi Avropada cəngavərlər üçün işlənib hazırlanmış xüsusi qaydalar. Bu qaydalara görə cəngavər xristian dininin düşmənlərinə qarşı mübarizə aparmalı, zəifləri müdafiə etməli idi.

**CƏYİRLİLƏR** – türkdilli tayfa (əsl adları çakurlu, çakirli).

**CƏZA** – törədilən cinayətə görə dövlət məcburiyyəti tədbirləri (məhkəmənin hökmü ilə tətbiq edilir).

**CƏZİRƏT ƏL-ƏRƏB** erkən orta əsrlər Asiya, Afrika, Aralıq dənizinin qovuşduğu yerə – Ərəbistana ərəblərin verdiyi ad. Səhrada yaşıllıq və su olan yer – vahə.

**CİDA** *qəd.* – iti dəmir uclu qədim silah; nizə *(bax)*.

**CİHAD** – İslam dinində: müsəlmanların qeyri-müsəlman xalqlara qarşı müharibəsi; din uğrunda, din yolunda aparılan müharibə.

**CİZYƏ** – keçmişdə müsəlman ölkələrində müsəlman olmayanlardan əsgərlik xidməti müqabilində alınan vergi; can vergisi.

**CUVAR** – suvarma suyunu bölüşdürən adam.

**CÜFTBAŞI** *bax* cütbaşı.

**CÜTBAŞI** – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda torpaq vergisi; cüftbaşı və cütpulu kimi də işlədilirdi. II Şah Abbasın fərmanı ilə alınırdı.

**CÜTPULU** *bax* cütbaşı





**ÇADRA** – çarşab (keçmişdə müsəlman qadınlarının evdən çıxarkən başdan-ayağa bədənlərini örtdükləri yüngül bürüncək).

**ÇAKRA** – qədim hind ordusunda işlədilmiş atma silah növü.

**ÇAKRİ** – Tailand kralları sülaləsi (1782-ci ildən); banisi Siam sərkərdəsi Çakri olmuşdur. Onun adı ilə adlandırılmışdır.

**ÇALMA** – əmmamə, başa sarılan sarıq.

**ÇANAQ** – çanaq tutan qədər ölçü vahidi.

**ÇAO** – ilk dəfə Çində kəsilmiş kağız pul.

**ÇAPAR** – atlı mühafizəçi

**ÇAPARXANA** – keçmişdə: çaparların poçt yolunda bir-birini əvəz etmək və ya atlarını dəyişdirmək üçün durduqları yer; poçt məntəqəsi.

**ÇAR** *rus.* – padşah, hökmdar (Rusiyada 1547-1721-ci illərdə dövlət başçısının rəsmi titulu).

**ÇARİÇA** – 1. qadın çar, imperatriça, 2 çar arvadı.

**ÇARİZM** *rus.* – qeyri-məhdud hakimiyyətin təkcə padşaha, çara məxsus olduğu dövlət idarə üsulu; çar üsuli-idarəsi; çarlıq.

**ÇARLIQ** *bax* çarizm.

**ÇARTİST** *ing.* – çartizm tərəfdarı, iştirakçısı (bax çartizm).

**ÇARTİZM** *ing.* – XIX əsrin 30-40-cı illərində İngiltərədə xalq xartiyasının həyata keçirilməsi uğrunda fəhlələrin kütləvi siyasi-inqilabi hərəkatı; xartiyada ümumi seçki hüququ, gizli səsvermə yolu ilə hər il parlamentə seçkilər keçirilməsi, parlament üzvlərinə maaş verilməsi, seçki senzinin ləğv edilməsi və s. tələblər irəli sürürdü.

**ÇARVAKLAR MƏKTƏBİ** – erkən orta əsrlərdə yaranmışdır «dörd ünsür» deməkdir.

**ÇATİ** *köhn.* – Misirdə Fironun ən yaxın köməkçisi; baş məmur.

**ÇAVUŞ** – 1. keçmiş zamanlarda: fərmanları, qərarları, hökmləri uca səslə camaata elan edən şəxs; 2. aşağı rütbəli hərbi qulluqçu və ya məmur; 3. keçmişdə zəvvarları müşayiət edən, onların yola düşmələrini və gəlmələrini uca səslə camaata xəbər verən şəxs.

**ÇAVUŞLUQ** – çavuş vəzifəsi, peşəsi.

**ÇEK** *ing.* – qəbz, talon, barat.

**ÇEKA** (черезвчайная комиссия) – fövqəladə komissiya (Sovet hakimiyyətinin ilk illərində əks-inqilab, sabotaj və ehtikar ilə mübarizə aparan fövqəladə komissiyanın müxtəlif adı).

**ÇEKİST** *rus.* – çeka əməkdaşı, çeka işçisi (*bax* çeka).

**ÇERVON** *rus. köhn.* – 1. keçmişdə beş və ya on manatlıq qızıl pul; əşrəfi; 2. keçmiş SSRİ-də 1922-1942-ci illərdə on manatlıq kağız pul, onluq.

**ÇETƏÇİ (ÇƏTƏÇİ)** – keçmişdə Balkanlarda partizan dəstəsi.

**ÇEVRİLİŞ** – mövcud ictimai-siyasi sistemdə əsaslı dəyişiklik.

**ÇƏRÇİ** – 1917-ci il inqilabından əvvəl Azərbaycanda xırdavat alveri ilə məşğul olan səyyar satıcı.

**ÇƏRXÇİ** – orta əsrlərdə Azərbaycanda, habelə bəzi qonşu Şərq ölkələrində xüsusi hərbçi süvari dəstəsinin döyüşçüsü.

**ÇƏRİK** – orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkəsində, o cümlədən Azərbaycanda qeyri-nizami döyüşçü dəstəsi.

**ÇƏTƏ** – keçmişdə: Balkanlarda qeyri-nizami döyüşçü dəstəsi (partizan dəstəsi).

**ÇƏTVƏR** *köhn.* – rus dilində "четверть" sözündəndir: metr sistemi tətbiqindən əvvəl 100 qrama bərabər ağırlıq ölçüsü.

**ÇİÇİ** – xalça kompozisiyası. Qubanın Çiçi kəndinin adı ilə bağlıdır. Bu xalça Londonda Albert muzeyində saxlanılır.



**ÇILDIR VURUŞMASI (DÖYÜŞÜ)** – 1578-ci ildə Osmanlı qoşunları ilə qızılbaş dəstələri arasında Çıldır gölü (indiki Türkiyə ərazisində) yaxınlığında baş vermiş döyüş.

**ÇİN** *rus.* – I rütbə, vəzifə, xidmət dərəcəsi.

**ÇİN II** – dövlət. Çin Xalq Respublikası.

**ÇİN SƏDDİ (SƏDDİ ÇİN)** - Çini Monqolustandan ayıran qədim bir sədd.

**ÇİNLİLƏR** – Çin milləti.

**ÇİNOVNİK** *rus. bax* məmur.

**ÇİRAQLILAR (ÇIRAQLILAR)** – qızılbaş tayfalarından biri.

**ÇJURÇJEN TAYFALARI** – Çindən şimal-şərqdə yaşamış döyüşkən tayfalar.

**ÇOBANBƏYİ, ÇÖL PULU** – XVIII əsrdə örüşdə heyvanların otarılmasına görə köçərilərdən alınan vergi.

**ÇOBANİLƏR** – türk-monqol mənşəli nəsil, sonralar tayfa.

**ÇOLA (ÇOĞA)** – Dərbənd rayonu ərazisində erkən orta əsrlərə aid alban (Qafqaz) şəhəri.

**ÇOLA** – qədim dövrdə və orta əsrlərdə Cənubi Hindistanda dövlət və hakim sülalə.

**ÇOPPİNQ** *ing.* – qədim və orta Paleolit dövrünə aid əmək aləti.

**ÇOVDAR ABİDƏLƏRİ** – Azərbaycanda Daşkəsən bölgəsinin Çovdar kəndi ətrafında son Tunc-erkən Dəmir dövrlərinə aid arxeoloji abidələr.

**ÇÖPBAŞI** – Azərbaycanda xanlıqlar dövründə (XVIII əsrin II yarısı - XIX əsrin əvvəlləri) yaylaq və qışlaqlarda otlaq sahiblərinin malqarasının otarılmasına görə maldarlardan aldıqları vergi.

**ÇÖVKƏN** – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda yayılmış atçılıq idman oyunu.

**ÇUD** - qədim Rusiyada fin tayfalarının ümumi adı.

**ÇUXA** - keçmişdə Qafqaz xalqları, həmçinin azərbaycanlılar arasında geniş yayılmış mahuddan tikilmiş kişi üst geyimi.

**ÇUXURSƏD BƏYLƏR-BƏYİLİYİ** – Səfəvilər dövlətinin inzibati vahidlərindən biri. Mərkəzi Erivan (Rəvan) şəhəri idi.

**ÇUMAK** – qədim Ukraynada: satmaq üçün Krım və Dona öküzlə taxıl aparıb oradan duz və balıq gətirən aparıb oradan duz və balıq gətirən kəndli.

# D

**«DAXMALI QULLAR»** – Qədim Romada qulların öz əməklərinə marağını artırmaq üçün bəzi quldarlar onlara kiçik torpaq sahələri becərməyə, əmək alətlərinə malik olmağa, daxma tikməyə və ailə qurmağa icazə verirdilər. Onları «daxmalı qullar» adlandırırdılar.

**DAİRƏ** – keçmişdə: inzibati-ərazi bölgüsü.

**DALAY-LAMA** – Tibetdə Lama kilsəsi baş kahininin rütbəsi. XV əsrin əvvəllərində lamaizmin təşəkkül prosesinin başa çatması və feodal-demokratik hakimiyyət formasının meydana çıxması ilə əlaqədardır.

**DAMBA** – Misirdə doğranmış qamışla palçıqdan düzəldilmiş bənd. Daşqınların qarşısını almaq üçün istifadə olunurdu.

**DAMĞA** – qədim müstəbid dövlətlərdə caninin bədəninə qızğın dəmirlə basılan nişan.

**«DANES PLANI»** – 1924-cü ilin aprelində ABŞ bankiri Çarlz Danesin Almaniyadan alınacaq təzminatla bağlı hazırlandığı plan.

**DANIŞAN ALƏT** – Romada qullara verilmiş ad.

**DANIŞAN ƏMƏK ALƏTİ** – Qədim Romada qullar.

**DARĞA (DARUĞA)** – orta əsrlərdə monqol istilasına məruz qalmış ölkələrdə, o cümlədən Azərbaycanda monqol xanının vergi toplayan və əhalini siyahıya alan nümayəndəsi; inzibati məmur.

**DARĞALIQ (DARUĞALIQ)** – XVI-XIX əsrlərdə Azərbaycanda darğanın xeyrinə əhalidən alınan vergi.

**DARİK** – Əhəməni padşahı I Daranın dövründə kəsilmiş qızıl pul vahidi.

**DARÜLFÜNUN** – ali tədris ocağı; universitet.

**DAR ÜŞ-ŞƏFA** – müalicəxana, şəfa evi.

**DASTAKERT** – Sasanilərlə və Albaniyada işçi torpaq sahibliyi; feodal torpaq mülkiyyət forması.

**DASTAN** – folklorun epik janrları içərisində qəhrəmanlıq və aşiqanə məzmunda olan həcmcə ən böyük əsər; epos.

**DAŞ DÖVRÜ (ƏSRİ)** – ibtidai icma quruluşunun, daşdan müxtəlif alətlər hazırlanması ilə səciyyələnən dövrü.

**DAŞQALAQ** – keçmişdə müttəhimi daşa basmaqla, üstünə daş yağdırmaqla cəzalandırma üsulu.

**DAŞNAQ(LAR)** – Daşnaksütyun partiyasının üzvləri, tərəfdarları (*bax* Daşnaksütyun).

**“DAŞNAQSÜTYUN” (İTTİFAQ)** – erməni (burjua-şovinsit millətçi) partiyası 1890-cı ildə Tiflisdə yaradılmışdır.

**DE-FAKTO** *lat.* – əslində, faktiki olaraq. Beynəlxalq hüquqda dövləti və yaxud hökuməti tanıma formalarından biri. Rəsmi, lakin tam olmayan tanıma deməkdir.

**DEFİSİT** – 1. qıtlıq, qəhətlik; 2. məxaricin mədaxilindən çox asılı olması; büdcə kəsiri.

**DEHQAN** *köhn.* – kəndli.

**DEKABRİSTLƏR** – Rusiyada 1825-ci il 14 dekabrda mütləqiyyət və təhkimçiliyə qarşı üsyan qaldırmış rus zadəgan inqilabçıları.

**DEKADENT** *fr.* – tənəzzül, pozulma deməkdir.

**DEKLARASİYA** *lat.* *bax* bəyannamə.

**DEKRET** *lat.* – ali hökumət orqanının qərarı (fərmanı, qanunu) (hüquqi aktın adı).

**DEMARKASİYA** *fr.* – sərhəd çəkilməsi, sərhəd təyin edilməsi, sərhədin nişanlarla ayrılması.

**DEMARKASİYA XƏTTİ** – sülh danışıqları prosesində müharibə edən tərəflərin mövqeləri arasında qoyulan və ya mübahisəli yerlərin sərhədlərini təyin edən xətt.

**DEMERTA** – qədim yunanlarda münbitlik allahı. Baharda təbiətin canlanmasını, payızda bitkilərin solmasını onunla bağlayırdılar.

**DEMİLİTARİZASİYA** *lat.* – hərbi qüdrətdən salınma, silahsızlaşdır(ıl)ma (bir dövlətə qoşun saxlamağı, hərbi sənaye yaratmağı, istehkamlar düzəltməyi qadağan etmə).

**DEMOKRAT** *yun.* – 1. demokratiya tərəfdarı; 2. burjua demokrat partiyasının üzvü.

**"DEMOKRATİK MƏRKƏZİYYƏT"** – 1919-cu ilin əvvəllərində RK(b)P-də yaranmış opportunist qruplardan biri.

**DEMOKRATİKLƏŞDİRMƏK** – demokratik hala düşmək.

**DEMOKRATLAŞMAQ** – daha demokrat olmaq.

**DEMOKRATİYA** *yun.* – 1. dövləti idarə işi xalqın əlində olduğu idarə üsulu, siyasi quruluş; xalq hakimiyyəti; 2. rəhbərlik üsulu.

**DEMOKRATİZM** *yun.* – demokratiyanı qəbul edib həyata keçirən; demokratlıq.

**DEMOQRAFİK STATİSTİKA** – əhali statistikası.

**DEMOQRAFİK PARTLAYIŞ** (əhali və onun inkişafının qanunauyğunluqları haqqında elm olan «demoqrafiya» sözündəndir.) - müharibədən sonrakı ilk illərdə dünyanın bir çox ölkələrində doğumun xeyli artmasını, həmçinin inkişaf etməkdə olan ölkələrdə onlar siyasi müstəqillik qazanandan sonra əhalinin artım tempinin kəskin şəkildə sürətlənməsini xarakterizə edən hadisə.

**DEMOQRAFİYA** *yun.* – statistikada: əhalinin tərkibini, sayını və onun tərkibindəki



dəyişiklikləri öyrənən şöbə, elm sahəsi; demoqrafik siyasət.

**DEMOS** *yun.* – əhali, rəiyyət, xalq (geniş mənada qədim Yunanıstanın şəhər dövlətlərində vətəndaşlıq hüququna malik azad əhali; sinifli cəmiyyətdə əhalinin aşağı təbəqəsi, məsələn: sənətkarlar, kəndlilər, günəmuzdlular və s.).

**DENOQASİYA** – bəzək.

**DENONSASİYA** – dövlətin özü bağladığı beynəlxalq müqavilədən qanuniləşdirilmiş qaydada imtina etməsi.

**DEPARTAMENT** *fr.* – 1. hazırda bəzi xarici ölkələrdə, o cümlədən də Azərbaycanda: ali hökumət idarələri şöbələrinin adı; 2. ABŞ-da nazirlik; 3. bir sıra dövlətdə idarə və nazirliklərin adı; 4. Fransada əsas inzibati-ərazi vahidi.

**DEPORTASİYA** *lat.* – ölkə daxilindən əhalinin zorla çıxarılması, öz vətənindən, yurdundan kütləvi surətdə köçürülməsi.

**DEPRESSİYA** *lat.* – tənəzzül.

**DEPUTAT** *lat.* – müəyyən edilmiş qayda üzrə qanunverici, yaxud nümayəndəli orqana əhali tərəfindən seçilən şəxs.

**DEPUTATLAR PALATASI** – parlamentin aşağı palatasının, Lüksemburqda birpalatalı parlamentin adı.

**DEPUTATLIQ.** – deputat vəzifəsi.

**DERJAVA** *rus.* – qədim Moskva rus dövlətində və çarizm dövründə Rusiyada: padşahın hakimiyyət embleması olan üstü xaçlı qızıl şar.

**DESPOT** *yun.* – 1. qeyri-məhdud hakimiyyətə malik, özbaşınalığı rəhbər tutan hökmdar; 2. başqalarını özünün iradəsinə tabe olmağa məcbur edən müstəbid adam; istibdadçı, zülmkar.

**DESPOTİZM** *yun.* – 1. bir sıra qədim Şərq dövlətində qeyri-məhdud monarxiya forması; 2. Tabeçiliyində olanlara, ümumiyyətlə insanlara

qarşı özbaşınalıq; istibdad, müstəbidlik, qəddarlıq.

**DESYATİN** – torpaq ölçü vahidi.

**DEVALVASİYA** *lat.* – pul vahidinin qızıl məzmununun rəsmi azalması [illegible] milli valyutanın qızıla, gümüşə, xarici valyutaya görə məzənnəsinin aşağı düşməsi.

**DEVİRMƏK** – yıxmaq, hakimiyyətdən məhrum etmək, məhv etmək.

**DEVRİLMƏK** – hakimiyyətdən məhrum edilmək, yıxılmaq, məhv edilmək.

**DE-YURE** – beynəlxalq hüquqda dövləti və yaxud hökuməti tam, rəsmi tanıma.

**DƏBİLQƏ** *köhn.* – döyüşçülərin başqalarına qoyduqları qoruyucu baş geyimi; metal papaq, təskülah (tunc dövründən məlumdur).

**DƏBİLQƏLİ** *köhn.* – başına dəbilqə qoymuş.

**DƏHYEK** *köhn.* – orta əsrlərdə Yaxın Şərqdə, o cümlədən də Azərbaycanda kəndlilərin mülkədarlara verdikləri məhsul vergisi.

**DƏMİR DÖVRÜ** – ibtidai icma dövründə insanların əmək alətləri qayırmaq üçün əsas material olaraq dəmir işlətməyə başladıqları dövr (ibtidai icma quruluşunun sonu və erkən sinifli cəmiyyət tarixində).

**DƏRBƏND XANLIĞI** – XVIII əsrin ortalarında Azərbaycanda yaranmış kiçik feodal dövləti, Tabasaranla, Qazıqumux və Quba xanlığı ilə həmsərhəd idi.

**DƏRBƏNDİLƏR** – Şirvanşahlar sülaləsi (1382-1538). Banisi I İbrahimdir. Nümayəndələri: I İbrahim, I Xəlilullah, Fərrux Yəsar. Hökmdarları: I İbrahim (1382-1417); I Xəlilullah (1417-1462), Fərrux Yəsar (1462-1500), Bəhram bəy (1500-1601), Qazı bəy (1502/02), Sultan Mahmud (1502), II İbrahim Şeyxşah (1502-1524), II Xəlilullah (1524-1535), Şahrux (1535-1538).

**DƏRƏBƏYİ** – keçmişdə bir neçə kənd üzərində hökm olan torpaq sahibi//feodal.

**DƏRƏBƏYLİK** – dərəbəyinin hal və vəziyyəti/ /feodallıq, feodalizm.

**DƏRNƏK** – müəyyən bir məşğələ üçün vaxtaşırı bir yerə toplaşıb məşğul olan adamlar qrupu.

**DƏRNƏKÇİ** – dərnək iştirakçısı, dərnək üzvü.

**DƏRVİŞ** – müsəlman mistiki, sufi təriqətlərindən birinə mənsub olan adam; gəzərgi həyat keçirən rahib.

**DƏRVİŞ ORDENİ** – dərvişlərin ittifaqı və ya qardaşlığı. Öz nizamnamələri, ruhani başçıları, xanəqahları var idi. Onun üzvləri zahidlərə və müqəddəs hamilərə sitayiş edirdilər.

**DƏSTƏ** – xüsusi hərbi hissə.

**DƏYİRMİBAŞLAR** – İngiltərədə burjua inqilabı dövründə parlamentin tərəfdarlarına verilən ad. Onlar saçlarını dəyirmi vurdurur və gur saç saxlayırdılar.

**DƏZGAHBAŞI** – Azərbaycanda sənətkarlardan toplanan vergi. Xalça, kilim və s. toxuyan sənətkarlardan dəzgahların sayına görə ildə bir dəfə alınırdı.

**DIRNAQLIQ** *bax* dırnaqpulu.

**DIRNAQPULU** – Azərbaycanda XVIII əsrin 2-ci yarısı – XIX əsrin əvvəllərində (xanlıq dövründə) otlaq sahiblərinin heyvanların otarılmasına görə maldarlardan alınan vergi.

**DİDEBİLİ** *gürc.* – iri feodallara verilən addır.

**DİGGER** *ing.* – İngiltərədə burjua inqilabı dövründə siyasi cərəyan. Diggerlər öz tələblərində levellərdən daha irəli getdikləri üçün özlərini «həqiqi bərabərçilər» adlandırırdılar.

**«DİKAYA DİVİZİYA»** I Dünya müharibəsi dövründə (1914-1918) Qafqaz dağlı-müsəlman könüllülərindən yaradılmış süvari diviziya (hərfi: vəhşi diviziya).

**DİKTATOR** *lat.* – 1. dövləti idarə etməkdə qeyri-məhdud hüquqa, ixtiyara malik olan şəxs; 2. Qədim Romada: ölkə xarici və daxili təhlükə

qarşısında olduğu zaman senat tərəfindən təyin edilən və qeyri-məhdud ixtiyar səlahiyyətə malik olan şəxs.

**DİKTATORLUQ** – 1. diktator kimi hakimiyyət başında durma; 2. Özünü diktator kimi aparma.

**DİKTATURA** *lat.* – hakim sinfin gücünə istinad edən qeyri-məhdud dövlət hakimiyyəti; qeyri-məhdud hakimiyyət. Hakim qrupun siyasi hakimiyyətini təmin etmək forması.

**DİKTATURA** – 1. hər hansı bir sinfin siyasi hökmranlığını təmin edən dövlət hakimiyyətinin mahiyyəti; 2. dövlət hakimiyyətini həyata keçirmək üsulu, siyasi rejim (məsələn, şəxsi diktatura).

**DİNAR** – 1. qədim zamanlarda Yaxın Şərqin bəzi yerlərində ən çox yayılmış qızıl sikkə; pul; ərəb dinarı keçmişdə müsəlman Şərqində ən çox yayılmış qızıl sikkə idi, ilk dəfə VII əsrdə tərkibində təqribən 2,4 q. qızıl olmaqla kəsilmişdi. Dinar indi də bir çox ölkələrdə fərqli qızıl tərkibi ilə pul vahidi kimi işlənir. 2. İraqda, İordaniyada, İspaniyada, Küveytdə, Tunisdə pul vahidi.

**DİNASTİYA** *yun.* – sülalə, xanədan.

**DİNMƏVER** *köhn. dan.* əsas vergilərdən əlavə alınan hər cür vergi.

**DİONİS** – qədim yunanlarda bitki və şərabçılıq allahı. Yunanların etiqadına görə insanlara üzüm yetişdirməyi və şərab hazırlamağı öyrətmişdir. Onun şərəfinə yaz fəslində üzümlüklərdə iş başlananda və dekabrda – təzə şərab hazır olanda bayramlar təşkil edirdilər.

**DİONİS BAYRAMLARI** qədim Yunanıstanda Dionisin şərəfinə keçirilən bayramlar, şənliklər.

**DİPLOMAT** *fr.* – 1. xarici hökumətlərlə danışıq aparmaq və əlaqə saxlamaq üçün təyin olunmuş dövlət nümayəndəsi; 2. *məc.* siyasətçi.



**DİPLOMATİK** diplomatiyaya aid olan, diplomatiyaya xidmət edən.

**DİPLOMATİKA** – tarixi sənədlərin həqiqiliyini öyrənən köməkçi tarix elmi.

**DİPLOMATİYA** *fr.* hökumətin beynəlxalq siyasət sahəsində fəaliyyəti.

**DİPLOMATLIQ** diplomatiya işi, diplomatiya vəzifəsi.

**DİREKTİV** *fr.* 1. bir işi yerinə yetirmək üçün ali orqan tərəfindən aşağı orqanlara verilən göstəriş, tapşırıq, təlimat; 2. əmr, göstəriş.

**DİREKTORİYA** *fr.* bəzi hökumətlərin adı.

**«DİREKTORİYA»** «Beşlər Şurası» Rusiyada burjua müvəqqəti hökumətin 5 nazirindən ibarət kollegiya.

**DİRHƏM** – 1. Yaxın Şərqdə Misir və Suriyada çəki ölçüsü (3,12 qrama bərabərdir); 2. bəzi ərəb ölkələrində pul vahidi.

**DİSSİDENT** *lat.* – orta əsrlərdə Qərbi Avropa dövlətlərində katolisizmdən «üz döndərənlər», yəni hakim dindən ayrılmış şəxs; mürtəd.

**DİVAN** – 1. ərəb istilalarının ilk dövründə Xəlifə Ömərdən (634-644) başlayaraq dövlət gəlirinin qeydə alındığı, siyahıların saxlanıldığı yer; 2. Əməvilər və Abbasilər dövründə vergilər və maliyyə işləri ilə məşğul olan dövlət idarəsi; 3. Osmanlı imperiyasında böyük vəzirdən, müftidən və başqa vəkillərdən ibarət dövlət şurası; 4. Dunay knyazlıqları Moldova və Valaxiyada dövlət şurası; 5. bəzi müsəlman ölkələrində inzibati və məhkəmə işləri üzrə hökumət idarəsi.

**DİVAN** – bir çox Şərq, o cümlədən Azərbaycan hökmdarlarının hökmdarın yanında məsləhət şurasına bənzər fəaliyyət göstərən qurum.

**DİVANBƏYİ** *köhn.* XIX əsrdə mahal inzibat idarəsinin rəisi.

**DİVANBƏYLİK** – divanbəyi vəzifəsi.

**DİVANXANA** *köhn.* – 1. 1917-ci il inqilabından əvvəl: yerlərdə olan inzibati hökumət idarələrinə verilən ümumi ad; 2. bu idarənin yerləşdiyi bina; 3. Şərq ölkələrində padşah saraylarında rəsmi qəbul otağı.

**DİVERSANT** *lat.* – diversiya, təxribat işi aparan adam; təxribatçı.

**DİVERSİYA** *lat.* – 1. xarici dövlət və ya sinfi düşmən təşkilatları agentləri tərəfindən aparılan təxribatçılıq işi; təxribatçılıq; 2. düşmənin diqqətini azdırmaq üçün hərbi manevr.

**DOAB** – Hindistanın Camna və Qanq çayları arasında yerləşən, təbii sərvətlərlə zəngin olan vilayət.

**DOFİN** *fr.* – 1830-cu il inqilabında Fransada vəliəhd, şahzadə.

**DOKTRİNA** *lat.* – elmi, fəlsəfi və ya siyasi nəzəriyyə.

**«DOLLAR DİPLOMATİYASI»** – ABŞ prezidenti Qaftın (1908-1912) iqtisadi, diplomatik hərbi təzyiq metodlarından istifadə edərək Latın Amerikası ölkələrini öz yarımmüstəmləkəsinə çevirmək siyasəti.

**DOMBA** – Nil çayı sahili boyunca tikilmiş bəndlər.

**DOMEN** *fr.* – (hərfi: malikanə) – 1. feodalizm dövründə kəndli əməyindən istifadə ilə becərilən mülkədarın xüsusi torpaq sahələri; 2. burjua ölkələrində dövlətə mənsub olan əmlak, xüsusilə torpaq.

**DOMİNİON** *ing.* – 1. Britaniya imperiyasının özünü idarə edən hissəsi (keçmiş müstəmləkəsi); 2. özünüidarə hüququ olan ölkə.

**DOMİNİON** – müstəmləkə imperiyası çərçivəsində özünüidarə hüququ almış müstəmləkə.

**DORİK** – daş döşəmədən çıxan və yuxarıda adi sal daşla tamamlanmış sütun.

**DORİK SÜTUNLAR** – qədim yunan memarlarının ucaltdıqları ictimai binaların tikintisində istifadə olunan sütunlar. Bu sütunlar sanki daş döşəmədən çıxan və yuxarıda adi sal daşla tamamlanan sütunlar idi.

**DORİLƏR** – e.ə. II minilliyin sonlarında Yunanıstanın şimalından gələn yunan tayfaları.

**«DÖRDLƏR İTTİFAQI»** – 1915-ci ildə Avstriya, Almaniya, Türkiyə, Bolqarıstandan ibarət ittifaq hərbi siyasi blok.

**DÖVLƏT** – ölkənin hakim sinfinin, mövcud idarə üsulunu qorumaq və başqa siniflərin müqavilələrini aradan qaldırmaq məqsədini daşıyan siyasi təşkilatı, bu cür siyasi təşkilatı olan ölkənin özü.

**DÖVLƏT ARBİTRAJI** – indiki halda həmkarlar ittifaqları və sahibkarlar arasında mübahisəli məsələlərin buna vəkil edilmiş şəxs, hökumət nümayəndəsi tərəfindən həll edilməsi.

**DÖVLƏT BAYRAĞI** – dövlətin rəsmi fərqləndirici nişanı.

**DÖVLƏT BORCU** – hökumətin bankirlərdən, xüsusi adamlardan, yaxud xarici kreditorlardan aldığı istiqrazlar üzrə ödənilmiş ümumi dövlət borcu məbləği.

**DÖVLƏT DUMASI** – 1906-1907-ci illərdə Rusiyada məhdud hüquqlara malik nümayəndəli qanunvericilik müəssisəsi.

**DÖVLƏT GERBİ** – dövlətin emblemi: möhürlərdə, sikkələrdə, pul vahidlərində və s.-də təsvir edilir.

**DÖVLƏT ŞURASI** – Rusiya imperatoru I Aleksandrın dövlət idarəçiliyi sahəsində həyata keçirdiyi islahatlarla əsasən yaradılmış ali idarəetmə orqanı.

**DÖVR** – zamanın hər hansı bir cəhətdən səciyyəvi olan böyük ya kiçik qismi. Məs., müharibədən sonrakı dövr.

**DÖYÜŞ** – dava, vuruş.

**DÖYÜŞÇÜ** – 1. sıravi əsgər; 2. döyüş üçün olan.

**DRAHMA** – qədim Makedoniya və Yunanıstanda pul vahidi.

**DRAKON QANUNLARI** – e.ə.VII əsrdə Afinada aristokrat Drakon tərəfindən

tərtib edilmiş qanun. Bu qanun mürəkkəblə deyil, qanla yazılmış qanun adlandırılırdı.

**DRAQUN** – 1917-ci il inqilabından əvvəl bəzi xüsusi atlı qoşun hissələri nəfəri. Məsələn: draqun polku.

**DRUİD** – qədim Kelt kahini (Qaliya, Britaniya və İrlandiyada).

**DRUJİNA** *rus.* – 1. Qədim Rusiyada: knyazın başçılıq etdiyi silahlı dəstə; 2. tayfa başçısı, sonralar isə knyaz və kral ətrafında birləşən döyüşçü dəstə.

**DRUZLAR** – İsmailiyin şaxələrindən biri olan müsəlman dini təriqətlərinə mənsub ərəblər.

**DUKAT** *ital.* – qədim Venesiyada qızıl sikkə (pul).

**DULUSÇULUQ** – gil məmulatının hazırlanması ilə məşğul olan sənət sahəsi.

**DUMA** – çar Rusiyasında: qanunverici və ya inzibati vəzifə daşıyan nümayəndələr məclisinin adı. Məsələn, dövlət duması, şəhər duması, boyar duması (boyarlar məclisi) və s.

**DÜNYA KƏDƏRİ** – XVIII-XIX əsrlərdə Avropada əmələ gəlmiş ifrat bədbinliyi və ümidsizliyi ifadə edən ədəbi cərəyan.

**DÜNYA MÜHARİBƏSİ** – Yer üzünü, dünyanın bütün xalqlarını əhatə edən müharibə. Məsələn: Birinci Dünya müharibəsi, İkinci Dünya müharibəsi: I Dünya müharibəsi 1914-1918-ci illərdə, II Dünya müharibəsi 1939-1945-ci illərdə olmuşdur.

**DÜŞƏRGƏ** – Paleolit, Neolit və Tunc dövrlərinə aid yaşayış məskəni.

**DVORYAN** *rus.* – 1917-ci ildə Rusiyada: inqilabdan əvvəl və xüsusi xidməti olan məmurlardan ibarət imtiyazlı zümrəyə mənsub adam; zadəgan.

**DVORYANLIQ** – dvoryan zümrəsinə mənsubiyyət; zadəganlıq.



# E

**EBERÇİLƏR** – böyük Fransa inqilabı dövründə son yakobinçilər sırasında siyasi qruplaşma. Rəhbərlərindən biri J.Eberin adı ilə adlandırılmış və əsasən 1793-1794-cü illərdə formalaşmışdı.

**EDAM** – yüksək məhkəmə cəzası üsulu olaraq öldürmə; ölüm cəzası.

**«EDELVEYS» PLANI** – II Dünya müharibəsində Hitlerin Qafqaza hücum planı bu cür adlanırdı.

**EDİKT** *lat.* – fərman.

**EFTALİTLƏR** – Ağ hunlar

**EGEY MƏDƏNİYYƏTİ** – qədim Yunanıstanda Tunc dövründə (təqribən e.ə. 30 və 28 – təqribən 12-ci əsrlər) aid arxeoloji mədəniyyətin şərti adı.

**EHKAMÇILIQ** – yeniliyi nəzərə almayan, dəyişməz, donuq müddəalardan istifadə edən təfəkkür metodu.

**EHRAM** – düzgün piramida şəkilli monumental qurğu; əsasən, qədim dünya memarlığı üçün səciyyəvi olmuşdur. Hökmdarların əzəmətini təcəssüm etdirmək üçün tikilən Qədim Misir fironlarının sərdabələri nəzərdə tutulur.

**EKONOMİZM** *yun.* – XIX əsrin axırlarında və XX əsrin əvvəllərində rus sosial-demokratları arasında meydana gəlmiş opportunist cərəyan.

**EKSPANSİYA** – dövlətin öz nüfuz dairəsini diplomatik, iqtisadi və hərbi üsullarla başqa dövlətlərdə genişləndirməyə yönəldilmiş təcavüzkar siyasət.

**EKSTREMİST** *lat.* – siyasətdə ifrat tədbirlər tərəfdarı; ifratçı.

**EKSTREMİZM** *lat.* – siyasətdə ifrat görüş və tədbirlərə meyil; ifratçılıq.

**EKZOQAMİYA** *lat.* – öz tayfasından, qohum-əqrəbasından, öz ictimai qrupundan evlənməyi qadağan edən adət.

**ELAM** – Dəclə və Fərat çaylarının aşağı axarında şərqdə İran yaylasının cənub-qərb

hissəsində qədim dövlət (3-cü minillik - e.ə.VI əsrin ortaları).

**ELAT** *köhn.* – 1. bir yurdda, bir yerdə yaşayan camaat, xalq, el; 2. köçmə təsərrüfatı ilə məşğul olan maldarlar.

**ELDƏGƏZLƏR** – Eldəgəzlər dövləti *(bax)* hökmdarları sülaləsi; eldənizlər və yaxud ildənizlər də adlanırdı. Nümayəndələri Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, hökmdarlar – Şəmsəddin Eldəgəz (1136-1174), Cahan Pəhləvan (1174-1186), Qızıl Arslan (1186-1191), Əbu Bəkr (1191-1210), Özbək (1210-1225), Qızıl Arslan Xamuş (1225-1229).

**ELDƏGƏZLƏR DÖVLƏTİ (Eldənizlər və yaxud İldənizlər dövləti də adlanırdı)** – 1136-1225-ci illərdə Azərbaycan dövlətidir. Azərbaycan Kürdən cənuba, Şimal-Qərbi İran vilayətlərinin yerlərini əhatə edirdi. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur.

**ELDƏNİZLƏR** *bax* eldəgizlər.

**ELDƏNİZLƏR DÖVLƏTİ** *bax* – eldəgəzlər dövləti.

**ELXAN (İLXAN)** – Elxanilər dövləti hökmdarlarının titulu. Bu titulu ilk dəfə böyük monqol xanı Xubilay Elxanilər sülaləsinin banisi Hülakü xana (1256-1265) vermişdir.

**ELXANİLƏR** – Elxanilər dövləti hökmdarları sülaləsi (1256-1357). Hülakü xanın adı ilə hülakülər də adlandırılırdı. Nümayəndələri: Hülakü xan, Abaqa xan, Arqun xan, Qazan xan, Əbu Səid Bahadur xan. Hökmdarlar: Hülakü xan (1256-1265), Abaqa xan (1265-1282), Əhməd Təkudar (1282-1284), Arqun xan (1284-1291), Keyxatu xan (1291-1295), Baydu xan (1295), Qazan xan (1295-1304), Məhəmməd Xudabəndə Ölcaytu (1304-1316), Əbu Səid Bahadur xan (1316-1335), Arpa xan (1335-1336), Musa xan (1336), Məhəmməd xan (1336-1338), Toğa Teymur (1337-1339), Satibəyxatun (1339-1340), Cahan Teymur (1339-1340), Süleyman xan (1340-1344), Ənuşirəvan (1344-1355), Həsən xan (1356-1357).



**ELLADA** – qədim yunanların öz vətənlərinə verdikləri ad.

**ELLİNİST** *yun.* – ellinizm *(bax)* mədəniyyətinə pərəstiş edən.

**ELLİNİZM** *yun.* – Makedoniyalı İsgəndərin Şərqi istilasından sonra başlanan qarışıq yunan-Şərq mədəniyyətinin çiçəklənməsi dövrü.

**ELLİNLƏR** – yunanların özlərinə verdikləri ad.

**EMİSSAR** *lat.* – başqa ölkəyə müəyyən qeyri-rəsmi tapşırıqla göndərilən şəxs (çox vaxt məxfi surətdə olur).

**EMİSSİON** – emissiyaya *(bax)* aid.

**EMİSSİYA** *lat.* – qiymətli kağızlar, bank biletləri və kağız pullar buraxılması.

**ENDOQAMİYA** *yun.* – qəbilə, tayfa, qohum və s. daxilində evlənmə adəti.

**ENEOLİT** *lat.* – Mis-daş dövrü, Neolitdən Tunc dövrünə keçid dövrü (mərhələsi).

**ENERGETİKA PROBLEMİ** – İkinci dünya müharibəsindən sonra yanacaqdan istifadə strukturunun və qiymətlər səviyyəsinin dəyişməsi nəticəsində bir çox dövlətlərin qazıntı halında çıxarılan yanacaqla təminatının pisləşməsi ilə bağlı meydana çıxan problem.

**ENOZİS** *yun.* – birləşmə.

**ENSİ** – rütbə, Cənubi Mesopatamiyada Şumer şəhər hakimlərinin daşıdığı rütbə. Aratta ölkəsini «en» və yaxud «ensi» rütbəsini daşıyan hökmdar idarə edirdi.

**ENSİ, EN, LUQAL** – Şumerlərdə şəhər hakimi.

**ENSİKLİKA** *yun.* – Roma papasının bütün katoliklərə və ya ayrıca bir ölkənin katoliklərinə göndərdiyi məktub.

**ENSİKLOPEDİSTLƏR** – XVIII əsrin axırlarında Fransada nəşr edilən "Ensiklopediya" ətrafında toplaşmış qabaqcıl mütəfəkkirlər qrupunun nümayəndələri. Rəhbəri Didro idi.

**ENSİKLOPEDİYA** *yun.* – biliyin bütün, yaxud ayrı-ayrı sahələrinə dair lüğət şəklində sistemə salınmış məlumat kitabı.

**EOLİT** *yun.* – 1. daş dövrünün ən qədim ibtidai daş alətləri qayrılan mərhələsi; 2. bu dövrə aid ibtidai daş aləti.

**EOSEN** *yun.* – Paleogen sisteminin orta şöbəsi. İlk dəfə 1833-cü ildə ingilis alimi Ç.Layel tərəfindən ayrılmışdır. Adi heyvanat aləminin yeni formalarının – məməlilərin meydana gəlməsi ilə əlaqədardır.

**EPİQRAF** *yun.* – qədim yunanlarda: abidə üzərində yazı.

**EPİQRAFİKA** *yun.* – epiqraflar haqqında elm.

**EPİQRAFİST** *yun.* – epiqrafçı, epiqraf yazan adam.

**EPİQRAFİYA** *yun.* – qəbirüstü nitq; başdaşı yazısı.

**EPOXA** *yun.* – təbiətdə, cəmiyyətdə, elmdə, incəsənətdə və s. sahələrdə mühüm fərqləndirici xüsusiyyətləri ilə səciyyələnən müəyyən dövr.

**EPOLET** *fr.* – 1. bəzi xarici orduda və 1917-ci il inqilabına qədər rus ordusunda bəzəkli işləməli zabit paqonu; 2. həmin dövrdə zabit rütbəsi nişanı.

**EPOS** *yun.* – lirika və dramdan fərqli olaraq rəvayət xarakteri daşıyan ədəbiyyat//Qəhrəmannamələr, dastanlar və s. xalq yaradıcılığı əsərlərinin məcmusu (*bax* dastan).

**ERA** *lat* – 1. il hesabının başlandığı zaman, tarix başlanğıcı; 2. böyük tarixi əhəmiyyəti olan dövr.

**ERFURT PROQRAMI** – Almani-yada Sosial Demokrat Partiyasının proqramı. 1891-ci ilin oktyabrında qəbul olunmuş və Qota proqramını əvəz etmişdi.

**ERİVAN XANLIĞI** – XVIII əsrin ortalarında Qərbi Azərbaycanda yaranmış feodal dövlətlərindən biri. Ağrıdağ düzənliyini Göyçəgölü hövzəsini və Araz çayından cənub-qərbə uzanan ərazini əhatə edirdi.



**ERQASTUL** *lat.* – qədim Romada qulların salındığı xüsusi həbsxana.

**ESERLƏR (SOSİALİST İNQİLAB-ÇILAR)** – 1901-1922-ci illərdə Rusiyada xırda burjua partiyası. XIX əsrin 90-cı illərində fəaliyyət göstərən xalqçı dərnək və qrupların birləşməsi nəticəsində yaranmışdı.

**ESKİMOSLAR** – bəzi ölkələrdə (Rusiyada, Kanadada, Qrenlandiyada, Alyaskada) yaşayan xalq.

**ESES (SS)** – faşist Almaniyasında hərbiləşdirilmiş imtiyazlı təşkilat.

**ESTAFET** *fr.* – keçmişdə: çaparlar, qasidlərlə göndərilən məktub, məlumat.

**EŞAFOT** *fr.* – orta əsrlərdə geniş yayılmış, üzərində qətl, rüsvayçı cəza tədbirləri və s. həyata keçirilən taxta meydança; edam kürsüsü.

**EŞİKAĞASI** *köhn.* – şah saraylarında təşrifat məmuru (XV-XIX əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş vəzifə).

**ETALİZM** *fr.* – dövlət deməkdir. Dövlətin iqtisadi, sosial və mədəni sahələrdə rolunun artırılması.

**ETİMADNAMƏ** – diplomatik nümayəndənin təyin olunarkən təqdim etdiyi sənəd.

**ETNİK** *yun.* – milli, irqi (xalqa aid).

**ETNİK BİRLİK** – insanların tarixən yaranmış möhkəm ictimai birliyi.

**ETNOGENEZ** *yun.* – bir neçə etnik komponentlərdən yeni etnik ümumiliyin əmələ gəlmə prosesi; etnik tarix, mənşə.

**ETNOQRAF** *yun.* – etnoqrafiya mütəxəssisi; etinoqrafist.

**ETNOQRAFİYA** *yun.* – xalqları - etnosları, onların məişətini, adətini, etnik birliklərin yaranması və inkişafını, onların yayılması və qarşılıqlı mədəni əlaqələrini öyrənən tarix elmi; xalqşünaslıq.

**ETNOQRAFİZM** *yun.* – bir şeydə etnoqrafik xüsusiyyətlərin, təsvirlərin mövcud olması, verilməsi.

**ETNOLOGİYA** *yun.* – XIX əsrin I yarısında burjua elminin etnoqrafiyasının sinonimi kimi qəbul etdiyi termin.

**ETNOS** *yun.* – bir dildə danışan adamların tarixən yaranmış toplusu; xalq.

**ETTEHADİYYƏ** – birlik.

**«EVELVEYS» PLANI** – nasist Almaniyasının II Dünya müharibəsi zamanı Qafqaza, o cümlədən də Azərbaycana hücum planı.

## Ə

**ƏCDAD** – ata-babalar, ulu babalar.

**ƏCİRLİLƏR** – Azərbaycan tayfalarından biri. Əsasən Cənubi Azərbaycanda yaşayırlar.

**ƏDLİYYƏ** – mühakimə işlərinə baxan dövlət orqanlarının məcmusu, məhkəmə orqanları sistemi.

**ƏFƏNDİ** – 1. sünni ruhanilərinə verilən ləqəb; 2. hörmət üçün oxumuş adamların, ruhanilərin adlarına qoşulan söz.//Hörmətlə müraciət forması.

**ƏFŞARLAR** – azərbaycanlıların etnogenezində iştirak etmiş türkdilli tayfa. İran (əsasən Cənubi Azərbaycanda), Türkiyə və Əfqanıstanda (Kabil ətrafında) yaşayırlar. Qızılbaş tayfa birliyinin tərkibində Səfəvi imperatorluğu yaranmasında iştirak etmişlər. Səfəvi imperatorluğunun varlığına son qoymuş Nadir şah Əfşarlardan idi.

**ƏFV-ÜMUMİ** *bax* amnistiya.

**ƏĞLƏBİLƏR** – İfriqiyada Xilafətin vassalları olan ərəb əmirləri sülaləsi (800-909). Əsasını Harun ər-Rəşidin canişini I İbrahim ibn əl-Əğləb qoymuşdur.



**ƏHALİ** – camaat, xalq (bir ölkənin, bir yerin adamları, sakinləri).

**ƏHL-SƏLİB** – səlib müharibəsində iştirak edən adam.

**ƏHRİMƏN** – Zərdüşt dinində: şər allahı, şər və zülmət mənbəyi.

**ƏXİLƏR** – orta əsrlərdə Kiçik Asiyada və qismən Azərbaycanda meydana gəlmiş "zəhmət qardaşlığı" deyilən cəmiyyətin üzvləri.

**ƏXİLİK** – Orta əsrlərdə Azərbaycanda və Yaxın Şərqdə yayılmış mütərəqqi ictimai-siyasi təşkilat. Əxilərə əməksevərlik, səxavət, qonaqpərvəlik, humanizm, ədalətlilik uimi yüksək insani keyfiyyətlər xas idi.

**ƏKS-HƏMLƏ** *bax* əks-hücum.

**ƏKS-HÜCUM** – hücuma qarşı olan hücum.

**ƏKS-İNQİLAB** – öz hakimiyyətlərini saxlamaq, inqilabdan əvvəlki üsul və qaydaları bərpa etmək üçün inqilaba qarşı mübarizə; inqilabın tam əksi olan ictimai mürtəce proses.

**ƏKS-İNQİLABÇI** – 1. əks-inqilaba xidmət edən, əks-inqilab tərəfdarı; 2. əks-inqilabda iştirak edən, əks-inqilaba tərəfdar olan adam.

**ƏKS-İNQİLABİ** – inqilab əleyhinə yönəldilmiş, ona zidd, düşmən olan.

**ƏLKİMYA** – yalançı kimya.

**ƏLKİMYAÇI** – yalançı kimyaçı, əlkimyagər *(yalançı kimya ilə məşğul olan adam).*

**ƏLKİMYAGƏR** *bax* əlkimyaçı.

**ƏLLİBAŞI** – keçmişdə əlli döyüşdən ibarət əsgəri hissə komandiri.

**ƏMƏK DÖVRİYYƏSİ** – malların dövr etməsi.

**ƏMƏK MƏHSULDARLIĞI** – müəyyən vaxt ərzində insanın istehsal edə biləcəyi əmək məhsullarının miqdarı.

**ƏMƏK MÜBADİLƏSİ** – maldəyişmə.

**ƏMƏVİLƏR** – Əməvi *(Dəməşq)* xilafətində (661-750), Kordova əmirliyində (756-929) və xilafətdə (929-1031)

ərəb xəlifələri sülaləsi. Qü-reyşilər tayfasının ümeyyə qoluna mənsub edilər.

**ƏMƏVİLƏR XİLAFƏTİ** – Əməvilərin feodal dövləti (661-750).

**ƏMİR** – bəzi Şərq hökuməti başçılarına və yüksək vəzifəli şəxslərə rəsmi olaraq verilən ad; hakim, knyaz, sərkərdə.

**ƏMİRAXUR** *bax* miraxur.

**ƏMİRİ** – əmirə mənsub, əmirə məxsus olan.

**ƏMİRLİK** – 1. əmirlik vəzifəsi; 2. əmirin idarəsi altında olan yerlər, ölkə.

**ƏMİRƏLÜMƏRA** – əmirlər əmiri, bəylərbəyi. Orta əsrlərdə mü-səlman ölkələrində, o cümlədən ölkəmizdə mövcud olmuş ən yüksək hərbi vəzifə, baş komandan (xəlifələr dövründə yüksək rütbə adı).

**ƏMİRƏLÜMƏRA** – XV əsrdə Azərbaycanda əmirlər əmiri, baş komandan, pad-şahdan sonra ikinci şəxs.

**ƏMİR-ÜMƏRA** – əmirlər *(cəmdə)*.

**ƏMLAK SENZİ** – seçki hüquqlarını almaq üçün müəyyən edilmiş gəlirin və ya əmlakın məbləği.

**ƏMTƏƏ** – əmək məhsulları; mal (satış üçün istehsal olunan mal).

**ƏMTƏƏ İSTEHSALI** – alqı-satqı yolu ilə mübadilə üçün məhsul istehsal etməkdən ibarət olan ictimai istehsal.

**ƏMUD** – polad toppuz (*qədim silah növü*), kürz.

**ƏNCÜMƏN** – şura deməkdir. 1905-1911-ci illər İran inqilabı dövründə Cənubi Azərbaycanın şəhər və əyalətlərində yarannış demokratik hakimiyyət orqanı.

**ƏNDƏLUS** – İspaniyanın cənubunda tarixi vilayət. Ərəblər bütün müsəlman İspaniyasını belə adlandırırdılar.

**ƏRƏBLƏR** – Qabaq Asiyada və Şimali Afrikada yaşayan xalq və bu xalqa mənsub adam.

**ƏRİZƏ** – yazılı müraciət sənədi.



**ƏRİZƏÇİ** – 1. şikayətçi; 2. pulla ərizə yazan adam (keçmişdə).

**ƏRMƏNİYYƏ (ƏRMİNİYYƏ)** – VIII əsrdə əməvilər xilafəti tərkibində yaradılmış canişinlik. İnzibati mərkəzi Dvin (Dəbil) şəhəri idi. 789-cu ildə mərkəz Bərdəyə köçürüldü. Buraya Ermənistan, Arran və Gürcüstan (İberiya) əraziləri daxil idi.

**ƏRMİNİYYƏ** *bax* ərməniyyə.

**ƏRZAQ PROBLEMİ** – xroniki yarıaclıq və aclıqla ifadə olunur, başlıca olaraq inkişaf etməkdə olan ölkələrdə, xüsusən Afrikada 1 milyarda yaxın adamı əhatə edir. Səbəbi həmin ölkələrdə sosial-iqtisadi strukturların pozulmasıdır, nəticədə kənd təsərrüfatı istehsalı tənəzzül etmiş və inkişaf etmiş kapitalist ölkələrində ərzaq gətirilməsindən olan asılılıq artmışdır.

**ƏRZAQ SAPALAĞI** – 1918-21-ci illərdə hərbi kommunizm dövründə ərzaq tədarükü üsulu.

**ƏRZAQ SAPALAĞI** – bolşevik Rusiyasının ilk dövrlərində tətbiq edilmiş zorakı ərzaq toplanması. Kəndli öz yeməyi və toxumdan başqa qalan taxılı məcburi şəkildə dövlətə satmalı idi.

**ƏSARƏT** – əsirlilik, köləlik, kölə (qul) vəziyyəti.

**ƏSAS QANUN** *bax* Konstitusiya.

**ƏSASNAMƏ** – qanun, qayda, nizamnamə.

**ƏSİLZADƏ** – zadəgan, kübar (bəy, xan).

**ƏSNAF** – təbəqə, orta əsrlərdə Yaxın Şərqin bir sıra ölkələrində, o cümlədən Azərbaycanda sənətkarların birləşdikləri sex təşkilatı.

**ƏSR** – 100 illik bir dövr.

**«ƏSRİN MÜQAVİLƏSİ»** – 1994-cü ildə Azərbaycanda dövlət neft şirkəti ilə ABŞ, Böyük Britaniya və s. dövlətlərin daxil olduqları konsorsium (xarici neft şirkətlərinin iştirakı ilə imzalanan saziş, müqavilə).

**ƏVARİZ (Əvrəz)**– təsadüfi hadisə deməkdir. Orta əsrlərdə Azərbaycanda və Yaxın Şərqin bir sıra ölkələrində daimi olmayan, fövqəladə vergi. Natura və ya mükəlləfiyyət şəklində ödənilirdi.

**ƏYALƏT** – bir valinin idarəsi altında olan ölkə.

**ƏYAN** – aristokrat, zadəgan (*bax*).

**ƏYANLIQ** – əyan rütbəsi, aristokratlıq, zadəganlıq.

**ƏYYUBİLƏR (EYYUBİLƏR)** – Yaxın Şərqdə sülalə. Əsasını Misirdə Fatimilərin süqutundan sonra 1171-ci ildə Səlahəddin qoymuşdur. Sülalə Səlahəddinin atası Əyyub ibn Şadinin adı ilə adlandırılmışdır.

# F

**FABİ CƏMİYYƏTİ** – Böyük Britaniyada 1884-cü ildə təşkil olunmuş islahatçı təşkilat.

**FABİÇİLİK** – fabi hərəkatı, fabi məfkurəsi.

**FABRİK** *lat.* – sənaye müəssisəsi.

**FABRİKANT** – fabrikçi, fabrik sahibi.

**FABRİKÇİ** *bax* fabrikant.

**FALANQA** *yun.* – 1. qədim yunanlarda bir neçə sıradan ibarət və ağır şəkildə silahlanmış piyada qoşun; 2. utopik - sosialist Ş.Furyenin nəzəriyyəsində: böyük icma, kommuna (*1772-1837-ci* illər).

**FALANQAÇI** – falanqa üzvü (*bax* falanqa).

**FALANSTER** *fr. əsli yun.* – Furye-ristlərin utopik-ictimai nəzəriyyəsində: 1. kommunada – falanqada adamların yaşaması üçün xüsusi bina; 2. böyük icma.

**FALKONET** *ing.* – kiçik çaplı qədim top.



**FANARİOT** *yun.* – 1821-30-cu illərdə yunanların Türkiyə hakimiyyətinə qarşı üsyanında iştirak edən.

**FANATİK** *lat.* – qatı mövhumatçı.

**FANATİZM** *lat.* – 1. mövhumatçılıq; 2. təəssübkeşlik.

**FARİSEY (LƏR)** *yun.* – qədim yəhudi dövlətində öz fanatizm və riyakarlığı ilə məşhur dini-siyasi cəmiyyətin üzvü.

**FARMAZON** *fr.* – 1. XVIII əsrdə meydana gəlmiş dini-fəlsəfi cərəyanın tərəfdarı; 2. mason təşkilatının üzvü.

**FASİ Dİ KOMBATTİMENTO** *ital.* – «mübarizə ittifaqı» deməkdir.

**FAŞİST** *ital.* – faşizm tərəfdarı.

**FAŞİZM** *ital.* – «faşo» sözündən götürülmüşdür. Mürtəce-siyasi ideoloji cərəyan. Qatı şovinist, irqçilik, təcavüzkar müharibələr törətmək kimi səciyyəvi xüsusiyyətlərinə əsaslanan terrorçu diktaturasının açıq forması.

**FEDERASİYA** *lat.* – ittifaq, birlik mənasındadır. Dövlət quruluşu forması (birləşmiş olan ayrı-ayrı müstəqil dövlətlərdən ibarət dövlət).

**FEDERAT** *lat.* – 1789-cu il Fransa burjua inqilabı dövründə: milli qvardiyaya mənsub könüllü; 2. Paris kommunası dövründə: milli qvardiya iştirakçısı.

**FEDERATİV** *rus.* – bir ittifaq dövləti halında birləşən dövlətlər. Məsələn, Almaniya Federativ Respublikası .

**FEOD** *lat. əsli qədim yun.* – feodalın torpaq mülkləri.

**FEODAL** *lat.* – 1. feodalizm (*bax*) dövründə iri torpaq sahibi təhkimçi mülkədar; 2. feodalizm prinsiplərinə əsaslanan.

**FEODALİZM** *lat.* – quldarlıq cəmiyyəti ilə kapitalizm cəmiyyəti arasındakı ictimai-iqtisadi formasiya.

**FERMA** *fr.* – 1. bəzi ölkələrdə kolxoz və sovxozlarda kənd təsərrüfatının müəyyən sahəsi ilə məşğul olan ixtisaslaşdırılmış təsərrüfat;

2. bir çox ölkələrdə, o cümlədən də Azərbaycanda: xüsusi və icarə edilmiş torpaqda düzəldilən təsərrüfat.

**FERMER** *ing.* – 1. ferma sahibi və ya icarədarı; muzdlu əmək sahibkarı; 2. *bax* ferma

**FƏDAİ** – özünüinamı yolunda qurban verən.

**FƏHLƏ** – fəhlə sinfinə mənsub əməkçi.

**FƏHLƏ SİNFİ** – başlıca məhsuldar qüvvə, istehsal vasitəsinin bilavasitə iştirakçısı.

**FƏLLAH** *köhn.* – 1. əkinçi; 2. kəndli (həmçinin Misirdə).

**FƏLSƏFƏ** – ictimai elm sahəsi.

**FƏRMAN** *köhn.* – hökmdarın, padşahın yazılı əmri.

**FƏRMANFƏRMA** *arx.* – hökmdar.

**FƏRRAŞ** – kiçik vəzifəsi olan xidmətçi.

**FƏRRAŞBAŞI** – padşahların sarayında baş fərraş.

**FƏRSƏNG (FƏRSƏX)** – ağac (uzunluq ölçüsü vahidi: 6-7 kilometrə bərabər).

**FİDYƏ** *köhn.* – torpaq pulu, azadlıq pulu (tutulmuş torpağı, yaxud girov götürülmüş adamı azad etmək üçün verilən pul).

**FİLİSTİNLİLƏR** – dinə görə Fələstinə gəlib yəhudiləri oradan sıxışdırıb çıxarılmış xalq.

**FİRON** *yun.* – qədim Misir dövlətinin başında duran şəxs; padşah.

**FİSKAL** *lat.* – nəzarətçi (I Pyotrın vaxtında hökumət idarələri və məmurlarının işlərinə, xüsusən maliyyə və məhkəmə işlərinə nəzarət edən məmur).

**FİZİOKRAT** *fr.* – XVIII əsrin 2-ci yarısında Fransada: torpağı və əkinçiliyi yeganə sərvət mənbəyi hesab edən siyasi-iqtisadi cərəyan tərəfdarı.

**FLAKELLAT** *lat.* – orta əsrdə: günahlarını bağışlatmaq üçün özünə qamçı ilə əzab verən zahid, mövhumatçı.

**FLİBUSTYER** *fr. əsli hol.* – 1. dəniz qulduru, qaçaqmalçı; 2. ABŞ-da konqres iclaslarında pozğunluq salan adam.



**FLORİN** *ital.* – qədim italyan qızıl pulu.

**FORUM** *lat.* – qədim Romada: şəhərin ictimai həyatının mərkəzləşdiyi yer, bazar meydanı.

**FÖVQƏLADƏ VƏZİYYƏT** – ölkədə xüsusi hüquqi vəziyyət.

**FRAKSİYA** – müəyyən peşə və ideya mənafeləri üzrə birləşmiş adamlar qrupu.

**FRANKLAR** – eramızın IV əsrində Qalliyada, yəni indiki Fransa ərazisində yaşamış german qəbilələrindən bir qrupunun adı.

**FRANSİSKAN** – XIII əsrdə təsis olunmuş fransiskan katolik təriqəti rahibi.

**FRANSİSKÇİLƏR** – katolik rahib ordeninin üzvləri (əsası 1207-1209-cu illərdə İtaliyada qoyulmuşdur. Onun yaradıcısı Assizm Fransisk idi).

**FRESKA** *ital.* – təzə mala üzərində sulu boya ilə çəkilmiş şəkil, naxış.

**FRİTREDER** *ing.* – fritrederçilik tərəfdarı (*bax* fritrederlik).

**FRİTREDERLİK** – iqtisadi siyasətin əsasını ticarətin sərbəstliyində və hökumətin təsərrüfat həyatına qarışmamasında görən burjua cərə-yanı.

**FRONDA** *fr.* – XVII əsrdə Fransada mütləqiyyət əleyhinə olan zadəgan–burjua hərəkatı.

**FRONDER** – fronda iştirakçısı (*bax* fronda).

**FUNT I** – çəki vahidi, girvənkə (1 funt 400 qramdır).

**FUNT II (FUNT STERLİNQ)** – İngiltərədə əsas pul vahidi.

**FURYERİST** – (Fransız mütəfəkkiri, alim və utopik – sosialisti Şarl Furyerin adından) utopik – sosializm nəzəriyyəçilərindən biri.

**FURYERİZM** – (Fransız mütəfəkkiri, alimi və utopik-sosialisti Şarl Furyenin adından) utopik-sosializm nəzəriyyələrindən biri.

**FUZİLYOR** – XVII-XVIII əsrlərdə: çaxmaqdaşlı tüfənglə silahlanmış piyada əsgər.

**FÜRER** *alm.* – faşist Almaniyasında milli sosialistlərin rəhbəri Adolf Hitleri bu cür adlandırırdılar (hərfi mənası «rəhbər» deməkdir).

**GELDA** – Azərbaycanda qədim şəhər (yeri müəyyənləşməyib).

**GELLƏR** – 1. Albaniya (Qafqaz) tayfalarından birinin adı; 2. e.ə. IV əsrdə İrlandiyaya köçmüş qədim kelt tayfaları qrupu.

**GEMMA** *lat.* – üstündə yazı və ya şəkil həkk olunmuş qiymətli daş.

**GENERAL** *lat.* – silahlı qüvvələrin ali rəis heyətində rütbə. İlk dəfə XVI əsrdə Fransada tətbiq olunmuşdur.

**GENERAL - QUBERNATOR** *lat.* – 1917-ci il inqilabından qabaq Rusiyada və indi bir sıra xarici ölkələrdə yüksək hərbi inzibati ixtiyara malik olan ölkə və ya vilayət rəisi.

**GENERAL - QUBERNATORLUQ** – 1. general-qubernator vəzifəsi; 2. 1917-ci il inqilabından əvvəl general-qubernatorun idarə etdiyi iri inzibati ərazi vahidi.

**GENERALİSİMUS** *lat. köh.* – bəzi ölkələrdə silahlı qüvvələrdə ən yüksək (marşaldan da) rütbə. Vaxtilə Sovet hökumətinin rəhbəri İ.V.Stalin bu rütbəyə layiq görülmüşdür.

**GENEZİS** *yun.* – törəmə, mənşə, əmələ gəlmə.

**GENOSİD** *yun.* – irqi, milli, dini ədavət üzərində əhalinin ayrı-ayrı qruplarının məhv edilməsi (insanlığa qarşı ən ağır cinayətlərdən biridir). Genosid bəşəriyyətə qarşı dövlət aparatı tərəfindən siyasi məqsədlərlə həyata keçirilən iri miqyaslı, qabaqcadan düşünlümüş cinayətdir.

**GERB** *pol. əsli alm.* – 1. bir dövlətə, şəhərə və ya bir nəslə məxsus nişan, damğa (rəmz); 2. bir feodal nəslini başqasından ayıran nişan; 3. dövlətin rəmzlərindən biri.

**GERMANLAR** – Şimal və Baltik dənizləri ilə Reynin aşağı axarı, Dünay, Visla çayları arasında və skandinaviyanın cənubunda yaşamış qədim tayfa qrupu. German dillərində danışırdılar.

**GERZE MƏDƏNİYYƏTİ** – sülaləyə qədərki Misirdə Eneolik mədəniyyəti (e.ə. IV minillik).

**GESTAPO** *alm.* – faşist Almaniyasında məxfi dövlət polisi. 1933-cü ildə yaradılmış 1945-ci ildə ləğv edilmişdir.

**GETMAN** *pol. əsli alm.* – 1. Qədim Polşa qoşunlarının baş komandanı; 2. Qədim Ukraynada: Kazak qoşununun başçısı və yüksək hakim.

**GETMANLIQ** – Getman hakimiyyəti və idarəsi.

**GETTO** – iri şəhərlərdə yəhudilərin yaşaması üçün ayrılan xüsusi yer.

**GEZİT** – Sasanilərin hakimiyyəti zamanı 20 yaşından 50 yaşına qədər olan adamdan alınan vergi; can vergisi.

**GEZLƏR** *hol.* – XVI əsrdə və sonralar İspaniya hökmranlığına qarşı mübarizə aparanlara verilən ad.

**GƏBRLƏR** – 7-ci əsrin ortalarında ərəblərin İranı işğalından sonra İslam dinini qəbul etmiş zərdüştilik ardıcıllarının ənənəvi adı.

**GƏNCƏ** – Azərbaycanda ən qədim şəhər.

**GƏNCƏ XANLIĞI** – XVIII əsrin ortalarında yaranmış Azərbaycan feodal dövləti.

**GİLAN** – Azərbaycanda orta əsr şəhəri. Nə zaman dağıldığı məlum deyil.

**GİLDANİ** – qədimdə Babilistan ovalığında yaşamış Gildani xalqına mənsub adam.

**GİLDİYA** *alm.* – 1. orta əsrlərdə Qərbi Avropada tacirlər və ya sənətkarlar ittifaqı; tacirlər birliyi; 2. tacirlər dərəcəsi.

**GİLƏKLƏR** – oğuzların şimal qonşuları.

**GİLYOTİN** – Başı bədəndən ayıran qurğu. 1792-ci ildə Fransada həkim G.Gilyotinin təklifi əsasında yaradılmışdı.

**GİLZAİLƏR** – Əfqan tayfalarının ən böyük qruplarından biri.

**GİMNAZİST** *yun.* – gimnaziya şagirdi, gimnaziyada oxuyan.

**GİMNAZİYA** *yun.* – klassik dillərin tədrisinə üstünlük verilən orta məktəb.
**GİRDİMAN VİLAYƏTİ** – indiki Şəmkir-Qaxaz bölməsində yerləşən ərazi olub.
**GÖMRÜK** – ölkəyə gətirilən və ölkədən aparılan mallardan alınan dövlət rüsumu.
**GÖMRÜKÇÜ** – gömrükxana işçisi.
**GÖMRÜKXANA** – gömrük almaqla məşğul olan dövlət müəssisəsi.
**GUAM** – 1997-ci ildə Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın birgə yaratdıqları təşkilat.
**GÜCLÜ AİLƏ** – Çində iri xüsusi torpaq sahibliyi.
**«GÜCLÜ AİLƏ»** – erkən orta əsrlərdə Çində iri torpaq sahibi.
**GÜLƏBƏTİN** – tel halına salınmış qızılı, gümüşü və bürüncü sap. Bu saplarla ağır parçalar üzərində tikmə növü.
**GÜLƏRGİN** – Oğuz dövlətində hökmdarın (yabqunun) naibi və ya vəkili.
**GÜLÜSTAN QALASI** – Azərbaycanda orta əsr qalası. Şamaxı ərazisindədir. 9-cu əsrdən mövcuddur.
**GÜLÜSTAN MƏLİKLİYİ** – XVIII-XIX əsrlərdə Qarabağın dağlıq ərazisində yaranmış feodal hakimliyi.
**GÜLÜSTAN MÜQAVİLƏSİ** – 1813-cü il oktyabr ayının 24-də *(noyabrın 5-i)* Gülüstan kəndində Rusiya ilə İran arasında bağlanmış müqavilə.
**GÜLÜSTAN TÜRBƏSİ** – orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi. XIII əsrin əvvəllərində Naxçıvanın Çuğa kəndinin yaxınlığında tikilmişdir.
**GÜMRÜ** – Qərbi Azərbaycanda mövcud olan Azərbaycan şəhəri. Rusiya işğalı və Sovet rejimi dövründə əhalisi soyqırımı və repressiyalara məruz qalaraq qovulmuş cüzi bir hissəsi erməniləşdirilmişdir.
**GÜNBƏZ** – yarımdairə şəklində dam; qübbə.



**GÜNƏMUZDÇULAR** – torpağı və daimi işi olmayan, yalnız gördükləri işə görə haqq alan adamlar.
**«GÜNƏŞ OĞLU»** – Qədim Misirdə fironu *(bax: firon)* müqəddəsləşdirib bu cür adlandırırdılar.
**GÜRDAN** *türk.* – gözəl deməkdir. Əmir Teymur çox vaxt adının sonuna bu sözü əlavə edirdi.
**GÜRCÜLƏR** – Gürcüstan ərazisində yaşayan əhali; millət, xalq.
**GÜRZ** – qədimdə silah kimi işlədilən baş tərəfi enli, ağır dəyənək; əmud.

# H

**HACİB** – orta əsrlərdə Şərq hökmdarlarının baş vəziri.
**HAKİM** – bir ölkənin başında duran, idarə edən şəxs (hökmdar, padşah, xan və s.)
**HAKİMİYYƏT** – 1. dövləti idarə etmək hüququ; 2. dövlət idarə orqanları, hökumət.
**HAKİMLİK** *bax* hakimiyyət.
**HAMPA** – iş heyvanı, istehsal alətləri və toxumu olan, feodaldan aldığı torpaq sahəsini özü becərən kəndli.
**HAMMURAPİ** – (e.ə.1792-1750) Babil hökmdarı. Mərkəzi hakimiyyəti möhkəmləndirmiş, qanunlar vermişdi. Bu qanunlarda xüsusi mülkiyyətin, insanların hüquqlarının möhkəmləndirilməsi və təbiətin qorunması məsələlərinə xüsusi diqqət yetirilmişdi.
**HANZA** *alm.* – XV-XVII əsrlərdə Lübek şəhəri də olmaqla şimali alman şəhərlərinin siyasət, ticarət və s. ittifaqı, birliyi.
**HEFEST** – qədim yunanlarda dəmirçiliyin himayəçisi olan allah. Qədim yunanlar alov və tüstü püskürən vulkanları onun yeraltı dəmirçixanasının çıxış yolları hesab edirdilər.

**HEGEMONLUQ** - hakimiyyət, ağalıq.

**HERALDİKA** *lat.* – gerbşünaslıq (ən qədim dövrdən hazırlanmış gerblərin, nişanların, möhürlərin tarixinin təsviri və onların öyrənilməsindən bəhs edə elm).

**HERİYƏ QOYULMUŞ** – payızlıq və ya yazlıq taxıl əkmək üçün boş saxlanılan tarla.

**HERMES** *yun.* – qədim yunan əsatirində: ticarəti, yolları, sürüləri, himayə edən, qoruyan allah.

**HERODOT** – e.ə. V əsrdə yaşamış qədim yunan tarixçisi. «Tarix» adlandırılmış əsəri Yunan-İran müharibələrinə həsr olunmuşdur. Herodotu «tarixin atası» adlandırmışdılar. **HEROQLİF** *yun.* – «Müqəddəs yazılar» deməkdir. Qədim Misir, Çin əlyazmasında: bütöv məfhumu və ya hecanı ifadə edən yazı işarələri.

**HERSOQ** *alm.* – 1. Qərbi Avropada yüksək zadəgan, knyaz titulu //belə titulu olan adam; 2. orta əsrlərdə iri feodal.

**HERSOQLUQ** – 1. başında hersoq duran feodal dövləti; 2. hersoq titulu.

**HEYDELBERQ ADAMI** - qazıntı insan formalarından biri. 1907-ci ildə alman antropoloqu O.Şötenzak tərəfindən Almaniyanın Heydenberq şəhəri yaxınlığında tapılmış alt çənə sümüyündən ibarətdir.

**HƏBSXANA** – dustaqların saxlandığı yer; dustaqxana.

**HƏBSXANAÇI** – həbsxana nəzarətçisi.

**HƏCC** – müsəlmanlarda: Zilhiccə ayında Məkkəni ziyarət edib, orada qurban kəsməkdən ibarət dini mərasim.

**HƏMLƏ** *bax* hücum.

**HƏMRƏYLİK** – hər hansı bir ictimai hərəkətə və ya fikrə fəal surətdə hüsn-rəğbət göstərmə; mənafe birliyi.

**HƏRB** – müharibə, döyüş, savaş.

**HƏRBÇİ** – 1. hərbi xidmətdə olan adam; 2. militarist.



**HƏRBİ** – 1.hərbi müharibəyə aid olan; əsgəri; 3. *bax* hərbçi.

**HƏRBİ DEMOKRATİYA** – ibtidai icma quruluşunun son dövründə öz həmtayfalarının hesabına yaşayan yuxarı hərbi dairələrin tayfa işlərinə rəhbərlik etməsi.

**HƏRBİ ƏSİR** – döyüşən tərəfin hərbi qüvvələrinə məxsus olub düşmənin hakimiyyəti altına düşən şəxs.

**HƏRBİ GƏRGİNLİYİN ZƏİFLƏDİLMƏSİ** – bərabərlik və eyni dərəcəyə təhlükəsizlik prinsiplərinə uyğun olaraq sürətlə silahlanmanın məhdudlaşdırılmasına və dayandırılmasına, silahlanmanın mövcud səviyyəsinin aşağı salınmasına, həmçinin güc tətbiq olunmasına və dövlətlərarası münasibətlərdə zorla qorxutmağın istisna edilməsinə dair ikitərəfli və çoxtərəfli işlənməsi və əməli olaraq həyata keçirilməsi prosesi.

**HƏRBİ KOMMUNİZM** (məcazi mənada) – təsərrüfat dağınıqlığı və müharibə dövrünün çətinlikləri ilə əlaqədar olaraq 1918-1920-ci illərdəki vətəndaş müharibəsi dövründə Sovet hökumətinin iqtisadi siyasəti.

**HƏRBİ MÜKƏLLƏFİYYƏT** – 18 yaşdan yuxarı öz ölkəsinin silahlı qüvvələrində qanunla müəyyən edilmiş hərbi xidmət borcu.

**HƏRBİYYƏ** *köhn.* – 1. hərbi və əsgəri işə baxan dövlət idarəsi; 2. *bax* hərbi.

**HƏRBİYYƏLİ** – hərbi xidmətçi, əsgəri xidmətdə olan.

**HƏRC-MƏRCLİK** – anarxiya; qarışıqlıq, nizam-intizamsızlıq, özbaşınalıq.

**HƏRƏM** – hərəmxana *(bax)* qadınlarından hər biri.

**HƏRƏMXANA** – sarayda hərəmlərin yaşadığı otaqlar, bina.

**HİCRƏT** – müsəlmanların peyğəmbəri Məhəmmədin və onun tərəfdarlarının 622-ci il 16 iyulda Məkkədən Mədinəyə köçməsi (müsəlman tarixi bu vaxtdan başlanır) *bax* hicri tarix.

**HİCRİ** – hicrətə aid, hicrətə *(bax)* mənsub

**HİCRİ-TARİX** – Məhəmmədin Məkkədən Mədinəyə köçdüyü vaxtdan hesablanan müsəlman təqvimi.

**HİCRİ TƏQVİM** – Hicrətdən başlanan müsəlman təqvimi. Hicri təqvimi iki növdür: hicri-qəməri və hicri-şəms. Hicri-qəməri təqvimin ayları bunlardır: 2. Məhərrəm; 2. Səfər; 3. Rəbiüləvvəl; 4. Rəbiülaxır; 5. Cəmadiyüləvvəl; 6. Cəmadiyülaxır; 7. Rəcəb; 8. Şəban; 9. Ramazan; 10. Şəvval; 11. Zilqədə; 12. Zilhiccə.

**HİTLERÇİ** – Hitler tərəfdarı, alman faşisti (alman faşisti Adolf Hitlerin adı ilə bağlıdır).

**HİTLERİZM** – Almaniyada 1933-1945-ci illərdə A.Hitlerin başçılıq etdiyi faşist diktaturası, habelə faşist diktaturası ideologiyası.

**HOFMARŞAL** *alm.* – çar Rusiyasında: saray naziri.

**HOFMEYSTER** *alm.* – çar Rusiyasında: çar dəftərxanasına, xəzinəsinə rəhbərlik edən yüksək rütbəli məmur.

**HOPLİTLƏR** *yun.* – qədim Yunanıstan (Afina) ordusunda ağır silahla silahlanmış piyada əsgərlər.



**HOMER** – qədim yunan şairi. E.ə. XII-VII əsrlər arasındakı dövrdə yaşadığı ehtimal olunur. Onun yaratdığı «İliada» və «Odisseya» poemaları Qədim Yunanıstanın sosial-siyasi, iqtisadi münasibətlərini və mənəvi mədəniyyətini öyrənmək baxımından müstəsna əhəmiyyətə malikdir.

**HOMİNDAN** *çincə* – «milli partiya» deməkdir.

**HOMO** – «ağıllı adam», «dərrakəli adam». 40 min il bundan əvvəl təşəkkül tapıb, müasir insana oxşamağa başlayıb.

**HOMSTEDLƏR** *ing.* – boş ev, yer deməkdir.

**HOMSTEDLƏR HAQQINDA QANUN** – ABŞ-da vətəndaş müharibəsi zamanı 1862-ci ilin mayında verilmiş qanun. Bu qanuna əsasən 21 yaşına çatmış hər bir ABŞ vətəndaşı pulsuz olaraq 160 akr torpaq sahəsi ala bilərdi.

**HÖKMDAR** – padşah, şah, hakim.

**HÖKMDARLIQ** – padşahlıq, şahlıq, hakimiyyət.

**HÖKMDARLIQ** – padşahlıq, şahlıq, hakimiyyət.

**HUMANİST** *lat.* – humanizm *(bax)* tərəfdarı; insanpərvər.

**HUMANİZM** *lat.* – renessans dövründə mütərəqqi ictimai və ədəbi cərəyan; insanpərvərlik, insaniyyətə hörmət.

**HUNLAR** – IV-V əsrlərdə Asiyadan gəlib Avropaya basqın etmiş türkdilli köçəri tayfalar.

**HÜCRƏ** – dini binalarda kiçik otaq.

**HÜCUM** – qoşunların düşmənə qarşı apardığı hərbi əməliyyat; həmlə.

**HÜQUQİ DÖVLƏT** – vətəndaşların hüquq və azadlıqlarının təmin edildiyi və müdafiə olunduğu hər hansı bir dövlət.

**HÜQUQŞÜNAS** – hüquqşünaslıq *(bax)* mütəxəssisi.

**HÜQUQŞÜNASLIQ** – 1. hüquq elmlərinin məcmusu; 2. hüquqşünasın ixtisası, sənəti, peşəsi.

**HÜLAKÜ (ELXANİLƏR) DÖVLƏTİ** – (1257-1357) «Monqolların (1253-1257)-ci illərdə işğal etdikləri ərazidə yaranmış beşinci monqol ulusu. Hülakü dövləti Azərbaycanda bir əsr (1257-1357-ci illər) fəaliyyət göstərmişdir.

**HÜLAKÜLƏR** *bax* elxanilər.

**HÜMMƏT** – 1904-cü ilin axırlarında RSDFP Bakı Komitəsi yanında yaradılmış sosial-demokrat qrupu.

**HÜRRİYYƏT** – azadlıq.

**HÜRRİYYƏTPƏRƏST** *bax* hürriy-yətpərvər.

**HÜRRİYYƏTPƏRVƏR** – azadlıqsevər, hürriyyətpərəst.

**HÜRUFİLƏR** – Mesopotamiyada yaşamış qədim xalq.

**HÜRUFİLİK** – XVI əsrdə Azərbaycanda meydana gəlmiş, Quranın hərflərindən bir sıra məna və hökmlər çıxaran təriqət.

**XAQAN** – qədim monqol və türk hökmdarlarına verilən ad, titul.

**XAQANLIQ** – 1. hökmdarlıq, padşahlıq; 2. Xaqanlıq hökmü altında olan ölkə.

**XALDLAR** – Van gölü həvalisində yaşamış və miladdan əvvəl XIV-XVII əsrlərdə URARTU dövlətində hakimiyyət sürmüş tayfa.

**XALXAL** – Qafqaz Albaniyasında erkən orta əsr şəhəri.

**XALXAL VURUŞMASI** – 450-ci ildə sasani əsarətində qarşı üsyan etmiş alban (Qafqaz), erməni və iberlərlə İran qoşunu arasında vuruşma.

**XALİSƏ** – XIX əsrdə Cənubi Azərbaycanda dövlət torpaqları.

**XALQ** – 1. bir ölkənin bütün əhalisi; 2. insan birliyinin tarixi formalarından biri. Etnik inkişaf vaxtından qəbilə və tayfa birliyinin davamı. Xalqı vahid ərazi, dil, din, adət-ənənə və mədəniyyət birləşdirir; 3. xalqa, ölkəyə aid olan.

**XALQ KOMİSSARI** *köhn.* – xalq komissarlığına rəhbərlik edən hökumət üzvü.

**XALQ KOMİSSARLIĞI** – 1918-46-cı illərdə həyatın müəyyən sahəsinə rəhbərlik edən mərkəzi orqan.

**XALQ TƏSƏRRÜFATI** müəyyən ölkənin tarixən yaranmış istehsal sahələri kompleksi.

**XALQ TRİBUNU** – Qədim Romada plebeylərdən seçilən vəzifəli şəxs. Xalq tribunu pleybeylərin hüquqlarını müdafiə edir və onların xeyrinə qanunları həyata keçirirdilər. Xalq tribununun öldürülməsi Qədim Romada ən ağır cinayət hesab edilirdi.

**XALQ TRİBUNU** – xalqın mənafeyini müdafiə edən, onun adından danışan seçilmiş şəxs.

**XALQÇI** – xalqçılıq tərəfdarı.



**XALQÇILIQ** – XIX əsrin 2-ci yarısında Rusiyada xırda burjua ziyalılarının, kəndli icmasını idealizə və fəhlə sinfinin rəhbərlik rolunu inkar edən ictimai-siyasi hərəkatı.

**«XALQLARIN BÖYK KÖÇÜ»** – Böyük Hun imperatorluğunun dağıdılmasından sonra hun tayfalarının, alanların, qotların və s. xalqların Mərkəzi və Qərbi Avropaya köç etməsi. «Xalqların böyük köçü» eramızın VI əsrinə qədər davam etmişdir. VI əsrdə slavyanların Bizans imperiyası ərazisində məskunlaşması ilə başa çatmışdır. «Xalqların böyük köçü»ndə türklər böyük rol oynamışdır.

**XALQŞÜNAS** *bax* etnoqraf.

**XALQŞÜNASLIQ** *bax* etnoqrafiya.

**XALVAR** – Azərbaycanın müxtəlif yerlərində müxtəlif ağırlıqda olan köhnə çəki ölçüsü (25 pud).

**XAMMAL** – sənaye malları hazırlamaq üçün lazım olan mal və materiallardır.

**XAN** – orta əsrlərdə Şərq ölkələrinin bir çoxunda feodal hakimlərin titulu və bu titulu daşıyan şəxs.

**XANƏDAN** – qohumluq ya vərəsəlik hüququna əsasən taxtda ardıcıl surətlə bir-birini əvəz edən hökmdarlar sülaləsi.

**XANƏDANLIQ** – böyük bir sülaləyə mənsubiyyət.

**XANLIQ** – 1. hakimlik; 2. xana məxsus, xana mənsub; xanın idarəsi altında olan məmləkət, ölkə, ərazi.

**XANZADƏ** *köhn.* – xan oğlu, xan nəslindən olan adam.

**XARAQ** – Sasanilər dövründə məhsulun 1/3-dən yarısına qədərini təşkil edən torpaq vergisi.

**XARƏZM** – «Günəş ölkəsi» deməkdir. Özbəkistanda tarixi vilayət.

**XARƏZMŞAHLAR DÖVLƏTİ** – Eftalitlər dövlətinin süqutundan sonra Mərkəzi Asiyada yaranmış dövlət (VI əsr). Bu dövlətin ərazisi Aral qolunun cənubundan başlayaraq Amudəryanın şimal

sahillərinədək geniş bir sahəni əhatə edirdi. Varlığına monqollar son qoymuşlar.

**XARİCİLƏR** – 1. bir dövlətin ərazisində yaşayan, lakin başqa dövlətin vətəndaşlığında olan şəxslər; 2. VIII əsrdə xilafətə qarşı ölkənin mərkəzində üsyan qaldıran, xəlifələrin seçki yolu ilə təyinini istəyən dini təriqətin tərəfdarları.

**XARTİYA** *yun.* – 1. dilçilik termini kimi: papirus və ya perqamentdə qədim əlyazması; 2. bu yazının yazıldığı material; 3. ictimai-siyasi cəhətdən əhəmiyyəti olan bəzi sənədlərin adı; bəzən çox mühüm məsələləri özündə əks etdirən sənədləri, eləcə də konstitusiyanı belə adlandırırdılar.

**XASSƏ** – Xilafətdə sülalə üzvlərinə məxsus olan torpaqlar.

**XƏDİV** – 1. Misirin Türkiyəyə tabe olduğu dövrdə Misir valisinə verilən ünvan (1867-1914-cü illər); 2. Misirdə canişindən yüksəkdə olan vəzifə.

**XƏFİYYƏ** – 1. xəfiyyə idarəsinin məmuru, gizli agent; 2. casus, agent.

**XƏFİYYƏ İDARƏSİ** – çar Rusiyasında və bir sıra ölkələrdə: cinayətkarı, habelə inqilabi hərəkat iştirakçılarını güdmək, axtarıb-tapmaqla məşğul olan gizli polis idarəsi.

**XƏFİYYƏÇİ** – xəfiyyə məmuru, xəfiyyə agenti.

**XƏLƏT** – 1. zərli-qızılı şah paltarı; 2. mükafat, bəxşiş.

**XƏLFƏ** – mollaxanada nizam-intizamı qorumaq üçün mollanın təyin etdiyi sinif başçısı.

**XƏLİFƏ** – bəzi müsəlman ölkələrində Məhəmməd peyğəmbərin vəkili və bütün müsəlmanların başçısı və hamisi sayılan şəxslərə verilən yüksək dini ünvan (xəlifələr Məhəmməddən sonra işğalçı müharibələr nəticəsində yaradılmış ilk dövlətlərdə həm dünyəvi, həm də dini hakimiyyətə malik olmuşlar: vaxtilə Türkiyə sultanları da bu adı daşımışlar); müavin, varis, xələf. Məhəmməd peyğəmbərin ölümündən sonra (632) dövləti idarə edən şəxs belə adlanırdı.



**XƏLİFƏLİK** – 1. xəlifənin hakimiyyəti altında olan yerlər, məmləkətlər; 2. xəlifə ünvanı (titulu).

**XƏMSƏ** – «beşlik».

**XƏRAC** – orta əsrlərdə İslam ölkələrində müsəlman əhalidən alınan əsas torpaq vergisi. «Mal». «malcəhət», «bəhrə», bac terminlərinin sinonimidir.

**XƏRİTƏ** – Yer səthinin coğrafi vəziyyətinin kağız və s. üzərində təsviri.

**XƏRİTƏÇİ** – xəritə tərtib edən mütəxəssis.

**XƏTTAT** – gözəl xətti olan adam, gözəl yazan adam.

**XƏTTATLIQ** – gözəl xətlə aydın və ifadəli yazmaq sənəti.

**XƏZƏRLƏR** – V-X əsrlərdə Aşağı Volqadan Qafqaza və Qara dənizin şimal hissəsinə qədər olan ərazidə dövlət qurmuş türkdilli xalq.

**XƏZİNƏ** – bir dövlətə məxsus pul, sərvət, torpaq və s. qiymətli vəsaitin hamısı.

**XIRDA BURJUAZİYA** – şəhər və kəndlərin xırda mülkiyyətçilər sinfi; yalnız öz əməyi ilə yaşayır.

**XIŞ ƏKİNÇİLİYİ** – torpağın xışla şumlanması (Qips dövründə).

**XİDMƏTÇİ** – qulluqçu, nökər *(bax)*.

**XİLAFƏT** – ərəb xəlifələrinin hakimiyyət dövrü; xəlifəlik //ərəb istilaları nəticəsində yaranmış, başında xəlifənin durduğu feodal dövlət.

**XİLAFƏT** – əsasını VII əsrin əvvəlində Məhəmməd peyğəmbərin yaratdığı dövlət təşkil edən feodal ərəb – müsəlman dövlətinin tarix ədəbiyyatında adı.

**XİTON** *yun.* – 1. qədim yunanlarda: uzun köynəyə oxşar geyim; 2. yüngül parçadan tikilmiş klassik balet kostyumu.

**XLAMİDA** *yun.* – qədim yunanlarda plaşaoxşar paltar.

**XOSTAK** – Albaniyada xidmət müqabilində müvəqqəti istifadə üçün verilən torpaq sahibliyi.

**XOTKAR** *köhn.* – hökmdar, padşah.

**XOTKARLIQ** *köhn.* – hökmdarlıq, padşahlıq.

**XRİSTİAN** *yun.* – 1. xristian dininə mənsub adam; 2. xristian dini.

**XRİSTİANLIQ** – 1. əsasını İsaPeybəmğərə sitayiş təşkil edən din; 2. xristianlar.

**XRONİKA** *yun.* – il ərzində bir yerdə baş verən tarixi hadisələri qeydə alan kitab və s.; salnamə *(bax)*.

**XRONOLOGİYA** *yun.* – 1. tarixi hadisələrin vaxt ardıcıllığı ilə yazılışı; 2. tarix; 3. hadisələrin baş verdiyi, yaxud sənədlərin yazıldığı vaxtı müəyyən edən yardımçı tarix fənni.

**XRONOLOGİYA** *yun.* – qədim təqvimlərdən istifadə etmək, onları müasir təqvimə çevirib, tarixi hadisələrin ardıcıllığını müəyyənləşdirməklə məşğul olan elm sahəsi.

**XUNTA** – bəzi ölkələrdə ictimai-siyasi təşkilat və birləşmələrin adı; hərbi çevriliş zamanı dövləti idarə edən hərbçilər dəstəsi.

**XUNTAÇI** – xunta iştirakçısı.

**XURAFAT** – mövhumat, etiqadlar.

**XÜMS** – İslamda: varlı adamın öz gəlirinin beşdə bir hissəsi miqdarından kasıblara verməli olduğu vergi; Xilafətdə daşına bilən əmlakdan alınan vergi.

**XÜRRƏMİ** *(qədim pəhləvi dilində)* – əbədi od və günəş deməkdir.

**XÜRRƏMİLƏR** – Ərəb xilafətinə, zülmünə qarşı yönəlmiş, milli azadlıq xarakteri daşıyan hərəkat. Hərəkata 816-838-ci illərdə Babək başçılıq edib. Xürrəmilərin ilk üsyanı 778-ci ildə, 2-ci üsyan 808-816-cı illərdə olmuşdur.

**XÜRRƏMİLƏR HƏRƏKATI** – Azərbaycanda və bəzi qonşu ölkələrdə Xilafətə qarşı geniş xalq azadlıq hərəkatı (VIII-IX əsrlər). Xürrəmilər cəmiyyətdəki ədalətsizliyin kökünü sosial və mülki bərabərsizlikdə görürdülər, onlar maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək istəyirdilər. Xürrəmilərə 816-cı ildən Babək başçılıq etməyə başladı. Babəkə qədər xürrəmilər 778 və 808-ci illərdə üsyan qaldırmışdılar. 808-ci ildə baş vermiş üsyana Cavidan başçılıq edirdi. Xürrəmilər hərəkatı 837-ci ildə yatırıldı və 838-ci illərdə Babək edam edildi. Hərəkat məğlub olsa da, onun təsiri nəticəsində Xilafət əsaslı şəkildə sarsıldı, əvvəlki mövqeyini bir daha bərpa edə bilmədi.

**XÜRRƏMİLİK** – Abbassilər xilafətinə qarşı Azərbaycanda və başqa qonşu ölkələrdə yaranmış təriqət.

**XÜSUSİ CƏNUBİ QAFQAZ KOMİTƏSİ** – müvəqqəti hökumətin göstərişi ilə 1917-ci il martın 9-da yaradılan Qafqazda hakimiyyət orqanı.



## İ

**İBADƏT** – 1. dua oxuma, namaz qılma şəklində icra edilən dini ayın; kult; 2. *bax.* sitayiş.

**İBADƏTGAH** *bax* ibadətxana.

**İBADƏTXANA** – ibadət yeri, ibadət edilən yer; ibadətgah.

**İBERİYA** – qədimdə İspaniyanın (e.ə. III əsrin sonu - II əsrdə Roma tərəfindən işğalına qədər) adı.

**İBERLƏR** – əvvəllər Şərqi və Cənubi İspaniya ərazisində məskunlaşmış, sonralar isə Pireney yarımadasının xeyli hissəsinə yayılmış qədim tuddetan, turdul, bastetan, karpeman və başqa tayfalar.

**İBTİDAİ İCMA QURULUŞU (CƏMİYYƏTİ)** – insanların sürü və qəbilə icması halında birləşdikləri yaşayış qaydası; insan cəmiyyətinin ilk ictimai-iqtisadi quruluş forması.

**İCARƏ** – müəyyən şərtlər əsasında əmlakın müvəqqəti istifadəyə verilməsi, ya alınması, arenda, kirayə (icarə dedikdə torpağa, digər təbii ehtiyatlara, müəssisələrə və ayrıca götürülmüş komplektlərə, habelə müstəqil təsərrüfat və digər fəaliyyət üçün lazım olan əmlaka müqavilə əsasında, əvəzi ödənilməklə müddətli sahib olmaq və onlardan istifadə etmək başa düşülür. Bir tərəf hər hansı əmlakı müəyyən haqq ödənilməklə digər tərəfə *(kirayəçiyə)* müvəqqəti istifadə üçün verməyi öhdəsinə götürür).

**İCARƏÇİ** – birinin mülkünü və s.-ni icarəyə götürən adam: icarəçi arendaçı, arendator, icarədar.

**İCARƏDAR** *bax* icarəçi.

**İCMA** – 1. qədimdə: hər hansı bir ərazi daxilində yaşayan əhalinin özünüidarə hüququna malik birliyi, təşkilatı; kəndli icması; 2. *köhn.* cəmiyyət, təşkilat, ittifaq.

**İCMA TORPAQ** – kəndlərdə əhaliyə məxsus əkin yerləri, biçənək, otlaq.

**İCMAÇI KƏNDLİLƏR** – qonşuluq icmasının üzvləri.

**İCTİMAİ** – 1. insan cəmiyyətinə aid olan; 2. kollektivin siyasi, mədəni, həmkarlıq və s. ehtiyaclarına könüllü xidmətlə bağlı olan.

**İCTİMAİ ƏMƏK** – insanların cəmiyyətin iqtisadi tələbatını ödəməyə yönəldilmiş fəaliyyəti.

**İCTİMAİ ƏMƏK BÖLGÜSÜ** – yalnız müəyyən bir peşə ilə məşğul olmaq. Qədim və orta əsrlər dövründə əkinçiliyin maldarlıqdan, sənətkarlığın kənd təsərrüfatından ayrılaraq müstəqil təsərrüfat sahəsinə çevrilməsi mənasında işlədilir.

**İDEALİST** *fr.* – 1. idealizm cərəyanının tərəfdarı; 2. idealizmə aid olan.

**İDEALİZM** *fr.* – bütün varlığın əsasını materiya deyil, ideya, ruh təşkil etdiyini iddia edən mürtəce, materializmə zidd fəlsəfi cərəyan (materializmə zidd cərəyan).



**İDXALAT** – daxili bazarda satmaq üçün başqa ölkələrdən əmtəə gətirilməsi. İxracatın əksi.

**İFLAS** – bankın, ticarətin və s.-nin borc iltizamlarını vaxtında ödəyə bilməməsi nəticəsində müflis olması.

**İXRACAT** – 1. əmtəələrin xarici bazarda satılması üçün ölkədən xaricə aparılması. İdxalatın əksi; 2. ümumi və müxtəlif vergi, mükəlləfiyyətlərin məcmusu mənasında işlənən söz (XVII əsrdə Azərbaycanda).

**İKİHAKİMİYYƏTLİLİK** – bir ölkədə eyni zamanda iki hakimiyyətin olduğu vəziyyət.

**İKİNCİ İCTİMAİ ƏMƏK BÖLGÜSÜ** – sənətkarlığın inkişaf edərək əkinçilik və mardarlıqdan ayrılması. Müstəqil sahəyə çevrilməsi.

**İKONA** *yun.* – təsvir, obraz, dini sitayiş obyekti. İsanın, Məryəm ananın və digər müqəddəslərin təsvirini verən boyakarlıq əsəri, pravoslav və katolik dinlərdə yayılmışdır. Geniş mənada xristian-lıqda müqəddəslərin təsviri. Erkən xristianlıqda ikona ayini yox idi. O, II əsrdə yaranmışdır. İkonlara sitayiş qədim bütpərəstlərin qalığıdır.

**İKONOBORÇULUQ** – VIII-IX əsrlərdə Vizantiyada meydana çıxmış, ikonalara sitayiş etməyə zidd olan dini cərəyan.

**İQTA** – orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində feodallara verilmiş şərti torpaq mülkiyyəti; torpaq sahəsi. VII əsrin sonlarından XIX əsrin I yarısınadək mövcud olmuşdur.

**İQTADAR** – iqta sahibi.

**İQTİSADİ BLOKADA** – blokadaya alınan dövlətin iqtisadi cəhətdən təcrid edilməsi.

**İQTİSADİ BÖHRANLAR** – istehsal həcminin kəskin azalması, işsizliyin sürətlə artması, səhmlərin məzənnəsinin aşağı düşməsi.

**İQTİSADİ İNTEQRASİYA** – təsərrüfat həyatının beynəlmiləlləşdirilməsi forması,

milli təsərrüfatların bir-bi-rinə qarışması və dövlətlərarası razılaşdırılmış iqtisadi siyasətin aparılması.

**İQTİSADİ MÜSTƏQİLLİK** – özünün gücü, bacarığı ilə.

**İQTİSADİYYAT** – 1. istehsal münasibətlərin məcmusu, cəmiyyətin iqtisadi bazisi; 2. hər hansı bir ölkənin, regionun və s.-nin təsərrüfatının vəziyyəti.

**İQUMEN** *yun. köhn.* – kişi monastırının başçısı.

**İLAHİYYAT** – dini ehkamlardan bəhs edən sxolostik elm; din elmləri, teologiya.

**İLATİ** – elat *(bax: elat)* Cənubi Azərbaycanda torpaq mülkiyyəti forması. Şah tərəfindən dövlət qarşısında hərbi xidmətə görə oturaq və yarımköçəri həyat sürən ayrı-ayrı tayfalara verilirdi.

**İLBAŞI** *arx.* – qubernator, vali.

**İLCƏ** – ərəb feodallarına məxsus hami torpaqlar.

**İLDƏNİZLƏR** *bax* eldəgizlər.

**İLDƏNİZLƏR DÖVLƏTİ** *bax* eldəgizlər dövləti.

**İLDIRIM SÜRƏTLİ MÜHARİBƏ** – alman militaristlərinin rəqib üzərində ən qısa müddətdə tam qələbəyə nail olmaq məqsədi güdən müharibə nəzəriyyəsi.

**İLTİZAM (müqatiə)** – dövlətin gəlir sahəsini icarəyə verməsi. Rusiya hökumətinin Azərbaycanı işğal etdikdən sonra neft sahələrini müəyyən haqq müqabilində imkanlı adamların inhisarına verilməsi; icarəyə verilmə.

**İLOT(LAR)** *yun.* – 1. qədim spartada qullara verilmiş ad: təhkimli kəndli; 2.qul, kölə.

**İMPERATOR** *lat.* – hökmdarın ən yüksək titulu və bu titulu daşıyan şəxs, padşah. Romada Senat Pompeyə qalib gələn Sezara bu adı vermişdir; 2. hakirmiyyətə malik olan deməkdir. Dövlətin başında duran qeyri-məhdud hökmdar.



**İMPERATORLUQ** – 1. İmperatorun titulu, adı//İmperatorun hökmdarlıq etdiyi dövr; 2. bir imperatorun idarəsi altında olan dövlət, ölkə; hökmdarı imperator titulu daşıyan dövlət. Məsələn, çar imperatorluğu.

**İMPERİALİST** *fr.* –1.İmperializm və təcavüz siyasəti yürüdən inhisarçı kapitalın nümayəndəsi olan iri kapitalist; 2.imperialist monopoliyalar.

**İMPERİALİSTPƏRƏST** – imperializm tərəfdarı.

**İMPERİALİZM** *fr.* – kapitalizmin XIX əsrin axırında və XX əsrin əvvəlində daxil olduğu guya ən yüksək və axırıncı mərhələ; iri inhisarlarla səciyyələndirilən xammal mənbələri və xarici bazarlar uğrunda özgə ölkələri tutmaq, özgə xalqları istismar etmək, dünyanı yenidən bölüşdürmək üçün kapitalist ölkələri arasındakı müharibə siyasəti.

**İMPERİYA** *lat.* – hakimiyyət, dövlət başçısı monarx, imperatoru olan dövlət. Bir qayda olaraq, müstəmləkə torpaqlarına malik olur. Məsələn: Osmanlı imperatorluğu, Britaniya imperiyası, Rusiya imperiyası və s.

**İMPİÇMENT** – ABŞ-da, İngiltərədə və bir sıra başqa ölkələrdə dövlətin ali vəzifəli şəxslərini parlament məhkəməsinə cəlb etmək qaydası.

**İMTİYAZ** – hüquqi üstünlük.

**İNDULGENSİYA** *lat.* – katoliklərdə: «Cənnət qəbzləri» deməkdir. Orta əsrlərdə Qərbi Avropada günahların bağışlanması haqqında Roma papası adından pul ilə verilən fərman; indulgensiya katolik ruhanilərinin əlində varlanma vasitələrindən biri idi.

**İNFANT** *isp., port.* – İspaniya və Portuqaliyada kral ailəsi şahzadələrinin titulu.

**İNFANTERİYA** *ital. köhn.* – Qərbi Avropanın bir sıra ölkəsində qoşun növü kimi piyadaya verilən ad.

**İNFLYASİYA** *lat.* – həddindən artıq kağız pul buraxılması və bunun nəticəsində

pulun qiymətdən düşməsi (tədavül kanallarının izafi kağız pulla həddindən artıq dolması: inflayasiya pulun qiymətindən düşməsinə səbəb olur. Özünü malların qiymətinin və xidmət haqqının ümumi və qeyri-bərabər artmasında göstərir).

**İNGİLİSPƏRƏST** – özünü hər şeydə ingilislərə oxşadan adam; anqlofil.

**İNHİSAR** – 1. malı istehsal etmək və ya satmaq, yaxud ondan istifadə etmək hüququnun bir şəxsə, müəssisəyə, dövlətə məxsus olması; monopoliya; 2. kapitalın təmərküzləşdirilməsi əsasında yaradılan iri kapitalist birləşməsi; 3. məhdudlaşdırma. Fəaliyyətin hər hansı bir sahəsində müstəsna vəziyyət, dövlətin, təşkilatların, firmaların və sairənin müstəsna hüququ.

**İNHİSARÇI** –1. təsərrüfatın hər hansı bir sahəsində inhisar hüququndan istifadə edən; 2. iri kapitalist.

**İNKVİZATOR** *lat.* – 1. inkvizasiya məhkəməsinin üzvü; 2. zalım, cəllad, zülmkar.

**İNKVİZATORLUQ** – cəlladlıq, zalımlıq, zülmkarlıq.

**İNKVİZİSİYA** *lat.* – 1. öz düşmənləri ilə vəhşi və amansız üsullarla mübarizə etmək üçün katolik kilsəsinin XIII əsrin əvvəlində təşkil etdiyi məhkəmə – polis təşkilatı (kilsə təliminə qarşı çıxanları mühakimə etmək üçün Roma papasının yaratmış olduğu kilsə məhkəməsi); Bu məhkəmə XII-XIX əsrlərdə fəaliyyət göstərmişdir. İnkvizisiyanın bir idarə kimi fəaliyyət papa III İnnokentinin adı ilə bağlıdır; 2. zülm, əzab, işgəncə.

**İNQİLAB** – zorakı ictimai çevriliş; dövlət hakimiyyətinin hakim sinfin əlindən başqa sinfin, ictimai cəhətdən qabaqcıl sinfin əlinə keçməsi.

**İNQİLABÇI** – 1. inqilab hərəkatı iştirakçısı, inqilab xadimi; 2. inqilabi ideyalar daşıyan, inqilabi ruhda olan.



**İNQİLABÇILIQ** – inqilabi ruhda olma, inqilabçının fəaliyyəti, işi.

**İNQİLABİ** – 1. inqilaba aid olan, inqilab ruhlu; 2. inqilab ideyalarını ifadə edən/ /inqilabı həyata keçirməyə doğru yönəldilmiş, inqilab yaratmaq məqsədi daşıyan.

**İNQİLABİ MÜBARİZƏ** – inqilab yaratmaq məqsədi ilə aparılan mübarizə.

**İNQİLABİLƏŞDİRİLMƏK** – inqilabi ruhda dəyişdirilmək.

**İNQİLABİLƏŞDİRMƏK** – inqilabi ruhda hazırlamaq, inqilabi xarakter vermək.

**İNQİLOYLAR** *bax* yengiloylar.

**«İNSANAYAQLILAR»** – Yunanıstanda qullara verilən ad.

**İNSTİTUT** *lat.* – 1. bəzi ali məktəblərin, habelə elmi-tədqiqat müəssisələrin adı; 2. inqilabdan əvvəl imtiyazlı siniflərdən olan qızlar üçün qapalı məktəb.

**İNTERDİKT** *lat.* – orta əsrlərdə Roma papası tərəfindən, siyasi mübarizə məqsədi ilə müəyyən bir şəhərdə və ya ölkədə ayinlərin qadağan edilməsi.

**«İNTERNASİONAL»** *fr.* – beynəlxalq proletar himni, keçmiş Sov.İKP-nin və digər Kommunist və Fəhlə partiyalarının partiya himni. Mətninini E.Potye (1817) yazmış, P.Degeyter isə musiqisini bəstələmişdir.

**İNTİBAH (REZONANS)** – oyanış, oynama, canlama, dirçəliş, dirçəlmə, yüksəliş dövrü.

**İNTİBAH DÖVRÜ** – XV-XVI əsrlərdə Avropada elm və incəsənətin çiçəklənməsi, oyanması, yenidən yüksəlməsi dövrü.

**İNVESTİTURA** *lat.* – 1. vassalın və ya yepiskopun bir mülkə sahib olması və bu zaman keçirilən mərasim; 2. kimsə əmlakının yepuskopun ixtiyarına verilməsi.

**İNZİBATİ** – idarə sisteminə, icraedici hökumət orqanlarına aid olan.

**İNZİBATİ AMİRLİK** – hakimiyyətin vahid bir partiyanın əlində cəmlənməsi və idarə olunması.
**İNZİBATİ HÜQUQ** – daxili idarə sahəsində dövlət fəaliyyətinin qayda və üsullarını müəyyən edən.
**İONİK** – yuxarı hissəsi qoyun buynuzuna bənzər qıvrım naxışlı sütun.
**İONİK SÜTUNLAR** – qədim yunan materiallarının ucaltdıqları ictimai binaların tikintisində istifadə olunan sütunlar. Bu sütunların yuxarısı qıvrım qoyun buynuzlarına bənzəyirdi.
**İRQÇİLİK** – insan irqlərinin fiziki və psixi qeyri-bərabərliyi və irqi fərqlərin insan cəmiyyəti tarixinə və mədəniyyətinə həlledici təsiri haqqında müddəalara əsaslanan elmə zidd konsepsiyaların məcmusu.
**İRQLƏR** – müəyyən ərazidə tarixən əmələ gəlmiş, ümumi mənşəyə malik bioloji insan qrupları. Üç böyük irq var: avropoid (Avropa-Asiya), neqroid (zənci-avstaloid) və monqoloid (Asiya-Amerika).
**İRRASİONAL** – qeyri-səmərəli iş.
**İRRİQASİYA** *lat.* – süni suvarma (susuz torpaqların kanallar vasitəsilə suvarılması).
**İRSİ HAKİMİYYƏT** – hakimiyyətin atadan oğula, yaxud yaxın qohuma keçməsi.
**«İSKRA»** – 1900-cü ildə V.İ.Leninin yaratdığı ilk ümumi Rusiya gizli siyasi qəzet.
**İSKRAÇI** – 1900-cü ildə V.İ.Lenin tərəfindən təsis edilmiş «İskra» qəzeti qrupuna mənsub inqilabçı.
**İSLAHAT** *bax* reforma.
**İSLAHATÇI** *bax* reformaçı.
**İSLAM** – dünyada geniş yayılmış monoteist dinlərdən biri. VII əsrdə Məhəmməd peyğəmbər tərəfindən təsis edilmişdir; müsəlmanlıq; müsəlman.
**İSLAMİYYƏT** – İslam dini; müsəl-manlıq.
**İSPƏNCƏ** – Osmanlı dövlətində müsəlman olmayanlardan alınan can vergisi.



**İSRAİLLİLƏR** – qədim yəhudi tayfalarının ümumi adı.
**İSTİBDAD** *bax* zülm.
**İSTİBDADÇI** – zalım, qaniçən, qəddar, zülmkar.
**İSTİLA** – bir ölkəni zorla alma, ələ keçirmə, tutma.
**İSTİLAÇI** – istilaçılıq siyasəti yeridən, istila edən, iş-ğalçı.
**İSTİLAÇILIQ** – özgə torpağını, başqa ölkələri zorla ələ keçirmə, tutma; işğalçılıq.
**İSTİSMAR** – sinfi antoqinsit ictimai-iqtisadi formasiyalarda istehsal vasitələri mülkiyyətçilərinin özgə əməyi nəticələrini mənimsəməsi.
**İSTİSMARÇI** – başqasının zəhmətini mənimsəyən, özgəsini istimar edən//siniflər, cəmiyyət.
**İSTİSMARÇILIQ** – başqasını işlədərək zəhmətini istismar etmə.
**İSTORİOQRAF** *yun.*–1. istorioqrafiya; 2. *köhn.* tarixçi.
**İSTORİOQRAFİYA** *yun.* – 1. tarix haqqındakı biliklərin inkişafını öyrənən elm, tarixşünaslıq; 2.hər hansı bir dövrdə meydana gəlmiş, yaxud bu və ya digər dövrə və ya problemə həsr olunmuş tarixi əsərlərin məcmusu; tarixi mənbələr, tarixi biblioqrafiya.
**İSTORİZM** *bax* tarixizm.
**İŞĞAL** – başqa bir dövlət tərəfindən digər dövlətin torpağının tutulması; zəbt.
**İŞĞALÇI** – özgə torpağını zorla tutan, işğalçılıq siyasəti yeridən.
**İUDAİZM** – eramızdan əvvəl I minillikdə Fələstində yaranmış din; yəhdui dini.
**İYERARXİK** *yun.* – iyerarxiyaya aid, iyerarxiyaya əsaslanan.
**İYERARXİYA** *yun.* – aşağı rütbəlilərin yuxarı rütbəlilərə tabe olma qaydası.
**İYİRMİ YANVAR GÜNÜ** – 1990-cı ildə yanvarın 20-də Bakıda respublikamızın müstəqilliyi uğrunda nümayişə çıxanların rus orduçu tərəfindən qətlə yetirilməsi; qanlı qırğın günü.
**İZQOYLAR** – XI-XII əsrlərdə qədim Rusiyada: öz əvvəlki vəziyyətini itirdiyinə görə həyat vəsaitindən məhrum qalmış adamlar.

**«JAKERİYA» («YAKLAR» ÜSYANI)** – 1358-ci ildə Fransanın şimal-şərqində baş vermiş kəndli üsyanı. Fransada zadəganlıq kəndliləri həqarətlə «Jak» adlandırırdılar. Ona görə də bu üsyan «Jak» üsyanı adlanırdı. Üsyana Gilyom Kal başçılıq edirdi. Üsyan məğlub olsa da, qorxuya düşən feodalla mükəlləfiyyətləri artırmağa cürət etmədilər və kəndlilərin şəxsi asılılıqdan azad edilməsi sürətləndirildi.

**JANDARM** *fr.* – jandarmeriyaya (*bax*) xidmət edən polis məmuru.

**JANDARMALIQ** *bax* jandarmeriya.

**JANDARMERİYA** – hərbi təşkilatı olan və ölkə daxilində, orduda mühafizə funksiyalarını həyata keçirən polis idarəsi. İlk dəfə 1791-ci ildə Fransada yaradılmışdır; jandram idarəsi.

**JİRONDA** *fr.* – (Fransanın Jironda departamentinin adından) XVIII əsrdə Fransa burjua inqilabı dövründə iri burjuaziyanın mənafeyini əks etdirən və əksinqilab tərəfinə keçmiş olan siyasi qruplaşma.

**JİRONDİST(LƏR)** – Jironda partiyasının üzvü, Jironda tərəfdarı olanlar; jirondaçılar.

**JUPA** – cənub və qərb slavyanlarda: inzibati-ərazi vahidinin adı.

**JUPAN I** – isti arxalıq (polyaklarda və ukraynalılarda).

**JUPAN II** – vilayət hakimi.

**JÜRİ** *fr.* – münsiflər heyəti, hakəm.

**JÜZ** *qazaxca* – hissə, tərəf deməkdir. Qazax xanlığına daxil olan tayfa birliklərinin ərazisi.





**KABALİSTİKA** – orta əsrlərdə: sehr və müəmma haqqında yalançı elmlər və onlarla əlaqədar olan ayinlər; iudaizmdə mistik cərəyan.

**KABALYEROS** *isp.* – orta əsrlərdə İspaniyada cəngavərlərin ümumiləşdirilmiş adı.

**KABİNET** *fr.* – hökumət (hökuməti təşkil edən nazirlər heyəti).

**KAÇAL** – XVI-XIX əsrlərdə Polşada yəhudi icması.

**KADASTR** *fr.* – rəsmi orqanların, yaxud idarələrin tərtib etdiyi siyahı, reystr (cədvəl).

**KADET** *fr.* – inqilabdan (1917-ci ildən) qabaq Rusiyada: liberal-burjua konstitusiyaçı-demokratik partiyanın üzvü və ya tərəfdarı.

**KADET KORPUSU** – Rusiyada: zadəgan uşaqlarının oxuduğu qapalı orta hərbi məktəb.

**KADETLƏR** – Rusiyada əksinqilabçı liberal-monarxist burjuaziyanın əsas partiyası.

**KAĞIZKONAN** – Zəncan yaxınlığında şəhər; əvvəllər xunan adlandırılmışdır.

**KAHİN** – qədim misirlilərdə və israillilərdə: qeybdən xəbər verən adam.

**KAQAL** – XVI-XIX əsrlərdə Polşada yəhudi icması.

**KAQORTA** – qədim Romada təxminən 600 nəfərlik qoşun dəstəsi; Le-gionun onda biri.

**KALEDİNÇİLİK** – Don qoşun hökumətinin ataman A.M.Kaledinin başçılığı ilə qaldırdığı əksinqilabi qiyam. (1917 oktyabr – 1918 fevral.)

**«KALEVALA»** – karel və fin xalq eposu; epik və mərasim nəğmələri məcmusu.

**KALİTA** *rus.* – pul kisəsi. Olduqca xəsis və dövlətli rus knyazı II İvana verilən ləqəb.

**KALQA** – Həştərxan xalqında silahlı qüvvələrin baş komandanı.

**KALVİNİZM** – protestantlıq məzhəblərindən biri (banisi Kalvindir).

**KAMALÇILAR İNQİLABI** – 1918-23-cü illərdə Türkiyədə imperialist müdaxiləçilərinə və sultanlıq istibdadına qarşı burjua milli azadlıq inqilabı.

**KAMAN** – mezolit dövründən XVII əsrə qədər (bəzi xalqlarda XX əsrə qədər) ov və döyüş zamanı istifadə olunmuş silah.

**KAMARİLYA** *isp.* – monarxiya quruluşunda: öz intriqaları ilə dövlət işlərinə təsir edən saray adamlarından bir qrup.

**KAMER-KOLLEGİYA** – müxtəlif vergi işlərinə baxan dövlət idarəsi.

**KAMİZARLAR** *fr.* – Fransanın Langedok əyalətində 1702-1705-ci illərdə antifeodal kəndli-plebey üsyanının iştirakçıları.

**KAMPANİYA** *fr.* – 1. hərbi əməliyyat, hərbi yürüş; 2. növbəti mühüm ictimai-siyasi və ya təsərrüfat işlərini həyata keçirmək üçün tədbirlər.

**KANON** *yun.* – ehkamçı xarakter daşıyan müddəalar külliyyatı.

**«KANOSSAYA GETMƏK»** - XI əsrin sonunda Papa VII Qriqori ilə Almaniya imperatoru IV Hetrix arasında Almaniyada yepiskop təyin etmək hüququ üstündə şiddətli mübarizə baş verdi. Məğlub olan IV Henrix Kanossa qəsrinə gedərək, orada gizlənmiş papadan üzr istəmək məcburiyyətində qaldı. «Kanossaya getmək» ifadəsi hazırda «məcburiyyət qarşısında alçaldıcı güzəştə getmək» mənasını daşıyır.

**KANSLER** *alm.* – 1. orta əsr Avropa dövlətlərində möhürdar, kral dəftərxanasına və arxivə başçılıq edən şəxs; 2. Almaniyada və Avstriyada federal hökumət başçısı.

**KANTON** *fr.* – bəzi ölkələrdə (məsələn, Belçikada, Fransada, İsveçrədə) inzibati ərazi vahidi.

**KANTONÇULAR** – XIX əsrin I yarısında Rusiyada: təhkimçilik hüququna əsasən, doğulduğu gündən hərbi idarəyə təhkim edilib soldatlığa hazırlanan əsgər oğulları.



**KANTONİSTLƏR** *bax* – kantonçular.

**«KAPİTAL»** – K.Marksın əsəri.

**KAPİTAL** *alm.* – 1. kapitalistlərin muzdlu fəhlələri istismarı münasibətlərini ifadə edən iqtisadi kateqoriya; 2. maya pul.

**KAPİTALİST** *lat.* – 1. kapitalizm ictimai quruluşunda əsas siniflərdən biri; 2. çox varlı, çox dövlətli.

**KAPİTALİZM** *lat.* – 1. feodalizmdən sonra gələn ictimai quruluş; 2. kapitalizmə xas olan.

**KAPİTUL** *lat.* – çar Rusiyasında: orden verməklə məşğul olan idarə.

**KAPİTULYASİYA** *lat.* – «kapitus» yəni fəsil deməkdir. Kapitalist ölkəsi ilə yarımmüstəmləkə və ya asılı ölkə arasında bağlanılan və kapitalist ölkəsinin vətəndaşlarına bir sıra imtiyaz və üstünlüklər verən qeyri-bərabər müqavilə.

**KAPP QİYAMI** – 1920-ci ildə Almaniyada əksinqilabi çevriliş cəhdi.

**KAPRAL** *fr.* – 1. bəzi tarixçi dövlətlərin ordularının kiçik komandir heyətində əsgəri rütbə; 2. ***köhn.*** onbaşı.

**KARAİMLƏR** – Krımda, Polşada və Litvada yaşayan türkdilli xalq.

**KARAVELLA** – üç və ya dörd dorlu yelkənli gəmi.

**KARBONARİ** *ital.* – İtaliyada: yadellilərə qarşı və ölkənin birləşməsi üçün mübarizə aparan cəmiyyətin üzvü.

**KARDİNAL** *lat.* – Roma Katolik kilsəsində baş ruhani rütbəsi.

**KARE** *köhn.* – düşmənin hücumunu dörd tərəfdən dəf etmək üçün piyada qoşunun dördbucaq şəklində düzəlməsi.

**KARETA** *pol.* – hər tərəfi örtülü, dördtəkərli minik arabası.

**KAROLİNQLƏR** *lat.* – Frank dövlətində kral və imperator sülaləsi (Böyük kralın adı ilə əlaqədardır). 751-ci ildə Merovinqləri əvəz etmiş, 10 əsrədək hakimiyyətdə olmuşlar.

**KARSAR** *ital.* – dəniz quldu-ru (Təqribən XIV əsrdən italyanların Şimali Afrika də-niz quldurlarına verdiyi ad).
**KARTEL** *fr.* – 1. iri kapita-list səna-yesinin inhisarçı bir-ləşməsi; 2. bəzi ölkələrdə si-yasi partiyalar arasında uz-laşma və ya onların birləş-məsi.
**KARVAN** – keçmişdə bir sıra Şərq ölkələrində, o cüm-lədən Azərbaycanda mal və adam daşıyan dəvə, at və s. yük heyvanlarından ibarət dəstə, qafilə.
**KARVANSALAR** – Hülakü-lər dövründə karvanlar qul-dur təcavüzlərindən qorun-maq üçün yaradılmış silahlı mühafizə dəstəsinin başçısı.
**KARVANSARA** – karvanla-rın və yolçuların qalması üçün xüsusi bina, karvanla-rın dayanacaq yeri.
**KASİK** *isp.* – 1. Meksikada, Qərbi Hindistanda və Mər-kəzi Amerikada hindi başçısı (ispan istilasına qədər); 2. bir sıra Latın Amerikası ölkələ-rində və İspaniyada yerli dairədə nüfuzlu, sözükeçən, ağsaqqal adam.
**KASPİ DƏNİZİ** – Xəzər dənizinin qədim adı.
**KASPİANA** – Azərbaycanda Xəzər dənizi sahilində tarixi vilayət. Kaspilərin (*bax*) adı ilə bağlıdır.
**KASPİLƏR** – Qafqaz Alba-niyasında, Xəzər dənizi sahi-lində yaşamış tayfa.
**KASTA** *port.* – silk, qrup, təbəqə (ancaq öz silki və qrup imtiyazlarını güdən ic-timai qrup).
**KASTALAR** *yun.* – Hin-distanda qəti müəyyənləşdi-rilmiş hüquq və vəzifələri olan insan qrupları.
**KAŞTAN** – Tatarıstanda və Bolqarıstanda quberniya və qəza idarələri ilə rus dilini bilməyən yerli əhali arasında vasitəçi.
**KATAKOMBA** *ital. əsli yun.* – qədim qəbir abidələrinin bir növü. Qədimdə ölü bas-dırmaq və ya daldalanmaq üçün yeraltı mağara, yeraltı sərdabə.



**KATAPULTA** *lat. əsli yun.* – qədim romalılarda iri daşları uzağa atan qurğu, man-canaq.
**KATEXİZİS** *yun.* – xristian-ların şəriət kitabı (dərslik).
**KATOLİK** *yun.* – katolik dinina mənsub adam.
**KATOLİK KİLSƏSİ** – 1054-cü ildə xristian kilsəsi qərb və şərq kilsələrinə par-çalandı. Qərb kilsəsinin 1054-cü ildən adı: xristian kilsə-sidir.
**KATORQA** *yun.* – istismarçı dövlətlərdə məhbusları ağır əməyə cəlb etməklə bağlı xüsusi cəza növü.
**KATTA** *bax* kəndxuda.
**KATTALIQ** *bax* kəndxudalıq.
**KAUTİSÇİLİK** – marksiz-mə, proletar diktaturasına düşmən olan cərəyan.
**KAVALER** *fr.* – 1. ordenlə təltif olunmuş adam; 2. 1917-ci il inqilabından əvvəl çar Rusiyasında və hazırda xa-rici ölkələrdə: hər hansı bir ordenin (cəmiyyətin) üzvü olan və həmin cəmiyyətin nişanını gəzdirən adam.
**KAVALER** *ing.* – «cəngavər» deməkdir. İngiltərədə vətən-daş müharibəsi dövründə kral tərəfdarlarına verilən ad.
**KAVALKADA** – gəzməyə çıxmış atlılar dəstəsi.
**«KAVKAZ»** – rus dilində ictimai-siyasi qəzet: ilk nöm-rəsi 1846-cı ilin yanvarında, sonuncu nömrəsi isə 1918-ci ilin fevralında Tiflisdə çıx-mışdır.
**KAYILAR (QAYILAR)** – oğuz tayfalarından biri. XI əsrdə səlcuqların tərkibində Azərbaycana gəlmişlər.
**KAYNOZOY ERASI (QRU-PU)** – Yer qabığı laylarının stratiqrafik şkalasında ən cavan qrup və Yerin geoloji tarixində ona uyğun olan ən müasir epoxanı əhatə edən ən yeni era, dövr.
**KAYZER** *alm.* – keçmişdə Almaniya imperatorlarının titulu.
**KAZAK** – 1. qaçıb Don, Za-porojye və başqa yerlərdə yaşayan azad təhkimli kənd-li; 2. Rusiyada imtiyazlı hər-bi silk nümayəndəsi //xüsusi

hərbi hissə; 3. keçmiş hərbi vilayətlərin əhalisi.

**KAZAN XANLIĞI** – Orta Volqaboyunda tatar feodal dövləti (1438-1552). Volqa – Kama Bulqarıstanın ərazisində, Qızıl Ordanın süqutundan sonra yaranmışdı. Banisi Ulu Məhəmməd idi.

**KAZAN QƏSDİ** – Polşa və Litvadakı üsyanın başçıları ilə zemlyavolyaçıların razılığına əsasən Volqaboyunda hərbi-kəndli üsyanı qaldırmaq cəhdi.

**KAZAN YÜRÜŞLƏRİ** – rus qoşunlarının Kazan xanlığına (*bax*) qarşı hərbi əməliyyatları (1545-1552-ci illər).

**KAZANLAR (QAZANLAR)** – türk-dilli tayfalardan biri. Mənşəcə bulqarlardan olmuşlar.

**KAZAUSTİKA** *lat.* – orta əsr sxolastikasında və ilahiyyatında: ayrı-ayrı təsadüflərin ümumi ehkam şəklinə salınması.

**KAZUS BELLİ** *lat.* – müharibə elan etmək üçün bəhanə.

**KEÇİLİLƏR** – türkdilli kay (qayı) tayfasının qollarından biri. Mənşəcə oğuz tayfalarına mənsubdur. Azərbaycan ərazisinə səlcuqların tərkibində gəlmişlər.

**KELTLƏR** – Qərbi Avropada yaşamış (Fransa, İsveçrə, Belçika və s.) qədim xalqlar qrupu.

**KENTAVR** *yun.* – qədim yunan mifologiyasında insan başlı at.

**KERAMİKA** *yun.* – 1. saxsı şeylər; 2. saxsı istehsalı, saxsı məmulatı.

**KERENKA** – 1917-ci ildə müvəqqəti hökumətin başında Kerenski durduğu zaman buraxılan 20 və 40 manatlıq pul.

**KERENŞİNA** – 1917-ci ildə əksinqilabçı müvəqqəti hökumət başında Kerenski durduğu dövr.

**KƏBƏ** – müsəlmanların Məkkədə müqəddəs məbədi.

**KƏBİRLİLƏR** – türkdilli tayfalardan biri.

**KƏFƏ (KAFA)** – Krımda indiki Feodosiya şəhəri.



**KƏHRİZ** – yeraltı suları toplamaq və yer səthinə çıxarmaq üçün yeraltı qurğu.

**KƏLƏNTƏR** – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş vəzifə, şəhər rəisi.

**KƏLƏNTƏRLİK** – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda kələntərin xeyrinə əhalidən alınan vergi.

**KƏND** – yaşayış məntəqəsi.

**KƏND ŞURASI (SOVETİ)** -kənddə yerli seçki orqanı.

**KƏND TƏSƏRRÜFATI** – xalq təsərrüfatının əkinçilik və heyvandarlıqla məşğul olan sahəsi.

**KƏTXUDA** *köhn.* – kənddə əhali tərəfindən seçilən və kəndin inzibati işlərinə baxan şəxs, katta, kovxa (*bax*).

**KƏTXUDALIQ** - kətxudanın işi, vəzifəsi; kattalıq.

**KƏNDLİ İSLAHATI** – Rusiyada mülkədar kəndlərində təhkimçilik hüququnu ləğv edən və kapitalizmin başlanğıcını qoyan burjua islahatı.

**KƏNDLİLƏR** – ictimai-iqtisadi siniflərdən ən qədimi.

**KƏRƏCLƏR** – Qazan xanlığında xain irsi məşvərətçiləri.

**KƏSBKARLIQ** – kəndlilərin qazanc dalınca müvəqqəti olaraq sənaye və kənd təsərrüfatı işlərinə getməsi. Feodalizm quruluşunun sonunda meydana çıxmış, kapitalizmin inkişafı ilə güclənmişdi.

**KƏSRANİLƏR** – Şirvanşahlar sülaləsi (1027-1382). Hökmdarları: Mənuçöhr (1027-34), Əbu Mənsur Əli (1034-43/44), Qubad (1043/44-49), Buxt Həccar Əli (1049/50), Salar (1049/50-63), I Fəribürz (1063-96), II Mənuçöhr (1096-1106/07) və b.

**KƏŞFİYYAT** – 1. düşmən haqqında məlumat toplamaq üçün əməliyyat; 2. başqa dövlətlər haqqında məlumat toplamaq üçün xüsusi orqanların işi.

**KƏŞFİYYATÇI** – 1. kəşfiyyat işçisi, 2. kəşfiyyatla məşğul olan adam.

**KƏŞFİYYATÇILIQ** – kəşfiyyatçının işi, sənəti.

**KƏTXUDA** *bax* kəndxuda.

**KƏTXUDALIQ** *bax* kəndxudalıq.

**KƏTMƏN** – alaq vurmaq üçün kənd təsərrüfatı aləti.

**KİÇİKLƏR** – qədim Misirdə icma üzvlərinin xırda əkinçiləri.

**KİLSƏ** – 1. xristian ibadətgahı; 2. dini təşkilat, idarə, təriqət, məzhəb (xristianlarda).

**KİNTAL KONFRANSI** – Simmervald birləşməsi iştirakçılarının beynəlxalq sosialist konfransı.

**KİR** *yun.* – Spartada icma üzvləri üçün verilmiş torpaq sahəsi.

**KİRASİR** *fr.* – dəmir geyimli, atlı əsgər ya zabit.

**KİRİLL ƏLİFBASI** – qədim slavyan əlifbası. 863-cü ildə Kirill və Mefodi qardaşları tərəfindən yaradılmışdır.

**KİTABƏ** – 1. binanın daşları üzərində, qapıları üzərində yazı; 2. qəbir daşları üzərindəki yazı.

**KLAN** – 1. qəbilə; 2. Şotlandiyada və İrlandiyada qəbilə icmalarının adı.

**KLASSİZM** *lat.* - ən nümunəvi deməkdir, ədəbiyyatda bədii üslub bildirir.

**KLEPALO** – dəmir lövhə (zəng əvəzində çalınan metal lövhə).

**KLERİKAL** *lat.* – klerikalizm (*bax*) tərəfdarı; klerikallar partiyasının üzvü.

**KLERİKALİZM** – burjua ölkələrində siyasi və mədəni həyatda dini təşkilatların hakimiyyətini möhkəmlətməyə çalışan siyasi cərəyan.

**KLERİKALLAR** – 1. kilsənin hökmranlığına və onun təsirinin gücləndirilməsinə tərəfdar çıxanlar; 2. Klerikal siyasi partiyasının üzvləri.

**KLİR** *ing.* – 1. kilsə xadimələrinin korporasiyası; kilsə ruhaniləri; 2. kilsə xoru.

**KLİRİNQ** *ing.* – dövlətlər arasında banklar vasitəsilə nağd pulsuz haqq-hesab.

**KNESSET** – İsrail dövlətinin ali orqanı.



**KNYAGİNYA** – knyaz arvadı.

**KNYAJİNA** – knyaz qızı.

**KNYAZ** *rus.* – 1. qədim Rusiyada: tayfa, qəbilə başçısı, knyazlığın hakimi; 2. çar Rusiyasında bəzi zadəgan nəsillərinə nəslən keçən fəxri titul və belə titulu olan şəxs.

**KNYAZLIQ** – 1. knyazın idarə etdiyi ərazi; 2. knyaz rütbəsi.

**KOALİSİYA** *lat.* – 1. bir neçə dövlətin başqa dövlətə və ya dövlətlərə qarşı bağladığı hərbi-siyasi ittifaq, birləşmə; 2. siyasi partiyalar arasında saziş.

**KOQORTA** *lat.* – 1. qədim Romada təxminən 600 nəfərlik qoşun dəstəsi; legionun onda biri; 2. *məc.* möhkəm birləşmiş dəstə.

**KOLÇAKÇILIQ** – Vətəndaş müharibəsi (1918-1920) dövründə A.V.Kolçakın Sibir, Ural və Uzaq Şərqdə qurduğu burjua - mülkədar diktaturası ağ qvardiyaçı rejim.

**KOLXOZ** *rus.* – kollektiv təsərrüfat (kənd təsərrüfatı arteli). Keçmiş Sovetlər Birliyində sosialist təsərrüfat forması.

**KOLXOZÇU** – kolxoz üzvü.

**KOLİZEY** *lat.* – «kolesseus» sözündən olub, böyük, iri deməkdir. Qədim Romanın ən əzəmətli və gözəl binalarından biri Kolizey adlandırılan amfiteatr idi.

**KOLLABORASİONİSTLƏR** *fr.* – II Dünya müharibəsi dövründə (1939-1945) Fransada faşistlərlə əməkdaşlıq, milli mənafeyə xəyanət edən qüvvələr.

**KOLLEC** *ing.* – orta ixtisas məktəti və ya ali məktəb.

**KOLLEKTİV** *lat.* – birləşmiş adamlar toplusu, adamlar qrupu.

**KOLLEKTİV MÜQAVİLƏ** – həmkarlar ittifaqının yerli komitəsi ilə müəssisə müdiriyyəti arasında bağlanan müqavilə.

**KOLLEKTİV TƏHLÜKƏSİZLİK** – sülhü qoruyub saxlamaq məqsədilə dövlətlərin əməkdaşlığı.

**KOLLEKTİVLƏŞDİRMƏ** – fərdi kəndli təsərrüfatların kolxoz və sovxozlarda birləşdirməsi.
**KOLLEKTİVLƏŞMƏ** – birləşmə.
**KOLON** *lat.* – «kolonus» sözündəndir, əkinçi deməkdir. 1. qədim Roma imperiyasında: mülkədardan torpaq icarə edən kəndli; 2.muzdur.
**KOLONAT** *lat.* – Roma imperiyası dövrünə və orta əsrlərə məxsus təhkimçilik üsulu.
**KOLONİST** – başqa bir ölkədə yaşayan adam.
**KOLONİYA** *lat.* – 1. *bax* müstəmləkə; 2. başqa bir ölkədə əcnəbilərin yaşadığı yer, məskən.
**KOMEDİYA** – qədim yunanlarda «şən sakinlər mahnısı».
**KOMENDANT** *fr.* – qala ya şəhər qarnizonu rəisi.
**KOMENDANT SAATI** – hərbi və ya mühasirə vəziyyətində müəyyən saatlarda xüsusi icazəsiz küçəyə çıxmağın qadağan edilməsi.
**KOMENDANT ÜSUL-İDARƏSİ** – Rusiyaya birləşdirildikdən sonra çarizmin Azərbaycanda həyata keçirdiyi hərbi-inzibati sistem (1806-1819-cu illər).
**KOMİNTERN** *rus.* – Kommunist İnternasionalı (1919-1943-cü illərdə Kommunist Partiyasının beynəlxalq birləşməsi).
**KOMİSSAR** *fr.* – keçmiş SSRİ dövründə 1918-1946-cı illərdə həyatın müəyyən sahəsinə rəhbərlik edən vəzifəli şəxs.
**KOMİSSARLIQ** – komissarın rəhbərlik etdiyi idarə.
**KOMİSSİYA** – hər hansı tapşırığı yerinə yetirmək üçün səlahiyyət verilmiş şəxslər qrupu (məs., parlament komissiyası, seçki komissiyası və i.a.), habelə dövlət aparatında və ya beynəlxalq təşkilatlarda olan ixtisaslaşdırılmış orqan.
**KOMMUNA** *fr.* – 1. X-XI əsrlərdə İtaliyada şəhərlərin senyora qarşı mübarizə ittifaqı; 2. inqilab dövründə bəzi ölkələrdə qurulan inqilabi hökumət; 3. əmək və mülk ümumiliyinə əsaslanan birləşmiş kollektiv.
**KOMMUNAR** *fr.* – 1. 1871-ci ildə Paris kommunası iştirakçısı; 2. kommunizm uğrunda mübariz; 3. kommuna üzvü.
**KOMMUNİST** *fr. əsli. lat.* – 1. Kommunist Partiyasının üzvü; 2. komunizm ideyalarına əsaslanan.
**KOMMUNİST İNTERNASİONALI** *bax* komintern.
**KOMMUNİZM** *fr. əsli. lat.* – 1. istehsal alətlərinin ümumiləşdirilməsinə, sosialist inqilabına və s. əsaslanan ikimərhələli ictimai quruluş //həmin quruluşun 2-ci mərhələsi; 2. həmin cəmiyyətin qurulması haqqında təlim.
**KOMMUTASİYA** *lat.* – orta əsrlərdə (əsasən İngiltərədə) pul iqtisadiyyatının inkişafı ilə əlaqədar olaraq feodal natural vergi və istismarın pul rentasına çevrilməsi.
**KOMPRADOR BURJUAZİYA** *fr.* – xarici kapitalla yerli bazar arasında vasitəçilik edən adam.
**KOMSOMOL** *rus.* – "kommunistiçeskiy soyuz molodyoji"nin ixtisarı. Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı.
**KOMSOMOLÇU** – komsomol üzvü.
**KOMSOMOLLUQ** – Kommunist Gənclər İttifaqının üzvü olma.
**KONDİSİYA** *lat.* – müqavilə və saziş şərtləri, normaları.
**KONDOTYERLƏR** – İtaliyada XIV-XVI əsrlərdə ayrı-ayrı hökmdarların yanında xidmət edən muzdlu hərbi dəstə başçıları.
**KONFEDERASİYA** *lat.* – ictimai təşkilatlar və ya dövlətlərin birləşməsi, ittifaqı. Məsələn, Latın Amerikası zəhmətkeşlərinin konfederasiyası.
**KONFEDERAT** *lat.* – konfederasiya iştirakçısı.

**KONFİRMASİYA** *köhn.* – 1. bəzi ölkələrdə məhkəmə hökmünün ali orqan tərəfindən təsdiqi; 2. protestantlarda və katoliklərdə: cavan oğlan və qızların kilsə üzvlüyünə qəbuletmə mərasimi.

**KONFRANS** *lat.* – mühüm məsələləri həll etmək üçün nümayəndələrin müşavirəsi, yığıncağı.

**KONFRANTASİYA (QARŞIDURMA)** *lat.* – beynəlxalq aləmdə qarşıdurma, üzüzə toqquşma. Müasir şəraitdə əks-ideoloji istiqamətli dövlətlər arasında gərgin (siyasi, hərbi sahədə) vəziyyət.

**KONFUTSİ** – yeni dini təlim. Çində Çin-sui tərəfindən yaradılmışdır. Vahid Çin dövlətinin birliyini saxlamaq üçün irəli sürülmüşdür. Konfutsi təlimi (yeni din) imperator hakimiyyətini və ona itaətkarlığı təbliğ edirdi.

**KONKİSTADORLAR** *isp.* – XV əsrin sonu – XVI əsrdə Vest-Hində, Cənubi və Mərkəzi Amerikaya ispanlardan işğalçılıq yürüşlərinin iştirakçıları.

**KONKLAV** *lat.* – Roma papasını seçən kardinallar şurası.

**KONKORDAT** *lat.* – Roma papası ilə hər hansı bir hökumət arasında bağlanan müqavilə, saziş.

**KONQRES** *lat.* – 1. geniş miqyaslı beynəlxalq konfrans, qurultay, yığıncaq; 2. bəzi ölkələrdə (Amerikada və s.) parlament adı, ali qanunvericilik orqan.

**KONSERN** – müxtəlif təsərrüfat sahələrinin bir sıra müəssisələrinin birliyi.

**KONSERVASİYA** *lat.* – tarixi, mədəniyyət və s. abidələrin, sənət əsərlərinin ilkin görünüşünü mühafizə etmə, saxlama.

**KONSERVATİZM (MÜHAFİZƏKARLIQ)** – yeni və qabaqcıl nə varsa, hamısına qarşı düşmən münasibət bəsləyən, köhnə və vaxtı keçmiş hər bir şeyi mühafizə edən ictimai təfəkkür cərəyanı və siyasi praktika.

**KONSESSİYA** – ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müəyyən şərtlərlə, ayrı-ayrı şəxslərin və ya şirkətlərin müvafiq dövlətlə bağladıqları müqavilə.

**KONSKRİPSİYA** *lat.* – XVIII-XIX əsrlərdə: əsgər əvəzinə pul verməyə və ya əsgər düşəni başqası ilə əvəz etməyə yol verən əsgər toplama sistemi.

**KONSLAGER** *lat. əsli alm.* – dustaqların, hərbi əsirlərin saxlandığı həbs düşərgəsi.

**KONSTİTUSİONALİST** – konstitusionalizm tərəfdarı.

**KONSTİTUSİONALİZM** – konstitusiyalı monarxiyanı ən yaxşı idarə üsulu ilə hesab edən cərəyan.

**KONSTİTUSİYA** *lat.* – bir dövlətin ictimai və dövlət quruluşunu, seçki sistemini, dövlət orqanlarının fəaliyyət və təşkilat prinsiplərini, vətəndaşların əsas hüquq və vəzifələrini müəyyən edən əsas qanunu; Əsas Qanun.

**KONSTİTUSİYAÇI** – Konstitusiya tərəfdarı.

**KONSTİTUSİYALI** – konstitusiyası olan, konstitusiyaya əsaslanan.

**KONSUL** *lat.* – 1. bəzi ölkələrdə yüksək rütbəli hökumət məmurlarının adı; 2. qədim Romada: ali inzibati vəzifə.

**KONSULXANA** *lat. fr.* – konsulluğun yerləşdiyi bina.

**KONSULLUQ** – 1. qədim Romada: respublika zamanı konsulun dövləti idarə etdiyi dövr; 2. Fransada Napoleon Bonapartın 9 noyabr 1799-cu ildəki (18 brumer) çevrilişindən 1804-cü ildə imperiya elan etdiyi vaxta qədərki dövr.

**KONTAR** *rus.* – Rusiyada 41 kiloqrama bərabər qədim çəki vahidi.

**KONTİNENT** – materik.

**KONTRABANDA** *ital.* – 1. qaçaq mal gətirmə, qaçaqçılıq; 2. qaçaq mal.

**KONTRİBUSİYA** *lat.* – 1. müharibə zamanı düşmənin işğal etdiyi yerlərdəki əhalidən zorla yığdığı pul, ərzaq və s.; 2. məğlub dövlətin qalib dövlətə verməli olduğu pul.

**KONVENSİYA** *lat.* – xüsusi məsələyə dair beynəlxalq saziş, beynəlxalq müqavilə.

**KONFENT** *lat.* – bəzi ölkələrdə xüsusi qanunvericilik hüququna malik seçkili orqan.
**KORİFEY** *yun.* – qədim yunan tragediyasında xor rəhbəri.
**KORNET** *fr.* – 1917-ci il inqilabından əvvəl çar süvari qoşununda birinci zabit rütbəsi.
**KORNİLOVÇULUQ** – general N.G.Kornilovun başçılıq etdiyi əksinqilabi qiyam (1917-ci il avqust).
**«KOROĞLU»** – Azərbaycanın xalq qəhrəmanı Koroğlunun (XVI əsr) şərəfinə aşıqlar tərəfindən yaradılan qəhrəmanlıq epopeyası.
**KORPORASİYA** *lat.* – bir peşəyə, silkə və s. mənsub adamların ittifaqı, birləşməsi (cəmiyyət).
**KORSAR** *ital.* – dəniz quldurு (təqribən 14-ci əsrdən italyanların Şimali Afrika dəniz quldurlarına verdikdəri ad).
**KORSARLIQ** – dəniz quldurluğu.
**KORTES** *isp.* – orta əsrlərdə İspaniya və Portuqaliyada parlament; kral sarayı.
**KOSMOQONİYA** *yun.* – kainatın, xüsusən dünyanın əmələ gəlməsi haqqında nəzəriyyə.
**KOSMONAVT** *yun.* – kosmik fəzaya uçan şəxs. 1961-ci il aprelin 12-də Y.A.Qaqarin ilk dəfə kosmosa uçmuşdur.
**KOSMONAVTİKA** *yun.* – insanın kosmosa uçmasının, habelə kosmosa avtomatik tədqiqat cihazları göndərilməsinin nəzəriyyə və praktikası.
**KOSMOPOLİT** *yun.* – vətənpərvərlik hissini itirərək öz vətəninin mənafeyi ilə maraqlanmayan, öz xalqına yad olan və onun mədəniyyətinə xor baxan adam.
**KOSMOPOLİTİZM** *yun.* – bütün dünyanı riyakarcasına özünə vətən hesab edən, milli mədəniyyətə xor baxan və onu inkar edən mürtəce burjua görüşü.
**KOSMOS** *yun.* – dünya, aləm, kainat.



**KOSTYOL** *pol.* – polyak katolik kilsəsi.
**KOŞ** – Zaporejyedə: kazak düşərgəsi.
**KOVXA** – XVI-XIX əsrlərdə Azərbaycanda və bəzi qonşu ölkələrdə olmuş vəzifə: kəndxuda (*bax*).
**KOVXALIQ** – orta əsrlərdə Azərbaycanda və bəzi qonşu ölkələrdə mükəlləfiyyət.
**KÖÇ** – köç yeri, düşərgə.
**KÖÇƏRİ** – oturaq olmayan, ev-eşiyi ilə daim bir yerdən başqa bir yerə köçən.
**KÖÇƏRİLİK** – təsərrüfat fəaliyyətinin bir forması və onunla bağlı həyat tərzi.
**KÖÇMƏ YAYLAQ MALDARLIĞI** – maldarlığın inkişafında mühüm mərhələdir. Mal-qaranın yaz-yay aylarında dağ otlaqlarına aparılması, payız qış aylarında isə qışlaqlara qaytarılması.
**KÖLƏ** – quldarlıq və feodalizm cəmiyyətində: bütün hüquq və istehsal vasitələrindən məhrum və sahibkarın xüsusi mülkiyyəti olan adam; qul.
**KÖLƏLİK** – kölənin, qulun vəziyyəti və halı (istismarın tarixən ilk və ən kobud forması); qulluq.
**KRAL** *rus. əsli slavyancadan* – padşah, hökmdar habelə həmin titulu daşıyan şəxs (böyük kralın adından).
**KRALİÇA** *rus.* – 1. qadın hökmdar (padşah); 2. kral arvadı.
**KRALLIQ** – 1. başında kral duran dövlət; 2. kral sifəti ilə belə bir dövləti idarəetmə.
**KREMASİYA** *lat.* – meyitlərin xüsusi peçlərdə yandırılıb külünün qəbrə qoyulması.
**KREML** *rus.* – qədim rus şəhərində bürclü iç qala.
**KREOLLAR** – Avropadan Cənubi Amerikaya köçmüş ilk kolonistlərin nəsilləri.
**KRIM KONFRANSI** – II Dünya müharibəsində müttəfiq olan SSRİ, ABŞ və Böyük Britaniya dövlət başçılarının (İ.V.Stalin, F.D.Ruzvelt və U.L.Çörçill), xarici işlər nazirləri, qərargah rəisləri və b. müşavirlərin iştirakı ilə konfransı. 1945-ci ildə

fevralın 4-11-də Yalta şəhəri yaxınlığında keçirilmişdir.

**KRIM TAYFALARI** – Krım yarımadasının türk mənşəli əhalisi.

**KRİFFO** – qayada oyulmuş memarlıq abidəsi. Üzərində yunan dilində yazı var.

**KRİTMİKENA MƏDƏNİYYƏTİ** – qədim Yunanıstanda Tunc dövrünə (e.ə. təqribən 28-12-ci əsrlər) aid arxeoloji mədəniyyətin şərti adı.

**KROMANYON ADAMI** – müasir insan dövrünün üst Paleolitin Orinyak mərhələsində yaşamış qazıntı forması.

**KROMLEX** – neolit və əsasən, Tunc dövrlərinə aid meqalit tikililərinin bir növü.

**KRONA** – Avropanın bir sıra ölkəsində pul vahidi.

**KUÇKA** – XIX əsrin II yarısında tərəqqipərvəp rus bəstəkarları dəstəsinin adı, musiqi termini kimi də işlənir.

**KUÇKİST** – «Могучая кучка» iştirakçısı olan bəstəkar.

**KUFİ YAZISI (XƏTTİ)** – ən qədim ərəb yazı növlərindən biri.

**KU-KLUKS-KLAN** – ABŞ-da keçmiş quldurların – cənubda irqçilərdən yaratdığı terrorçu təşkilat. Onlar qaradərili əhalini və öz əleyhdarlarını linçləyirdilər. (*bax* linçləmə).

**KULAK** *rus. bax* qolçomaq.

**KULİKOVO VURUŞMASI** – D.İ.Donskoyun rəhbərliyi altında rus qoşunu ilə monqol-tatar qoşunu arasında vuruşma. 1380-ci il sentyabrın 8-də Kulikovo çölündə (indiki Tula vilayətinin Kurkino rayonu) baş vermişdir.

**KULT** *bax* ibadət.

**KUNSTKAMER** – qədimdə muzey, nadir şeylər saxlanılan yer.

**KURFÜRSLƏR** *alm.* - feodal Almaniyada: imperator seçmək hüququna malik olan nüfuzlu knyaz.

**KURQAN** – qəbir abidəs forması; qədim qəbirlər üzərində təpə; abidə.

**KURSK VURUŞMASI** – II Dünya müharibəsinin ən böyük vuruşmalarından biri; Kursk çıxıntısı (qövsü) rayonunda baş vermişdir (1943).

**KURYER** *fr.* – 1. idarələrdə kağızpaylayan işçi; 2. təcili tapşırıqlar üçün göndərilən xidmətçi.

**KUSTAK** – Sasani dövlətində inzibati idarə vahidi, canişinlik.

**KUSTAR** *alm.* – bazar üçün işləyən sənaye məmulatı istehsalçısı; xırda sənətkar.

**KUŞAN PADŞAHLIĞI** – Qədim dünya dövləti (I əsrin əvvəli – IV əsrin əvvəli).

**KUŞANLAR** – kuşan padşahlığının əsas əhalisi. E.ə. I əsrdən Orta Asiyada yaşamışlar.

**KUTRİQURALAR** – hun tayfası: mənşəcə türkdilli qədim bulqar tayfalarına yaxın olmuşlar.

**KÜRDLƏR** – Ön Asiyanın qədim xalqlarından biri (onlar özlərini kurmanc da adlandırırdılar).

**KÜTLƏ** – əhalinin keçmiş dairələri; camaat; //əhali, xalq; //birləşmiş adamlar qrupu.

**KVAKERLƏR** *ing.* – İngiltərə və ABŞ-da kilsə mərasimlərini inkar edən xristian dini təriqətin üzvləri.

**KVARTA** *lat.* – bəzi dövlətlərdə işlədilən həcm vahidi.

**KVARTAL** *alm. əsli lat. köhn.* – şəhərin bir məhəlləsinin polis idarəsi, polis şöbəsi.

**KVİRİTLƏR** – qədim Romada respublika dövründə tam hüquqlu vətəndaşların rəsmi adı.

**KVORUM** *lat.* – bir iclasın qanuni hesab edilməsi üçün tələb olunan əksəriyyət: yetərsay.

**KVOTA** *lat.* – pay, norma, hədd.

# Q

**QACARLAR** – İran Azərbaycanında yaşayan türkdilli tayfa.

**QACARLAR** – İranda hökmdar sülaləsi (1796-1925). Banisi Ağa Məhəmməd şah Qacar olmuşdur. O, türkdilli qacar tayfalarından idi. Nümayəndələri: Ağa Məhəmməd şah (1796-97), Fətəli şah (1797-1834), Məhəmməd şah (1834-48), Nəsrəddin şah (1848-96), Müzəffərəddin şah (1896-1907), Məhəmməd şah (1907-09), Əhməd şah (1909-1925).

**QAFİLƏ** *bax* karvan.

**QAFQAZ ALBANİYASI** *bax.* Albaniya.

**QALA** – 1. üzun müddət içində qalıb düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan istehkam; 2. bürc, qüllə; 3. *köhn.* şəhər.

**QALABƏYİ** *köhn.* – qala (şəhər) hakimi, şəhərin baş hakimi, böyüyü.

**QALABƏYİLİK** – qalabəyi vəzifəsi, qalabəyi işi.

**QALXAN** *köhn.* – qədim müharibələrdə, döyüşlərdə qılınc və s. zərbəsindən qorunmaq üçün əldə tutulan dairə və ya düzbucaqlı şəkilli sipər.

**QALİÇ KNYAZLIĞI** – rus feodal dövləti; Qaliç və Vladimir-Volın knyazlıqlarının birləşdirilməsi ilə (1199) yaranmışdı.

**QALLAR** *lat.* – e.ə. VI-V əsrlərdə Qalliya *(bax)* ərazisində yaşamış kelt tayfaları.

**QALLİYA** *lat.* – Qərbi Avropada tarixi vilayət (indiki Fransa, Şimali İtaliya, Belçika, Lüksemburq bütünlüklə, Niderland və İsveçin bir hissəsini əhatə edirdi).

**QANLI BAZAR GÜNÜ** – 1905-ci ildə yanvarın 9-da nümayişə çıxan fəhlələrin çar hökuməti tərəfindən güllələnən edilməsi.

**QANLI YANVAR** *bax* iyirmi yanvar.



**QANUN** – ictimai və hüquqi münasibətlərin hər hansı bir sahəni nizama salmaq üçün dövlət tərəfindən müəyyən edilən qərar, nizamnamə.

**QANUNNAMƏ** – qanunlar məcəlləsi, qanunlar toplusu.

**QANUNVERİCİLİK** – 1. qanun vermə işi;. 2. hər hansı bir ölkənin qanunlar məcmusu.

**«QAPI PULU»** – XIX əsrdə Cənubi Azərbaycanda kəndlilərin otlaqlara görə verdikləri vergi.

**QARA CAMAAT** *məc.* – avam camaat.

**QARA TORPAQ** – misirlilər öz ölkələrini belə adlandırırlar. Nil çayı vadisini.

**QARAGÜRUHÇU** – 1905-ci ildə çar Rusiyasında: silahlı talançı bandaların iştirakçısı: İrticaçı padşahpərəst təşkilatlardan birinin üzvü/ /qatı irticaçı.

**QARAGÜRUHÇULUQ** – qaragüruhçunun fikir və zehniyyəti, işi; qatı irticaçılıq.

**QARAXANİLƏR** – Mərkəzi Asiyada Qaraxanilər dövlətini elan edən müsəlman türk sülaləsi (927-1212). İlk xanı Əbdülkərim Satuk Qaraxan olmuşdur. Nümayəndələri: Nəsr (X əsrin sonu), İbrahim (1046/47-1068), Arslan (1102-1130).

**QARAKÖYNƏKLİ(LƏR)** – qırxıncı illərdə faşist, sonralar isə neofaşist silahlı bandaçı üzvləri.

**QARAQORUN** – monqol dövlətinin ilk paytaxtı.

**QARAQOYUNLU DÖVLƏTİ** – (1410-1468). XV əsr feodal dövləti. Azərbaycan (Kürdən cənuba), Qərbi İran, İraq, Kürdüstan, Gürcüstanın bir hissəsi və s. əraziləri əhatə edirdi. Paytaxtı Təbriz şəhəri idi.

**QARAQOYUNLULAR** – XV əsrdə Cənubi Azərbaycanda və onunla həmhüdud olan başqa ölkələrdə hakimiyyət sürmüş oğuz-türkmən tayfalarından biri. Bayraqlarında qara qoyun şəkli olduğuna görə belə adlanırdılar.

**QARAQOYUNLULAR** – Qaraqoyunlu hökmdarları sülaləsi (1378-1468). Banisi Bayram Xocadır. Nümayəndələri: Qara Məhəmməd, Qara Yusif (1410-20), İsgəndər (1421-29; 1431-36), Əbu Səid (1429-31), Cahanşah (1437-1467), Həsənəli (1467-1468). Ağqoyunluların hakimiyyətə gəlməsi ilə (1468) Qaraqoyunluların hökmranlığına son qoyuldu.

**QARDAŞLAŞMA** – müharibə edən orduların əsgərlərinin imperialist müharibələri əleyhinə etiraz əlaməti olaraq bir-biri ilə yoldaşcasına əlaqəyə girişməsi.

**QARIŞMAMAQ** – müasir beynəlxalq hüququn hər bir dövləti hansı formada (hərbi, iqtisadi, siyasi-açıq və ya dolayı) olursa-olsun hər hansı digər bir dövlətin daxili işlərinə qarışmamağa, onun suverenliyinə hörmət etməyə məcbur edən əsas prinsiplərdən biri Almaniyanın və İtaliyanın 1936-1939-cu illərdə İspaniyaya silahlı müdaxiləsinə qarışmamaq prinsipinin kobud surətdə pozulması oldu. İngiltərə, Fransa və ABŞ qarışmamaq prinsipini təhrif edərək faşist dövlətlərinin təcavüzkarlıq hərəkətlərinə yol verdilər və bununla da İkinci Dünya müharibəsinin törədilməsinə kömək etdilər.

**QARLUQ** – türk tayfalarından birinin adı.

**QARNİZON** *fr.* – Qalada, şəhərdə, istehkamda və s.-də yerləşən qoşun hissəsi və hərbi idarələr.

**QARS MÜQAVİLƏSİ** – 1921-ci il oktyabrın 13-də Qars şəhərində Azərbaycan, Ermənistan və Gür-cüstan ilə Türkiyə arasında bağlanmış müqavilə.

**QAYDAMAK(LAR)** – 1. XVII-XVIII əsrlərdə: polyak mülkədarlarına qarşı mübarizədə iştirak edən ukraynalı üsyançı kazak;
2. Ukraynada vətəndaş müharibəsi zamanı: əksinqilabçı dəstələrin əsgərləri, hərəkat iştirakçıları.



**QAYDAMAK HƏRƏKATI** – XVII-XVIII əsrlərdə Ukraynada polyak mülkədarlarına qarşı üsyan hərəkatı. 1734, 1950 və 1768-ci illərdə daha güclü şəkil almışdı.

**QAYDUK** – 1. Türkiyə hakimiyyəti dövründə Balkanlarda və Macarıstanda üsyançı partizan; 2. təhkimçilik dövründə: səfər xidmətçisi.

**QAZAX TAYFASI** – türksoylu tayfa. XI-XII yüzilliklərdə Azərbaycanın şimal-qərb torpaqlarında məskunlaşmışdır.

**QAZI** – icra edən. Müsəlman ölkələrində şəriət əsasında məhkəmə işlərini həyata keçirən hakim. Azərbaycanda məhkəmə işlərinin qazılar tərəfindən aparılması Xilafət dövründən başlayaraq XIX əsrin ortalarınadək davam etmişdir.

**QAZI** – Xilafətdə, müsəlman ölkələrində məhkəmə idarəsinin rəisi.

**QAZIBƏYİ** – Şirvanşah Sultan Məhəmməd Qazinin dövründə kəsilən və onun şərəfinə adlandırılan mis pul vahidi.

**QAZILIQ** – qazının işi, vəzifəsi.

**QAZİ** *köhn.* – din yolunda düşmənə qarşı müharibə edərək qalib gələn.

**QAZİLƏR** – Qəznəvi dövlətində Sultan Mahmudun ordusunun yürüşlərində könüllü iştirak edən döyüşçülər.

**QAZLAR ROMANI XİLAS ETDİ** – Qall tayfalarının Romada hücumu zamanı qazların səs salıb romalı döyüşçüləri xəbərdarlıq etməsi hadisəsindən yaranmış məsəl.

**QEYSƏR** *köhn.* – hökmdar, padşah (qədim Romada Vizantiya və Osmanlı imperatorlarına verilən ləqəb).

**«QEYSƏRİYƏ»** – Təbrizdə bazar, Asiyada ən böyük bazar hesab edilirdi.

**QEYSƏRLİK** *köhn.* – padşahlıq, imperatorluq.

**QƏBALƏ** – xərac toplamaq üçün ayrı-ayrı adamlara verilən icra kağızı; akt, qəbz.

**QƏBƏLƏ** – Azərbaycanda qədim şəhər. Təqribən 2500

il bundan əvvəl salınmışdır. Uzun müddət Qafqaz Albaniyasının paytaxtı olmuşdur. Kabalaka, Xabala kimi adları da olmuşdur.

**QƏBİLƏ** *köhn.* – 1. qədim Rusiyada: xüsusi müqaviləyə əsasən həmişəlik köləlik; 2. bir mülkün və sairənin alınıb-satılması haqqında rəsmi sənəd, qəbalənamə.

**QƏBİLƏ** – birlikdə yaşayan, birlikdə işləyən, əmlakı ümumi olan qan qohumluğu əsasında birləşən insan kollektivi.

**QƏDİM** – çox keçmiş zamanlara, çox köhnə zamanlara aid olan, çox köhnə.

**QƏLƏBƏ** – müharibədə, döyüşdə tam müvəffəqiyyət; qalibiyyət.

**QƏNİMƏT** – müharibədə düşməndən alınan hər cür şey.

**QƏRAR** – müəyyən bir məsələnin müzakirəsindən sonra çıxarılan nəticə.

**QƏRARDAD** – qərar, qətnamə, hökm, əmr.

**QƏRARGAH** – qoşunları idarə edən orqan.

**QƏRBÇİ** – qərbçilik tərəfdarı *(bax qərbçilik)*.

**QƏRİBÇİLİK** – XIX əsrdə rus burjua-zadəgan cəmiyyətində ölkənin inkişafı üçün Qərbi Avropanı ideal hesab edən liberal cərəyan; burjua ideologiyası.

**QƏRMƏTİLƏR** – müsəlman şiə təriqəti, İsmaililərin iki cərəyanından birinin tərəfdarları. IX əsrdə Cənubi Mesopotamiyada yaranmışdı.

**QƏRMƏTİLİK** – İslam dinində təriqət. 883-884-cü ildə Ərəb Şərqində və İranda meydana gəlmişdir. Qərmət ləqəbi ilə məşhur olan Həmdan-əl-Əşəsin fəaliyyəti ilə əlaqədardır.

**QƏSBKAR** – başqa dövlətin torpağını zorla tutan, əlinə keçirən, zəbt edən adam.

**QƏSR** *köhn.* – imarət, padşah sarayı.

**QƏZA** – inzibati ərazi bölgüsü; uezd.

**QƏZAVAT** *köhn.* – cihad *(bax)*.



**QƏZNƏVİLƏR** – Qəznəvilər dövlətini (X-XII əsrlər) idarə etmiş türkdilli sülalə. Banisi Alptəkin olmuşdur. Qəznəvilər sülaləsi aşağıdakılardan ibarət olmuşdur: Alptəkin (962-963), Səbuktəkin (977-997), İsmayıl (997-998), Mahmud Qəznəvi (998-1030), Məhəmməd (1030), I Məsud (1030-1041), Məvdud (1041-1048), II Məsud (1049), Əli Əbülhəsən (1049-1051), Əbürrəşid (1051-1053), Toğrul (1053), Fərruxzad (1053-1059), İbrahim (1059-1099), III Məsud (1099-1115), Şirzad (1115-1116), Arslan (1116-1117), Bəhram şah (1117-1153), Xosrov şah (1153-1160), Xosrov Məlik (1160-1186/87).

**QƏZNƏVİLƏR DÖVLƏTİ** – X-XIII əsrlərdə Orta Şərqdə feodal dövləti. Əsasını Alptəkin (962) qoymuşdur.

**QILINC** – əyri və düz bitərəfli kəsər silah növü.

**QIPÇAQLAR** – qədim türkdilli xalq; ilk vətənləri Altayın şimal-qərbindəki Çjeylen vadisi hesab edilir. VI-VII əsrlərdə Orxan və İrtış çayları hövzələrinə köçmüşlər. IX-X əsrlərdə Tiyan-Şan ətəklərində Dünay və Volqaya qədər ərazidə yaşamışlar. Bu ərazi «Dəşti-Qıpçaq» adlanırdı.

**QIRMIZBÖCƏYİ** – xüsusi böcək növü. Ondan qırmızı rəngli nadir boya hasil olunurdu.

**QIŞLAQ** – qışı keçirmək üçün bina; oba, kənd, yurd.

**«QIZIL KÖRPU»** – erkən orta əsrlərdə Bizansın paytaxtı Konstantinopola verilən ad.

**QIZIL QVARDİYA** – Böyük Oktyabr sosialist inqilabının hazırlanması, keçirilməsi zamanı və vətəndaş müharibəsinin ilk dövründə proletariatın silahlı qüvvələri təşkilatının əsas forması.

**QIZIL ORDU** – 1918-ci ildən 1946-cı ilədək quru qoşunları və hərbi hava qüvvələrinin rəsmi adı.

**QIZIL ORDA** – XIII əsrin 40-cı illərində-(1243) yaranmış Monqol dövləti.

**QIZILBAŞ** – İranda Şah İsmayıl Səfəvi dövründə qoşunun adı//bu qoşunun döyüşçüləri başlarına qırmızı bağladıqlarına görə belə adlanırdı.

**QIZILBAŞLAR** – Azərbaycan, Kiçik Asiya və Suriyada yaşamış türkdilli tayfa ittifaqı. 12 şiə imamı şərəfinə 12 qırmızı zolaqlı çalma bağladıqlarına görə belə adlanırdılar.

**QIZILBOYA (MARENA)** – boyaqotu; kökündən qırmızı boya alınan bitki, orta əsrlər boyu Azərbaycan xalçalarının, toxuma və tikmə parçalarının dünya şöhrətini təmin edən keyfiyyətli boya. 1869-cu ildə süni boya olan alizarinin kəşfi ilə qızılboya istehsalı tənəzzülə uğradı.

**QİTAL** *arx.* – qanlı vuruşma, müharibə.

**QİYAM** – qeyri-mütəşəkkil üsyan; dövlət hakimiyyətinə qarşı sui-qəsd nəticəsində baş verən silahlı çıxış; bunt; bir qrup qəsdçinin dövlət çevrilişi etmək cəhdi (qəsdçilərin kiçik bir qrupunun avantürist, bir qayda olarar, müvəffəqiyyətsiz dövlət çevrilişi etmək cəhdi).

**QİYAMÇI** – qiyam edən, qiyamda iştirak edən adam, üsyançı.

**QLADİATOR** *lat.* – 1.qədim Romada: vəhşi heyvanlar və ya pəhləvanlarla döyüşmək üçün təlim keçmiş hərbi əsir və ya qul; 2.xüsusi həbsxana – məktəblərdə silah işlətmək öyrədilən və bir-birilə vuruşmağa məcbur edilən qullar.

**QLASNI** *rus.* – 1917-ci il inqilabından əvvəl Rusiyada şəhər dumasının və ya başqa seçkili idarənin üzvü.

**QLAVA** *rus.* – 1917-ci il inqilabından əvvəl şəhər idarəsi rəisi, bələdiyyə idarəsi rəhbəri.

**QLAVKİZM** – kommunizm illərində: sənayeni baş komitələr vasitəsilə idarə etmək üsulu.



**QLİPT** – üzü naxışlı qiymətli daş.

**QLOBAL** – 1. bütün yer kürəsinin ərazisinə aid olan, bütün yer kürəsini əhatə edən; 2. hərtərəfli, tam, universal.

**QNOSTİSİZM** – xristianlığın ilk dövrlərində: xristian dini, yunan idealist fəlsəfəsi və Şərq dinləri əsasında qurulan dini-fəlsəfi cərəyan, fəlsəfə termini kimi də işlədilir.

**QOBUSTAN ABİDƏLƏRİ** – Qobustanda qayalara həkk edilmiş təsvirlər.

**QOÇBAŞI** *bax* taran.

**QOLÇOMAQ** *köhn.* – 1.yoxsulları, muzdurları istismar edən varlı kəndli; 2. yoxsulları, fağırları əzən, incidən, onlara zülm edən adam; 3. kənd burjuaziyası.

**QOLÇOMAQLAR** – kənd burjuaziyası.

**QOLÇOMAQLAŞDIRMAQ** – burjualaşdırmaq.

**QOLÇOMAQLIQDAN SALMAQ** – qolçomaqları bir sinif kimi ləğv etmək məqsədilə istehsal vasitələrindən və torpaqdan məhrum etmək.

**QOPÇUR (QUPÇUR)** *monqolca* – otlaq deməkdir. Monqol istilasına məruz qalan ölkələrdə, o cümlədən Azərbaycanda vergi növü. Əvvəllər otlaqlardan istifadə üçün köçərilərdən toplanılan qopçur, Elxanilər dövründə can vergisi ilə əvəz olundu. Yalnız köçərilərdən deyil, oturaq əhalidən və bəzən şəhərlərdən də toplanılırdı.

**QOPUZ** – orta əsrlərdə Azərbaycanda geniş yayılmış saza oxşar musiqi aləti.

**QORCU** – XIV-XVIII əsrlərdə xüsusi mühafizə döyüşçüsü.

**QORODOVOY** – çar Rusiyasında polis.

**QOŞUN** – bir dövlətin nizami hərbi qüvvələri.

**QOŞUNKEŞDİ** *köhn.* – dava, vuruş, döyüş.

**QOŞUNKEŞDİLİK** – qoşun toplama, bir ölkəyə qarşı qatı müharibəyə hazırlaşma, səfərbərlik.

**QOTLAR** – qədim alman tayfalarından biri, Şərqi german tayfası. Eramızın əvvəllərində Baltik dənizinin cənub

sahilində və Vislanın aşağı axarı boyunda yaşamışlar.

**QRAF** *alm.* – baron titulundan yüksək zadəgan titulu (rütbəsi) və bu cür titulu (rutbəsi) olan adam.

**QRAF** – Frank dövlətində vilayət hakimi.

**QRAFLIQ** – 1. qraf titulu; 2. İngiltərədə, ABŞ-da, İrlandiyda və Kanadada inzibati ərazi bölgüsü; 3. qraf mülkləri, qraf malikanəsi.

**QRİD** – qədim Rusiyada: knyaz drujinası və bu drujinanın əsgərləri.

**QRİF** *bax* qrifon.

**QRİFON** *yun.* – qədim Şərq xalqlarının mifologiyasında aslan bədənli, qartal qanadlı, şir, yaxud qartal başlı fantastik heyvan; qanadlı əjdaha. Qrifon təsvirləri qədim Şərqdə və antik incəsənətdə geniş yayılmışdı. Naxçıvan MR-in Zoğallı kəndində təqribən VI-VII əsrlərə aid orijinal tunc qrifon fiquru tapılmışdır.

**QRİQORİ TƏQVİMİ** *(yeni üslub.)* – tarixin hesablanma sistemi 1582-ci ildə Roma papası XIII Qriqorinin islahatı ilə həyata keçirilmişdir.

**QRİVNA** – 1. təxminən bir girvənkə qızıl və ya gümüş – qədim Rusiyada pul vahidi; 2.qızıl (gümüş) boyunbağı (qədim Rusiyada); ikişahlıq (qədim Rusiyada).

**QROSSBAUER** *alm.* – varlı kəndli, qolçomaq.

**QUBA XANLIĞI** – XVIII əsrin ortalarında Azərbaycanın şimal-şərqində yaranmış feodal dövləti.

**QUBERNATOR** *köhn.* – 1. çar Rusiyasında quberniya (vilayət) rəisi, vali; 2. bəzi müstəmləkə ölkələrində hakim; 3. ABŞ-da ştat rəisi.

**QUBERNATORLUQ** *köhn.* – 1. qubernator vəzifəsi; 2. qubernatorun idarəsi altında olan vilayət.

**QUBERNİYA** *lat.* – çar Rusiyasında və rayonlaşmadan qabaq keçmiş SSRİ-də əsas inzibati-ərazi vahidi; vilayət.

**QUL** – 1. qədim dövrlərdə: müharibədə əsir tutulub



satılan adam; 2. hər cür istehsal vasitəsi və hüquqdan məhrum olan və tamamilə öz sahibinin ixtiyarında olub, bir mal kimi alınıb satılan adam, kölə//*köhn.* nökər, xidmətçi.

**QULAM** – 1. keçmişdə: qul, kölə, nökər, qulluqçu, xidmətçi; 2. orta əsrlərdə bəzi Şərq ölkələrində türk əsilli gənc qullardan ibarət süvari dəstə, qvardiya.

**QULAM** – Səfəvilərdə xüsusi qoşun növü.

**QULAMLAR** – oğlan, oğlan uşağı, qul. Orta əsrlərdə bir sıra Şərq ölkələrində başlıca olaraq türk əsilli gənc qullardan daimi süvari qvardiya.

**QULDAR** – quldarlıq cəmiyyətində: qullara sahib olan adam.

**QULDARLIQ** – bəşəriyyət tarixində insanın insan tərəfindən istismarına əsaslanan ilk sinifli ictimai-iqtisadi formasiya; qul sahibliyi; köləlik quruluşu. Bu quruluşda əsas antoqonist siniflər quldarlar və qullar idi. İbtidai icma quruluşunun dağılması nəticəsində yaranmışdır. Qədim quldarlıq dövlətləri eradan əvvəl 4-cü və 3-cü minilliklərdə meydana gəlmişdir (Mesopotamiya, Misir). Eramızın 3-5 əsrlərinədək Asiya, Avropa və Afrikanın o dövr üçün qabaqcıl ölkələrində mövcud olmuş, Qədim Yunanıstanda və Romada özünün ən yüksək inkişafına çatmışdı.

**QULDARLIQ QURULUŞU** – bəşəriyyət tarixində insan tərəfindən istismara əsaslanan ilk sinifli ictimai-iqtisadi formasiya.

**QULDUR** – 1. yolkəsən, soyğunçu; 2. zülmkar, istismarçı.

**QULDURLUQ** – çapovulçuluq, soyğunçuluq, yol kəsmə.

**QULLUQ** – qul olmuş adamın halı; köləlik.

**QUPTALAR** – 4-6-cı əsrlərdə Şimali Hindistanda hökmdar sülaləsi. Maqadha knyazları nəslindən idilər.

**QURAN (QURANİ-KƏRİM)** – müsəlmanların İslam dininin müqəddəs dini kitibı; VII əsrdə meydana gəlmişdir.

**QURBAN BAYRAMI** – hicri ilin sonuncu (zilhiccə) ayının 10-da müsəlmanların qurban kəsdikləri dini bayram.

**QURTULUŞ GÜNÜ** – Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıtdığı və Ali Sovetin sədri seçildiyi gün – 1993-cü ilin 15 iyunu tarixə Qurtuluş günü kimi daxil oldu.

**QURULTAY** – hər hansı bir təşkilat və ya ixtisas nümayəndələrinin ictimai-siyasi yığıncağı.

**QURULTAY** *türkcə.* – hakim nəsildən olan türk əsilzadələrinin ali yığıncağı deməkdir. Adi döyüşçülər buraya buraxılmırdılar.

**QURULUŞ** – ictimai, dövləti sistem üsulu, idarə üsulu, məs., quldarlıq quruluşu.

**QUSAR** *rus.* – çar Rusiyasında və bəzi xarici ölkələrdə: macar forması geyinən süvari əsgər ya zabit.

**QUSİTLƏR** – XV əsrdə çexlərin alman feodallarına və Roma katolik kilsəsinə qarşı hərəkatına başçılaq edən Jan Qusun tərəfdarları.

**QÜREYŞİLƏR (QÜREYŞLƏR)** – Ərəbistan yarımadasının qərbində, əsasən Məkkə şəhərində yaşamış ərəb tayfası. On qola ayrılmışdır: üməyya, növfəl, zührə, məhzum, əsəd, cümah, səhm, haşim, təym, ədiy.

**QVARDİYA** *fr.* – əksinqilab və ağqvardiyaçılarla mübarizə etmək üçün 1917-1918-ci illərdə təşkil olunmuş və Qızıl Ordunun əsasını təşkil etmiş silahlı fəhlə dəstəsi.

**QVELFLƏR** *ital.* – XII-XV əsrlərdə İtaliya şəhərində siyasi qruplaşma. Alman feodal nəsli Velflə bağlıdır.



# L

**LABİRİNT** *yun.* – qədim Yunanıstanda və Misirdə: çox dolaşıq yolları və çoxlu otaqları olan böyük bina, tikili.

**LAKONİK** – fikrin az sözlə, yığcam, aydın ifadə edilməsi. «Lakonik» sözü belə danışıq tərzinin dəb olduğu Qədim Yunanıstanın Lakonika vilayətinin adı ilə bağlıdır.

**LAKONİKA** – Qədim Yunanıstanda, Pelopennesin cənub-şərqində vilayət.

**LAMA** – lamaist ruhanisi.

**LAMAİST** – lamaizm *(bax)* dininə mənsub adam.

**LAMAİZM** – Tibet və Monqolustanda yayılmış buddizmin bir qolu.

**LAMUTLAR** – even xalqının keçmiş adı.

**LANDQART** *alm.* – Almaniyada nümayəndəli orqan.

**LANDQRAF** *alm.* – orta əsrlərdə Almaniyada bəzi knyazların titulu. XIX əsrin II yarısından ləğv edilmişdir.

**LANDSKNEXT** *alm.* – orta əsrlərdə Qərbi Avropada muzdla tutulan əsgər.

**LANDŞTRUM** *alm.* – keçmişdə bəzi Avropa ölkələrində müharibə zamanı təşkil edilən xalq yığma qoşunu.

**LANDŞTRUMÇU** – keçmişdə bəzi Avropa ölkələrində müharibə zamanı təşkil edilən xalq yığma qoşun döyüşçüsü.

**LANDŞTRUMİST** *bax* landştrumçu.

**LANDTAQ** *alm.* – bəzi ölkələrdə (Almaniyada, Astriyada və s.) ayrı-ayrı vilayətlərin parlamentinə verilən ad.

**LANDVER** *alm.* – nizami qoşuna kömək etmək üçün könüllü surətdə düzəldilən yığma qoşun, ilk dəfə Napoleonla mübarizə zamanı Prussiya əyalətində düzəldişmişdir.

**LATİFUNDİYA** *lat.* – Cənubi Amerika ölkələrində iri torpaq sahibliyi.

**LAVR** – dəfnə ağacı; cəmdə: qabiliyyət, şöhrət, mükafat simvolu.

**LAVRA** – böyük monastır.

**LEGİON** *lat.* – 1. Qədim Romada 4500 nəfər döyüşçüdən ibarət ordu, legionun əsas gücü ağır silahlı piyadalardan ibarət idi; 2. XVI-XIX əsrlərdə Fransada, İngiltərədə, Almaniyada, Polşa və Rusiyada müxtəlif qeyri-dini heyətli əsgəri birləşmələr.

**LEGİONÇU** – legionda xidmət edən əsgər.

**LEGİTİM** *lat.* – qanuni.

**LEGİTİMASİYA** *lat.* – qanuniləşdirmə.

**LEGİTİMİST** *lat.* – legitimizm (*bax*) tərəfdarı.

**LEGİTİMİZM** *lat.* – inqilabın devirmiş olduğu padşah sülaləsinə tərəfdar olan irticaçı monarxist cərəyan.

**LEQAL** *lat.* – açıq, qanuni, aşkar, qanuni surətdə, qanuni olaraq.

**LEQALLAŞMAQ** – qanuniləşmək.

**LEQALLIQ** – açıqlıq, qanunilik.

**LEQAT** *lat.* – 1. canişan, sərdar (qədim romalılarda); 2. katoliklərdə papa məvəkkili.

**LEQLƏR** – Böyük Qafqaz dağlarının ətəklərində yaşamış qədim Azərbaycan və Dağıstan əhalisinin bir qisminin antik mənbələrdə adı.

**LEN** *alm.* – 1. orta əsrlərdə feodalın öz vassalına verdiyi torpaq, mülk; belə torpaqlar nəslən digərinə keçə bilər və yalnız məhkəmə vasitəsilə vassaldan alına bilər. Vassalla ağa arasındakı münasibət len qanunlarına əsasən müəyyənləşdirilirdi; 2. həmin torpaqdan (mülkdən) yığılan pul, vəsait, vergi.

**LEN SAHİBİ** – aldığı mülkə görə mülkədar – feodaldan asılı olan vassal.

**LEND-LİZ** *ing.* – 2-ci Dünya müharibəsi zamanı Almaniyaya qarşı müharibə edən müttəfiq dövlətlərə hərbi sursat, xammal, ərzaq və s. borc verilməsi haqqında 1941-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş qanun.



**LENDLORD** *ing.* – orta əsrlərdə İngiltərədə iri feodal torpaq sahibi, lord, mülkədar.

**LENDLORDİZM** *ing.* – Böyük Britaniyada aqrar quruluşu üçün xarakterik olan kapitalist tipli iri torpaq sahibliyi sistemi.

**LENİNİZM** – K.Marks və F.Engel-sin inqilabı işinin və təliminin davamçısı V.İ.Leninin təlimi.

**LEVELLERLƏR** *ing.* – bərabərçilər deməkdir. İngiltərə burjua inqilabı dövründə radikal xırda burjua – demokratik partiyası olan Levellerlər birpalatalı demokratik respublika yaradılması, vətəndaşların qanun qarşısında bərabərliyi, azad ticarət, vergilərin azaldılması və s. tələblər irəli sürürdülər.

**LEVİT** – qədim yəhudilərdə ruhani.

**LEYB-QVARDİYA** *alm.* – saray qvardiyası.

**LEYBORİST** *ing.* – İngiltərədə leyborist partiyası üzvü.

**LEYBORİSTLƏR** *ing.* – Böyük Britaniya, Avstraliya, Yeni Zelandiya və bir sıra digər ölkələrdə mövcud olan leyborist partiyasının üzvləri.

**LEYTENANT** *fr.* – kiçik zabit rütbəsi.

**LİBERAL** *lat.* – 1. liberalizm tərəfdarı; 2. liberallar partiyasının üzvü.

**LİBERALİZM** – 1. feodal-təhkimçilik dövründə və burjua inqilabı zamanı burjuaziyanın azadlığını tələb edən və burjuaziyanın siyasi hakimiyyəti qurulduqdan sonra son dərəcə mürtəce bir mahiyyət olan siyasi cərəyan; 2. barışdırıcılıq, güzəştə getmə.

**LİDER** *ing.* – rəhbər, başçı.

**LİDERLİK** – rəhbərlik, başçılıq.

**LİDİYA** *yun.* – Kiçik Asiyanın qərbində qədim ölkə.

**LİKTOR(LAR)** – qədim Romada yüksək mənsəb sahiblərinin fəxri keşikçisi (12 nəfərdən ibarət olurdu).

**LİNÇ** – (XVIII əsrdə yaşamış irqçi polkovnik Ç.Linçin adından) ABŞ-da zəncilərə

və inqilabçı fəhlələrə vəhşicəsinə (məhkəməsiz) divan tutma, məhkəməsiz cəza vermə.

**LİNÇ MƏHKƏMƏSİ** – ABŞ-da Linç məhkəməsi üzrə zəncilərə divan tutma adəti: indi Amerikada terrorçu Ku-Kluis-Klan təşkilatı Linç məhkəməsinə əsaslanır.

**LİNÇLƏMƏ** – ABŞ-da bir qism insanlar haqqında məhkəməsiz, bəraət nitqini dinləmədən çıxarılan ölüm hökmünün dərhal yerinə yetirilməsi.

**LİRƏ** – İtaliyada, Türkiyədə və Misirdə pul vahidi.

**LİSEY** *yun.* – orta və ya ali məktəb.

**LİTURGİYA** *yun.* – xristianların ən əsas ibadət ayini.

**LİVA** *arx.* – bayraq.

**LİVONİYA KONFEDERASİYASI** – bu ittifaqa Livoniya ordeni, Riqa arxiyepiskopluğu, Derpt, Ezel və Kurlandiya yepiskopluqları daxil idilər.

**LİVONİYA MÜHARİBƏSİ** – 1558-1583-cü illərdə Rusiyanın Baltikyanı əraziləri işğal etmək və Baltik dənizinə çıxmaq uğrunda Livoniya ordeni, həmçinin İsveç, Polşa və Böyük Litva knyazlığına qarşı müharibəsi. Müharibə Rusiyanın məğlubiyyəti ilə başa çatdı.

**LİVONİYA ORDENİ** – Alman cəngavərlərinin 1237-ci ildə yaratdıqları katolik və hərbi-siyasi təşkilatı.

**LİVR** *fr. əsli lat.* – 1. qədim Fransada gümüş pul (1799-cu ilə kimi); 2. qədim Fransada təxminən 0,5 kq-a bərabər çəki vahidi.

**LOBBİ** *ing.* – «qeyri-rəsmi» mənasını verir. Xarici ölkələrdə dövlət məmurlarına təzyiq göstərən, qanun layihələrinin qəbul olunmasına və ya pozulmasına çalışan agentliklər sistemi; qanunverici hakimiyyətin üzvlərinə pərdəarxası təsir göstərən bankirlər, monopolistlər qrupu, agentlər sistemi.

**LOKAUT** *ing.* – fəhlələri öz tələblərindən və tətildən əl çəkməyə məcbur etmək üçün sahibkarların müəssisəni bağlayıb, fəhlələri kütləvi surətdə işdən çıxarması.



**LORD** *ing.* – İngiltərədə yüksək zadəgan rütbəsi.

**LORD-KANSLER** *ing.* – lordlar palatası sədri (İngiltərədə).

**LORDLAR PALATASI** – İngiltərə parlametinin lordlardan ibarət yuxarı palatası.

**LORD-MER** *ing.* – İngiltərənin iri şəhərlərində bələdiyyə rəisi.

**LOYAL** *fr.* – qanun dairəsində hərəkət edən, özünü xeyirxah, bitərəf kimi göstərən.

**LOYALİSTLƏR** – Fransada kral tərəfdarları.

**LÜMPEN-PROLETARİAT** – bəzi cəmiyyətdə (kapitalist) sinfi simasını itirmiş adamlar təbəqəsi (səfillər, dilənçilər, cinayətkarlar və s.).

**LÜTERAN** – 1. lüteran məzhəbinə mənsub adam; 2. *bax* lüteranlıq.

**LÜTERANLIQ** – XVI əsrdə Almaniyada Martin Lüter tərəfindən təsis edilmiş protestant məzhəbi; xristianlığın bir qolu.

# M

**MAAF** *köhn.* – «azad olunmuş» deməkdir, bir sıra Yaxın Şərq ölkələrində və o cümlədən Azərbaycanda mövcud olmuş kəndli kateqoriyası. Hər cür vergi və mükəlləfiyyətlərdən azad olan maaflar (kəndlilər) xanlıqlar dövründə siyasi həyatda mühüm rol oynayırdılar. Maaflar xanın hərbi dəstələrində xidmət etməli və xanlığın sərhəd rayonlarını basqınlardan qorumalı idilər.

**MAÇARLAR** – Macarıstanın əhalisi; millət (madyarlar da adlanır).

**MADƏRŞAHLIQ** – qadın qohumluğu xəttinə əsaslanan və qadının hakim olduğu qəbilə qruplarından ibarət ibtidai icma quruluşu forması; matriarxat.

**MADLEN MƏDƏNİYYƏTİ** – Paleolit mədəniyyətinin son mərhələsi (e.ə. 1500-8000).

**MADRİQAL** *ital.* – ədəbiyyatşünaslıq termini kimi də işlədilir: qadına həsr olunan ilk kiçik musiqili şeir forması (lirik şeir), gözəlləmə.

**MAFİYA** *ital.* – terror üsulları ilə məqsədini həyata keçirən gizli təşkilat və ya cəmiyyət.

**MAGİSTR** *lat.* – elmi dərəcə, habelə belə dərəcəsi olan şəxs.

**MAGİSTRAT** *lat.* – 1. Qədim Romada: ali dövlət vəzifəsi; 2. belə vəzifə daşıyan adam; 3. Rusiyada şəhər silki idarəçilik orqanı (ilk dəfə 1720-ci ildə yaradılmışdır, 1727-43-cü illərdə ratuşa adlanırdı. 1864-cü ildən ləğv edilmişdir).

**MAGİSTRATURA** *lat.* – 1. Qədim Romada yüksək dövlət vəzifələrinin məcmusu (e.ə. VI əsrin sonu meydana gəlmişdi).

**MAĞARA** – dağ və ya qayanın içinə doğru uzanan, yaxud yerin altında olan kiçik oyuq; kaha.

**MAHAL** – bəzi inzibati-ərazi vahidlərinin adı.

**MAHARACA** *sanskr.* – Hindistanda Dehli sultanlığından əvvəl hökmdar titulu adı.

**MAHARAÇ** – Hindistanda Dehli sultanlığının yaranmasından əvvəl böyük knyaza verilmiş ad; böyük knyaz.

**MAXNOÇU** – maxnoçuluq hərəkatının üzvü.

**MAXNOÇULUQ** – 1918-21-ci illərdə Ukraynada Vətəndaş müharibəsi zamanı Maxnovun başçılıq etdiyi əksinqilabi anarxist-bandit həpəkatı.

**MAJİNO** – II Dünya müharibəsində gen. Majonun Fransanın Almaniya ilə bü-tün sərhəd boyunca yaratdığı müdafiə istehkamları sistemi.

**MAJORİTAR** *fr.* –1.çoxluq. Çoxmandatlı seçki sistmi. 2.Amerikada avropalılarla hindlilər arasında nikahdan törənən nəsil.



**MAKKARTİZM** – 1950-ci illərdə ABŞ-da ifrat mürtəce siyasi cərəyan.

**MAKSİMALİST** *lat.* – suiqəsdçi eser təşkilatın üzvü.

**MAKSİMALİZM** *lat.* – eserlər arasında ifrat sol suiqəsdçi cərəyan.

**MAQ** – 1. qədim İranda və ona qonşu olan ölkələrdə kahin (zərdüştilik dinində); 2. sonralar: sehrbaz, cadugər, münəccim.

**MAQNAT** *lat.* – 1. qədim Polşada iri feodal, varlı və əsilli şəxs; 2. Qədim Romada iri sənaye və maliyyə kapitalisti; iri torpaq sahibi.

**MALAKAN** *rus.* – malakanlıq *(bax)* təriqətinə mənsub adam.

**MALAKANLIQ** – pravoslav kilsəsinin ehkam və mərasimlərini rədd edən xristian dini təriqətlərdən biri.

**MALCƏHƏT** – məhsul vergisi.

**MALDARLIQ** – süd, ət və gön-dəri məmulatı almaq üçün qaramal yetişdirən sahə.

**MALİKANƏ** – 1. mülkədar mülkü, evi və ona yapışıq bağ, həyət və s.; 2. bir neçə kəndi əhatə edən təsərrüfatın idarəsi və s. yerləşən kənd.

**MALTUSÇU** – maltusçuluq *(bax)* nəzəriyyəsinin tərəfdarı.

**MALTUSÇULUQ** – ingilis iqtisadçısı Maltusun adından: əhalinin ağır vəziyyətini ictimai səbəblərlə deyil, sürətlə artımı ilə izah edən nəzəriyyə.

**MANCANAQ** – qədim dövrdə: müharibə qala divarlarını dağıtmaq üçün daş, yanar maye ilə dolu çəllək və s. atmaq üçün maşın.

**MANCANAQÇI** – mancanağı idarə edən şəxs, əsgər.

**MANDARİN** *port.* – portuqalların Çin məmurlarına verdikləri ad.

**MANDAT** *lat.* – hər hansı şəxsin vəkalətini (səlahiyyətini) təsdiq edən, bildirən sənəd; səlahiyyət, ixtiyar.

**MANDAT SİSTEMİ** – keçmiş alman müstəmləkələri və osmanlı mülklərinin qəyyumluğa götürülmüş formada bölüşdürülməsi. Birinci Dünya müharibəsinin yekunlarına həsr edilmiş Versal konfransında müəyyən edilmişdir.

**MANEVR** *fr.* – müharibədə qonşunun və ya donanmanın düşmənə zərbə vurmaq məqsədilə hərəkəti, yerdəyişməsi.

**MANİFEST** *lat.* – 1. hər hansı təşkilatın öz siyasi görüşləri barədə rəsmi müraciəti, bəyannaməsi; 2. dövlət başçısının, yaxud ali hakimiyyət orqanının hər hansı mühüm siyasi hadisə ilə əlaqədar xalqa müraciət aktı.

**MANNA** – eradan əvvəl I minilliyin əvvəllərində Azərbaycan ərazisində (Urmiya gölünün cənub-şərqi) yaranmış ən qədim dövlət.

**MANNALILAR** – mannanın əhalisi, xalq.

**MANNAŞ** – aşpur mənbələrində Manna dövlətinin adı (*bax* manna).

**«MANNERHEYM XƏTTİ»** – Finlandiyanın mübadilə naziri Mannerheymin adı ilə adlandırılan möhkəmləndirilmiş müdafiə sistemi.

**MANUFAKTURA** *lat.* – 1. maşın sənayesində əvvəlki istehsal forması; 2. *köhn.* fabrik və toxuculuq sənayesi məmulatı; parça; «manus-əl, «faktura» - hazırlama. «Əl ilə düzəldilən» deməkdir. Burada əl əməyindən istifadə edilən ilk kapitalist müəssisəsi nəzərdə tutulur. Əmək bölgüsünə əsaslanan manufaktura tarixən mütərəqqi səciyyə daşımış, ictimai əmək bölgüsünü daha da dərinləşdirmiş, iri maşınlı sənaye üçün zəmin yaratmış, kapitalist istehsalının maşınlı mərhələsinə keçilməsi üçün bacarıqlı fəhlə kadrları hazırlamışdır. İlk manufakturalar İtaliyada yaransa da, İngiltərədə manufaktura klassik formada inkişaf prosesi keçmişdir. Azərbaycanda ilk kapitalist manufakturası 1829-cu ildə açılmış Xanabad ipəksarıyan



manufakturası idi. Manufakturada muzdlu əməkdən istifadə edilirdi.

**MANUFAKTURAÇI** *köhn.* – manufaktura mağazası sahibi; bəzzaz, tacir.

**MANUSKRİPT** *lat.* – qədim əlyazması.

**MARAFON QAÇIŞI** – 42 km. 195 m. məsafəyə qaçış yarışı.

**MARAFON VURUŞMASI** – Yunan-İran müharibələri (e.ə. 500-449) dövründə vuruşma. E.ə. 490-cı il sentyabrın 13-də Marafon kəndində baş vermişdir.

**MARANLAR** *isp.* – orta əsrlərdə İspaniya və Portuqaliyada rəsmən xristianlığı qəbul etmiş yəhudilər.

**MARKA I** *lat.* – 1. orta əsrlərdə Almaniyada və Frank dövlətində sərhəd vilayəti və ya müstəqil inzibati vilayət; 2. qədim Almaniyada: kənd icması.

**MARKA II** – Almaniyada, Finlandiyada pul vahidi.

**MARKİTANT** *alm. əsli ital.* – XVIII-XIX əsrlərdə: orduda yeyinti şeyləri satan adam.

**MARKİZ** *fr.* – Fransada, İngiltərədə, İtaliyada və İspaniyada zadəgan rütbəsi, habelə, belə rütbəsi olan şəxs.

**MARKQRAF** *alm.* – orta əsrlərdə Almaniyada: markanı idarə edən knyaz; *bax* marka I 1.

**MARKQRAFLIQ** *alm.* – Böyük Kral tərəfindən Frank imperiyasının sərhədləri boyu yaradılmış vilayətlər.

**MARKSİST** – marksizmin tərəfdarı//marksizmlə bağlı olan, marksizmə xas olan.

**MARKSİST-LENİNÇİ** – marksizm mövqeyindən.

**MARKSİZM** – (Elmi kommunizmin banisi K.Marksın adından) təbiət və cəmiyyətin inkişaf qanunları, kommunizm cəmiyyəti qurulması haqqında qeyri-elmi dünyagörüşü.

**MARKSİZM-LENİNİZM** – Marks-Engels-Lenin nəzəriyyəsi.

**MARLAR** – Midiya tayfalarından biri. Eradan əvvəl VI-V əsrlər antik müəlliflərin məlumatına görə Van və Urmiya gölləri arasındakı ərazidə yaşamışlır.

**MARSELYOZA** *fr.* – 1. Fransa-burjua inqilabı zamanı, 1792-ci ildə qoşulmuş mahnı; 2. Fransanın milli himni.

**MARTİNİST** – martinizm (*bax*) tərəfdarı.

**MARTİNİZM** *yun.* – XVIII əsrdə masonlar arasında yayılmış mistik nəzəriyyə.

**MARŞAL** *alm.* – 1. orta əsrlərdə Fransada saray rütbəsi; kralın atlara baxan xidmətçisi; 13-15-ci əsrlərdə kral qanununun bir hissəsinin komandanı idi; 2. bir sıra ölkələrin ordularında ali hərbi rütbə, ilk dəfə 16-cı əsrdə Fransada tətbiq edilmişdir.

**MASON** *fr.* – XVIII əsrdə meydana çıxmış dini-fəlsəfi təşkilat üzvü. Hazırda Fransada, ABŞ-da və başqa ölkələrdə mövcuddur.

**MASONÇULUQ** *fr.* – 18-ci əsrin əvvəllərində İngiltərədə yaranmış dini-etik hərəkat.

**MASONLUQ** – XVIII əsrdə meydana çıxmış dini-fəlsəfi cərəyan.

**MASSAGETLƏR** – qədim yunan mənbələrində Xəzər sahilində yaşamış tayora qruplarının ümümi adı.

**MAŞMAŞ** – Aratta ölkəsində dini idarələrə başçılıq edən kahin.

**MAŞONA** – Afrikada yaşayan xalqlardan birinin adı.

**MATERİALİST** *fr.* – materializm cərəyanının tərəfdarı.

**MATERİALİZM** *fr.* – materiyanın, təbiətin, obyektiv varlığın şüura, təfəkkürə nisbətən ilkinliyini qəbul edən elmi-fəlsəfi cərəyan (idealizmə zidd cərəyan).

**MATRİARXAT** *lat.* *bax* madərşahlıq.

**MATRONA** *lat.* – 1. Qədim Romada azad doğulmuş, qanuni nikahda olan qadın; 2. cəmdə: Romada və onun əyalətlərində müəyyən yaşayış məskəninin və ya qəbilə-tayfa icmasının hamisi olan ilahələr.

**MAVƏRAÜƏNNƏHR** – dənizin arxası deməkdir. Orta əsrlərdə qərbdən Aral gölü, cənubdan Amudərya, şimaldan Sırdərya, şərqdən Fərqanə ilə əhatə olunan əraziyə deyilirdi. VII-VIII əsrlərdə ərəb işğalları zamanı yaranmışdı.

**MAVRLAR** *lat.* *əsli yun.* – 1. orta əsrlərdə Afrika ərəbləri və bərbərlərinin ümumi adı;
2. qədim romalıların Mavritaniyanın yerli əhalisinə verdikləri ad.

**MAVRLAR** *yun.* – Pireney yarımadasında və Şimali Afrikanın şimal- qərb hissəsində ərəb dilinin yerli dialektlərində danışan müsəlman əhalisi.

**MAVZOLEY** *lat.* – dəfn qurğusu // qəbir üzərində tikilən türbə.

**MAYORAT** *lat.* – 1. feodalizm dövründə: mirasın böyük oğula çatmasından ibarət vərəsəlik sistemi;
2. bu qayda üzrə vərəsəyə çatan miras, böyük mülk; mülkiyyətin bölünməzliyi.

**MAYORDOM** *lat.* – merovinqlər (*bax*) dövründə (V əsrin sonu – VIII əsrin ortaları) Frank dövlətində ali vəzifəli şəxs.

**MEDAL** *fr.* – 1. xüsusi xidmətlərinə və ya göstərdiyi rəşadətə görə verilmiş nişan; 2. hər hansı tarixi hadisə və ya görkəmli xadimin xatirəsinə həsr edilmiş nişan.

**MEDİYEVİST** *fr.* – orta əsr tarixi üzrə mütəxəssis.

**MEDİYEVİSTİKA** *fr.* – tarix elminin Qərbi Avropada orta əsrlər tarixini tədqiq edən bölməsi.

**MEHDİÇİLƏR** – 1881-ci ildə Şərqi Sudanda sudanlı Mehdinin başçılığı ilə Türkiyə - Misir hökmranlığına və ingilis müstəmləkəçilərinə qarşı başlanmış milli azadlıq üsyanı iştirakçılarının ümumi adı.

**MEHDİÇİLƏR DÖVLƏTİ** – 1881-98-ci illərdə Sudanda milli azadlıq hərəkatı nəticəsində yaranmış müstəqil dövlət.

**MEHDİÇİLƏR ÜSYANI** – Sudanda 1881-98-ci illərdə Türkiyə-Misir hökmranlığına və ingilis müstəmləkəçilərinə qarşı üsyan.

**MEHRAB** – «ibadətgah» deməkdir, məscidlərdə qiblə cəhətdəki (Məkkə istiqamətdə) divarda düzəldilən və önündə namaz qılınan oyuq, taxça.

**MEHRANİLƏR** – Albaniya (Qafqaz) hökmdarları sülaləsi (təqribən 510-705). Sülalənin banisi Mehrandır. Armael, Vard, Cəsur, Vardan, I Varazman, Şuşik, Varaz Qriqor, Varaz Peroj, Yezid Xosrov, II Varazman; Cavanşir, I Varaz Trdat nümayəndələridir. Bunlardan Varaz Qriqori və Cavanşir görkəmli nümayəndələrdir.

**MEHTƏR** *köhn.* – ata qulluq edən, atabaxan.

**MEHTƏRBAŞI** *köhn.* – 1. qədim Rusiyada: çar tövlələrinə, atlarına baxan saray xidmətçisi; 2. keçmişdə: şah məmurlarının, paşaların, xanların, bəylərin atlarına baxan xidmətçi; baş mehtər.

**MEHTƏRXANA** *fr.* – atların saxlandığı yer, mehtərlik, tövlə.

**MEHTƏRLİK** – mehtərin işi, vəzifəsi.

**«MEHRİBAN QONŞU» SİYASƏTİ** – F.Ruzveltin (1932-1945) Latın Amerikası ölkələrinə münasibətdə irəli sürdüyü siyasət. Bu siyasətdə məqsəd – bu ölkələri ABŞ-a tabe etmək, İngiltərə, Almaniya kapitalını oradan sıxışdırıb çıxartmaq idi.

**MEJRAYONÇU** – 1913-1917-ci illərdə Sankt-Peterburqda müxtəlif antileninçi menşevik qruplarının üzvü.

**MEQALİT MƏDƏNİYYƏTİ** – Eneolit *(bax)* və Tunc dövrünün *(bax)* bir sıra arxeoloji mədəniyyətinin ümumi adı.

**MEMARLIQ** *lat.* – insanın həyat və fəaliyyəti üçün məkan mühitini əmələ gətirən bina və qurğular sistemi.

**MEMORANDUM** *lat.* – hər hansı bir məsələ haqqında hökumətin fikirləri izah edilmiş diplomatik sənəd.

**MEMORANDUM** *lat.* – yadda saxlamalı şey. Diplomatik yarışma forması, sənəd. Xatırlatma notasına oxşayır.

**MENŞEVİK** *rus.* – menşevizm tərəfdarı, antimarksist opportunist partiyasının üzvü.

**MENŞEVİKLİK** – menşevizmə mənsubiyyət; menşevizm.

**MENŞEVİZM** *rus.* – Rusiya Sosial-Demokrat Fəhlə Partiyasında əksinqilaba xırda burjua opportunist cərəyanı; reformizmin bir növü.

**MER** *fr.* – bəzi ölkələrdə meriyanın *(bax)* başçısı.

**MERİYA** *fr.* – şəhər bələdiyyə idarəsi, eləcə də həmin idarənin yerləşdiyi bina.

**MERKANTİLİST** *fr. əsli ital.* – merkantilizm tərəfdarı.

**MERKANTİLİZM** *fr. əsli ital.* – XVI-XVIII əsrlərdə Avropada ticarət burjuaziyasının mənafeyini əks etdirən iqtisadi nəzəriyyə, iqtisadi siyasət; bu nəzəriyyə ölkənin rifahının istehslatda deyil, mal dövriyyəsinin və pul kapitalının ölkə daxilində inkişaf etdirilməsində görürdü.

**MEROVİNQLƏR** *lat.* – Frank dövlətində ilk kral sülaləsi (751-ci ilədək). Əfsanəvi banisi Meroveydir (əslində Xilderik). Nümayəndələri: Xİlderik (457-81), I Xlodviç (481-511) I Xilderik (561-584), I Sigebert (561-575), II Xlotar (584-629), Neystriyada (613-cü ilə qədər), I Daqobert (629-639), III Xilderik (743-751).

**MESOPOTAMİYA** *yun.* – «ikiçayarası» deməkdir. Qərbi Asiyada, Dəclə və Fərat çaylarının hövzələri arasında təbii vilayət.

**MEŞŞANLAR** *pol.* – 1917-ci il inqilabından əvvəl Rusiyada şəhər əhalisinin müxtəlif kateqoriyalarını bildirən silk.

**METROPOLİYA** *yun.* – müstəmləkələri olan qədim yunan şəhərləri; müstəmləkəsi olan ölkə.

**MEYSTERZİNGER** *alm.* – orta əsrlərdə (XIV-XIX) Almaniyada, Avstriyada xanəndə şair.

**MEZOLİT** *yun.* – qədim daş dövründə (paleolitdən) yeni daş dövrünə (neolit) keçid dövrü; orta daş dövrü.

**MEZOZOY QRUPU (DÖVRÜ, ERASI)** – stratiqrafik şkalanın aşağıdan dördüncü qrupu və Yerin geoloji tarixində ona müvafiq era. 160-170 milyon il davam etmişdir. Üç dövrə bölünür: Trias dövrü, Yura dövrü, Tabaşir dövrü.

**MƏBƏD** – ibadət və din mərasimlər keçirilməsi üçün bina, ibadət yeri, ibadətxana.

**MƏCƏLLƏ** – ictimai münasibətlərin müəyyən sahəsini tənzimləyən vahid sistemləşdirilmiş qanunvericilik aktı.

**MƏCLİS** – bəzi ölkələrdə qanunverici orqanın adı.

**MƏDƏNİYYƏT** – 1. insan cəmiyyətinin istehsalında, ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlər məcmusu; 2. əldə olunan belə nailiyyətin səviyyəsi.

**MƏDHİYYƏ** – birini tərifləmək məqsədilə yazılmış şeir.

**MƏDHİYYƏÇİ** – mübaliğə ilə bir adamı və ya bir şeyi mədh və tərif edən; məddah.

**MƏDHNAMƏ** *bax* mədhiyyə.

**MƏDRƏSƏ** – keçmişdə: dini məktəb, ruhani məktəbi (ərəbcə məktəb, öyrənmək deməkdir).

**MƏHSULDAR QÜVVƏLƏR** – ictimai istehsal prosesində insanlarla təbiət arasında «maddələr mübadiləsi»ni həyata keçirən subyektiv və maddi ünsürlər sistemi.

**MƏHSULDAR QÜVVƏLƏR** – əmək alətləri, torpaq, yeraltı sərvətlər, insanlar və s.

**MƏXƏZ** *bax* mənbə.

**MƏXƏZŞÜNAS** *bax* mənbəşünas.

**MƏXƏZŞÜNASLIQ** *bax* mənbəşünaslıq.

**MƏQBƏRƏ** – türbə, mavzoley *(bax).*

**MƏMLÜK** – 1. vaxtilə Misirdə olmuş türk mənşəli hərbi zadəgan silki və bu silkə mənsub şəxs (bu silk ibtidada Türkiyə sultanlarının şəxsi qvardiyasını təşkil etmiş çərkəz qullarından əmələ gəlmişdi); 2. Napoleonun Misir səfəri zamanı təşkil etdiyi şəxsi mühafizə dəstəsinin əsgəri.

**MƏMUR** – dövlət idarələrində çalışan qulluqçu, dövlət xidmətçisi.

**MƏNBƏ** – elmi tədqiqatın əsaslandığı yazılı abidə: məxəz.

**MƏNBƏŞÜNAS** – mənbəşünaslıq mütəxəssisi; məxəzşünas.

**MƏNBƏŞÜNASLIQ** – tarixi mənbələrin tədqiqi və onlardan istifadənin üsullarını tədqiq edən köməkçi tarix elmi; məxəzşünaslıq.

**MƏNZİL** – 1. məsafə, gedilən yol; 2. bütün hissələri ilə birlikdə ev.

**MƏRASİM** – dini mahiyyətdə olan ayin; dini ayinlər.

**MƏRKƏZÇİ** – mərkəzçilik (*bax*) tərəfdarı.

**MƏRKƏZÇİLİK** – sağlarla sollar arasında olma.

**MƏRVANİLƏR** – əməvilər *(bax)* sülaləsinin I Mərvan ibn əl-Hakimdən (638-685) başlayan qolu.

**MƏRZBAN** – İranda Sasanilərin dövründə (III-VII əsrlər), əsasən, ucqar əyalətlərin hakimi; canişin.

**MƏRZLƏMƏ** – mərz çəkmə (tarla, bağ və s. sahəni bir-birindən ayırmaq üçün xətt çəkmə).

**MƏRZLƏŞDİRMƏ** – torpaq sahələrinin sərhədlərinin dəqiq müəyyənləşdirilməsi.

**MƏSCİD** – müsəlmanların ibadət yeri; ibadətxana.

**MƏŞRUTƏ** – 1. mütləq hakimi, hökmdarın hüququnu məhdudlaşdıran konstitusiya (İranda və Türkiyədə); 2. konstitusiyalı dövlət quruluşu (İranda və Türkiyədə).

**MƏŞRUTƏ** – konstitusiya deməkdir. 1905-1911-ci illər İran inqilabı məşrutə hərəkatı adlanır.

**MƏŞRUTƏÇİ** – məşrutəli hökumət tərəfdarı, konstitusiya tərəfdarı; konstitusiyaçı.

**MƏŞRUTƏÇİLİK** – padşahın hakimiyyəti məşrutə ilə məhdudlaşdırılmış olan dövlət quruluşu.

**MƏŞRUTƏXAH** *bax* məşrutəçi.
**MƏŞRUTƏXAHLIQ** *bax* məşrutəçilik.
**MƏŞRUTƏLİ** – konstitusiyalı, konstitusiyaya əsaslanan.
**MƏTBƏƏ** – kitab, qəzet, jurnal və s. çap olunan müəssisə; çapxana.
**MƏTƏQƏBBİL** – xərac toplayan vergi məmuru.
**MƏZDƏKİLƏR** – yüksək zümrənin ağalığına qarşı yönəlmiş hərəkat. 481-529-cu illəri əhatə edib. Hərəkatın başçısı Məzdəkin adı ilə məzdəkilər hərəkatı adlanır.
**MƏZDƏKİLİK** *bax* məzdəkizm.
**MƏZDƏKİZM** – V-VI əsrlərdə İranda Məzdəkin rəhbərliyi altında feodallar və ruhanilərə qarşı yönəldilmiş xalq hərəkatı; məzdəkilik.
**MƏZYƏDİLƏR (ŞEYBANİLƏR, YƏZİDİLƏR)** – Şirvanşahlar sülaləsi (861-1027). Hökmdarları: I Heysəm (861-880), I Məhəmməd (881-912), II Heysəm (912-913), Əli ibn II Heysəm (913-917), II Yəzid əbu Tahir (917-948), II Məhəmməd (948-956), Əhməd (956-981), III Məhəmməd (981-991), III Yəzid (991-1027). Məzyədilər dövləti də Məzyədilər sülaləsinin adı ilə adlandırılmışdır.
**MİDİYA** – qədimdə əvvəlcə tayfa ittifaqının, sonralar İran yaylasının şimal-qərb vilayətlərindəki çarlığın və nəhayət böyük bir dövlətin adı.
**MİDİYA YAĞI** – Atropatenada nefti belə adlanlırırlar.
**MİDİYALILAR** – e.ə. IX-VII əsr Xəzər dənizindən cənubda, indiki Zəncan-Həmədan, Qəzvin-Tehran zonasında, həmçinin şərqə və cənub-şərqə doğru uzanan rayonlarda məskunlaşmış xalq.
**MİF** *yun.* – allahlar, əfsanəvi qəhrəmanlar, ruhlar haqqında rəvayətlər.
**MİFOLOGİYA** *yun.* – mifik rəvayətlər toplusu.
**MİFŞÜNAS** – mifşünaslıq *(bax)* mütəxəssisi.



**MİFŞÜNASLIQ** – mifləri tədqiq edən elm.
**MİXİ YAZILAR** – Qədim yazı növlərindən biri (Ön Asiyanın qədim xalqlarında gil və daş üzərində cızıqlardan ibarət yazı); Mesopotamiyada şumerlərin e.ə. I minilliyin əvvəllərində yaratmış olduqları işarələrdən ibarət yazı növü. Bu işarələr mix formalı olduğu üçün mixi yazılar adlanır. Mixi yazılar gil lövhələr üzərində cızılırdı.
**MİKADO** – Yaponiyada imperator titulu.
**MİKROLİT** *yun.* – «mikro» - kiçik, «litos» - daş deməkdir. Mezolit dövründə insaların işlətdikləri çox kiçikölçülü alətlər nəzərdə tutulur.
**MİQRASİYA** *lat.* – yaşayış yerinin dəyişdirilməsi ilə əlaqədar əhalinin bir yerdən başqa yerə köçməsi.
**MİL** *ing.* – müxtəlif ölkələrdə müxtəlif uzunluğa bərabər məsafə ölçü vahidi.
**MİLAD** – xristianlarda İsa peyğəmbərin doğulduğu il/ /həmin ildən başlanan təqvim. Rəvayətə görə İsa peyğəmbər eramızın birinci ili dekabrın 24-də anadan olmuşdur. Bu hadisə xristian aləmində «milad» - anadanolma adlanır. Xristian il hesablanması da Milad təqvimi adlanır.
**MİLADİ** – İsa peyğəmbərin doğulduğu gündən başlanan, hesablanan.
**MİLADİ TARİX** – təqribən bizim eranın ilk ilində İsa peyğəmbərin dünyaya gəldiyi ildən (dekabrın 24) başlanan tarix və hazırda işlənən təqvim.
**MİLİS** *lat.* – 1. bəzi ölkələrdə (Rusiyada) milisiyada xidmət edən adam, milis nəfəri; 2. *bax* milisiya.
**MİLİSİONER** *lat.* – milis nəfəri, milis işçisi.
**MİLİSİYA** *lat.* – ictimai asayişi qoruyan inzibati orqan; milis, milis idarəsi.
**MİLİTARİZM** *fr.* – imperialist dövlətlərin hakim dairələrinin qəsbkar müharibələrə hazırlaşmaq, ölkə daxilində zəhmətkeşlərin sinfi

çıxışlarını yatırtmaq məqsədilə hərbi hazırlıq tədbirlərini genişləndirməyə yönəldilmiş mürtəce siyasət.

**MİLLƏT** – 1. insanların dil, ərazi, iqtisadi həyat və s. ümumiliyi əsasında əmələ gəlmiş sabit tarixi birliyi; 2. ölkə.

**MİLLƏT VƏKİLİ** – deputat, Milli Məclisin üzvü, xalq elçisi.

**MİLLƏTÇİ** – millətini, xalqını sevən; millətpərvər.

**MİLLƏTÇİLİK** – 1. millətini, xalqını sevmə; millətpərvərlik; 2. bir millətin digər millətdən üstün tutulması siyasəti, millət nümayəndələri tərəfindən onun rolunun həddindən artıq şişirdilməsi.

**MİLLƏTLƏR CƏMİYYƏTİ** – I və II Dünya müharibələri arasında fəaliyyət göstərmiş beynəlxalq təşkilat.

**MİLLƏTLƏR SOVETİ** – Ali Sovetin palatalarından biri.

**MİLLƏTPƏRVƏR** *bax* millətçi.

**MİLLƏTPƏRVƏRLİK** *bax* millətçilik.

**MİLLİ AZADLIQ HƏRƏKATI** – öz vətənini, xalqını əsarətdən azad etmək uğrunda aparılan mübarizə.

**MİLLİ AZADLIQ İNQİLABI** – milli azadlıq hərəkatından törəyən və xarici hökmranlığın məhvinə, milli istiqlaliyyət qazanılması, milli müstəmləkə zülmünün və istismarın ləğvinə yönəldilən inqilab.

**MİLLİ DİL** – xalqın millətə çevrilməsi prosesində xalq dili əsasında formalaşan dil.

**MİLLİ QVARDİYA** – 18-19-cu əsrlərdə bir sıra Qərbi Avropa ölkəsində mövcud olmuş silahlı könüllü dəstə.

**MİLLİ MƏCLİS** *bax* parlament.

**MİLLİ MƏSƏLƏ** – müxtəlif ictimai-iqtisadi formasiyalarda millətlər, milli qruplar və xalqlar arasında siyasi, iqtisadi, ərazi, hüquqi, ideoloji və mədəni münasibətlərin məcmusu.



**MİLLİLƏŞDİRMƏ** – xüsusi mülkiyyətin dövlət mülkiyyətinə keçirilməsi.

**MİNA** *fr.* – 1. qədim Yunanıstanda və qədim Şərqdə: çəki ölçüsü; 2 qədim yunan pulu.

**MİNARƏ** – azan vermək üçün qüllə.

**MİNBAŞI** *köhn.* – orta əsrlərdə Yaxın Şərqin bəzi ölkələrində, o cümlədən Azərbaycanda mövcud olmuş hərbi vəzifə.

**MİNİATÜR** – kiçikliyi və incəliyi ilə seçilən sənət əsəri.

**MİNİATÜR** – latınca minium sözündəndir. Bu isə baş hərfləri yazmaq üçün istifadə edilən qırmızı boyaq mənasını verirdi.

**MİNNEZİNGER** *alm.* – orta əsrlərdə Almaniyada: şair və xanəndə; şair-nəğməkar.

**MİNOY MƏDƏNİYYƏTİ** – Krit adalarında yüksək inkişaf etmiş Tunc dövrü mədəniyyəti (e.ə. III-II minilliklər).

**MİRAB** *köhn.* – keçmişdə su təsərrüfatına baxan, suvarma sularına nəzarət edən şəxs.

**MİRABLIQ** *köhn.* – mirabın vəzifəsi, işi.

**MİRAXUR** *köhn.* – qədim zamanlarda padşahın, xanın baş mehtəri, mehtərbaşı.

**MİRALAY** *köhn.* – 1. alay komandiri; 2. 30-cu illərədək Azərbaycan və Türkiyə ordularında polkovnik.

**MİRAS** – ölən adamdan varisinə qalan hər şey.

**MİRZƏ** – şəxs adlarından sonra gəldikdə şahzadəlik, əvvəl gəldikdə isə rütbə bildirir.

**MİS DÖVRÜ** – Neolitdən *(bax)* Tunc dövrünə *(bax)* keçid dövrü.

**MİS QİYAMI** *bax* Moskva üsyanı.

**MİSİR** – qədim Afrikanın şimal-şərqində qədim dövlət.

**MİSİR YAZISI** – dünyanın ən qədim yazı sistemlərindən biri.

**MİSİRLİLƏR** – Misirin əsas əhalisini təşkil edən xalq.

**MİSİRŞÜNASLIQ** – qədim Misir dilini, yazısını, tarixini, mədəniyyətini və arxeoloji abidələrini öyrənən elm.

**MİSQAL** – 4,64 qarama bərabər çəki ölçüsü.

**MİSSİONER** *fr. əsli lat.* – xristianlığı yaymaq üçün xristian olmayan xalqlar arasına göndərilən hər bir təbliğatçı.

**MİSSİONERLİK** – xristianlığı yaymaq üçün hər cür insanlarla yürüdülən təbliğat işi.

**MİSSİYA** *lat.* – 1. dövlət nümayəndə heyəti; 2. diplomatik nümayəndəlik.

**MİSTERİYA** – Qərbi Avropada dini teatr janrı; şəbeh.

**MİSTİK** – mistikaya aid olan.

**MİSTİK QÜVVƏLƏR** – müəmmalı, əslində mövcud olmayan qüvvələr.

**MİSTİKA** *yun.* – ilahi, gizli bir qüvvəyə inanma.

**MİSTİSİZM** *lat.* – mistikaya əsaslanan dini-idealist dünyagörüşü.

**MİŞARİLƏR** – tatarların etnoqrafik qrupu.

**MİTİNQ** *ing.* – mühüm gündəlik məsələyə həsr olunmuş kütləvi yığıncaq.

**MİTROPOLİT** *yun.* – pravoslav və katolik yepiskoplarının ən yüksək adı və bu adı daşıyan ruhani.

**MİZRAQ** *bax* nizə.

**MOLLA** – axunddan kiçik müsəlman ruhanisi.

**MOLLAXANA.** – mollanın dərs dediyi dini məktəb.

**MONARX** *yun.* – monarxiya dövlətində irsi dövlət başçısı (şah, sultan, çar, imperator, kral və s.) Monarx bəzən seçilə də bilər. Məsələn, Monqolustanda XIII əsrdə Çingiz xanın seçilməsi.

**MONARXİST** *yun.* – monarxizm tərəfdarı; padşahpərəst.

**MONARXİYA** *yun.* – təkhakimiyyətlilik deməkdir. Dövlətin başında bir nəfərin – padşahın durduğu idarə üsulu, habelə bu üsulla idarə olunan dövlət; padşahlıq mütləqiyyət. Burada ali dövlət



hakimiyyəti monarxın əlində cəmləşir. Aristotel monarxın, yəni bir nəfərin idarə etdiyi və hakimiyyətin atadan oğula keçdiyi dövləti monarxiya adlandırmışdır. Feodalizm dövründə monarxiya müxtəlif inkişaf mərhələləri keçmişdir: 1. ilkin feodal monarxiyası; 2. feodal pərakəndəliyi dövrü monarxiyası; 3. silki nümanyəndəli monarxiya; 4. mütləq monarxiya. Müasir dövrdə bir çox dövlətlər üçün məhdud, konstitusiyalı monarxiya səciyyəvidir. Konstitusiyalı monarxiyanın iki növü var: 1. qeyri-məhdud monarxiya. Bu zaman monarx icra hakimiyyətini öz əlində cəmləşdirir. Hökuməti təşkil etmək, veto hüququna, parlamenti buraxmaq və s. hüquqlara malikdir; 2. parlamentli monarxiya. Burada monarxın hakimiyyəti əslində formal səciyyə daşıyır *(məsələn, müasir Böyük Britaniyada).*

**MONARXİYALI** – monarxiya üsul-idarəsi olan, padşaha tabe olan.

**MONARXİZM** *yun.* – monarxiyanı bərqərar edib saxlamaq məqsədi daşıyan mürtəce siyasi cərəyan; padşahpərəstlik.

**MONASTIR** *yun.* – rahib icması.

**MONQOLLAR (MOĞOLLAR)** – monqol dillərində danışan bütün xalqların tarixi adı.

**MONOGENİZM** *yun.* – insanların mənşə birliyi və insan irqlərinin bir-biri ilə qan qohumluğu haqqında təlim.

**MONOQAMİYA** *yun.* – təkarvadlılıq, təkkəbinlilik.

**MONOQRAFİYA** *yun.* – bir sahənin, mövzunun öyrənilməsinə həsr olunmuş tədqiqat əsəri.

**MONOPOLİYA** *bax* inhisar.

**MONOTEİZM** *yun.* – təkallahlılıq, allahın tək və ya hər şeyə qadir olması haqqında dini təsəvvürlər sistemi.

**MORATORİUM** *lat.* – bərkidici, təxirəsalıcı. Dövlətin öhdəliklərinin yerinə yetirilməsi vaxtının geri çəkilməsi, yaxud hər hansı bir hərəkətdən imtina edilməsi.

**MOSKVA ÜSYANI** – 17-ci əsrin (1648) ortalarında Rusiyada ən böyük şəhər üsyanı (buna mis qiyamı, duz qiyamı da deyirlər).

**MOZAİKA** – müxtəlif r...li xırda-xırda daşlar və şəffaf olmayan rəngli şüşə qırıntılarından – smaltedən ibarət rəsm.

**MÖHRƏ** – palçıq və saman qarışığı.

**MÖHTƏKİRLİK** – əhaliyə lazım olan məhsulları ucuz qiymətə alıb saxladıqdan sonra baha qiymətə satılması.

**MÖVLALAR** – İslam dinini ...nüllü qəbul etmiş yerli əhali.

**MUĞAN** – Azərbaycanda tarixi şəhər.

**MUĞAN DÜZÜ** – Azərbaycanda düzənlik Kür-Araz ovalığının bir hissəsi.

**MUĞAN MƏDƏNİYYƏTİ** – Azərbaycanın Muğan düzü ə Talış dağlarında uyumuş son tunc və erkən Dəmir dövrünə aid arxeoloji mədəniyyət.

**MUXTAR** – 1. muxtariyyət hüququ olan; 2. asılı olmayan, müstəqil.

**MUXTARİYYƏT** – daxili qanunvericilik və idarəetmə işlərində sərbəst olma hüququ; özünüidarə; ümumi dövlət konstitusiyası çərçivəsində dövlətin hər hansı bir hissəsinin dövlət məsələlərini müstəqil həll etməsi, daxili özünüidarə hüququ.

**MUJİK** *rus. köhn.* – Rusiyada kəndli.

**MUKAT** – pay. Orta əsrlərdə Misirdə iltizam sistemi ilə paylanan torpaq mülkiyyət forması.

**MULATLAR** *isp.* – zəncilərlə Avropa irqi nümayəndələrinin qarışıq nikahlarından əmələ gəlmiş nəsil.

**MULTANI** – vaxtilə Azərbaycanda məskunlaşmış hind tacirləri.



**MUMİYA** – bioloji mənşəli, balzam iyli təbii maddə (meyitlərə və müqəddəs heyvan cəsədlərinə vurulur).

**MUNDİR** *fr.* – hərbi və ya mülki rəsmi geyim.

**MUROV** – keçmişdə kənd yerlərində polis vəzifəsini ifa edən hökumət məmuru.

**MUROVLUQ** – murov vəzifəsi murov rütbəsi/ /murovlar olduğu dövr.

**MUSTİYE** – Fransada yer adıdır. Orta daş dövrünün əmək alətləri ilk dəfə burada aşkar edilmişdir.

**MUSTİYE MƏDƏNİYYƏTİ (DÖVRÜ)** – Paleolit dövrünə aid arxeoloji mədəniyyət.

**MUZA** *yun.* – qədim, yunan mifologiyasında yaradıcılıq sahələrinin himayədarı olan ilahə; ilham pərisi.

**MUZDUR** *köhn.* – mülkədar və qolçomaq təsərrüfatında muzdla işləyən kənd təsərrüfatı fəhləsi.

**MUZDURLUQ** – muzdurun işi, peşəsi.

**MUZEY** *lat. əsli yun.* – 1. maddi və mənəvi mədəniyyət abidələrini toplayıb qoruyan və öyrənən müəssisə; 2. qədim yunan ilahələri, muzaların məbədi.

**MÜBADİLƏ** – müxtəlif məşğuliyyət növləri ilə məşğul olan insan qruplarının hazırladıqları məhsulları bir-biriləri ilə dəyişmələri.

**MÜBARİZƏ** – zidd ictimai qrupların, əqidələrin, mənafelərin və s. hakim mövqe tutmaq uğrunda toqquşması.

**MÜBAŞİR** *köhn.* – İranda kəndi idarə etmək üçün mülkədarın təyin etdiyi adam.

**MÜBAŞİR** – İranda vergi və mükəl-ləfiyyətlərini toplayan xan müvəkkili.

**MÜDAFİƏÇİLİK SİYASƏTİ** – 1914-1918-ci illərdə 1-ci imperialist müharibəsi dövründə II İnternasionalın opportunist partiyalarının öz burjuaziyasını müdafiə etmək siyasəti.

**MÜDAXİLƏ** – bir və ya bir neçə dövlətin digər dövlətin işlərinə qarışması. Müdaxilə

hərbi, iqtisadi, siyasi və ideoloji vasitələrlə ola bilər. Beynəlxalq hüquqda müdaxilənin bütün formaları qadağan olunmuşdur.

**MÜDAXİLƏÇİ** – zorla başqa bir dövlətin daxili işlərinə qarışan (dövlət və s.).

**MÜDƏRRİS** *köhn.* –1. mədrəsədə dərs verən din alimi; 2. müəllim, dərs verən.

**MÜƏSSİSƏLƏR MƏCLİSİ** – Konstitusiya hazırlayacaq və qəbul edəcək, yaxud yeni dövlət quruluşu təsis edəcək səlahiyyətə malik məclis.

**MÜFTİ** – baş sünni ruhanisi; müsəlman ali ruhanisi.

**MÜHACİR** – 1. siyasi, iqtisadi və ya dini səbəbdən vətənini tərk edib başqa ölkəyə köçən və orada yaşayan adam; 2. yeni yerə, yeni torpaqlara köçən və ya köçürülən adam.

**MÜHACİRƏT** – öz vətənini tərk edib başqa ölkəyə köçmə.

**MÜHARİBƏ** – dövlətlər arasında mütəşəkkil silahlı mübarizə.

**MÜHASİRƏ** – araya alınma, mühasirəyə alma, blokada.

**MÜHASİRƏYƏ ALMAQ** – hər tərəfdən araya (dövrəyə) almaq, blokadaya almaq.

**MÜXALİFƏT** – 1. zidd (əks) olma; 2. cəmiyyət, təşkilat və s. daxilində öz fikrini, siyasətini başqasının fikrinə, siyasətinə qarşı yönəltmə.

**MÜXƏMMƏS** – beşlik, şeir janrıdır.

**MÜKƏLLƏFİYYƏT** – dövlət, yaxud yerli əhəmiyyətli ehtiyacları təmin etmək üçün əhalinin icra etdiyi vəzifə, iş.

**MÜQATİƏ** – kəsmək, kəsib atmaq.

**MÜQAVİLƏ** – saziş, bağlaşma.

**MÜLK** – 1. birinə məxsus torpaq sahəsi, daşınmaz əmlak; 2. ölkə, məmləkət; 3. xilafətdə yerli feodalların ixtiyarında olan irsi torpaq sahibliyi.

**MÜLKƏDAR** – torpaq üzərində xüsusi mülkiyyət və onun qalıqları mövcud olan



ölkələrdə torpaq sahibi olan zadəgan; feodal; torpaq sahibləri; bəy-ağalar.

**MÜLKƏDAR TABELİSİ** – 846-cı ildə ali müsəlman silkinə mənsub olan müxtəlif feodal-asılı kəndlilərə verilmiş ümumi ad. «Sahibkarlar kəndlisi» anlayışına uyğundur.

**MÜLKƏDARLIQ** – xüsusi mülkiyyət hüquq əsasında torpaq sahiblərinə malik olma.

**MÜLKİYYƏT** – 1. əmlak, şey; 2. yiyəlik, sahiblik.

**MÜLKİYYƏTÇİ** – mülkiyyət sahibi.

**MÜLKİYYƏTÇİLİK** – mülkiyyət sahibliyi.

**MÜNƏCCİM** – ulduzların vəziyyətinə görə insanların, dövlətlərin taleyindən qabaqcadan xəbər verən şəxs.

**MÜRİD** – müsəlman ölkələrində həyatını sufilik təlimi əsasında İslam dininə həsr edən şəxs.

**MÜRİDİZM** – qeyri-müsəlmanlara qarşı nifrət təbliğ edən dini cərəyan.

**MÜSADİRƏ** – əmlak, pul və s.-nin əvəzsiz və zorla dövlətin xeyrinə zəbt olunması.

**MÜSƏLMAN** – İslam dininə mənsub adam.

**MÜSƏLMANLIQ** – müsəlman dininə mənsub olma.

**MÜSTƏQİLLİK GÜNÜ** – 1993-cü ildə SSRİ tam dağıldıqdan sonra Azərbaycan öz milli müstəqilliyini elan etdi və həmin gün Müstəqillik günü adlanır.

**MÜSTƏMLƏKƏ** – başqa ölkə tərəfindən zorla tutulub istismar edilən, istiqlaliyyətini itirmiş ölkə; asılı vəziyyətə düşmüş ölkə.

**MÜSTƏMLƏKƏÇİ** – müstəmləkə-çilik *(bax)* siyasəti yeridən, müstəmləkə xalqlarını istismar edən.

**MÜSTƏMLƏKƏÇİLİK** – güclü və inkişaf etmiş dövlətlərin zəif inkişaf etmiş ölkələri iqtisadi və siyasi cəhətdən özlərinə tabe etmə.

**MÜSTƏMLƏKƏLƏŞDİRİLMƏK** – müstəmləkə halına salınmaq, müstəmləkə edilmək.

**MÜSTƏMLƏKƏLƏŞDİRMƏK** – müstəmləkə halına salmaq, müstəmləkə etmək.
**MUSTOVFİ** – Elxanilər dövlətində maliyyə sisteminə baxan məmur.
**MÜŞKET** *fr.* – piltə ilə alışdırılan qədim iriçaplı silah; çaxmaqlı tüfəng.
**MÜŞKETYOR** *fr.* – XVI əsrin əvvəlindən Avropa ordularında piyada növü; muşketlə silahlanmış piyada əsgər.
**MUŞİR** *türk.* – hərbi rütbə, marşal deməkdir.
**MÜŞTƏRƏK MÜQAVİLƏ** – Rusiyada sahibkarlarla fəhlələr arasında ilk müqavilə (1904-cü ildə Bakıda bağlanmışdı).
**MÜTƏSƏRRİF** – maliyyə müfəttişi.
**MÜTİD** – birinin davamçısı, sufinin şagirdi, müsəlman ölkələrində həyatını sufi təlimi əsasında İslam dininə həsr edən şəxs; həmçinin sufilik təliminin başçısının ardıcılı.
**MÜTLƏQ MONARXİYA** *bax* mütləqiyyət.
**MÜTLƏQİYYƏT** – feodal dövlətinin son siyasi forması. Mütləq monarxiya; feodal münasibətlərinin dağıldığı və kapitalist münasibətlərinin yarandığı dövrdə meydana gəlmişdir.
**MÜTLƏQİYYƏTÇİ** – mütləqiyyət tərəfdarı, mütləq monarxiyaya əsaslanan, monarxist.
**MÜVƏRRİX** *arx.* – tarixçi, salnaməçi.

# N

**NABOB** – naib, nüvvab (Hindistanda zadəgan, varlı).
**NADEL** *rus.* – pay torpaq (Çar Rusiyasında təhkimçilik hüququ ləğv edildikdən sonra kəndli ailələrinin istifadəsinə verilən kiçik torpaq hissəsi).
**NAXARAR** – IV-VIII əsrlərdə Qafqaz Albaniyasında dünyəvi feodal.
**NAİB** – 1. böyük şəxsin yerini dolandıran şəxs; vəkil, canişin; 2. əlaltı; 3. yerli inzibati idarə rəisi, icma başçısı.



**NAİBLİK** – 1. naibin işi, vəzifəsi; 2. naibin idarəsi olan yer.
**NARODOVOLÇU** – XIX əsrin 80-ci illərində Rusiyada «Народная воля» adlı gizli siyasi təşkilatın üzvü.
**NARODOVOLÇULUQ** – XIX əsrin 80-ci illərində Rusiyada xalqçıların «Народная воля» adlı təşkilatının rəhbərlik etdiyi ictimai-siyasi hərəkat.
**NASİST** *lat.* – Almaniya faşisti, nasizm *(bax)* tərəfdarı.
**NASİZM** *lat.* – alman faşizmi.
**NATURAL TƏSƏRRÜFAT** – yaşayış üçün lazım olan məhsulun və hazır şeylərin satış üçün deyil, şəxsi tələbatı ödəmək üçün hazırladığı təsərrüfat.
**NAZİR** – nazirliyə başçılıq edən hökumət üzvü.
**NAZİRLİK** – 1. dövlət idarəsinin hər hansı sahəsinə rəhbərlik edən mərkəzi hökumət orqanı; 2. nazir vəzifəsi.
**NEANDERTAL** – Almaniyada yeni tipli insanın kəllə sümüyünün tapıldığı yerin adıdır. Bu tip insanlar Neandertallar adlanır.
**NEANDERTAL ADAM** – qazıntı halında tapılan və orta paleolit dövrü adamı.
**NEFT MAQNATLARI** – neftin çıxarılması, emalı və satışı işini öz əllərində saxlayan nəhəng neft şirkətlərinin sahibləri.
**NEFTXUDA** – Şimali Azərbaycanda neft hasilatı, emalı və satışı ilə məşğul olan iş adamları.
**NEKROPOL** *yun.* – qədim şəhərlərin kənarında böyük qəbiristan.
**NEMANÇİLƏR** – orta əsrlərdə (XII əsrin 2-ci yarısı) Serbiyada sülalə. Banisi Raşki Stefan Nemanya olmuşdur (1170-1196). Digər nümayəndələr: Stefan Radoslav (1227-34). Stefan Vladislav (1234-43), I Stefan Uroş (1243-76), Stefan Draqutin (1282-1321), II Stefan Uroş Milutin (1282-1321), III Stefan Uroş Deçan (1321-31), Stefan Duşan (1331-35), Stefan Uroş (1355-71).

**NENLƏR** – keçmiş adları samo-yedlərdir (*bax*). Rusiyanın şimalında xalq.

**NEOFAŞİZM** – İkinci Dünya müharibəsindən sonra Amerika imperialistləri tərəfindən ABŞ-da və başqa dövlətlərdə təzədən dirçələn faşizm.

**NEOFAŞİZM** – İkinci Dünya müharibəsindən sonra ləğv edilmiş faşist təşkilatlarının yeni varislərinin daxil olduqları cərəyan.

**NEOLİT** *yun.* – yeni daş dövrünün axırıncı erası, yeni daş dövrü (yeni eradan 6-5 min il əvvəl).

**NEOLİT İNQİLABI** – e.ə.VII minilliyində istehsal təsərrüfatının təşəkkülü insanların həyatında əsas yer tutması, saxsı qabların hazırlanması, toxuculuğun mənimsənilməsi və daş alətlərinin cilalanmasına və deşilməsinə başlanılmasını alimlər yeni daş dövrünün inqilabı adlandırır.

**NEPMAN** *alm* – yeni iqtisadi siyasət dövründə meydana gəlmiş sahibkar; alverçi.

**NƏSRANİLƏR** – xaçpərəstlər, xristianlar.

**NƏSLİ QƏBİLƏ (NƏSLİ İCMA)** – insanların qan qohumluğu əsasında birləşdikləri birgə yaşayış qaydasıdır. Sabit möhkəm və nisbətən mütəşəkkil birlikdir.

**NƏVVAB** – «naib» sözünün cəmi: naiblər, canişinlər.

**NƏVVAB** – Səfəvilərdə şahın müavini – ölkənin baş ruhanisi.

**NİHİLİST** *lat.* – XIX əsrin 60-cı illərində Rusiyada: zadəgan adət və ənənələrinə, təhkimçilik ideologiyasına qarşı mənfi münasibət bəsləyən raznoçin ziyalı.

**NİHİLİZM** *lat.* – XIX əsrin 60-cı illərində Rusiyada qabaqcıl raznoçin ziyalıların dünyagörüşü.

**NİRVANA** – budda məzhəbinə görə ruhun dünyadakı əzab və əziyyətdən xilas olaraq səadətə qovuşması.



**NİZAMİ** – ardıcıl hərbi təlim keçmiş.

**NİZƏ** – qədim silah növü. Paleolit dövründən məlum olan nizədən əksər xalqlar müharibə və ov zamanı istifadə etmişlər: cida, mizraq.

**NOBİLİ** – qədim Romada: zadəgan, artistokrat.

**NOBİLİTET** – qədim Romada: zadəganlar, aristokratlar.

**NOQAY** – Şimali Qafqazda yaşa-yan türk xalqlarından biri və həmin xalqa mənsub olan adam.

**NOM** *yun.* – vilayət. 1. Qədim Misirdə inzibati mahal. Hər bir nomun müəyyən sərhədi, siyasi və dini mərkəzi, ordusu, gerbi və himayəçi allahları vardı; 2. müasir Yunanıstanda inzibati ərazi vahidi.

**NOMARX** *yun.* – nomun (*bax* nom) hökmdarı, başçısı (nomu idarə edən hakim).

**NORMANLAR** – orta əsrlərdə Skandinaviyada sakin olmuş mayorların ümumi adı (əsasən də german tayfaları).

**NOTA** *lat.* – bir hökumətin başqa hökumətə diplomatik müraciəti, diplomatik akt növü. Nota vasitəsilə hər hansı bir hüquq və ya tələb, digər dövlətin düzgün olmayan aktlarına qarşı etiraz bildirilir.

**NOYON** – Monqolustanda dünyəvi feodal.

**NOYON** – Monqol ordusunda yüksək rütbəli başçı.

**NÖKƏR** – ağasına xidmət edib onun şəxsi tapşırıqlarını yerinə yetirən ev xidmətçisi.

**NÖKƏRÇİLİK** – nökər olma, nökərlik etmə, nökərlik.

**NUMİZMATİKA** *lat.* – qədim sikkə və medalları tarixi bir abidə kimi tədqiq edən elm; Numizmatika elm kimi XVI əsrdə, kolleksiya toplama isə (qədim sikkələr) daha əvvəllər meydana gəlmişdir.

**NUNSİ** *lat.* – Roma papasının nümayəndəsi.

**NÜMAYİŞ** – siyasi ictimai əhvali-ruhiyyəni ifadə edən kütləvi yürüş.

**NÜMAYİŞÇİ** – nümayişdə iştirak edən adam, nümayiş iştirakçısı.

**NÜVƏ SİLAHI SAXLANMAYAN ZONA** – nüvə silahı sınaqdan keçirilməyən, istehsal olunmayan, saxlanmayan və gətirilməyən, həmçinin hüdudlarında və ona qarşı nüvə silahının tətbiq olunması istisna edilən ərazi. Bütöv regionlar, eləcə də ayrı-ayrı dövlətlər, yaxud dövlətlərin müəyyən hissələri nüvə silahı saxlanmayan zona yarada bilərlər.

# O

**OBER-KANSLER** *alm.* – baş kansler.

**OBSİDİAN** *lat.* – vulkanik şüşə (dəvəgözü).

**OBSKURANTİZM** *lat.* – cəhalətpərəstlik.

**OBSTRUKSİYA** *lat.* – iclası, xüsusən parlament iclasını qışqırıq, hay-küy, şuluqluq salmaq və s. vasitəsilə qəsdən pozma.

**OĞUZ** – qədim türk tayfalarından birinin adı və həmin tayfaya mənsub olan adam. «Boy», «nəsil», «tayfa» mənasını verən «ox» sözü ilə cəm şəkilçisi «uz»un birləşməsindən ibarətdir, boylar (nəsillər) deməkdir. Böyük Hun imperatoru Metenin hakimiyyəti zamanı birləşən bütün türk boylarının ümümi adı oğuzlar olmuşdur. «Oğuz» adına ilk dəfə Orxon-Yenisey abilərində rast gəlinmişdir.

**OĞUZLAR** – türkdilli tayfa birliyi.

**OĞUZ DÖVLƏTİ** – X əsrin ortalarında türk boylarının birləşməsindən yaranan dövlət (buna Jabqu dövləti də deyirlər). Oğuz dövlətinin paytaxtı Yenikənd şəhəri olmuşdur.

**OX** – yayla atılan itiuclu və ya ucuna iti dəmir keçirilmiş mil (qədim silah növü).

**OKTYABRİSTLƏR** *rus.* – 17 oktyabr 1905-ci il çar manifestindən sonra Rusiyada təşkil olunmuş iri burjua və mülkədarların əksinqilabi partiyasının üzvü və ya tərəfdarı.



**OLİQARX** *yun.* – 1. oliqarxiya hakimi, oliqarxiya üzvü; 2. monopolist, kapital nümayəndəsi olan imperialist.

**OLİQARXİYA** *yun.* – 1.qədimdə və orta əsrlərdə aristokratik yuxarı təbəqənin hakimiyyətinə əsaslanan dövlət; 2. iri monopolist kapital nümayəndəsi olan bir ovuc imperialistin siyasi və iqtisadi hökmranlığı.

**OLİQARXİYA** – Yunanıstanda azların *(yuxarı təbəqənin)* hakimiyyəti.

**OLİMPİADA** *yun.* – qədim Yunanıstanda olimp oyunları bayramları arasında keçən dördillik dövr.

**OMBUDSMAN TƏSİSATI** – demokratik dövlətdə insan hüquq və azadlıqlarının müdafiəçisi.

**ONBAŞI** – 1. keçmişdə: on nəfər əsgərə rəhbərlik edən komandir; 2. fəhlə qrupuna başçılıq edən adam.

**ONBAŞILIQ** – onbaşı rütbəsi, vəzifəsi.

**OPPONENT** – qarşı duran fikir sahibi.

**OPPORTUNİST** *fr.* – sazişçi opportunistcəsinə hərəkət edən şəxs.

**OPPORTUNİZM** *fr. əsli lat.* – proletariatın sinfi mənafeyini burjuaziyanın mənafeyinə tabe etmək siyasəti: burjuaziya ilə sazişə girmə siyasəti.

**OPRİÇNİK** *rus.* – rus padşahı İvan Qroznı dövründə opriçninada xidmət edən hərbi qulluqçu.

**OPRİÇNİNA** *rus.* – 1. İvan Qroznının padşahlığı dövründə: dövlətin, bilavasitə padşahın idarəsində olan və güclü mərkəzi hakimiyyət yaratmaq uğrunda mübarizədə onun üçün dayaq təşkil edən hissə; Rus çarı IV İvan yeni qaydalar tətbiq etdiyi əraziləri opriçnina adlandırırdı. 1565-1572-ci illərdə hökmdar mülklərinin adı. Həmin illərdə amansız terror, edamlar və sürgünlər baş

verdi. Opriçnina siyasətini yeritməklə çarın əsas məqsədi öz düşmənlərinin müqavimətini qırmaq idi. Oprisnina kobudluq, zorakılıq və terrorçuluq vasitələri ilə mərkəzi hakimiyyət əleyhinə olan boylar müxalifətini ləğv etmək məqsədilə yaradılmışdır. 2. həmin dövrdə xüsusi qoşun – opriçniklər; 3. Qədim Rusiyada: knyazın dul arvadına ömürlük istifadə üçün verilən torpaq.

**ORAKUL** *lat.* – antik dövrdə qeybdən xəbər verən xahin.

**ORDA** – 1. qədimdə monqol köçəri xalqlarının dövlət birləşməsi formalarından biri; 2. ibtidai insan sürüsü.

**ORDEN** *alm.* I – dövlət tərəfindən verilən rəsmi nişan; fərqlənmə nişanı, xüsusi xidmətlərə görə dövlətin fəxri mükafatı.

**ORDEN** *alm.* II – orta əsrlərdə katolik təşkilatı.

**ORDU** – 1. dövlətin silahlı qüvvələri (quru qoşunları, hərbi dəniz və hərbi hava qüvvələri); 2. bir neçə korpusdan, diviziyadan ibarət operativ qoşun bölməsi.

**ORGİYA** *yun.* – qədim yunanlarda; şərab və keyf allahı Vanx-Dionisin şərəfinə düzəldilən şənlik.

**ORXON - YENİSEY ABİDƏLƏRİ** – türk xalqlarına məxsus qədim yazılı abidələr. Şimali Monqolustanda Orxon çayı sahilində tapılan abidələrin sayı 13-dür və onların 725-735-ci illərdə tikildiyi aydınlaşdırılıb. Onların ən məşhur Göytürk xaqanı Bilgə xaqan, onun qardaşı Gültigin və baş vəzir Tonyukuk üçün qoyulmuş abidələrdir. Orxon abidəsində sətirlər yuxarıdan aşağıya da yazılmış, sağdan-sola doğru yerləşdirilmişdir.

**ORQAN** *yun.* – 1. idarə, təşkilat; 2. qəzet, jurnal və s.

**ORTA ƏSRLƏR** – V-XV əsrləri əhatə edən dövr.

**ORTABAB** – kiçik torpaq sahəsinə malik olub, onu öz əməyi ilə becərən və mülki vəziyyətinə görə yoxsulla qolçomaq arasında duran fərdi təsərrüfatçı kəndli.



**ORUCLUQ (RAMAZAN) BAYRAMI** – Orucluq (ramazan) ayının qurtarması münasibətilə edilən dini bayram.

**OSMANİZM** – Osmanlı İmperiyasında siyasi doktrina. XIX əsrin sonunda "Gənc türklər" irəli sürmüşdü.

**OSMANLI İMPERİYASI** – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adından 15-ci əsr – 20-ci əsrin 20-ci illəri).

**OSMANLILAR (OSMAN OĞULLARI)** – türk sultanları sülaləsi (1299/1300-1922); əsasına türk sultanları sülaləsinin banisi I Osman qoymuşdu. Nümayəndələri I Murad (1362-89), İldırım Bayazid (1389-1402), II Məhəmməd Fateh (1444 və 1451-81), I Səlim Yavuz (1512-20), Süleyman I Qanuni (1520-86), III Səlim (1789-1807), II Mahmud (1808-39), II Əbdülhəmid (1876-1909).

**OSİRİS** – Qədim Misir mifologiyasında ən çox ehtiram olunan allahlardan biri. Osiris ölən və dirilən təbiəti təcəssüm etdirirdi. Təbiətdə qış və yaz fəsillərinin gəlməsi onun adı ilə bağlı idi.

**OTÇİNA** bax votçina.

**OTKUP** – iltizam (XIX əsrdə Rusiyada dövlətə müəyyən miqdarda pul vermək müqabilində xüsusi şəxslərə verilən istifadə hüququ).

**OTKUPÇU** – otkup sahibi, iltizamçı.

**OTURAQ** – daim bir yerdə yaşayan, köçəri həyat keçirməyən.

**OTUZİKİLƏR** – türkdilli tayfa birliyi. Səfəvilər dövlətinin həyatında mühüm rol oynamışdır.

**OTUZİKİLƏR** – Qarabağın qədim ən güclü tayfalarından biri.

**OZAN** – oğuzların el şairi, aşıq.

**ÖLKƏ** – 1. vilayət, torpaq, ərazi, diyar; 2. Rusiya imperiyasında XVII əsr - XX əsrin əvvəllərində idarəçiliyi ümumi olan bir neçə quberniya, yaxud vilayətdən ibarət ərazinin adı.

**ÖLKƏŞÜNASLIQ** – yerli əhalinin qüvvəsi ilə ölkənin müəyyən ərazisinin, şəhərin, kəndin və s. yaşayış məskəninin hərtərəfli öyrənilməsi; diyarşünaslıq.

**ÖLÜ DƏNİZ ƏLYAZMALARI** – 1947-ci ildən ölü dənizin qərb sahillərindən mağaralarda tapılmış qədim yəhudi, arami, nəbati, yunan, latın, Suriya, Fələstin və ərəb dillərində əlyazmalar. Dəri, papirus, saxsı, mis və ağac üzərində yazılmışdır.

**ÖLÜ DİL** – canlı ünsiyyət prosesində işlənməyən, yalnız əbədi abidələrdə qorunub saxlanan dil. Latın dili, sanskrip, praktit, qədim fars dili, skif dili, qədim slavyan dili, qot dili, qall dili, qədim yunan dili assur-babilərin dili, qədim misir dili, poloves dili, xəzər dili, şumer dili ölü dillər hesab olunur. Latın dilindən yalnız istifadə edilir.

**ÖLÜM CƏZASI** – cinayətə görə ən yüksək, ən ağır cəza tədbiri. Hazırda ölkəmizdə bu cəza tədbiri ləğv olunub ömürlük həbs cəzası ilə əvəz edilmişdir.

**ÖLÜM DÜŞƏRGƏLƏRİ** – alman faşistlərinin siyasi düşmən hesab etdikləri şəxsləri və hərbi əsirləri xüsusilə sərt rejimdə saxladığı düşərgələr. 1933-cü ildə martda Daxau yaxınlığında yaradılmışdır. Bunlara faşist həbs düşərgələri də deyirdilər.

**ÖZBƏK** – Mərkəzi Asiyada yaşayan türk xalqlarından biri və həmin xalqa mənsub olan adam.

**ÖZDƏN** – 1917-ci il inqilabından əvvəl Şimali Qafqazda feodal-zadəgan.





**PADŞAH** *köhn.* – hökmdar, imperator, şah, sultan (Yaxın və Orta Şərqin bir sıra ölkəsində monarx titulu. İlk dəfə qədim İranda meydana gəlmişdir).

**PADŞAHLIQ** *köhn.* – 1. padşah vəzifəsi, şahlıq; 2. padşah tərəfindən idarə olunan dövlət quruluşu; şahlıq, imperatorluq.

**PADŞAHPƏRƏST** *köhn.* – padşah tərəfdarı, padşah üsuli-idarəsi tərəfdarı; monarxist, şahpərəst.

**PADŞAHPƏRƏSTLİK** – padşah üsuli-idarəsinə tərəfdar olma, onu yeganə dövlət üsulu kimi qəbul etməkdən ibarət mürtəce siyasi cərəyan; şahpərəstlik.

**PAKT** *lat.* – böyük siyasi əhəmiyyəti olan beynəlxalq müqavilə.

**PAQANİZM** *yun.* – bütpərəstlik (*bax*).

**POQODA** *sankskr.* – Çində, Yaponiyada, Hindistanda, Şərqi və Cənub-Şərqi Asiyada pavilyon formalı, yaxud çoxyaruslu budda məbədi.

**PALATA** *lat.* – 1. bəzi ölkələrdə nümayəndəlik orqanlarının adı. SSRİ dövründə SSRİ Ali Sovetinin tərkibinə daxil olan ali qanunvericilik orqanlarının adı; 2. müəyyən işlə məşğul olan bəzi dövlət idarələrinin adı.

– **AŞAĞI PALATA** – bəzi ölkələrdə 1-ci qanunvericilik instansiyası.

– **YUXARI PALATA** – bəzi ölkələrdə ali qanunvericilik instansiyası.

**PALEOANTROPLAR** *yun.* – (neandertal adamı) – 250-35 min il əvvəl Avropa, Asiya və Afrikada yaşamış qədim ibtidai insanlar.

**PALEOANTROPOLOGİYA** *yun.* – Antropologiyanın qazıntı halında tapılmış insanların təkamülünü və fiziki tipini öyrənən bölməsi.

**PALEOANTROPOLOJİ** *yun.* – paleoantropologiyaya aid olan.

**PALEOANTROPOLOQ** *yun.* – paleoantropologiya mütəxəssisi.

**PALEOBİOLOJİ** *yun.* – paleobiologiyaya aid olan.

**PALEOBİOLOGİYA** *yun.* – biologiyanın qazıntı halında tapılmış heyvan və bitki orqanizmlərini öyrənən bölməsi.

**PALEOBİOLOQ** *yun.* – paleobiologiya mütəxəssisi.

**PALEOBOTANİK** *yun.* – paleobotanika mütəxəssisi.

**PALEOBOTANİKA** *yun.* – botanikanın qazıntı halında tapılmış bitkiləri öyrənən bölməsi.

**PALEOQRAF** *yun.* – paleoqrafiya mütəxəssisi.

**PALEOQRAFİK** *yun.* – paleoqrafiyaya aid olan.

**PALEOQRAFİYA** *yun.* – Qədim əlyazmaların qrafikası və xarici görünüşü haqqında elm; xüsusi tarixi – fizioloji fənn// əlyazmasının yazı və xarici görünüş xüsusiyyətləri.

**PALEOLİT** *yun.* – Daş əsrinin ən qədim dövrü: qədim Daş dövrü.

**PALEOZOY** *yun.* – Yerin geoloji tarixində Mezozoy dövründən əvvəlki dövr.

**PALEOZOY QRUPU (ERASI)** – Yer qabığı laylarının stratiqrafik şkalasının qruplarından biri və Yerin geoloji tarixinin ona müvafiq erası.

**PALESTRA** *yun.* – qədim Yunanıstanda: oğlanlar üçün gimnastika məktəbi.

**PALEYA** *yun.* – Bibliya əfsanələrini şərh edən qədim rus yazı abidələrindən biri.

**PAN** *pol.* – polyak, ukraynalı, belorus mülkədarı; zadəgan, ağa.

**PANAMERİKANİZM** – faktların ziddinə gedərək və tarixi prosesin şərhində təhriflərə yol verərək ABŞ-ın və Amerikanın digər ölkələrinin tarixini, iqtisadiyyat və mədəniyyətinin ümumiliyini iddia edən mürtəce siyasi doktrina.

**PANDEKTLƏR** – qədim Romada hüquqa dair soraq kitabı; hüquqi əsərlər.



**PANƏRƏBİZM** – bütün ərəb dövlətlərini birləşdirməyə çalışan millətçi cərəyan.

**PANFİLOVÇULAR** – Böyük Vətən müharibəsində fərqlənmiş 316-cı atıcı alayının (komadir İ.V.Panfilov) döyüşçüləri.

**PANGERMANİZM** – Almaniya burjuaziyası və yungerlərinin təcavüzkarlıq və ekspansionist niyyətlərini əks etdirən mürtəce siyasi doktrina. XIX əsrin 80-ci illərində Avstriya - Macarıstanda meydana gəlmişdir.

**PANİRANİZM** – İran mülkədar – burjua dairələrinin qatı millətçi hissəsinin şovinist nəzəriyyəsi; ayrı-seçkiliyin ideoloji əsası.

**PANİSLAMİZM** – XIX əsrin son rübündə Yaxın və Orta Şərqdə kapitalist münasibətlərinin inkişafı və imperializmin müstəmləkəçilik siyasətinin genişləndiyi şəraitdə yaranmış dini-siyasi ideologiya.

**PANSLAVİST** – panslavizm (*bax*) tərəfdarı.

**PANSLAVİZM** – XIX əsrdə və XX əsrin əvvəllərində çar Rusiyası başda olmaqla bütün slavyan ölkələrini birləşdirmək məqsədini qarşısına qoyan mürtəce siyasi cərəyan.

**PANTEİZM** *yun.* – Allahı təbiətlə eyniləşdirən və təbiəti Allahın təcəssümü sayan dini-fəlsəfi dünya-görüşü (vəhdət – vücud) (aləmi Allahla eyniləşdirən fəlsəfi təlim).

**PANTEON** *yun.* – 1. Qədim Yuna-nıstan və Romada: bütün Allahların şərəfinə tikilmiş məbəd; 2. Çoxallahlı dinin bütün Allahları bir yerdə.

**PANTİKAPEY** *yun.* – Krımda antik şəhər (indiki Kerç). E.ə. 6-cı əsrin I yarısında salınmışdır.

**PANTOMİMA** – mimika və hərəkətlərlə ifa olunan teatr tamaşası.

**PANTÜRKİZM** – türk dillərində danışan bütün xalqların guya eyni millət olduğunu və Türkiyənin himayəsi altında vahid dövlətdə birləşməsi ideyasını təbliğ edən

ideologiya. XIX əsrin sonu – XX əsrin əvvəlində türkizm əsasında yaranmışdır.

**PAPA** *lat.* – Roma katolik kilsəsinin başçısı.

**PAPALIQ** – papanın vəzifəsi, peşəsi.

**PAPİROLOGİYA** *yun.* – papirus yazılarını tədqiq edən elm.

**PAPİROLOQ** *yun.* – papirologiya mütəxəssisi.

**PAPİRUS** *yun.* – 1. çoxillik tropik qamış bitkisi; 2. qədim misirlilərin və başqa qədim xalqların kağız yerinə işlətdikləri bitki, papirus yarpağı; 3. papirus yarpaqları üzərində yazılmış qədim yazı (lar).

**"PARÇALA, HÖKM SÜR"** - Romada senatın itaət altına alınmış xalqların Roma əleyhinə birləşməsinə yol verməmək üçün onlar arasında ədavət salması.

**PARFİYA (PARFİYA PADŞAHLIĞI)** – qədim dövlət (e.ə.təqr. 250 – eramızın 224 ili). Xəzər dənizindən cənub və cənub-şərqdə (buranın köklü əhalisi parfiyalılar idi) yaranmış, sonralar Mesopotamiyadan Hindistanadək böyük ərazini özünə tabe etmişdir.

**PARİS KOMMUNASI** – 1871-ci ildə Parisdə üsyan qaldırmış zəhmətkeş kütlələrin inqilabi hökuməti.

**PARQAMENT** – yazı üçün hazırlanan dəri.

**PARLAMENT** *alm., ing., fr.* – danışmaq deməkdir. Konstitusiyalı dövlətlərdə ali qanunverici nümayəndələr məclisi; Milli Məclis, Duma, Senat.

**PARLAMENTARİ** *alm.* – 1) parlament tərəfdarı; 2) parlamentarizm tərəfdarı.

**PARLAMENTARİZM** *alm.* – başda parlament olan dövlət idarə sistemi: parlamentçilik.

**PARLAMENTQABAĞI ORQAN** – 1917-ci il fevral burjua-demokratik inqilabı zamanı: öz tərkibində iri burjua partiyaları nümayəndələri də olan müvəqqəti respublika şurası.



**PARLAMENTLİ MONARXİYA** – dövlət quruluşu, burada hökumət kral qarşısında deyil, parlaent qarşısında məsuliyyət daşıyır.

**PARSEL** *fr.* – çox kiçik ailə-fərdi kəndli təsərrüfatı: torpaq sahəsi.

**PARTİKULYARİZM** – ümumdövlət mənafeyi zərərinə olaraq, dövlətin ayrı-ayrı hissələrini mərkəzdən ayırmaq cəhdi.

**PARTİYA** *lat.* – xalqın müəyyən qisminin təşkilat şəklində birləşmiş hissəsi.

**PARTİYA BÜROSU** – partiya təşkilatının cari işlərinə rəhbərlik edən icra orqanı.

**PARTİYA KOMİTƏSİ** – partiya təşkilatının qurultay, konfrans və ümumi iclasları işlərinə rəhbərlik edən icra orqanı.

**PARTİYA ÖZƏYİ** – ilk partiya təşkilatı.

**PARTİYA ÜZVÜ** – partiyanın proqram və nizamnaməsini qəbul edən, partiya təşkilatlarından birində çalışan, partiyanın qərarlarını yerinə yetirən və üzvlük haqqı verən hər bir vətəndaş.

**PARTİYALI** – partiyanın prinsip və tələblərinə cavab verən.

**PARTİYALILIQ** – 1. partiyada olma, partiyaya mənsubiyyət; 2. müəyyən partiyanın prinsip və tələblərinə uyğun olma.

**PARTİZAN** *fr.* – düşmən arxasında müstəqil hərəkət edən silahlı xalq dəstələri iştirakçısı.

**PARTİZAN MÜHARİBƏSİ (HƏRƏKATI)** – düşmən tərəfdən tutulmuş ərazidə xalq kütlələrinin öz ölkəsinin azadlıq və istiqlaliyyəti və ya sosial dəyişikliklər uğrunda apardığı silahlı mübarizə.

**PARTİZANÇILIQ** *bax* partizanlıq.

**PARTİZANLIQ** – partizan mübarizəsində, partizan hərəkatında iştirak etmə; partizan hərəkatı, partizançılıq; partizan mübarizəsi.

**PASİVİST** *lat.* – pasivizm tərəfdarı.

**PASİVİZM** *lat.* – hər cür müharibənin, o cümlədən

milli-azadlıq, öz ölkəsini qorumaq uğrunda və b. ədalətli müharibələri də inkar edən siyasi cərəyan.

**PASPORT** *fr.* – şəxsiyyəti və vətəndaşlığı təsdiq edən sənəd.

**PASSİBİLİSTLƏR** – XIX əsrin 80-ci illəri - XX əsrin əvvəllərində Fransa fəhlə hərəkatında opportunist cərəyan.

**PAŞA** – XV əsrdən XX əsrin əvvəllərinədək Osmanlı imperiyasında ali hərbi mülki məmurların fəxri titulu.

**PAŞALIQ** – Osmanlı imperiyasında paşanın idarəsi altında olan əyalət, yaxud vilayət.

**PATRİARX** *yun.* – 1. qəbilə cəmiyyətində: qəbilə başçısı; 2. ölkədəki pravoslav kilsəsinin ruhani rütbəsi və bu rütbəni daşıyan şəxs.

**PATRİARXAT** *yun.* – ailəyə patriarxın başçılıq etdiyi qəbilə cəmiyyəti forması.

**PATRİK** – Albaniyada iri feodallar.

**PATRİKLƏR** – Sasanilərdə geniş torpaqlara malik iri feodal təbəqəsi.

**PATRİSİ** *lat.* – "Pater" ata sözündən götürülmüşdür. Zadəgan (Romanın ən qədim sakinlərinin nəslindən olan).

**PATRİSİLƏRİN "AĞSAQQALLAR ŞURASI"** *lat.* – senat, üzvləri isə senatorlar adlandırılır.

**PATRON** *fr.* – 1. qədim Romada: tamhüquqlu vətəndaş; 2. müəssisə sahibi.

**PATRONAT** *lat.* – qədim Romada patron hakimiyyəti; himayədarlığın xüsusi forması.

**PAUPER** *lat.* – hər cür yaşayış vasitələrindən məhrum edilmiş yoxsul.

**PAUPERİZM** *lat.* – istismarçı cəmiyyətlərdə zəhmətkeşlərin yoxsulluğu, geniş əhali kütləsinin ən zəruri yaşayış vasitələrindən məhrum olması.

**PAJ** *fr.* – 1. Orta əsrlərdə saraylarda xidmət edən zadəgan nəslindən oğlan; 2. paj korpusu (*bax*) şagirdi.

**PAJ KORPUSU** – çar Rusiyasında: zadəgan balalarına məxsus imtiyazlı, orta hərbi məktəb.



**PAUPERLƏŞMƏ** – yoxsullaşma (istismar nəticəsində zəhmətkeşlərin kütləvi surətdə yoxsullaşması).

**PEÇENEQLƏR** – eramızın IX-XI əsrlərində Avropanın cənub-şərqində köçəri həyat sürmüş türk mənşəli qədim xalq.

**PEDİ(lər)**–Cənubi Afrikada yaşayan xalqlardan biri.

**PELOPONNES İTTİFAQI** – Spartanın başçılığı ilə Peloponnesin qədim yunan polislərinin (Arqosdan və qismən Axayyadan başqa) ittifaqı *(e.ə.6-cı əsrin 2-ci yarısı* -e.ə.4-cü əsrin ortaları) Peloponnes-Cənubi Yunanıstandır.

**PELOPONNES MÜHARİBƏSİ**–(e.ə.431-404) – Qədim Yunanıstanda Pelopennes ittifaqı ilə Delos ittifaqı arasında ən böyük müharibə.

**PENTAQON**– Amerika Birləşmiş Ştatlarının (ABŞ) Müdafiə Nazirliyinin geniş yayılmış adı.

**PER** *fr., ing.* – Böyük Britaniyada və Fransada ali zadəgan rütbəsi.

**PEREDVİJNİK** – 1. XIX əsrin ikinci yarısında demokratik əhval-ruhiyyəli "səyyar sərgilər" adlı cəmiyyətin iştirakçısı olan realist rəssam; 2.səyyar kitabxana.

**PEREDVİJNİKÇİLİK** – XIX əsrin 2-ci yarısında rus rəssamlığında peredvijnikçilərin başçılıq etdiyi realistik cərəyan.

**PERQAM** *yun.* – Kiçik Asiyada qədim şəhər (indiki Berqama). E.ə.XII əsrdə Yunanıstandan gəlmələr tərəfindən salınmışdır.

**PERQAM PADŞAHLIĞI** – Kiçik Asiyanın şimal-qərbində qədim quldarlıq dövləti (e.ə.283-133).

**PERQAMENT** *yun.* – Kiçik Asiyada Perqam şəhərinin adından: 1) qədimdə yazı üçün işlədilən heyvan dərisi; 2)bu material üzərində, yazılmış qədim əl yazması; 3) yağ və su buraxmayan möhkəm kağız.

**PERMANENT İNQİLAB** – fasiləsiz inqilab ideyasını

K.Marks və F.Engels "Kommunist Partiyasının manifesti (1848) və "Mərkəzi Komitənin Kommunistlər İttifaqının müraciəti"ndə (1850) irəli sürmüşlər.

**PERPER** – Gürcüstanda pul vahididir.

**PERSONALİZM** *lat.*– müasir burjua fəlsəfəsində teist cərəyan.

**PEŞKƏŞ** – hədiyyə, bəxşiş (bağışlanan şey, hədiyyə verilən şey).

**PETİSİYA** *lat.*–kollektiv müraciət forması. Ali orqanlara verilən yazılı müştərək ərizə.

**PETLYURAÇILIQ** – 1918-1919-cu illərdə Ukraynada vətəndaş müharibəsi zamanı alman və polyak müdaxiləçilərinin köməyinə arxalanan Petlyuranın əksinqilabi hərəkata başçılıq etdiyi dövr.

**PƏDƏRŞAHLIQ** – kişi qohumluğu xəttinə əsaslanan və kişinin hakim olduğu qəbilə qruplarından ibarət ibtidai icma quruluşunun son dövrü; patriartx.

**PƏHLƏVAN** – çox güclü adam, qəhrəman, igid.

**PƏHLƏVANİLƏR** – Eldəgizlər sülaləsinin elmi ədəbiyyatda səhvən işlədilən adlarından biri (bax eldəgizlər)

**PƏHLƏVİLƏR** – İranda şah sülaləsi (1925-1979). Nümayəndələri: Rza şah Pəhləvi (1925-1941), Məhəmməd, Rza Pəhləvi (1941-1979). İranda 1979-cu ildə fevral inqilabı nəticəsində pəhləvilər sülaləsinə son qoyuldu.

**PİETİZM** – XVII əsrdə Almaniyada protestantlar arasında meydana gəlmiş dini cərəyan.

**PİFAQORÇULAR** – Pifaqorun şagirdləri, pifaqorizm tərəfdarları.

**PİFAQORİZM** *yun.* – qədim yunan filosofu Pifaqorun nəzəriyyəsi. Fəlsəfə termini kimi də işlənir.

**PİKET** *fr.* – kiçik keşikçi dəstəsinin, zastavanın və ya səhra qarovulunun adı. XVII-XIX əsrlərdə Fransa, Rusiya və s. dövlətlərin ordularında mövcud olmuşdur.



**PİKTOQRAFİYA** *lat.* – piktoqrafik yazı; şəkli yazı; məlumatın məzmununun rəsm və ya rəsm ardıcıllığı ilə verilməsi.

**PİQMEYLƏR** *yun.* – Afrikanın tropik meşələrində yaşayan qısaboylu adamlar.

**PİONER I** *fr.* – yeni, öyrənilməmiş bir yerə birinci olaraq gəlib, orada yurd salmış adam.

**PİONER II** – bəzi ölkələrin ordularında mexaniki hissə əsgəri.

**PİR** – məbəd və sitayiş yeri.

**PİR QƏLƏBƏSİ** – məğlubiyyətə bərabər olan qələbə deməkdir. Epir padşahı Pirrin romalılarla müharibəsi zamanı yaranmış ifadədir. Pirr qalib gəlsə də bütün qoşununu itirmişdi.

**PİRAMİDA** *yun.* – qədim Misir fironlarının həmin şəkildə çox iri daşlardan qurulmuş nəhəng məqbərəsi; ehram.

**PİRAT** *lat.* – dəniz qulduru.

**PİRATLIQ** – dəniz quldurluğu.

**PİSTOL** *fr.* – Roma ölkələrində qədim qızıl pul.

**PİTEKANTROP** *yun.* – ən qədim insanların (araxantropların) nümayəndəsi. Qalığı ilk dəfə Yava adasında tapılmışdır. Qədimliyi 500-700 min ildir.

**PLANTASİYA** *lat.* – 1. Bitki əkini, tarla; 2. xüsusi kənd təsərrüfatı bitkiləri əkilmiş iri torpaq sahəsi. Məs, çay plantasiyası, pambıq plantasiyası və s.

**PLANTATOR** – Latın Amerikası ölkələrində plantasiya sahibi.

**PLATFORMA** *fr.* – partiya və ya qrupun fəaliyyət proqramı.

**PLEBEYLƏR** *lat.* – qədim Romada: şəxsən azad, lakin əvvəllər heç bir siyasi hüquqa malik olmayan aşağı təbəqələrə mənsub adam.

**PLEBİSSİT** – ümumxalq səsverməsinin formalarından biri.

**PLEBS** – *bax* plebeylər.

**PLENAR** *lat.* – plenum, geniş (məs, plenum icması, geniş iclas).

**PLENUM** *lat.* – plenar iclas.
**PLEYSTOSEN** *yun.* – antropogen sisteminin (dövrünün) ən böyük şöbəsi və ən uzunmüddətli epoxası.
**PLİOSEN** *yun.* – neogen dövrünün üst şöbəsi (epoxası). 1833-cü ildə Ç.Layel ayırmışdır.
**PLUTOKRAT** *lat.* – hakim sinfin, var-dövlətinə görə böyük nüfuzu və hökmü olan varlı təbəqəsinin nümayəndəsi.
**PLUTOKRATİYA** *yun.* – dövlət quruluşu növü. Plutokratlar ifadəsi də bu sözdən əmələ gəlmişdir.
**PLUTOKRATLAR** *bax* plutokratiya.
**PLUTONQ** – kiçik piyada dəstəsi.
**PLÜRALİZM** *lat.* – çoxfikirlilik, çoxpartiyalılıq.
**PODİUM** *lat.* – qədim romalıların sərdabələrində: meyitin külü olan qabları və ya başqa şeyləri qoymaq üçün ləmə, rəf.
**POLİS** – polis nəfəri, polisiyada xidmət edən adam.
**POLİSİYA** *alm.* – 1. polis idarəsi; 2. polislər, polis dəstəsi.
**POLİSMEN** *ing.* – polis (İngiltərə və ABŞ-da).
**POLİTEİST** *yun.* – politeizmə inanan adam.
**POLİTEİZM** *yun.* – çoxallahlılıq; bir çox allahlara sitayiş etmə.
**PONT** *yun.* – Kiçik Asiyada Evksin Pontu sahillərində qədim vilayəti.
**PONTU PADŞAHLIĞI** – e.ə.302 və ya 301-64-cü illərdə Kiçik Asiyada mövcud olmuş ellinist dövləti.
**PORTA** *fr.* – Osmanlı imperiyası hökumətinin, bəzən də imperiyanın özünün Avropada diplomatik sənədlərdə və ədəbiyyatda təsadüf olunan adı.
**PORTAL** – xüsusi memarlıq tərtibatı olan giriş qapısı.
**PORTİK** – talvar.
**POSAD** – qədim Rusiyada: şəhərin qala divarı xaricində olan ticarət, sənaye hissəsi.
**POSESSİON HÜQUQU** – təhkimçilik dövründə: təhkimli



kəndlilərin təhkim edildiyi fabrik və zavodlardan xüsusi şəxslərin varislik yolu ilə istifadə etmə hüququ.
**POSESSİON ZAVODLAR** – "posessio" "mülk" sözündən götürülmüşdür. Rusiyada təhkimçilik dövründə: hökumət yerlərində xüsusi şəxslər tərəfindən tikilmiş və həmin yerlərə təhkim edilmiş kəndlilərin fəhlə sifətilə işlədildiyi zavodlar.
**PRAQA BAHARI** – 1968-1969-cu illərdə Çexoslovakiyada baş vermiş hadisələr.
**PRAQA ÜSYANI (1848)** – Praqa fəhlələri, sənətkarları və xırda burjua ziyalılarının Habsburqlar mütləqiyyətinə qarşı üsyanı: iyunun 12-dən 17-dək baş vermişdir.
**PRAQMATİZM** *yun.* – 1. tarixi hadisələrin yalnız zahiri əlaqə və ardıcıllıq cəhətdən təsviri; 2. subyektin idealist fəlsəfi təlimi. XIX əsrin 70-ci illərində ABŞ-da meydana gəlmişdir.
**"PRAYD TƏMİZLƏNMƏSİ"** – polkovnik Prayd başda olmaqla ordu hissəsinin kral tərəfdarlarını parlamentdən qovması.
**PRAVOSLAV KİLSƏSİ** – 1054-cü ildə xristian kilsəsinin iki hissəyə parçalanması nəticəsində yaranmış kilsə. "Həqiqi" din kilsəsi deməkdir.
**PREDPARLAMENT** *lat.* – parlamentqabağı orqan (1917-ci il fevral burjua demokratik inqilabı zamanı: öz tərkibində iri burjua partiyaları nümayəndələri də iştirak edən müvəqqəti respublika şurası).
**PREFEKT** *lat.* – qədim Romada, indi Fransada və başqa ölkələrdə müxtəlif mülki, hərbi və polis vəzifələrinin adı.
**PREFEKTLİK** *bax* prefektura.
**PREFEKTURA** *lat.* – 1. prefekt vəzifəsi, prefektlik; 2. prefektin idarə etdiyi əyalət və ya başçılıq etdiyi idarə; 3. qədim Roma imperiyasında (IV əsrin əvvəli) inzibati bölgü vahidi.
**PRETOR** *lat.* – qədim Romada ali məhkəmə orqanları nümayəndəsi.

**PRETOR HÜQUQU** – qədim Romada vəzifəli şəxslərin - preporların mülki mühakimə icraatı prosesində hazırladığı normalar.

**PRETORİANLAR** *lat.* – qədim Romada əvvəlcə sərgərdələrin şəxsi mühafizə dəstəsinin, sonralar imperator qvardiyasının əsgərləri.

**PREZİDENT** *lat.* – bəzi respublikalarda dövlət başçısı.

**PRİMAS** *lat.* – katolik və anqilikan kilsəsində baş ruhani.

**PRİMATLAR** – məməlilər dəstəsi.

**PRİNSİPAT** *lat.* – qədim Romada: respublikadan imperiyaya keçid dövründəki siyasi quruluş. (e.ə.27-ci, eramızın 193-cü ili).

**PROFEKTOR** *lat.* – müdafiəçi deməkdir.

**PROFEKTORANT** – İngiltərədə idarəetmə forması.

**PROKONSUL** *lat.* – qədim Romada: canişan, hakim.

**PROKURATOR** *lat.* – qədim Romada: 1. Roma vətəndaşının məhkəmə və ticarət işləri üzrə etibarlı adamı; 2. imperiya dövründə iri malikanələrin təsərrüfat müdirləri, məmurlar, kiçik əyalətlərin rəisləri, vergiyığanlar, maliyyə və təsərrüfat müəssisələrinin başçıları.

**PROKURORLUQ** *lat.* – cinayət işlərinin istintaqa nəzarət edən xüsusi dövlət orqanı. İlk dəfə Fransada XIII-XIV əsrlərdə meydana gəlmişdir. Rusiyada 1722-ci ildə I Pyotr yaratmışdı. Azərbaycanda 1920-ci ildən fəaliyyət göstərir.

**PROQLAMASİYA** – intibahnamə.

**PROQRAM** *yun.* – siyasi partiyanın təşkilatın, yaxud müəyyən xadimin fəaliyyətinin əsas müddəalarının və məqsədlərinin şərhi.

**PROLETAR** *lat.* – istehsal vasitələrindən məhrum olan muzdlu fəhlə; iri sənaye fəhləsi.

**"PROLETARİ"** – gizli bolşevik qəzeti.

**PROLETARİAT** *alm.* – istehsal vasitələrindən məhrum olan, burjuaziyanın istismar etdiyi muzdlu fəhlə sinfi, proletar sinfi.

**PROLETARİAT DİKTATURASI** – fəhlə sinfinin sosialist inqilabının qələbəsi nəticəsində qurulmuş siyasi hakimiyyət.

**PROLETARLAR** *lat.* – 1.*bax* proletariat; 2.qədim Romada Servi Tullinin adına çıxılan islahata görə əmlak senzinə malik olmayan vətəndaşlar.

**PROLETARLAŞDIRMAQ** – muzdlu fəhləyə, proletara çevirmək.

**PROLETARLAŞMAQ** – muzdlu fəhləyə, proletara çevrilmək.

**PROLETKULT** – Böyük Oktyabr sosialist inqilabı ərəfəsində yaranan və 1917-20-ci illərdə geniş fəaliyyət göstərən ədəbi-bədii və mədəni təşkilat.

**PROLETKULTÇÜ** – "proletkult" təşkilatının üzvü.

**PROLONQASİYA** *lat.* – 1. beynəlxalq hüquqda müqavilə müddətinin uzadılması; 2. keçmiş SSRİ-də Dövlət Bankının müəssisə və təşkilatlara verdiyi borcların ödənilməsi müddətinin uzadılması.

**PROSKRİPSİYA** – qədim Romada: siyasi cinayətkarların camaat qarşısında qanundan xaric elan edilməsi.

**PROTEKSİONİZM** *fr.* – bəzi ölkələrdə: gətirilən mallara yüksək gömrük qoymaqdan ibarət himayəçilik sistemi.

**PROTEKTOR** *lat.* – "müdafiəçi, hamı" deməkdir.

**PROTEKTORAT** *lat.* – 1. İngiltərədə idarəetmə forması; 2. Müstəmləkə asılılığı forması. Bu zaman bir dövlət xüsusi beynəlxalq müqavilə ilə digər dövlətə onu xarici əlaqələrdə təmsil etmək hüququ verir.

**PROZELİT** *yun.* – yeni tərəfdar (bir əqidəni, məsləki, nəzəriyyəni yeni qəbul etmiş adam).

**PRUDONİST** – prudonizm tərəfdarı.

**PRUDONİZM** – fransız xırda-burjua utopisti və anarxist Prudonun (1809-1865) nəzəriyyəsi.

**PUQAÇOV HƏRƏKATI (ÜSYANI)** – 1773-1775-ci illərdə kazak Y.Puqaçovun başçılıq etdiyi kəndli hərəkatının adı; kəndli üsyanı.

**PUN MÜHARİBƏLƏRİ** – (e.ə.264-146) – Karfagenlə Qədim Roma arasında əvvəlcə Siciliyada, sonra Aralıq dənizinin bütün qərb sahilində hökmranlıq uğrunda işğalçılıq müharibələri.

I Pun müharibəsi – e.ə. 264-241;

II Pun müharibəsi – e.ə. 218-201;

III Pun müharibəsi – e.ə. 149-146.

**PURİTAN** *ing., əsli lat.* – "purus" - yəni «təmiz» deməkdir. İngiltərədə dəbdəbəli kilsə ayinləri və mərasimlərinə qarşı çıxan dini məzhəb.

**PURİTANLAR** *ing.* – XVI əsrin 2-ci yarısı – XVII əsrin 1-ci yarısında İngiltərə və Şotlandiyada kalvinizm ardıcılları.

**PURPUR** – tünd-qırmızı boyaq. Finikiyalılar bu boyağı dəniz ilbizi şirəsindən və balıq molyusklarından hazırlayırdılar.

# R

**RA** *bax* amon.

**RABAD** *alm. əsli. fr.* – orta əsrlərdə Mərkəzi Asiya və İranın iri şəhərlərində şəhərkənarı sənətkarlıq – ticarət yeri.

**RABOÇEYE ДЕЛО** *рус.* «рабочедело» – raboçeye deloçuluq *(bax)* tərəfdarı.

**RABOÇEYE DELOÇULUQ** *rus.* «рабочедельство» – XX əsrin əvvəllərində Rusiya sosial-demokratiyasında xırda burjua opportunist cərəyanı olub adını «Raboçeo delo» jurnalından almışdır.

**RACƏ** – Hindistanda ari tayfalarının başçısı. Sonralar bu ad hind knyazlarına aid edilirdi; Hind knyazı.

**RACƏLUT** – racələrin uşaqları deməkdir.

**RACPUTLAR** – erkən orta əsrlərdə Hindistanda kastaların ali dərəcəsindən olan döyüşçülər.

**RADA** *ing.* – 1. Ukraynada şura; 2. Ukrayna, Belarus, Litva, Polşa və Rusiyada nümayəndələr məclisi və şuralarının tarixi adı; 3. 1917-18-ci illərdə bir sıra təşkilatın adı.

**RADİKALLAR** *lat.* – bəzi ölkələrdə sol burjua siyasi partiyaların tərəfdarları.

**RADİKALİZM** *.lat.* – radikalların siyasi hərəkatı.

**RAHDAR** – Azərbaycanda xanlıqlar dövründə rüsum toplayan məmur; bacdar.

**RAHDARİ** – orta əsrlərdə Azərbaycanda və bir sıra qonşu ölkələrdə mövcud olmuş mükəlləfiyyət; gömrük.

**RAHİB** – bu dünyanın nemətindən əl çəkmiş dindar.

**RAMANA QALASI** – Azərbaycan Respublikasının Ramana qəsəbəsində orta əsrlərə aid müdafiə istehkamı.

**RAMAZAN** – Hicri-qəməri təqviminin 9-cu ayı; orucluq ayı.

**RANTYE** *fr.* – renta ilə yaşayan şəxslər qrupu.

**RAPORT** *fr.* – qulluqçu tərəfindən verilən şifahi, yaxud yazılı məlumat.

**RAPSOD** *yun.* – qədim Yunanıs-tanda: gəzəri xanəndə; dastançı.

**RASKOL** *rus.* – XVII əsrin ortalarında bir sərа təriqətlərin əmələ gəlməsilə nəticələnən dini hərəkat.

**RASKOLÇU** – raskol təriqətlərindən birinin üzvü.

**RATİFİKASİYA** *lat.* – dövlətlər arasında bağlanan müqavilənin, paktın və s.-nin ali hökumət orqanı tərəfinlən təsdiq edilməsi.

**RATUŞA** *pol. əsli alm.* – 1. şəhər idarəsi, bələdiyyə; 2. bələdiyyə binası.

**RATUŞA** – orta əsrlərdə Qərbi Avropada şəhər şurasının yerləşdiyi bina.

**RAYON** *fr.* – 1. ərazinin coğrafi, iqtisadi və b. cəhətdən vəhdət təşkil edən hissəsi; bölgə; 2. ölkə, respublika, böyük şəhərin tərkibinə daxil olan inzibati ərazi vahidi.

**RAZİNÇİ** – Razin hərəkatı iştirakçısı *(bax razinçilik)*.

**RAZİNÇİLİK** – XVII əsrin 2-ci yarasında Don kazakı Razinin başçılıq etdiyi rus kəndliləri və şəhər yoxsulları hərəkatına verilən ad.

**RAZNOÇİNLƏR** – XIX əsrdə Rusiyada zadəganlara mənsub olmayan, qeyri-siniflərdən, silklərdən çıxmış ziyalı.

**REABİLİTASİYA** – bəraət almaq.

**REALİZM** – həyat həqiqətinin, bədii yarıdıcılığın bu və ya digər növünə məxsus spesifik təsvir vasitələri ilə əks etdirilməsi.

**REALNİ MƏKTƏB** – praktik bilik verən orta ümumtəhsil məktəb.

**REAYA** – Osmanlı imperatorluğunun vergi verən bütün əhalisi.

**REFERENDUM** *lat.* – ən mühüm dövlət məsələlərinin həlli üçün ümumxalq sorğusu, ümumi rəy sorğusu.

**REFORMA** *fr., lat.* – mövcud ictimai quruluşun əsaslarına toxunmayan siyasi yenidənqurma, əsaslı dəyişiklik.

**REFORMAÇI** – reforma tərəfdarı.

**REFORMASİYA** *lat.* – XVI əsrdə Qərbi Avropada: katolik kilsəsinə və papa hakimiyyətinə qarşı dini mübarizə şəklində cərəyan edən feodalizmə qarşı ictimai-siyasi hərəkət.

**REFORMİST** – reformizm tərəfdarı.

**REFORMİZM** *lat.* – fəhlə hərəkatında ictimai islahatlarla kifayətlənməyə çalışan cərəyan.

**REGİON** *lat.* – iri fərdi ərazi vahidi.

**REGİONAL** *lat.* – hər hansı müəyyən əraziyə (vilayətə, ölkəyə və s.) aid olan; məhəlli, yerli.

**REJİM** *fr.* – dövlət quruluşu; idarəçilik üsulu.

**REKONKİSTA** *isp.* – Əndəlusun müsəlman əhalisinin (ərəblərin) Priney yarımadasından zorla çıxarılması hərəkatı (VIII-XV əsrlərdə).

**REKRUT TOPLANMASI** – *(əsgər toplantısı)* Rusiyada müəyyən miqdar kəndlidən və posad həyatlarinin hər birindən orduya bir nəfər çağırılması.

**REQALİYALAR** *lat.* – 1. ancaq dövlətə məxsus inhisar hüququ. Hüquq termini kimi də işlənir; 2. Monarxiya hakimiyyətinin əsas xarici əlamətləri – tac, hökmdar əsası, taxt-tac və s.

**RELYEF** – qabarıq təsvir.

**RENESSANS** *fr.* – dirçəliş, intibah deməkdir. Qərbi və Mərkəzi Avropa ölkələrinin mədəniyyət tarixində orta əsr mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü (İtaliyada XIV-XVI əsrlər, digər ölkələrdə XV əsrin sonu və XVI əsr). Renessans – intibah mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi səciyyə daşımasında, humanist dünya görüşü, antik mədəni irsə müraciət və onu sanki «dirçəltməsindədir».

**RENTA** *alm.* – kapitaldan, torpaqdan, əmlakdan müntəzəm götürülən və sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan gəlir növü.

**REPARASİYA** – hücuma məruz qalmış dövlətlərə dəymiş zərəri ödəmək üçün məğlub olmuş tərəfin öhdəyə götürdüyü ödənc.

**REPATRİASİYA** *lat.* – mühacirlərin keçmiş vətəndaşlıq hüquqları bərpa olunmaqla öz ölkələrinə qayıtması; vətənə qaytarılma.

**REPRESSİYA** *lat.* – 1. cəza, cəza tədbirləri; kütləvi cəzalandırma; 2. əzilmə, təzyiq göstərilmə, dövlət tərəfindən həyata keçirilən cəzalandırma.

**RESKRİPT** *lat.* – 1. Qədim Romada: imperatora təqdim edilmiş məsələyə onun verdiyi qanun qüvvəsində olan cavabı; 2. padşahın öz təbəəsinə təşəkkür üçün yazdığı məktub (sərəncam).

**RESKRİPT** – XIX əsrdə bu söz Rusiyada sərəncam, fərman, göstəriş mənasında işlənirdi.

**RESPUBLİKA** *lat.* – ümumxalq işi deməkdir. Respublika – müəyyən seçilmiş adamlar tərəfindən idarə olunan dövlətdir. Respublika antik dövrdə meydana gəlmişdir. Respublikaların iki əsas tipi mövcuddur: 1. Prezidentli respublika; 2. Parlamentli respublika. Prezidentli respublikada dövlət başçısı və hökumət başçısının səlahiyyəti seçki yolu ilə seçilmiş prezidentin əlində cəmləşir. Parlamentli respublikada formal olaraq parlamentin üstünlüyü prinsipinə əsaslanır. Hökumətə başçılıq edən nazir, adətən, hakim partiyanın lideridir.

**RESPUBLİKA** – ilk dəfə Romada yaranıb, latın dilində – xalq hakimiyyəti deməkdir.

**RESPUBLİKAÇI(LAR)** – 1. respublika idarə üsulu tərəfdarı; 2. respublika partiyasının üzvü.

**RESTAVRASİYA** *lat.* – bərpa etmək deməkdir.

**REVANŞİZM** – məğlubiyyətin əvəzini çıxmaq və itirilmiş əraziləri, iqtisadi və siyasi mövqeləri geri qaytarmaq məqsədilə yeni müharibə hazırlanmasına yönəldilmiş olan mürtəce ideologiya və siyasət.

**REVİZİYA** *rus.* – XVIII əsrdə və XIX əsrin birinci yarısında Rusiyada can vergisi qoymaq üçün aparılan siyahı.

**REVKOM** – inqilabi komitə.

**REYD** *ing.* – səyyar hissə və birləşmələrin düşmən arxasına sürətli yürüşü.

**REYXSKANSLER** *alm.* – dövlət kansleri – 1871-1945-ci ilədək Almaniyanın hökumət başçısı; dövlət kansleri.

**REYXSTAQ** *alm.* – 1867-1871-ci illərdə Şimali Almaniya İttifaqında, 1871-ci ildən Almaniya imperiyasında, 1919-cu ildən Almaniya Respublikasında parlament, 1933-cü ildə Hitler faşist partiyası hakimiyyət başına keçəndən sonra öz əhəmiyyətini itirmişdir.



**REYXSVER** *alm.* – I Dünya müharibəsindən sonra 1935-ci ilədək faşist Almaniyasının silahlı qüvvələri.

**REYN TƏMİNAT PAKTI** – Almaniyanın dirçəlməsinə yönəmliş 1925-ci ilin 5-16 oktyabrında olmuş Lokarno (İsveçrə) kofnransı əsasında Almaniya, Belçika, Fransa, Böyük Britaniya və İtaliya arasında imzalanmış sənəd.

**REYTAR** *alm.* – XVI və XVII əsrlərdə Qərbi Avropada və XVII əsrdə Rusiyada süvari əsgər.

**REZİDENT** *fr.* – 1. orta əsrlərdə, göndərildiyi ölkədə daimi qalan xarici diplomatik nümayəndə; elçi; 2. bir ölkənin həmişə xarici dövlətin müəyyən bir hissəsində casusluq işlərinə gizli rəhbərlik edən şəxs.

**REZONANS** *bax* intibah.

**RƏHBƏR** – hər hansı bir ictimai hərəkatın, partiyanın, sinfin ideoloqu, siyasi başçısı; başçı.

**RƏHDARİ** – ticarət yollarının qorunması üçün alınan vergi.

**RƏİYYƏT** – orta əsrlərdə Yaxın və Orta Şərqin bir sıra ölkəsində, o cümlədən Azərbaycanda əvvəllər bütün təbəələri, sonralar isə vergini verən xüsusi kəndli və şəhərli təbəqəsi. Rəiyyətlər asılı kəndlilərin əksəriyyətini təşkil edirdilər. Rəiyyət dedikdə, pay torpağına və şəxsi təsərrüfata malik olub, həm feodala, həm də dövlətə vergi və mükəlləfiyyətlər ödəyən kəndlilər nəzərdə tutulur.

**RƏNCBƏR** – XVI-XIX əsrlərdə İranda və Azərbaycanda kəndli kateqoriyası; sahibkara təhkim olan kəndli; təsərrüfatı, torpağı olmayan kəndlilər.

**RƏNCBƏR** – feodalların, bəy-ağaların təsərrüfatında işləyən və pay torpağı almayan kəndli.

**RƏŞT MÜQAVİLƏSİ** – 1732-ci ildə Rusiya ilə İran arasında yanvarın 21-də Rəşt şəhərində bağlanmış müqavilə.

**RITSAR** *alm.* – Qərbi Avropada feodalizm dövründə: hərbi zadəgan təbəqəsinə mənsub olan şəxs.

**RITSARLIQ** – Qərbi Avropada: feodalizm dövründə hərbi-zadəgan təbəqəsi.

**RİKŞA** *yap.* – Şərqi və Cənubi Asiyanın bəzi ölkələrində ikitəkərli kiçik arabaya qoşulub sərnişin və yükaparan adam.

**RİTON** *yun.* – "axıram" deməkdir. Aşağı nazik ucunda kiçik deşiyi olan buynuz formalı qədim içki qabı. Riton gil, metal və ya buynuzdan hazırlanaraq üzəri müxtəlif naxışlarla bəzədilirdi. Ritonun aşağı hissəsi, əsasən, heyvan başı formasında olurdu. Mingəçevirdə küp qəbirlərdən birində maral başı formasından düzəldilmiş saxsı riton tapılmışdır.

**RİTOR** *yun.* – qədim Yunanıstanda bəlağət müəllimi.

**RİTORİKA** *yun.* – 1. bəlağət elmi; 2. natiqlik, natiqlik məharəti.

**ROMA HÜQUQU** – Qədim Romanın ən çox inkişaf etmiş hüquq sistemi. Buna quldarlıq hüququ da deyilir.

**ROMA PAKTI** – 1935-ci il yanvarın 7-də İtaliya hökumətinin başçısı B.Mussolini ilə Fransa xarici işlər naziri P.Laval arasında bağlanmış saziş. Buna «Laval-Mussorlini saziş» də deyirlər.

**ROSTR** *lat.* – gəmi mahmızı *(Qədim Roma gəmilərinin metalla örtülmüş burnu).*

**ROTMİSTR** *pol.* – çar ordusunda: atlı qoşun hissəsində və jandarmeriyada kapitana bərabər zabit rütbəsi.

**ROZETTA DAŞI** – heroqlif və demotik yazı ilə Qədim Misir və qədim yunan dillərində yazılı qarabazalt daş. Rozetta şəhəri yaxınlığında tapılmışdır.

**RUS-AZƏRBAYCAN MƏKTƏBİ** – XIX əsrin 2-ci yarısında qabaqcıl rus ictimai və pedaqoji fikrinin, mütərəqqi məktəb təcrübəsinin təsiri ilə Azərbaycanda meydana gəlmiş xüsusi məktəb tipi. Bu məktəb «rus-müsəlman məktəbi, rus-tatar məktəbi» kimi də adlanırdır.

**RUS-MÜSƏLMAN MƏKTƏBİ** *bax* rus-Azərbaycan məktəbi.

**RUS-TATAR MƏKTƏBİ** *bax* rus - Azərbaycan məktəbi.

**RUSİYA İMPERİYASI** – çoxmillətli monarxist silki dövlət (1721-1917). 1721-ci ildə I Pyotrun imperiya elan etdiyi mərkəzləşdirilmiş rus dövlətinin əsasında yaranmışdır. 1917-ci ildə oktyabr inqilabı zamanı bu imperiyaya son qoyuldu.

**RUSİYA KOMMUNİST PARTİYASI** *bax* Sovet İttifaqı Kommunist Partiyası.

**RUSİYA-TÜRKİYƏ MÜHARİBƏLƏRİ** – (XVII-XIX əsrlər) – Qara dənizdə və onun ətraf rayonlarında aparılmışdır:

1. 1678-1681-ci illər
2. 1686-1700-cü illər
3. 1710-1713-cü illər
4. 1735-1739-cu illər
5. 1768-1774-cü illər
6. 1787-1791-ci illər
7. 1806-1812-ci illər
8. 1828-1829-cu illər
9. 1853-1856-cı illər
10. 1877-1878-ci illər.

**RUSSOİST** – russoizm tərəfdarı, Russo nəzəriyyəsi tərəfdarı.

**RUSSOİZM** – XVII əsr fransız mütəfəkkiri Jan Jak Russonun ictimai və pedaqoji görüşləri.

**RÜSUM** – orta əsrlərdə bir sıra Şərq ölkəsində, o cümlədən Azərbaycanda vergi; rüsumat.

**RÜSUM** – dövlət canişinləri və ruhaniləri üçün natura ilə alınan vergi.

**RÜŞDİYYƏ MƏKTƏBİ** – Cənubi Azərbaycan maarifpərvəri rüşdiyyənin Təbrizdə (1888, 1893) və Tehranda (1897) açdığı yeni üsullu məktəblər.

**RÜTBƏ** – 1. dərəcə, ad; 2. vəzifə, mövqe.

**RYADOVİÇLƏR** – qədim rus dövlətində ryada müqaviləsi üzrə feodala xidmət edən və ondan müəyyən iqtisadi şəxsi asılılığa düşən şəxslər.

**RYAZAN KNYAZLIĞI** – feodal knyazlığı. 1129-cu ildə Murom-Ryazan torpağından ayrılmışdır.

**RZABƏYLİLƏR** – Azərbaycan tayfalarından biri. Şahsevən tayfa qruplarındandır.

**SABEİZM** – islamiyyətdən əvvəl Mesopotamiyada, Ərəbistanda, Suriyada və Kiçik Asiyada göy cisimlərinə (aya, ulduzlara) sitayiş etməkdən ibarət qədim din.

**SABİRLƏR** – Xəzər dənizinin şimal-qərb sahillərində yaşamış türk mənşəli tayfa. Sabirlər haqqında ilk dəfə Ptolomey məlumat vermişdir.

**«SABİT QİYMƏTLƏR»** – Fransada yakobinçilərin tətbiq etdiyi qayda. Bu qaydaya əsasən, ərzaq və digər az tapılan mallar üçün müəyyən qiymət norması qoyulurdu. Bu normalardan yuxarı qiymətə həmin malların satılması qadağan edilirdi.

**SABOTAJ** *fr.* – işi pozma, işə mane olma, qəsdən işləməmə (bir işi (sərəncamı) yerinə yetirməkdən boyun qaçırmaq və ya yalnız formal surətdə yerinə yetirmək yolu ilə qəsdən pozma).

**SABOTAJÇI** – sabotajçı, sabotajla məşğul olan.

**SABOTAJLIQ** – sabotaj hərəkəti.

**SAHİB** – orta əsrlərdə Hindistanda iri feodallar, sonralar isə avropalılara, xüsusilə ingilislərə «ağa, cənab» mənasında sahib deyilmişdir.

**SAHİB-DİVAN** – orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda vəzifə; Ağqoyunlu dövlətində baş vəzir.

**SAHİBQİRAN köhn.** – keçmişdə Şərqdə böyük hökmdarlara verilən ad.

**SAJIN** *rus.* – uzunluq ölçüsü (3 arşına və ya 2,134 metrə bərabərdir).

**SALARİLƏR DÖVLƏTİ** – orta əsr Azərbaycanda feodal dövləti (941-981/83). Paytaxtı Ərdəbil şəhəri idi. Əsasını X əsrin 40-cı illərində Ərəb xilafətinin zəiflədiyi dövrdə Dəyləm hakimi Salar Mərzuban ibn Məhəmməd qoymuşdur.



**SALNAMƏ** – il ərzində bir yerdə baş verən tarixi hadisələri qeydə alan kitab, tarixi əsər və s.

**SALNAMƏÇİ** – salnamə yazan şəxs.

**SALNAMƏÇİLİK** – salnamə yazmaqla məşğul olma.

**SALON** *fr.* – 1. bəzi ölkələrdə (Fransada) vaxtaşırı keçirilən incəsənət sərgilərinin adı; 2. burjua-zadəgan cəmiyyətində qonaq üçün qəbul otağı; 3. zal (hüquqşünaslıqda); 4. kübarlar cəmiyyəti, onların yığıncaq yeri.

**SALYANƏ** *fr.* – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkəsində, o cümlədən Azərbaycanda mövcud olmuş vergi.

**SAMBUKA** – qədim Şərqdə: üçbucaqlı simli musiqi aləti; 2. qədim yunan və romalılarda: mühasirə olunan şəhərin divarına müdafiə bürcündən atılan körpü.

**SAMNİT MÜHARİBƏSİ** – e.ə. 343-341, 327-304, 298-290-cı illərdə Mərkəzi İtaliya ərazisində hökmranlıq uğrunda Roma ilə Samnit federasiyası arasında müharibələr.

**SAMNİTLƏR** – qədim İtaliya tayfası.

**SAMOYADLAR** – samodi xalqlarına verilən köhnə ad, nenlər *(bax)*.

**SAMOYEDLƏR** *bax* samoyadlar.

**SAMUPAYLAR** *yap.* – feodalizm dövründə Yaponiyada iri feodallar – sahibkarlar; knyazlardan tutmuş xırda zadəganlara qədər dünyəvi feodallar.

**«SANASİON REJİMİ»** – XX əsrin 30-cu illərində Polşada Y.Pilsudskinin yeritdiyi “sağlamlaşdırma” siyasəti.

**SANCAQ** *türk.* – bayraq, Osmanlı dövlətində hərbi inzibati ərazi bölgüsü.

**SANKYÜLOT** – Fransada zadəganlar kasıbları geyimlərinə görə həqarətlə belə adlandırırdılar.

**SANSKRİT** – qədim hind dillərindən biri.

**SANSKRİTŞÜNAS** – sanskrit dili mütəxəssisi, sanskritoloq.

**SANSKRİTŞÜNASLIQ** – sanskrit dili ilə məşğul olan elm, sanskritologiya.

**SAPAND** *köhn.* – atma silah növü.

**SARAY** *köhn.* – 1. padşahın, dövlət başçısının, yaxud padşah ailəsinin daimi yaşadığı həşəmətli bina, ev;
2. ictimai təşkilatların olduğu bəzi böyük binaların adlarının tərkibində işlənir: Prezident sarayı, səadət sarayı.

**SARAY ÇEVRİLİŞİ** *köhn.* – saray adamları tərəfindən bir padşahın taxtdan salınıb başqasının taxta çıxması, oturması.

**SARI SARIQLILAR** – Çində 184-cü ildə baş vermiş üsyanın iştirakçıları. Onlar tanınmaq üçün başlarına sarı sarıq bağlayırdılar.

**SARMATLAR** – miladdan 2-3 əsr əvvəl *(eramızdan əvvəl 6-2-ci əsrlərdə)* Qara dəniz sahili çöllərində yaşamış tayfa.

**SASANİLƏR** – 3-7-ci əsrlərdə sasanilər dövlətində *(bax)* hökmdar sülaləsi. Parsa şahı Papakın atası Sasanın adı ilə adlandırılmışdır.

**SASANİLƏR DÖVLƏTİ** – 3-7-ci əsrdə Yaxın və Orta Şərqdə dövlət. Sasanilər sülaləsi idarə edirdi. Banisi I Ərdəşir idi.

**SATRAP** *yun.* – qədim İranda, Midiyada müstəbid əyalət valisi, hakimi, satraplığın canişini.

**SATRAP** – canişin (Əhəməni dövlətində).

**SATRAPLIQ** – satrapın ixtiyarında olan yerlər; hərbi-inzibati mahal.

**SATRAPLIQ** – canişinlik. Əhəməni hökmdarı I Daranın yaratdığı inzibati vergi dairələri.

**SATURN** *lat.* – Qədim Roma əfsanəsində mövsüm və məhsuldarlıq allahı.

**SATURNALİYA** *lat.* – Qədim Romada saturnun *(bax)* şərəfinə düzəldilən şənlik.

**SAVİRLƏR** *bax* sabirlər.

**SOYURQAL** *monq.* – ehsan, bəxşiş, hədiyyə, güzəşt deməkdir. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində köçmə və hərbi əyanlara bağışlanmış torpaq mülkü.

**SAZİŞ** – müqavilə, pakt.

**SEÇ** *ing.* – 1. Ukraynada XVI-XVII əsrlərdə Zaporojye kazakları icmasının adı; 2. həmin icmanın olduğu yer Zaporojye.

**SEÇKİ** – dövlət hakimiyyəti nümayəndələrinin, həmçinin ictimai təşkilatların rəhbər orqanlarının seçilməsi hüququ.

**SEÇKİ SİSTEMİ (HÜQUQU)** – dövlətin seçkili orqanlarının təşkili və vətəndaşların öz seçki hüquqlarını həyata keçirməsi qaydası.

**SEX** *alm.* – 1. feodalizm dövründə Qərbi Avropada: həmkarların silki təşkilatı; 2. Qərbi Avropada sənətkarların birləşdiyi ittifaq.

**SEXÇİLİK** – məhdudluq, öz peşə və sənət mənafeyi dairəsindən kənara çıxmama.

**SEKUND-MAYOR** – XVIII əsrdə rus ordusunda: sonrakı kapitan rütbəsinə bərabər zabit rütbəsi.

**SEQREQASİYA** – ictimai yerlərdə, məktəblərdə, nəqliyyatda və digər yerlərdə «rəngli» əhali ilə «ağ» əhaliyə fərq qoyulması (məsələn, ABŞ-da).

**SEMİNARİYA** *lat.* – məktəb, orta təhsil verirdi.

**SEMİT** – indiki ərəblərin, suriyalıların, yəhudilərin, həbəşlərin və s.-nin mənsub olduğu Cənub-Qərbi Asiya və Şimali Afrikanın dilcə birbirinə yaxın olan xalqlar qrupu.

**SENAT** *lat.* – 1. Qədim Romada: dövlət şurası, dövlət idarəsinin baş orqanı; 2. çar Rusiyasında: ali məhkəmə və inzibati idarə; 3. ABŞ-da konqresin baş palatası, bəzi dövlətlərdə parlament;
4. demokratik ölkələrin əksəriyyətində parlamentin yuxarı palatasının adı.

**SENATOR** *lat.* – senat üzvü.

**SEN-SİMONİST** – Sensimonizm tərəfdarı.

**SENSİMONİZM** – XIX əsr fransız utopist-sosialisti Sen-Simonun nəzəriyyəsi.

**SENTİMENTALİST** – sentimentalizm tərəfdarı.
**SENTİMENTALİZM** *fr.* – XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində Avropa ədəbiyyatında cərəyan.
**SENTİMENTALİZM** – klassizimin əksinə olaraq şəxsi intim həyat məsələlərini, insan münasibətlərinin sadəliyi, səmimiliyi, ailə həyatı ziddiyyətlərini və s. geniş planda verən cərəyan.
**SENTURİON** *lat.* – senturiya başçısı *(bax senturiya).*
**SENTURİYA** *lat.* – 1. Qədim Romada 100 nəfərdən ibarət qoşun dəstəsi; 2. Qədim Romada: əhalinin mülk və yaş senzlərinə görə bölgüsü.
**SEPARATÇILIQ** – ayrılmağa meyil, ayrılma təşəbbüsü.
**SEPARATİZM** *lat.* – çoxmillətli dövlətlərdə azlıqda qalan millətlərin ayrılıb müstəqil dövlətlər və ya muxtar vilayətlər yaratmağa çalışması; kütləvi milli-azadlıq hərəkatından fərqli olaraq separatizm, adətən yerli (milli) burjuaziyanın, yaxud xarici burjuaziyanın müəyyən dairələrinin məhdud mənafeyini ifadə edir.
**SERVİTUT** *lat.* – antik feodal və kapitalist cəmiyyətlərində başqasının mülkündən və malından müəyyən dərəcədə istifadə etmək hüququ.
**SETTLMENT** *ing.* – yarımmüstəmləkə ölkələrin şəhərlərində kapitalist dövlətləri təbəələrinin yaşadığı müstəqil məhəllələr.
**SEYİD** – 1. Məhəmməd peyğəmbərin nəslindən olan adama verilən ad; 2. ləqəb kimi seyidlərin adlarından əvvəl deyilir.
**SEYM** *pol.* – bəzi dövlətlərdə qanunverici məclis, parlament.
**SEZARİST** – sezarizm tərəfdarı *(bax sezarizm).*
**SEZARİZM** – dövlət hakimiyyəti başında hakimiyyəti zorla qəsb etmiş şəxsin durduğu siyasi üsul-idarə.
**SƏFƏRBƏRLİK** – 1. müharibə elanı ilə əlaqədar olaraq, ehtiyatda olan müxtəlif yaşlıların və hərbi qulluğa yararlı olanların ordu sıralarına çağırışı; 2. ölkənin sülh vaxtı mövcud olan silahlı qüvvələrini müharibə şəraitinə keçirmə.
**SƏFƏVİ(LƏR)** – 1501-1736-ci illərdə Azərbaycanda və İranda hakimiyyət sürmüş məşhur azərbaycanlı sülalə.
**SƏFƏVİLƏR DÖVLƏTİ** – orta əsr feodal dövləti (1501-1736). Azərbaycan, Şərqi Gürcüstan, İran, Cənubi Türkmənistan və indiki Əfqanıstan (Bəlx vilayəti istisna olmaqla), bəzi dövrlərdə İraqi-Ərəb və s. əraziləri əhatə edirdi. Əsasını I Şah İsmayıl Xətai qoymuşdur.
**«SƏHRA GƏMİSİ»** – bədəvilər *(bax: bədəvilər)* dəvəni belə adlandırırdılar.
**SƏHM** – qiymətli kağız sahibinin sərdar cəmiyyəti – kapitalının hissəsinə malik olduğunu təsdiq edir. O, sahibinə bu cəmiyyətin gəlirinin bir hissəsini almaq hüququ verir. Səhmlərin məcmuyu birliyin səhmdar kapitalını təşkil edir.
**SƏHM** – nəzarət paketi.
**SƏHRDAR** – “səhrdar qoruyucusu” Sasanilər dövlətində canişin.
**SƏLCUQİLƏR** – Oğuzların qınıq tayfasından olan hökmdarlar sülaləsi (XI-XIV əsrlər). Banisi Toğrul bəydir.
**SƏLCUQİLƏR DÖVLƏTİ** – Yaxın Şərqdə ən qüdrətli orta əsr feodal dövlətlərindən biri (1038-1157).
**SƏLCUQLAR** – Oğuz türkləri. Türk sərkərdəsi Səlcuqun adından əmələ gəlmişdir. Səlcuqlar oğuzların qınıq tayfasına mənsub olmuşdur.
**SƏLƏMÇİ** – yüksək faizlə borc verib mənfəət qazanan şəxs.
**SƏLİB** – xaç deməkdir.
**SƏLİB MÜHARİBƏLƏRİ** – katolik kilsəsinin təşəbbüsü ilə dinsizlərlə mübarizə şüarı altında XI-XIII əsrlərdə Qərbi Avropa feodallarının Yaxın Şərq və Pribaltika əhalisinə habelə Şərqi Avropa

slavyanlarına qarşı apardıqları işğalçılıq yürüşləri.

**SƏLİB YÜRÜŞLƏRİ** – xaç yürüşləri. Səlibçilərin XI-XIII əsrlərdə Şərqə yürüşləri. Roma papası II Urban "İsanın qəbrini kafirlərin (yəni müsəlmanların) əlindən xilas etmək" bəhanəsilə xristianları Şərq ölkələrinə yürüşə çağırdı. Əslində isə bu yürüşlərdə məqsəd var-dövlət və yeni torpaqları ələ keçirmək idi. Xaç yürüşlərinin iştirakçılarına "səlibçilər", bu yürüşləri isə "səlib yürüşləri" adlandırırdılar. Bu yürüşlərdə iştirak etmək istəyənlər paltarlarına qırmızı parçadan xaç tikdiklərinə görə xaç yürüşləri adlanır. Səkkiz xaç yürüşü təşkil edildi. Lakin Qərb feodalları Şərq ölkələrini işğal etmək məqsədlərinə çatmadılar.

**SƏLİBÇİLƏR** – səlib müharibəsində iştirak edən adamlar; əhli-səlib.

**SƏLTƏNƏT FASİLƏSİ** – monarxiya üsul-idarəsində; bir məmləkətin hökmdarsız qaldığı dövr.

**«SƏMA OĞLU»** – VII əsrin əvvəllərində Çində hakimiyyətə gəlmiş Tan sülaləsindən olan imperatorları bu cür adlandırırdılar.

**SƏNAYE** – xalq təsərrüfatının ən mühüm sahəsi.

**SƏNAYE ÇEVRİLİŞİ** – manufakturadan iri maşınlı sənayeyə keçidlə ifadə olunan texniki-iqtisadi və sosial-siyasi dəyişikliklər sistemi.

**SƏNƏD** – bir faktı təsdiq, bir şeyə olan hüququ sübut edən rəsmi kağız.

**SƏNGƏR** – səhra fortifikasiya qurğusu. Düşmənə atəş açmaq, canlı qüvvəni və sursatı qırğın vasitələrindən qorumaq üçün yaradılır.

**SƏRBADARİLƏR** *fr.* – daha çəkilənlər deməkdir. İran və Mərkəzi Asiyada monqol əsarətinə qarşı xalq azadlıq hərəkatının iştirakçıları.

**SƏRBAZ** *köhn.* – əsgər, döyüşçü.



**SƏRBƏST ADAMLAR** – təhkimçilikdən qaçmış adamlar.

**SƏRDABƏ** – bir və ya bir neçə ölünün basdırıldığı üstüörtülü yer; məqbərə.

**SƏRDABƏ** – qayalarda salınan qəbir abidəsi.

**SƏRDAR** – 1. keçmişdə: bir vilayəti idarə edən və dövlət başçısı adından sərəncam vermək hüququna malik olan hakim; 2. sərkərdə, komandan; 3. canişin.

**SƏRƏSGƏR** *köhn.* – Türkiyədə: baş komandan, sonradan hərbiyyə naziri.

**SƏRXANA** – evlərdə imkanlı adamların uşaqlarına xüsusi təlim keçən müəllim.

**SƏRİRLƏR** – orta əsr mənbələrində Dağıstanda yaşayan xalq. Onların yaşadıqları bölgə "sərir" adlanır.

**«SƏRKƏLLƏ»** – Cənubi Azərbaycanda XIX əsrdə yarımköçəri həyat sürən maldarların heyvanların sayına görə verdikləri vergi.

**SƏRKƏRƏLİ** – xanlıqlar dövrü maliyyə işlərinə baxan adam.

**SFİNKS** *yun.* – 1. Misirdə qayadan yonulmuş 20 metr hündürlüyündə başı insan başı, bədəni aslan bədəni olan heykəl. Onu "Dəhşətlər atası" da adlandırırlar;
2. qədim yunan əsatirində: gövdəsi şir və ya it, başı isə qadın şəklində ikiqanadlı xəyali bir məxluq.

**SFRAGİSTİKA** *yun.* – möhürlərin tədqiqi ilə məşğul olan yardımçı tarix elmi.

**SİKKƏ** – kəsilmiş, zərb olunmuş pul; pul nişanı.

**SİKLOP TİKİLİLƏR** – qədim yunan əsatirlərində qeyri-adi gücə malik təpəgözlərə deyilirdi. Rəvayətə görə qədimdə böyükölçülü tava daşlardan hörülmüş qalaclari həmin "sikloplar", yəni "təpəgözlər" tikmişlər. Buna görə də belə qalalar "siklop tikililəri" adlanır.

**SİKLOPİK** – nəhəng, çox böyük *(bina, tikili haqqında).*

**SİLAHLI ÜSYAN** – xalq kütlələrinin mövcud siyasi hakimiyyətə qarşı açıq silahlı çıxışı.

**SİLK** – feodalizm dövründəki sinfi münasibətlər əsasında meydana gələrək, varislik hüquq və vəzifələri qanunən möhkəmlənmiş ictimai qrup, təbəqə.

**SİMONİYA** – orta əsrlərdə: qazanc məqsədilə dini vəzifələrin Roma papaları tərəfindən alınıb-satılması üsulu.

**SİNANTROP** *lat., yun.* – ən qədim qazıntı insanın nümayəndəsi.

**SİNDİKAT** *lat.* – satış bazarlarına hakim olmaq və qazanc götürmək üçün sahibkarların inhisarçı birləşmə formalarından biri.

**SİNDİKAT** *lat.* – eyni növ məhsul istehsal edən müəssisələr birliyidir. Sindikatın iştirakçılarının istehsal vasitələri üzərində mülkiyyəti və istehsal müstəqilliyi saxlayır. Sindikata daxil olan müəssisələr ticarət müstəqilliyini itirir. Həmin müəssisələrdə istehsal olunan məhsul sindikatın mülkiyyəti kimi bunun üçün yaradılmış kontor vasitəsi ilə satılır.

**SİNDİLƏR** – e.ə. I minillik – eramızın ilk əsrlərində Taman yarımadasında və Qara dənizin ona bitişik sahillərində yaşamış qədim tayfa.

**SİNDLƏR** – meot tayfalarından biri; *bax* sindilər.

**SİNFİ MÜBARİZƏ** – mənafeləri bir-birinə uyğun gəlməyən, siniflər-təbəqələr arasında olan mübarizə.

**SİNİF** – tarixcə müəyyən ictimai istehsal sistemindən tutduğu yerə, istehsal vasitələrinə olan öz münasibətlərinə görə ictimai əməyin təşkilindəki rollarına görə, deməli ictimai sərvətdən malik olduqları payı almaq üsuluna və bu payın miqdarına görə fərqlənən böyük insan qrupu; ictimai təbəqə.

**SİNKLİT** *yun.* – qədim Yunanıstanda: əyanlar məclisi.

**SİNOD** *yun.* – pravoslav məzhəbinin baş idarəsi; 1721-ci ildə təsis edilmiş və mülki hakimiyyətin nəzarəti altında olmuşdur. 1917-18-ci illərdə patriarx seçildikdən sonra müqəddəs sinod patriarx yanında məşvərətçi kollegial orqan idi.

**SİONİZM** – İsrailin rəsmi ideologiyasına və siyasətinə çevrilmiş millətçilik ideologiyası və siyasəti. Qüdsdə Sion dağının adından götürülmüşdür.

**SİPAHİ** – bəzi hind dillərində "sipahi" döyüşçü deməkdir, Hindistanın müstəmləkə olduğu dövrdə Avropa müstəmləkəçilərinin yerli əhalidən təşkil olunmuş ordularında xidmət edən muzdlu əsgər.

**SİPƏR** *bax* qalxan.

**SİTAYİŞ** – ibadət, pərəstiş; dərin ehtiram.

**SİVİLİZASİYA** *lat.* – 1. mədəniyyət; 2. ictimai inkişaf, maddi və mənəvi mədəniyyətin səviyyəsi, mərhələsi. Sivilizasiya dedikdə, bu və ya digər ölkələr və xalqlar qrupuna xas olan maddi, mənəvi və sosial həyatın müəyyən inkişaf mərhələsi başa düşülür.

**SİYASƏT** – siniflər, millətlər və digər sosial qruplar arasındakı münasibətlərə bağlı fəaliyyət sahəsi.

**SKİF** *ing.* – akademik avarçəkmə yarışlarında istifadə edilən idman qayığı.

**SKİF** – yunanlar sakları (iskitləri) belə çağırmışlar, bu ad mixi qaynaqlarda işquz, aşquz şəklində verilir.

**SKİFLƏR** *(saklar, iskitlər)* – Qara dənizin şimal sahillərində, Qərbi Türküstanda, Dunay-Dnestr-Don çayları hövzələrində yaşamış qədim türk tayfaları; e.ə. VIII əsrin sonlarından Dərbənd keçidi vasitəsilə Azərbaycana gəlmiş iskitlər e.ə. VII əsrin ortalarında Kür-Araz ovalığında İskit çarlığı yaratmışlar. Qədim yazılı mənbələr, Mingəçevirdən tapılmış iskit maddi mədəniyyət nümunələri, xüsusilə Azərbaycandakı iskit toponimiyası iskitlərin Azərbaycan xalqının etnogenezində müəyyən dərəcədə iştirakını göstərir.

**SLAVYANLAR** – slavyan xalqları (ukraynalılar, belaruslar, polyaklar, çexlər, slovaklar, bolqarlar, serblər, xorvatlar, slovenlər və s.).
**SLAVYANPƏRƏST** – slavyanpərəstlik *(bax)* tərəfdarı.
**SLAVYANPƏRƏSTLİK** – XIX əsrin ortalarında Rusiyada burjua-zadəgan mühitində meydana çıxmış mürtəce-millətçi cərəyan.
**SLOBODA** *rus.* – vergi və mükəlləfiyyətdən azad yaşayış məntəqəsi.
**SMENOVEXÇİ** – rus ağ mühacirlərinin yeni iqtisadi siyasəti kapitalizmin bərpası sayıb Sovet hakimiyyətinə qəbul etməyə meyil göstərən hissəsi.
**SMENOVEXÇİLİK** – smenovexçi ideologiyası.
**SMERDLƏR** – IX-XVI əsrlərdə Qədim Rus dövlətində icma kəndliləri.
**SOBOR** – Qərbi Avropada şəhərin baş kilsəsi.
**SOLÇU** – öz antikommunist fikir və hərəkətlərini "sol" cümlələrlə gizlədən adam.
**SOLÇULUQ** – kommunizmə, xalqa zidd olan solçu hərəkət və fikir.
**SOLTAN** – padşah, hökmdar.
**SOLTANLIQ** – padşahlıq, hökmdarlıq.
**SOSİAL-DEMOKRAT** – sosial-demokrat partiyasının üzvü.
**SOSİAL-DEMOKRATİYA** – 1. xırda burjua opportunist cərəyanı; 2. XIX əsrin sonuncu rübündə meydana gələn sosialist partiyalarının ümumi adı.
**SOSİAL-DEMOKRATİZM** – sosial demokratiyanın ideologiyası və taktikası.
**SOSİAL-İNQİLABÇI** – 1902-ci ildə Rusiyada xalqçı qrupları qalıqlarından əmələ gəlib, əksinqilabçılar sırasında Sovet hökuməti əleyhinə mübarizə aparmış, marksizmə zidd əksinqilabçı qolçomaq partiyasının üzvü.
**SOSİALİST** – 1. sosializm tərəfdarı; 2. sosialist partiyasının üzvü.
**SOSİALİZM** *lat.* – cəmiyyətin kapitalizmdən sonra gələn inkişaf mərhələsi.
**SOSİAL-ŞOVİNİST** – sosial-şovinizm siyasəti yeridən sosial demokrat.



**SOSİAL-ŞOVİNİZM** – sosial-demokratiyanın imperialist müharibəsində öz burjua hökumətini müdafiə etmə siyasəti.
**SOTNYA** – 1. keçmişdə yüz nəfərdən ibarət polk hissəsi; bölük; 2. Moskva dövlətində: sənətkarların, alverçilərin, müəssisə sahiblərinin sex təşkilatı.
**SOVET İTTİFAQI KOMMUNİST PARTİYASI** – V.İ.Lenin tərəfindən XIX-XX əsrlərin ayrıcında yaradılmış marksist partiya.
**SOVET ORDUSU** – SSRİ Silahlı Qüvvələrinin əsas heyətinin rəsmi adı.
**SOVET SOSİALİST RESPUBLİKALARI İTTİFAQI (SSRİ)** – sosialist dövlət, 15 müttəfiq respublikadan, 20 muxtar respublikadan, 8 muxtar vilayətdən ibarət idi. 1991-ci ildə devrildi.
**SOVXOZ** *rus.* – SSRİ dövründə kənd təsərrüfatında sovet təsərrüfatı - iri mexanikləşdirilmiş sosialist dövlət müəssisəsi.
**SOYQUN** – "Vəhşiləri itaətə gətirən Böyük sərkərdə" deməkdir.
**"SOYUQ MÜHARİBƏ"** (1946-1990/91) – ideoloji-siyasi mübarizə, təxribat sürətlə silahlanma, iqtisadi təzyiq, pozucu kəşfiyyatlar, hərbi-iqtisadi rəqabət-yarış.
**SPALNİK** *rus.* – Moskva dövlətində: saray rütbəsi.
**SPARTALI** – qədim yunan dövləti Sparta vətəndaşı.
**SPARTALILAR** – b.e.ə. II minillikdə Lakonikanı işğal edən dorilər.
**SPİNOSİZM** – XVII əsr Hollandiya filosofu Spinozanın nəzəriyyəsi.
**STADİ** *yun.* – qədim yunanlarda: təxminən 150-190 metrə bərabər uzunluq ölçüsü.
**STAXANOVÇU** – *(Staxanovun adından)* yeni texniki vasitələri yaradıcı surətdə mənimsəmiş və sosializm yarışında adi istehsal normalarını çox-çox ötüb keçən qabaqcıl fəhlə *(SSRİ-də 30-40-cı illərdə geniş yayılmışdır).*
**STATİSTİKA** *lat.* – 1. insan cəmiyyətinin və xalq təsərrüfatının inkişafında kəmiyyət

dəyişikliklərini öyrənən elm; 2. həmin elmin metodları ilə aparılan hesablama və hesablama nəticəsində alınan məlumat.

**STATUS** – vətəndaşların və ya hüquqi şəxsin hüquqi vəziyyəti.

**STATUS-KVO** *lat.* – mövcud vəziyyətin saxlanması.

**STİQMA** *yun.* – damğa (qədim Yunanıstanda: qulların və ya cinayətkarların bədəninə vurulan damğa).

**STRATEGİYA** *yun.* – müharibə elmi, müharibə aparma sənəti; hərbi əməliyyat planı.

**STRATEQ** – Qədim Asiyada ordu və donanmaya başçılıq edən hərbi başçı.

**STRATEQLƏR** *yun.* – "hərbi başçı" deməkdir. E.ə. VI əsrin sonlarından başlayaraq Afina ordusuna və donanmasına başçılıq edən şəxslər. Strateqlər xalq yığıncağı tərəfindən seçilirdilər.

**STRELETS** – XVI-XVII əsrlərdə Moskva dövlətində: xüsusi daimi qoşunda xidmət edən və xüsusi imtiyazlara malik olan hərbi qulluqçu (bu əsgərlər odlu silahla silahlanırdılar. Streletslər, əsasən, piyada qoşunu hesab olunur, cüzi hissəsi isə süvari qoşunu təşkil edirdi).

**STRUKTURA** – quruluş (dövlətin təşkili forması).

**SUBAŞI** – türk dövlətlərində çox da böyük olmayan hərbi dəstənin başçısı, sülh vaxtı şəhər və qalalarda asayişə nəzarət edən rəis.

**SUFİ** – 1. mistik; 2. dindən, dini göstərişlərdən kənara çıxmayan adam; zahid.

**SUFİLİK** – "yunəbalı" sözündəndir. İslam dinində cərəyan, təlim. VIII əsrdə İraqda və Suriyada yaranmışdır.

**SUİ-QƏSD** – birinin canına qəsd etmək, birini öldürmək və ya yaralamaq qəsdində olma, qisas alma.

**SUQOVUŞAN** – indiki Sabirabad rayonunda Arazla Kürün qovuşduğu yer.

**SULDUZ QƏBİLƏSİ** – monqolların Azərbaycana yürüşləri zamanı Urmiya gölü ətrafında məskunlaşmış türk monqol mənşəli tayfa.

**SULTAN** – dövlət başçısına verilən titul; soltan (*bax*).

**SULTANLIQ** *türk.* – hakim, hökmdar. XVI-XIX əsrlərdə İran və Azərbaycanda rütbəcə xandan aşağıda duran və nisbətən kiçik ərazinin hakimi; soltanlıq (*bax*).

**SUVERENLİK** – ölkənin daxili həyatının bütün məsələlərinin həllində və digər dövlətlər ilə münasibətlərdə hakimiyyətin sərbəstliyi, dövlətin istiqlaliyyəti və müstəqilliyi.

**SÜLH** – müharibə edən tərəflərin müharibəni dayandırmaq haqqında razılığı; saziş, barışıq.

**SÜNNİ** – İslam məzhəblərindən birinin adı.

**SÜNNİLİK** – sünni məzhəbinə mənsubluq.

**SÜRREALİZM** *fr.* – üstün, yuxarı.

**SÜVAR** – atlı, ata və ya başqa heyvana minmiş.

**SÜZEREN** *fr.* – Qərbi Avropada feodalizm dövründə: öz vassallarının hökmdarı olan böyük feodal *(kral, knyaz, qraf və s.)*.

**SYOQUN** *yap.* – "vəhşiləri itaətə gətirən Böyük sərkərdə" deməkdir. İrsən verilən bu titul sahibi dövlət hakimiyyəti hüququna malik sərkərdə hesab olunurdu.

## Ş

**ŞADUF** – Qədim Misirdə hündürdə yerləşən tarlalara və bağlara suyun çıxarılmasını asanlaşdıran qurğu.

**ŞAH** – keçmişdə İran və Əfqanıstanda padşahın, hökmdarın titulu, həmçinin bu titulu daşıyan şəxs.

**ŞAHƏNŞAH** – 1979-cu il İran islam inqilabına qədər İran şahlarının titulu.

**ŞAHZADƏ** – şah oğlu və ya padşah ailəsindən olan şəxslərin övladlarından biri.

**ŞAHLIQ** – padşahlıq, hökmdarlıq: şahın idarəsi altında olan məmləkət, torpaq və s.

**ŞAHPƏRƏST** *bax* padşahpərəst.
**ŞAHPƏRƏSTLİK** *bax* padşahpərəstlik.
**ŞAQQALAMA** – qədimdə: müqəssirin qollarını, ayaqlarını və başını vurmaqdan ibarət edam cəzası.
**ŞAMAXI CƏZASI** – çar hökumətinin Qafqazda 1840-cı il 10 aprel tarixli inzibati islahatına əsasən Kaspi vilayətinin tərkibində yaradılmışdır. 1846-cı ildən Şamaxı, 1859-cu ildən isə Bakı qubeniyasına daxil idi.
**ŞAMAXI QUBERNİYASI** – çar hökumətinin 1846-cı il dekabr tarixli inzibati islahatına əsasən Cənubi Qafqazda təşkil edilmiş quberniyadan (Tiflis, Kutaisi, Şamaxı, Dərbənd) biri.
**ŞAMAN** – ruhlara, möcüzələrə inanan bəzi xalqlarda: falçı, cadugər.
**ŞAMANLIQ** – ruhlara, magiyaya sitayiş (ibtidai din formalarından biri).
**ŞAMXAL** – Dağıstanda qumuq, sak, dargın və s. hakimlərinə verilən titul.
**ŞAMLILAR** – azərbaycanlıların etnogenezində iştirak etmiş türkdilli tayfa.
**ŞEL DÖVRÜ** – paleolit dövrünə aid.
**ŞEL MƏDƏNİYYƏTİ** – paleolit dövrünə aid arxeoloji mədəniyyət.
**ŞEYX** – 1. Ərəbistanda qəbilə başçısı; 2. təriqət başçısı; 3. şeyxülislam *(bax)*.
**ŞEYXÜLİSLAM** – müsəlmanların dini işlərinə baxan baş ruhani; şeyx; İslam ağsaqqalı, başçısı.
**ŞƏCƏRƏ** – 1. nəsil cədvəli, sülalənin bütün nəsil qollarını göstərən cədvəl; 2. *köhn.* ağac.
**ŞƏHİDLİK** – Allah və din yolunda, vətən və namus uğrunda Allahın rizasını qazanmağı qarşısına məqsəd qoyub vuruşaraq həlak olma.
**ŞƏHRDAR** – Sasanilər sülaləsinə mənsub olanlar. Onlara mərzbanlıq tapşırılırdı *(bax: mərzban)*. Onlar şəhrdar – canişin adlanırdılar.



**ŞƏKİ XANLIĞI** – 18-ci əsrin ortalarında Azərbaycanda feodal dövləti.
**ŞƏKİ ÜSYANLARI** – Azərbaycanda hakim sinfə, vergi və mükəlləfiyyətlərin ağırlığına məmurların zülmünə qarşı Şəki əhalisinin üsyanları (1743, 1838, 1849-cu illər).
**ŞƏRABDAR** – 1. qədim Moskva dövlətində: içki anbarlarına baxan saray xidmətçisi (bunlara "çaşnik" deyirdilər); 2. monastırlarla içki anbarına baxan rahib.
**ŞƏRBAFLIQ** – ipək məmulatları hazırlayan sənət sahəsi.
**ŞƏRİƏT** – İslam dini və hüquqi normalarının məcmusu, İslam qanunları (hər bir müsəlmanın riayət etməsinin vacib sayıldığı dini, etnik və hüquqi qaydalar).
**ŞƏRİƏTXANA** – ruhani idarəsi, qazıxana; mollaxana.
**ŞƏRQ** – 1.günçıxan tərəf (4 cəhətdən biri);2.günçıxan tərəfdə yerləşən ölkələr// Şərqə mənsub olan. Şərq ölkələri.
**"ŞƏRQ MƏSƏLƏSİ"** – Qərb dövlətlərinin Osmanlı dövlətini özlərindən asılı vəziyyətə salmaq, onun Avropa və digər ərazilərdən torpaqlarını öz aralarında bölmək istəyi siyasəti. Bu siyasət baş tutmayan "Yunan lahiyəsi"nin tərkib hissəsi idi. Bu siyasət nəzərdə tuturdu. Balkanlardakı xalqların Osmanlı hakimiyyətində azad edilməsi; bu məqsədlə onları üsyana sövq etməklə muxtariyyət və yaxud istiqlaliyyət qazanmaq; İstanbulu türklərin əlindən geri almaq. Osmanlı dövlətinin digər ərazilərdə yaşayan xristian azlıqların xeyrinə islahat keçirmək, Anadolunu parçalamaq və türkləri Anadoludan çıxartmaq.
**ŞƏRQŞÜNAS** – şərqşünaslıq mütəxəssisi.
**ŞƏRQŞÜNASLIQ** – Şərq ölkələrinin tarixini, iqtisadiyyatını, dil və mədəniyyətini və s. öyrənən elmlərə verilən ad.
**ŞƏRTİ TORPAQ MÜLKİYYƏTİ** – feodalizm dövründə müəyyən xidmətə görə

verilən istifadə hüququ. Müqabilində verilmiş torpaq sahibliyi.
**ŞİƏ** – islamiyyətdə ayrıca bir cərəyan təşkil edən məzhəb.
**ŞİƏLİK** – şiə məzhəbinə mənsubiyyət.
**ŞİLTAQAT** – orta əsrlərdə Azərbaycanda və bəzi Yaxın Şərq ölkələrində mövcud olmuş vergi.
**ŞİNFEYN** *irl.* – Biz hamımız sizinləyik.
**ŞİNNFEYN** – İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparan partiya.
**ŞİRVAN** – Azərbaycanda tarixi vilayət (ölkə).
**ŞİRVAN ÜSYANI** – 1743-cü ildə Şirvanda İran ağalığına və feodal zülmünə qarşı kəndlilərin çıxışı.
**ŞİRVANŞAH** – Azərbaycanda Şirvanşahlar dövləti *(bax)* hökmdarlarının titulu.
**ŞİRVANŞAHLAR** – Şirvanşahlar dövləti *(bax)* hökmdarları sülaləsi.
**ŞİRVANŞAHLAR DÖVLƏTİ** – VI əsr Azərbaycan feodal dövləti. Əsasən, Şirvan tarixi vilayətini, ayrı-ayrı vaxtlarda isə Şimalda Dərbəndi, qərbdə Şəki-Gəncə, cənubda Beyləqan əlayətlərini, şərqdə isə Xəzər dənizi sahilindəki əraziləri əhatə edirdi. 861-1538-ci illərdə mövcud olmuşdur. Dövləti üç sülalə – Məziyyətilər (861-1027), Kəsranilər (1027-1382) və Dərbəndilər (1382-1538). Paytaxtı: Şirvan, sonra Şamaxı olmuşdur.
**ŞİRVANŞAHLAR SARAYI** – Azərbaycan memarlıq kompleksi. Bakının İçərişəhər hissəsindədir. 15-ci əsrdə tikilmişdir.
**ŞLEM** *rus.* – dəbilqə, dəmir papaq.
**ŞLYAXTA** *pol.* – feodal və burjua-mülkədar Polşasında xırda zadəgan.
**ŞOVİNİST** – qatı millətçi.
**ŞOVİNİZM** *fr.* – ifrat millətçilik, burjua millətçiliyi; milli müstəsnalığın təbliği, bir millətin mənafeyinin bütün başqa millətlərin mənafeyinə qarşı qoyulması (milli düşmənçiliyin və nifrətin qızışdırılması, millətçiliyin ifrat formasıdır).
**ŞPİLMAN** *alm.* – orta əsr Almaniyasında gəzərgi çalğıçı-xanəndə.
**ŞTAB** *alm.* – hərbi hissələrdə, birləşmələrdə qoşunları idarə edən orqan, habelə həmin orqanın tərkibinə daxil olan şəxslər; qərargah.
**ŞTAT** *alm.* – bəzi dövlətlərin tərkibində müəyyən dərəcədə özü-özünü idarə edən dövlət ərazi vahidi.
**ŞTREYKBREXER** *alm.* – xain, satqın (fəhlə sinfinin mənafeyinə xəyanət edən, tətili pozan adam); tətil edən fəhlələrin yerinə işləyərək tətili pozan, tətil zamanı işi dayandırmayan və ya işə girən şəxs.
**ŞTREYKBREXERLİK** – xainlik, satqınlıq.
**ŞUMER** – qədim tarixi vilayət, e.ə. 3-cü minillikdə yaranmışdır. (Cənubi Mesopotamiya, indiki İraqın cənubu).
**ŞUMER YAZISI** – e.ə. 3-cü minilliyin əvvəllərində Şumerdə yaranmış yazı.
**ŞUMERLƏR** – Beynənnəhreynin (Mesopotamiya) cənubunda yaşamış qədim xalq.
**ŞÜAR** – 1. siyasi partiyanın müəyyən tarixi şəraitində kütlələr qarşısında irəli sürdüyü rəhbər ideyanı, vəzifəni və ya tələbi qısa və aydın şəkildə ifadə edən müraciət; çağırış; 2. plakat.
**ŞVABLAR** *alm.* – orta əsr alman hersoqluğu, sonralar isə Şvabiya əyaləti əhalisi.

# T

**TABOR** *çex.* – 1. qədimdə kazaklarda qoşun düşərgəsi; 2. batalyon.

**TABORİTLƏR** – XX əsrdə Çexiyada husit hərəkatının sol, demokratik cinahı tərəfdarları.

**TABU (POLİNEZ DİLİ)** – ibtidai xalqlarda kahinlər, yaxud başçılar tərəfindən qadağan və haram edilmiş şey.

**TABULYATURA** *alm.* – musiqi notları yazmaq üçün işarələr, hərflər, rəqəmlər sistemi.

**TAC** *köhn.* – hökmdarlıq rəmzi olaraq padşahların başlarına qoyduqları qızıl və cavahiratla bəzədilmiş papaq.

**TACDAR** – padşah, hökmdar (adətən şahlara, padşahlara təntənəli müraciət zamanı işlədilən epitet).

**TACGÜZARLIQ** – tacqoyma mərasimi.

**TACİR** – ticarətlə məşğul olan adam; ticarətçi.

**TAT** – Orta əsrlərdə "yad, özgə" mənasını bildirirdi; İrandan çıxmış farslar.

**TAXT** *köhn.* – padşahların, hökmdarların rəsmi qəbul və təntənəli mərasimlər zamanı oturduqları zəngin bəzədilmiş kürsü.

**TAXTA ÇIXMAQ (OTURMAQ)** – padşahlığa, hakimiyyətə başlamaq.

**TAXTDAN SALMAQ** – padşahı hakimiyyətdən məhrum etmək, devirmək.

**TAXT-TAC (TAXTÜ-TAC)** – hakimiyyət, hökmdarlıq rəmzi olan taxt və tac.

**TAKTİK** *yun.* – 1. taktikaya aid olan, döyüşü, vuruşu ayrıca hərbi əməliyyatı aparmaqla əlaqədar olan; 2. taktika ilə əlaqədar, taktika baxımdan edilən.

**TAKTİKA** *yun.* – döyüşə hazırlıq və döyüşü aparmaq üsulları haqqında nəzəriyyə və praktika: döyüş vaxtı qoşun hissələrini idarəetmə üsulu.

**TAQAN** – öz təyyarəsini və ya tankın düşmən təyyarəsinə və ya tankına çırpıb onu zədələmək, sıradan çıxarmaq.

**TALANT** *yun.* – qədim Yunanıstanda: çəki və pul vahidi.

**TALER** – 3 markalıq qədim alman gümüş pulu.

**TALIŞ(LAR)** – Azərbaycanın cənub-şərqində və Cənubi Azərbaycanın şimal hissəsində yaşayan irandilli xalq.

**TALİBAN** – tələbə sözünün cəm şəkli. Əfqanıstanda keçən əsrin (XX) 90-cı illərində mövcud olmuş dini-siyasi cərəyan, hərəkat.

**TALİON** *lat.* – quldarlıqda və ilk feodal hüququnda tam əvəzi çıxmaq-dan ibarət cəza tədbiri. Sonralar bu cəza cərimə ilə əvəz olunmuşdur.

**TALMUD** – yəhudilərin dini kitabı.

**TALMUDİST** – talmudu yaxşı bilən, onu şərh edən adam.

**TALMUDİZM** – sxolastik mühakimələr.

**TAMĞA** – monqolların dövründə Azərbaycanda sənətkar və tacirlərdən alınan vergi.

**TANXO** – Mərkəzi Asiya dövlətlərində kiçik torpaq mülkiyyəti forması. Yalnız hərbi xidmət müqaviləsində verilirdi.

**TANDEM** – siyasi cütlük.

**TARAN** *yun.* – qalaların divarlarını gəlmək və ya yıxmaq üçün ucu şiş dəmirli, tir şəkilli silah.

**TARXAN** – 1. qədim Rusiyada: vergidən azad edilmiş və xüsusi imtiyazları olan mülkədar; 2. bu imtiyazları verən fərman, sənəd.

**TARİX** – insan cəmiyyətinin inkişafı haqqında elm/ /həmin elmə aid kitab, dərs. Məs., tarix kitabı.

**TARİXÇİ** – tarix mütəxəssisi: tarix elmi ilə məşğul olan alim: tarixşünas.

**TARİXİ** – 1. tarixdə olmuş hadisəyə əsaslanan, tarix əsasında qurulmuş, tarixdən götürülmüş; 2. tarixə daxil olmuş, əlamətdar, əhəmiyyətli.

**TARİXİLİK** – hadisələrin izahında tarixi prinsipə əsaslanma.

**TARİXŞÜNAS** *bax* tarixçi.

**TARİXŞÜNASLIQ** – tarixi biliklərin inkişafını tədqiq edən elm; hər hansı bir problemin öyrənilməsi tarixi.

**TASKÜLAH** *köhn.* – dəbilqə (dava zamanı başa qoyulan papaq).

**TANHU** – Hun tayfa ittifaqının başında duran şəxs. "Tanhu" sözü son-ralar türk xalqlarında "yabqu", "kağan", "xaqan" şəklində işlənmişdir.

**TATLAR** – Azərbaycan Respublikasının Xəzər dənizi sahillərində yaşayan xalq.

**TAYFA** – adamların qohumluq, habelə dil, ərazi ümumiliyinə əsaslanan birliyi.

**TAYRİN-TYANQO** *çincə* – "İlahinin böyük səadət dövləti" deməkdir. Bu ideyanın ardıcıllarını tayrinlər adlandırırdılar.

**TEATR** – qədim yunanlarda "tamaşa yeri".

**TEODİSEYA** *yun.* – dünyada olan ədalətsizliyə bəraət qazandırmaq və Allahın qadir və mərhəmətli olduğu haqqındakı əfsanələri doğrultmaq məqsədini daşıyan dini-fəlsəfi görüş.

**TEOKRATİK** – teokratiyaya mənsub adam.

**TEOKRATİYA** *yun.* – siyasi ha-kimiyyətin, ruhanilərin əlində olan idarə üsulu.

**TEOLOGİYA** *yun. bax* ilahiyyat.

**TERMİDOR** *fr. əsli yun.* – 1. Fransa Respublikası təqviminin 11-ci adı: 19-20 iyuldan 17-18 avqusta kimi (1793-1805-ci illərdə qüvvədə olub); 2. Fransada 1794-cü il iyulun 27-də yakobinlərin diktaturasını yıxan və general Napoleon Bonapartın siyasi yüksəlişinin başlanğıcını qoyan əksinqilabi çevriliş. Bu söz tarixdə hərbi-bonapartist çevrilişləri rəmzidir.

**TERMLƏR** *yun.* - "termos" sözündən olub "isti" deməkdir. Romada hamamları termlər adlandırırdılar.



**TERROR** *lat.* – öz siyasi və sinfi düşmənlərinə qarşı onları cismən məhv etməyə qadir zorakı tədbirlər siyasəti: tədhiş; sui-qəsd, qorxutma.

**TERROR AKTI** – dövlət xadimlərinin, yaxud ictimai xadimlərin həyatına qəsd.

**TERRORÇU** – fərdi terror tərəfdarı və iştirakçısı; tədhişçi, terrorist.

**TERRORÇULUQ** – terror siyasəti, terror taktikası, terrorizm.

**TETRAX** *yun.* – tetrarxiya hökmdarı.

**TETRARXİYA** *yun.* – qədim Romada: dörd hərbi inzibati dairəyə bölünmüş əyalət.

**TEYLORİZM** *ing.* – əməyin təşkili və istehsalın idarə edilməsi sistemi; XIX əsrin sonu – XX əsrin əvvəllərində ABŞ-da yaranmışdır.

**TEVTON** *alm.* – tevton katolik icmasına mənsub rıtsar.

**TEVTONLAR** – qədim alman qəbilələrindən biri olub, sonralar bu ad bütün almanları adlandırmaq üçün işlənmişdir.

**TƏBƏƏ** *bax* rəiyyət.

**TƏBƏRZİN** – başı aypa-raya bənzər balta – qədim silah; nacaq.

**TƏCAVÜZ** – 1. başqa bir dövlətin ərazisini zəbt etmək, işğal etmək, demokratiyanı boğmaq və irticaçı rejimlər yaratmaq məqsədi ilə onun üzərinə hücum etmə/ hücum; 2. zorakılıq, zülm.

**TƏCAVÜZÇÜ** *bax* təcavüzkar.

**TƏCAVÜZÇÜLÜK** *bax* təcavüzkarlıq.

**TƏCAVÜZKAR** – təcavüz edən, hücum edən, təcavüzçü.

**TƏCAVÜZKARLIQ** – təcavüz (hücum) etmə, təcavüz siyasəti.

**"TƏCRİDOLUNMA"** – Çində və Yaponiyada xarici ölkələrlə, xüsusən Qərb ölkələri ilə əməkdaşlığa məhdudiyyət qoyulması.

**TƏHKİMÇİ** – təhkimçilik hüququna malik olan mülkədar (Rusiyada təhkimçilik ictimai quruluşunda).

**TƏHKİMÇİLİK** – mülkədarların, onlara məxsus olan

kəndlilərin əməyinə, malına, canına tam sahib olduqları ictimai quruluş: krepostnoyluq.

**TƏHKİMÇİLİK HÜQUQU** – mülkədara, onlara məxsus olan kəndlilərin şəxsiyyəti, əməyi və əmlakı üzərində tam ağalıq etmək ixtiyarı verən hüquq.

**TƏHKİMLİ** – təhkimçilik hüququna əsasən mülkədara məxsus olan kəndli (Təhkimçilik ictimai quruluşunda).

**TƏHSİLDAR** *köhn.* – Oğuz dövlətində şəhərlərdən vergi yığan məmur.

**TƏXRİBATÇI** *bax* diversant.

**TƏXRİBATÇILIQ** *bax* diversiya.

**TƏKAMÜL** – inkişaf, dəyişmə, yeniləşmə.

**TƏKƏLDUZÇULUQ** – Azərbaycanda geniş yayılmış bədii tikmə sənəti.

**TƏKƏRLƏMƏ** – təkərə bağlayıb əzab verməklə öldürmə (qədim cəza üsullarından biri).

**TƏKƏRLƏMƏK** – təkərə bağlayıb əzab verməklə öldürmək.

**TƏKƏRLƏNMİŞ** – təkərə bağlanıb cəzalandırılmış, əzabla öldürülmüş.

**TƏQVİM** – böyük vaxt intervallarının hesablanması sistemi; kalendar.

**TƏNZİMAT** *türk.* – islahat deməkdir.

**TƏNQƏ** – Mərkəzi Asiyada pul vahidi, gümüş sikkə.

**TƏRƏKƏMƏ** – köçəri heyvandarlara verilən ad.

**TƏRİQƏT** – hakim dindən ayrılmış dini icma, islam məsləklərindən hər biri.

**TƏRİQƏTÇİ** – bu və ya digər təriqətə mənsub olan adam.

**TƏRİQƏTÇİLİK** – təriqətlərdən birinə mənsub olma.

**TƏRLİK** – 1. qədim Rusiyada: arxalıq; 2. keçmişdə Azərbaycanda yaşlı kişilərin papaq altından qoyduqları nazik parçadan tikilmiş baş geyimi.

**TƏSNİFAT** – elmi biliklərin ayrı-ayrı sahələr üzrə bölünməsi.

**TƏSVİYƏ** – aradan qaldırma, ləğv.



**TƏSVİYƏÇİ** – təsviyəçilik tərəfdarı olan adam.

**TƏSVİYƏÇİLİK** – 1908-1912-ci illərdə RSDFP-də proletariatın qeyri-leqal inqilabi partiyasını ləğv etməyə və inqilabi mübarizənin zəruriliyini inkar etməyə çalışan irticaçı menşevik cərəyanı.

**TƏŞKİLAT** – ictimai birləşmə və ya dövlət idarəsi.

**TƏŞVİQAT** – geniş xalq kütlələrinə siyasi nüfuz göstərmək məqsədi güdən şifahi və ya yazılı fəaliyyət.

**TƏŞVİQATÇI** – 1. geniş xalq kütlələrinə siyasi nüfuz göstərmək məqsədi güdən şifahi və ya yazılı fəaliyyət aparan; 2. təşviqatla məşğul olan, təşviqat aparan adam.

**TƏTİL** – işin kütləvi və mütəşəkkil surətdə dayandırılması.

**TƏZMİNAT (REPARASİYA)** beynəlxalq hüquqda dəymiş ziyanı ödəmək nəzərdə tutulur. Sülh müqaviləsi və başqa beynəlxalq aktlar vasitəsilə həyata keçilir (*bax* reparasiya).

**TİCARƏT** – mal alıb-satma, alver.

**TİCARƏTÇİ** – ticarətlə məşğul olan adam, tacir.

**TİCARƏTXANA** – ticarət evi (müəssisə), ticarət mərkəzi.

**TİGİM** – Göytürk imperatorluğunda Xaqan ailəsinə daxil olan şahzadələr bu titulu daşıyırdı.

**TİLSİM** – mövhumi təsəvvür; sehr, ovsun.

**TİMAR** *türk.* – orta əsrlərdə Osmanlı imperiyasında şərti irsi torpaq sahibi.

**TİMARÇI** – timar sahibi.

**TİMPAN** *yun.* – təbil, dəf.

**TİRAN** *yun.* – qədim Yunanıstanda və orta əsrlər İtaliyasında hakimiyyəti zorakılıqla öz əlinə alan hökmdar.

**TİRANİYA** *yun.* *bax* tiranlıq.

**TİRANLIQ** – 1. qədim Yunanıstanda zorakı yolla quruluş və təkbaşına idarəçiliyə əsaslanan dövlət hakimiyyət forması; 2. Orta əsrlərdə Şimali və Orta İtaliyanın şəhər dövlətlərində siyasi quruluş forması.

**TİRYƏK** – çox təhlükəli, zəhərli narkotik maddə. Onun çəkilməsi insan orqanizmini məhv edir.

**TİTUL** *fr.* – feodal və ya burjua cəmiyyətində: nəsildən-nəslə keçən, yaxud sonradan verilən fəxri ad, rütbə. Keçmiş SSRİ-də titullar 1917-ci il dekretinə əsasən ləğv edilmişdir.

**TİYUL** – Səfəvilər dövründə mövcud olmuş şərti torpaq mülkiyyəti forması.

**TOXA** – Ön Asiyada meydana gəlmişdir. Sümükdən, buynuzdan və daşdan ucluq bərkidilmiş, torpağı yumşaldan əkinçilik aləti.

**TOXAR YAZISI** – hind əlifbasının variantlarından biri

**TOXMACAR** – meşə və ya meşə şitilliyinin səpin bölməsində toxumlardan alınmış bitki.

**TOXUCULUQ SƏNAYESİ** – yüngül sənayenin ən qədim və iri sahələrindən biri.

**TOXUNULMAZLAR** – Hindistanda heç bir əsas kastaya daxil olmayan, murdar hesab edilən adamlar.

**TOPXANA** *bax* artilleriya.

**TOPPUZ** – ucu toxmaqlı zopadan ibarət qədim silah.

**TORPAQ İCARƏSİ** – torpaqdan istifadə forması.

**TORPAQ MÜLKİYYƏTİ** – torpağın təbiət cismi kimi tarixin müəyyən ictimai mənimsənilməsi forması.

**TORPAQ RENTASI** – istehsalçıların yaratdığı və torpaq mülkiyyətçisinin mənimsədiyi izafi məhsulun bir hissəsi.

**TORPAQ SAHİBLİYİ** – müəyyən əsaslarla torpağa sahib olmaq.

**TOTALİTARİZM** *lat.* – avtoritar dövlət formalarından biri. Dövlətin cəmiyyət üzərində tam nəzarəti.

**TOTEM** *ing.* – bəzi ibtidai xalqların sitayiş etdikləri heyvan, bitki və s.

**TOTEMİZM** *ing.* – müəyyən insan qrupu ilə heyvan və ya başqa bitkilərin (totem) qohumluq əlaqəsinə inamla əlaqədar ibtidai icma cəmiyyətində mövcud olmuş etiqad və adətlər kompleksi; tatemlərə sitayiş.

**TOYON** – Yakutlarda tayfa başçısı, knyaz.

**TÖYCÜ** – təhkimçilik dövründə mülkədarın, kəndlilərdən əsasən pul və ya məhsul şəklində aldığı vergi.

**TRABZON** – yunan imperiyası. Kiçik Asiyanın şimal-şərqində yerləşirdi. Paytaxtı Qara dəniz sahillərindəki Traperund şəhəri idi.

**TRAGEDİYA** *yun.* – «keçilər mahnısı». Faciə. Tragediyalarda qəhrəmanlar arasında gedən kəskin mübarizə, onların iztirabları, şücaəti, çox vaxt isə ölümü təsvir olunurdu.

**TRAKTAT** *lat.* – 1. ayrıca bir məsələdən bəhs edən əsər; 2. beynəlxalq müqavilə, saziş.

**TRAYBALİZM** – Afrikada özünü tayfalararası düşmənçilikdə göstərən tayfaarası ədavət.

**TRED** – sui-qəsd, qorxuya salma.

**TRED-YUNİONİST** *ing.* – tred-yunionizm cərəyanının tərəfdarı.

**TRED-YUNİONİZM** *ing.* – Opportunist xırda burjua cərəyanı.

**TRED-YUNİONLAR** – Böyük Britaniyada və ingilisdilli bir sıra ölkələrdə həmkarlar ittifaqlarının adı.

**TREST** *ing.* – kapitalist inhisar forması.

**TRİBA** *lat.* – qədim Romada əhalinin bölündüyü seçki dairələrinin adı.

**TRİBUN** *lat.* – qədim Romada: müxtəlif vəzifəli şəxslərin adı.

**TRİBUNA** *fr.* – 1. xitabət kürsüsü; 2. siyasətçilərin, publisistlərin və b.-nın ictimai fəaliyyətinin həyata keçirildiyi yer, mühit.

**TRİBUNAL** *lat.* – hakimlər: bu orqanın məhkəmə heyəti.

**TRİPOLYE MƏDƏNİYYƏTİ** – Şərqi Prikarpatye ilə Dnepr çayının orta axarları arasında yayılmış Eneolit dövrünə aid arxeoloji mədəniyyət.

**TRİREMA** *lat.* *bax* triyer.

**TRİUMF** *lat.* – Qədim Romada: zəfərdən qayıdan sərkərdənin təntənə ilə qarşılanması mərasimi.

**TRİUMFATOR** *lat.* – qədim Romada: təntənə ilə qarşılanan sərkərdə, zəfər qəhrəmanı.

**TRİUMVİR** *lat.* – qədim Romada: triumvirat üzvü (bax triumvirat).

**TRİUMVİRAT** *lat.* – qədim Romada: dövlətin üç şəxs tərəfindən idarə edilməsi.

**TRİYER** *yun.* – qədim Romada: yunanların döyüş gəmisi. Hər bir hərbi gəminin sağ və sol tərəflərində üç sıra avar olduğundan, onları triyera adlandırırdılar. Hər gəmidə 180 nəfər avarçəkən, 20-30 döyüşçü olurdu.

**TROTSKÇİ** – trotsksizm (*bax*) cərəyanının üzvü, tərəfdarı.

**TROTSKSİZM** – marksizmleninizmə və beynəlxalq kommunist hərəkatına düşmən olan ideya-siyasi cərəyan.

**TROYA** *yun.* Kiçik Asiyanın şimal-qərbində qədim şəhər.

**TROYA MÜHARİBƏSİ** – Axayya ittifaqı ilə Troya padşahlığı arasında müharibə.

**TRUBADUR** *fr.* – Orta əsrlərdə (XI-XIII) səyyar şair, müğənni; əsasən, rıtsarlıqla bağlı olan qəhrəmanlığa aid aşiqanə mahnılar oxuyardı. Ədəbiyyatşünaslıq termini kimi işlənir.

**TRUDOVİK** – 1906-17-ci illərdə Rusiyada: xırda-burjua siyasi qrupun üzvü.

**TRUFER** *alm.* – orta əsrlərdə Şimali Fransada: saz şairi. Ədəbiyyatşünaslıq termini kimi işlənir.

**TUNC DÖVRÜ** – eneolitdən sonrakı mərhələ; tunc işləndiyi ən qədim dövr.

**TÜMƏN** – İranda pul vahidi.

**TÜRK** – bu sözün iki müxtəlif mənası vardır: 1. güclü, qüvvətli; 2. doğan, törəyən, "çoxalan"; hazırda Türkiyənin əsas əhalisi və həmin əhalinin hər bir üzvü.



**TÜRKLƏR** – qədimdən Mərkəzi Asiya, Sayan Altay dağlarının şimal-qərbində və Yenisey çayı boyunca yaşamış xalq. Hazırda Avropada, Asiyada və b. yerlərdə yaşayırlar.

**TÜRKMƏNÇAY MÜQAVİLƏSİ** – (1828-ci il fevralın 10(22)-da Rusiya ilə İran arasında Türkmənçay kəndində bağlanmış müqavilə.

**TÜRKMƏNLƏR (TÜRKMANLAR)** – türkdilli tayfa, xalq. X əsrdən İslamı qəbul etmiş oğuzlara verilən ad.

**TÜRKOLOGİYA** – turk dillərində danışan xalqların tarixini, dilini, ədəbiyyatını, folklorunu, mədəniyyətini öyrənən elmlər kompleksi; türkşünaslıq.

**TÜRKSÖY** – 1993-cü ildə türkdilli ölkələrin Mədəniyyət nazirliklərinin daim Konseyinin yaratdıqları icra qurumu.

**TÜRKŞÜNASLIQ** *bax* türkologiya.

**TÜSTÜ** – vaxtilə (keçmişdə) vergi vahidi kimi götürülmüş ev, təsərrüfat.

## U

**UC TORPAQLARI** – Səlcuqlar dövründə yaranmış torpaq mülkiyyət forması. İmperiyanın ucqarlarını – sərhədləri qoruyan Səlcuq sərkərdələrinə paylanan torpaq.

**UDEL** *rus.* – 1. Qədim Romada: knyaz və onun ailəsinin ayrı-ayrı üzvlərinə məxsus olan yerlər; torpaqlar, mülklər; 2. 1917-ci il inqilabından əvvəl Rusiyada: imperator malikanələri, padşaha məxsus mülklər.

**UEZD** *bax* qəza.

**ULAN** *pol.* *əsli türkcə* – 1917-ci il inqilabından əvvəl çar Rusiyasında nizəli süvari əsgər.

**ULTİMATUM** *lat.* – son və qəti tələb.

**ULU İCMA** – ibtidai icma quruluşunda ilk insan kollektivi.
**ULUCLAR** – IX-XI əsrlərdə Azərbaycanda asılı kəndlilərə verilən ad.
**ULUS** – kənd, oba, yurd, el.
**ULUS** – monqollar dövlətində inzibati-ərazi bölgüsü.
**UNİFİKASİYA** *alm.* – vahid şəklə, formaya, yaxud sistemə salma. Almaniyada nasistlər bu ad altında bütün siyasi partiyaları və təşkilatları darmadağın etmişdilər.
**UNİTAR** *fr.* – vahid, birləşmiş, bir tam təşkil edən.
**UNİTAR DÖVLƏT** – dövlət quruluşu forması: burada dövlətin ərazisi, federasiyadan fərqli olaraq, federativ vahidlərə (ştat, torpaq və s.) deyil, inzibati ərazi vahidlərinə (vilayət, rayon və s.) bölünür. Unitar dövlətdə vahid dövlət konstitusiyası, vahid dövlət hakimiyyəti orqanların sistemi, ümumi hüquq sistemi qüvvədədir.
**UNİYA** *lat.* – 1. birlik, birləşmə, ittifaq; 2. Roma papasının başçılığı ilə katolik kilsəsinin pravoslav kilsəsinin bir hissəsi ilə birləşməsi.
**UNİYA** *lat.* – Monarxiya dövlətlərinin bir monarxın hakimiyyəti altında birləşməsi.
**UNSİYA** *lat.* – qədim Romada çəki vahidi.
**USMİ** – tanınmış, məşhur deməkdir. Qaraqaytaq hakiminə verilən titul.
**ÜŞR** – Səlcuqlar dövründə vergi növü. Məhsulun onda bir hissəsini təşkil edirdi. Mərkəzi Asiyada sovet dövrünədək mövcud idi.
**ÜŞR-ÜSÜR** – onda bir vergisi, IX-XI əsrələrdə Azərbaycanda topaqdan istifadə əvəzində kəndlidən alınan vergi.
**UTİLƏR** – alban (Qafqaz) tayfalarından biri: müasir udinlərin sələfləri.
**UTİLİTARİZM** *lat.* – fərdiyyəçiliyə əsaslanan burjua cərəyanı.
**UTOPİK SOSİALİZM** – ictimai inkişaf və onun hərəkətverici qüvvələrinin qanunlarını bilməyə əsaslanmadan cəmiyyətin sosialist əsaslarla kökündən dəyişdirilməsi haqqında arzu, irəli sürülən layihə və təlim.
**UTOPİST** – utopik sosializm tərəfdarı.
**UYĞUR(LAR)** – Orta Asiyada və Qərbi Çinin bəzi rayonlarında yaşayan türk-dilli xalq.

## Ü

**ÜÇLƏR İTTİFAQI** – 1879-1882-ci illərdə Almaniya, Avstriya-Macarıstan və İtaliyanın yaratdığı hərbi-siyasi blok, ittifaq. Bu ittifaq İngiltərə, Fransa və Rusiyaya qarşı yaradılmışdır.
**ÜÇLƏR SAZİŞİ** *bax* Antanta.
**ÜLƏMA** – alimlər.
**ÜMUMXALQ** – bütün xalq üçün ümumi, bütün xalqa aid.
**ÜMUMMİLLİ** – bütün millət üçün ümumi olan.
**ÜMUMTƏHSİL** – ümumi təhsil verən.
**"ÜSULİ-CƏDİD"** – XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində geniş yayılmış pedaqoji cərəyan.
**ÜSYAN** – köhnə ictimai quruluşu yıxıb yenisini qurmaq məqsədilə hakim siniflərə qarşı kütləvi silahlı çıxış.
**ÜSYANÇI** – üsyanda iştirak edən, üsyan iştirakçısı.
**ÜZƏNGİTUTAN** – Moskva dövlətində: mərasim zamanı padşah atının üzəngisini tutan saray xidmətçisi.

## V

**VADİ** – leysan yağışlardan sonra müvəqqəti suyu olan quru dərə.
**VAHƏ** – səhrada su və yaşıllıq olan sahə.
**VALAXİYA ÜSYANI** – 1821-ci ildə Dunay knyazlıqlarında yerli boyalara və fanariotlara, həmçinin Türkiyə ağalığına qarşı xalq üsyanı.

**VALİ** *köhn.* – 1. keçmişdə vilahət hakimi, bir vilayəti idarə edən vəzifəli şəxs; 2. qubernator.
**VALİLİK** – 1. vali vəzifəsi; 2. bir valinin idarəsi altında olan yerlər.
**VALKİRİYA** – Skandinaviya mifologiyasında: müharibə pərisi.
**VALYUTA** – 1. ölkənin pul vahidi və onun tipi (qızıl pul, gümüş pul, kağız pul); 2. xarici dövlətlərin pul imkanları, habelə xarici pul vahidləri ilə ifadə olunan və beynəlxalq haqq-hesablarda istifadə edilən tədavül və tədiyə vasitələri (çeklər, veksellər, kağız pullar və sikkələr).
**VANDAL(LAR)** *lat.* – 1. barbarlar, vəhşilər (V əsrin ortasında Roma imperiyasını istila və onun mədəniyyət abidələrini məhv etmiş qədim german qəbilələrindən biri).
**VANDALİZM** *lat.* – vəhşilik, barbarlıq, mədəniyyətsizlik (mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılması, məhv edilməsi).
**VANDEYA** *fr.* – XXIII əsrdə Fransa burjua inqilabı zamanı: ruhanilərin və zadəganların rəhbərliyi altında kəndlilərin əksinqilabi çıxışları olmuş vilayətin adı; 2. vətəndaş müharibəsi zamanı əksinqilabi üsyanlar baş vermiş vilayətlərə məcazi mənada verilən ad.
**VARFOLOMEY GECƏSİ** – 1572-ci ildə avqustun 23-də Parisdə katoliklər protestant qırğını törətdilər. Qırğın dalğası Fransanın başqa şəhərlərinə də yayıldı. İki həftə ərzində 30 mindən çox adam öldürüldü. Bu qırğın müqəddəs Varfolomey günü baş verdiyinə görə "Varfolomey gecəsi» adını aldı. "Varfolomey gecəsi" düşmənə qəddarcasına, amansız divan tutmaq mənasında işlədilir.
**VARİS** – ölən şəxsin qohumluq və vəsiyyət yolu ilə onun mülkünə sahib olan adam, vərəsə.
**VARİSLİK** – ölən şəxsin mülkünə sahibolma hüququ.



**VARYAQLAR** *rus.* – qədim Rusiyada: ticarət və talan məqsədilə Skandinaviyadan gələn silahlı dəstələr (XIX-XX əsrlər).
**VARVAR** – qədim Romalılarda və yunanlarda: yadelli adam: barbar.
**VASSAL** *fr.* – orta əsrlərdə Qərbi Avropada: özündən daha böyük və güclü olan feodaldan asılı və onun üçün müəyyən mükəlləfiyyətlər görməyə borclu olan feodal; feodal asılılığı.
**VASSAL ASILILIĞI** – başqa güclü dövlətdən asılı olma, ona tabe olma.
**VASSAL DÖVLƏT** – daha güclü dövlətdən asılı feodal dövlət.
**VASSALLIQ** – orta əsrlərdə bir feodalın (vassalın) digər feodaldan (senyordan) şəxsi asılılıq münasibətləri sistemi. VIII-XIX əsrlərdə Frank dövlətində meydana gəlmişdir.
**VATİKAN** *lat.* – Avropada papa dövləti.
**VAVİON** – qədim yunan müəllifləri babil şəhərini belə adlandırırlar.
**VEÇE** *rus.* – 1. qədim Rusiyada şəhər əhalisinin yığıncağı; 2. həmin yığıncağın keçirildiyi yer.
**VEÇE FƏRMANLARI** – veçe yığıncağında verilən fərmanlar.
**VEDA** – qədim Hindistanın 4 müqəddəs kitabı (Riqveda, Samaveda. Yacurveda, Atharvaveda).
**VELİKORUSLAR** – rusların XIX əsrin ortalarından geniş yayılmış adı.
**VELMOJA** *köhn.* – əyar, kübar, ağa.
**"VERDEN QƏSSABXANASI"** – I Dünya müharibəsinin gedişində 1916-cı ilin fevralında Verden qalasına hücum edən almanlarla fransızlar arasında döyüşlər başlandı. Döyüşlər uzandığından hər iki tərəfdən ölənlər və yaralananlar olurdu. Meyitlərin çoxu parça-parça olduğundan bu vuruşma "Verden qəssabxanası" adı ilə daxil olmuşdur.

**VERGİ** – müəssisədən, idarədən, əhalidən və s.-dən alınan məcburi dövlət rüsumu: töycü.

**VERGİYIĞAN** – vergi yığmaqla məşğul olan adam.

**VERST** – uzunluq ölçüsüdür. I verst=1,066 km.

**VETERAN** *lat.* – 1. qədim Romada orduda xidmət müddətini bitirmiş əsgər; 2. çox təcrübəli döyüşçü, müharibə iştirakçısı.

**VETO** *lat.* – qədim Romada: Roma magistratının digər magistratın qərarına və fəaliyyətinə müdaxilə hüququ; qadağanetmə, ləğvetmə.

**VƏHŞİLİK** – Avropa elmində bəşəriyyət tarixinin keçdiyi üç dövrün (vəhşilik, barbarlıq, mədəniyyət) birinci mərhələsini bildirmək üçün qəbul edilmiş termin.

**VƏKİL** – 1. orta əsrlərdə bir sıra Şərq ölkələrində dövlət başçısının nümayəndəsi olub, maliyyə və iqtisadi işlərə başçılıq edən yüksək rütbəli şəxs; vilayət, əyalət başçılarının saraydakı daimi nümayəndəsi; 2. deputat.

**VƏQF** – dini və xeyriyyə məqsədi ilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü bağışladığı daşınar və daşınmaz əmlak (XVII-XVIII əsrlərdə yaranmışdır).

**VƏLİƏHD** *köhn.* – padşahın yerini tutmalı olan şəxs.

**VƏLİƏHDLİK** – tax-taca sahib olma qaydası.

**VƏRƏSƏ** *bax* varis.

**VƏRƏSƏLİK** *bax* varislik.

**VƏSİYYƏTNAMƏ** – yazılı vəsiyyət, vəsiyyət kağızı (sənədi).

**VƏTƏN MÜHARİBƏSİ** – yadelli işğalçılara qarşı azadlıq və istiqlaliyyət uğrunda ədalətli müharibə.

**VƏTƏNDAŞ CƏMİYYƏTİ** – azad, müstəqil və bərabərhüquqlu, adamlardan ibarət olan cəmiyyət.

**VƏTƏNDAŞ MÜHARİBƏSİ** – bir dövlət daxilində antoqonist siniflər arasında silahlı mübarizə.

**VƏZİR** *köhn.* – padşahın (şahın) məsləhətçisi olub, dövlət işlərinə baxan şəxs.



**VƏZİRLİK** – vəzir rütbəsi, *vəzir vəzifəsi.*

**VİKİNQ** – 1. VIII əsrin sonu – XI əsrin ortalarında qədim skandinav əsgəri, dəniz döyüşçüsü, dəniz yürüşlərinin iştirakçısı; 2. dəniz qulduru.

**VİKONT** *fr.* – qədim Fransa və İngiltərədə zadəgan rütbəsi və bu rütbəyə sahib olan şəxs.

**VİQLƏR** *ing.* – XVII-XIX əsrlərdə İngiltərədə indiki liberallar partiyasının sələfi olmuş siyasi partiyalar.

**VİLAYƏT** – 1. böyük inzibati ərazi bölgüsü; 2. ölkə, məmləkət, ərazi, əyalət.

**VİLLANLAR** *lat.* – orta əsrlərdə Qərbi Avropada feodaldan asılı kəndlilərin müxtəlif təbəqələri.

**"VİLVET" PLANI** – II Dünya müharibəsi dövründə Qərb müttəfiqlərinin Qafqaza dair planının adı.

**VOLOST** – XII-XX əsrlərdə Rusi-yada inzibati ərazi bölgüsü, nahiyə.

**VOLTERÇİ** – Volter tərəfdarı; azad düşünən adam, azadfikirli.

**VOLTERÇİLİK** – (xüsusi addan) Din və feodalizm düşməni olan fransız yazıçısı və filosofu Valterin (1694-1778) fəlsəfi görüşləri üzərində qurulmuş dünyagörüşü (XVIII əsrin 2-ci yarısında və XIX əsrin əvvəllərində volterçilik adətən maarifçilik, azadfikirlilik mənasında işlənirdi).

**VOLYUNTARİZM** – tarixi prosesin obyektiv qanunları, real şərait və imkanlar ilə hesablaşmayan, subyektiv iradə və özbaşına qərarlarla həyata keçirilən siyasət.

**VOTÇİNA** – mülk, malikanə (Rusiyada təhkimçilik dövründə iri mülkədarın atadan oğluna irs keçən mülkü).

**VOTÇİNA SAHİBİ** – mulk, malikanə sahibi.

**VOYEVODA** *rus.* – 1. qədim slavyanlarda, rus knyazlıqlarında və Rusiyada (XVIII əsrədək) sərkərdə; 2. XVI-XVIII əsrlərdə Rusiyada yerli idarə başçısı və vilayət hakimi; 3. Polşa və Litva feodal dövlətlərində inzibati-ərazi vahidinin başçısı.

**VOYEVODALIQ** – Polşada vilayət əhəmiyyətli ən iri inzibati-ərazi vahidi.

# Y

**YABQU** – Göytürk imperatorluğunda xaqanın gələcək ailəsi bu titulu daşıyırdı.

**"YAD", "DÜŞMƏN"** – Hindistanda qulları belə adlandırırdılar.

**YAFƏSİ** – yafəsilərə aid olan, onlara xas olan. Məsələn, yafəsi tayfalar.

**YAFƏS(İ)LƏR** – (Nuhun üç oğlundan birinin, dünyadakı tayfaların ulu babası, əcdadı sayılan kiçik oğlu Yafəsin adından) Qafqazın, Ön Asiyanın, Aralıq dənizi ölkələrinin, Pireneyin bir hissəsində yaşayan yaxud vaxtı ilə yaşamış xalqlar qrupunun şərti adı.

**YAGELLONLAR** – Polşa kralları (1386-1572) və Böyük Litva knyazları (1377-1572 fasilələrlə) sulaləsi. II Vladislav Yaqaylonun adından götürülmüşdür.

**YAKOBİN KLUBU** – XVIII əsrin axırlarında Fransa burjua inqilabı dövrü siyasi təşkilatı.

**YAKOBİNÇİ (LƏR)** – 1789-cu ildə Fransa burjua inqilabı zamanı Paris radikal siyasi klubunun "Yakobin klubu"nun üzvü olan demokratik inqilablara verilən ad.

**YAKOBİNLİK** – yakobinlərin prinsipləri və siyasi hərəkatı.

**YAMLAR** – Monqolların dövründə (Qazan xanın) yaradılan rabitə dayanacaqları.

**YARDARLIQ** – yarılığa işləmə (keçmişdə: torpaq sahibinə pul əvəzinə məhsulun yarısını vermək şərtilə torpaq icra etmək qaydası. İcarə haqqı məhsulun 1/2 hissəsində 3/5 hissəsinə qədər idi.

**YARIKƏRLƏR** – xanlıqlar dövründə Azərbaycanda kəndli kateqoriyası.

**YARLIQ** – Qızıl Orda xanlarının, özlərinə tabe olan ayrı-ayrı yerlərin idarəsinə aid fərmanı.

**YARMARKA** *alm.* – ildə bir dəfə keçirilən beynəlxalq bazar.



**YASAQ** – 1. qədimdə Volqaboyu və Sibir xalqlarından alınan vergi; töycü; 2. natural vergi, töycü.

**YASAVUL** – 1. 1917-ci il inqilabından qabaq kənd yerlərində polis nəfəri vəzifəsi görən şəxs; 2. kazak ordusunda rotmistr və kapitan çininə uyğun olan zabit rütbəsi.

**YASAVULBAŞI** – yasavulların böyüyü, baş yasavul.

**YASAVULLUQ** – yasavul vəzifəsi.

**YAŞIL İNQİLAB** – Hindistanda həyata keçirilən aqrotexniki tədbirlər kompleksi.

**YAY** – ox atmaq üçün yarımdairə şəklində əyilib ucları tarım iplə birləşdirilmiş ibtidai silah.

**YAZI** – hər hansı bir dövrə və xalqa aid yazılı abidələr.

**YEDDİİLLİK MÜHARİBƏ** – (1756-1763) – Şimali Amerikada və Ost-Hinddəki müstəmləkələr üstündə Böyük Britaniyanın Fransa ilə mübarizəsi.

**YEGER** *köhn.* – 18-19-cu əsrlərdə Avropanın bəzi dövlətlərində xüsusi nişançı polklarında xidmət edən əsgər.

**YEGERMEYSTER** *alm.* – çar sarayında baş rütbələrdən biri.

**YELENENDORF** – indiki Xanlar qəsəbəsi.

**YELİZAVETPOL** – Gəncə xanlığı Rusiyaya birləşdirildikdən sonra, 1804-1918-ci illərdə Gəncə şəhərinin adı.

**YELİZAVETPOL DAİRƏSİ** – 1917-ci il inqilabından əvvəl Azərbaycanda inzibati-ərazi vahidi. 1804-cü ilin yanvarında Gəncə xanlığı Rusiyaya birləşdirildikdən sonra yaradılmışdır.

**YELİZAVETPOL QƏZASI** – 1917-ci il inqilabından əvvəl Azərbaycanda inzibati-ərazi vahidi. Çar hökumətinin Qafqazda inzibati islahatına əsasən 1840-cı il aprelin 10-da yaradılmışdır.

**YELİZAVETPOL QUBERNİYASI** – 1917-ci il inqilabından əvvəl Azərbaycanda inzibati-ərazi vahidi. Çar hökumətinin 1868-ci il dekabr tarixli fərmanına əsasən təşkil edilmişdir.

**YENGİLOYLAR** – Azərbaycanda Qax, Zaqatala, Balakən rayonlarında yaşayan etnik qrup.

**YENGİLOYLAR VƏ MUĞALLAR** – türksoylu tayfalar. XVII əsrin əvvəllərində I Şah Abbasın köməyi ilə Car, Tala, Muxax, Çardaxlı, Katex, Qaşqaçay və Suvagil kəndlərində məskən salmışdılar.

**YENİ BURJUAZİYA** – Böyük Fransa burjua inqilabı dövründə kilsənin, mürtəce zadəganların torpaqlarının alınması və ordunu məhsulla təmin etmək sahəsində varlanmış sosial qrup.

**YENİ BEYNƏLXALQ İQTİSADİ QAYDA** – beynəlxalq iqtisadi əlaqələrin ədalətli və hüquq bərabərliyi əsasında yenidən qurulması üzrə inkişaf etməkdə olan ölkələrin konsepsiyası. Əsas tələbləri BMT tərəfindən 1973-1974-cü illərdə bəyənilmiş sənədlərdə qısa və dürüst ifadə edilmişdir.

**«YENİ XƏTT» SİYASƏTİ** - F.Ruzveltin ABŞ-ı iqtisadi böhrandan xilas etmək üçün irəli sürdüyü siyasət.

**YENİ ZADƏGANLAR** – təsərrüfatı kapitalistcəsinə, yəni muzdlu əmək tətbiq etməklə təşkil edən İngiltərə zadəganları.

**YENİÇƏRİ** *türk.* – yeni əsgər, qoşun deməkdir.

**YEPİSKOP** *yun.* – baş geşiş (Pravos-lav, katolik və anqlikan kilsələrində ali rütbə).

**YEZUİT** – mürtəce katolik ruhaniləri cəmiyyətinin üzvü, katolik monaxı (İsa sözündəndir).

**YƏHUDİ** – eramızın I-II əsrlərindən qabaq Fələstində yaşamış, sonradan dünyanın müxtəlif ölkələrinə yayılmış, indi isə İsrail dövlətinin əsas əhalisini təşkil edən xalq və həmin xalqa mənsub adam.

**YƏHUDİLİK** – yəhudi dini; bu dinə mənsubiyyət.

**YINAL** – Oğuz dövlətində zadəgan təbəqəsinə verilən titullardan biri.



**YOXSUL KOMİTƏLƏRİ** – kənd yoxsullarının təşkilatı, kənddə proletar diktaturasının dayaq məntəqələri.

**YOQA** – Hindistanda mistik-dini nəzəriyyə, məzhəb.

**YORKLAR** – İngiltərə kralları sülaləsi (1461-1485), Plantagenetlərin bir qolu. Banisi York hersoqu III Eduardın beşinci oğlu Edmunddur.

**YUAN** – Çində gümüş pul vahidi.

**YUXARI PALATA** – bəzi ölkələrdə ali qanunvericilik orqanı.

**YUNAN** – IX-X əsr mənbələrində adı çəkilən Azərbaycanda Mil düzündə qədim şəhər.

**YUNAN** *bax* yunanlar.

**YUNAN BƏLX PADŞAHLIĞI** Mərkəzi Asiyada mövcud olmuş quldarlıq dövləti.

**YUNAN YAZISI** – e.ə.X-VIII əsrlərdə Finikiya əlifbasından törəmiş yazı.

**YUNANISTAN (ELLADA)** – Balkan yarımadasının cənüb hissəsində, Frakiya sahilindəki, kiçik Asiyanın qərb sahillərində yaranmış quldarlıq dövlətləri qrupunun ümumi adı.

**YUNANLAR** – Yunansıtanın əsas əhalisi, yunan milləti, yunan xalqı.

**YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan ixtisaslaşdırılmış hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır.

**YUNKER** *rus.* – rus ordusunda XVIII əsr – XIX əsrin I yarısında dvoryanlardan hazırlanan unter zabit.

**«YUNQ PLANI»** – I Dünya müharibəsində məğlub olmuş Almaniya üçün təzminat planı.

**YURA DÖVRÜ** – Mezozoy qrupunun aşağıdakı ikinci sistemi: yura sistemi.

**YÜRÜŞ** – hücum, hərbi əməliyyat.

**YÜRÜŞÇÜ** – yürüşdə iştirak edən adam.

**YÜRÜŞLƏR** – türklərin tərkibində etnoqrafik qrup.

**YÜZ BAB** – XVI əsrin ortalarında: dini məsələlərə və dünyəvi işlərə aid yüz babdan ibarət qanun külliyyatı.

**YÜZBAŞI** – 1917-ci il inqilabından əvvəl Azərbaycan kəndlərində kənd icması tərəfindən seçilən inzibati vəzifə sahibi (XIV-XIX əsrlərdə Yaxın Şərqin bir sıra ölkəsində olmuşdur).

**YÜZBAŞILIQ** – yüzbaşı vəzifəsi, rütbəsi.

**YÜZİLLİK MÜHARİBƏ** – 1437-1453-cü illərdə İngiltərə və Fransa arasında fasilələrlə davam edən müharibə.

# Z

**ZADƏGAN** – hakim təbəqənin yüksək kübarlar, əsilzadələr; aristokratiya.

**ZADƏGANLIQ** – əsilzadəlik, kü-barlıq, aristokratlıq. İrsi imtiyazlara malik dünyəvi torpaq sahibləri təbəqəsi.

**ZADRUQA** – 1. Cənub slavyanlarında partriarxal ailə icması; 2. keçmiş Yuqoslaviyada kənd təsərrüfatı istehsal kooperativi.

**ZAQATALA DAİRƏSİ** – Şimali Azərbaycanda inzibati ərazi vahidi. 1860-cı ilin mayında yaradılmışdı.

**ZAMUA** – Azərbaycanda tarixi ərazi, ölkə. Mənbələrə görə Urmiya gölünün cənubu – Diyala və Kiçik Zab çaylarının yuxarı axarında yerləşən ərazini əhatə edirdi.

**"ZEMLYA VƏ VOLYA"** – 1876-cı ilin payızında xalqçıların Peterburqda yaratdığı gizli inqilabi təşkilat. Əvvəllər "Şimali inqidabi xalqçı qrupu", "Xalqçılar cəmiyyəti" adlanmışdır. Adı 1878-79-cu illərdə nəşr olunmuş eyniadlı qəzetdən götürülmüşdür.



**ZEMSTVO** *rus.* – 1917-ci il inqilabından qabaq Rusiyada: tərkibinin çox hissəsi zadəganlardan ibarət olan seçkili yerli idarə.

**ZEMSTVO HƏRƏKATI** – Rusiyada liberal mülkədarların burjua-müxalifətçi hərəkatı. XIX əsrin 60-cı illərində meydana çıxmışdı.

**ZEMSTVO RƏİSİ** – 1917-ci il inqilabından qabaq Rusiyada kənd yerlərində inzibati və məhkəmə işlərinə baxan məmur.

**ZEMŞİNA** *rus.* – 1. Qədimdə Rusiyada: əhali, camaat; 2. Çar İvan Qroznının Moskva dövləti ərazisindən ayırıb boyarların idarəsinə verdiyi hissə.

**ZƏKAT** – xilafət *(ərəb)* dövründə mal-qaradan, becərilən məhsullardan və meyvələrdən, qızıl və gümüş sənətkarlıq məmulatlarından alınan vergi.

**ZƏMİNDAR** – Dehli sultanlığında hərbi xidmət müqabilində dövlətdən torpaq alan şərti torpaq sahibi.

**ZƏMİNDARLIQ** – Hindistanda torpaq sahibliyi forması; torpaq üzərində şərti nəsil sahiblik sistemi.

**ZƏMİRLƏR** – Xilafətdə vilayəti idarə edən canişinlər.

**ZƏRBXANA** – metal pul kəsilən yer, müəssisə.

**ZƏRDÜŞTİLİK** – Azərbaycan, İran, Orta Asiya, Əfqanıstan və Ön Asiyanın bir sıra digər vilayətlərində yayılmış qədim dövrün erkən orta əsrlərin ən mühüm dinlərindən biri. Hazırda İranda kəbrlər, Hindistanda isə parslar arasında qalmaqdadır.

**ZİKKURAT** – Mesopotamiyada Şumer memarlığına xas olan 3, 5, 7 mərtəbəli pilləli məbəd. Zikkuratın yuxarı pilləsində kiçik ibadətgah yerləşirdi. Zikkuratdan səma cisimlərini müşahidə etmək üçün rəsədxana kimi də istifadə edirdilər.

**ZİMAMİ-ÜMUR** *köhn.* – hökmdar, idarə edən.

**ZİMMİ(LƏR)** – ərəb ordusunda könüllü xidmət edən xristian(lar).
**ZİNDAN** *köhn.* – keçmişdə: həbsxana, zindanxana.
**ZİNDANBAN** – zindançı, həbsxana baxıcısı, zindan baxıcısı.
**ZİNDANÇI** *bax* zindanban.
**ZİNDANXANA** *bax* zindan.
**ZİREH** *köhn.* – ox və s. yaralayıcı silahlardan qorunmaq üçün dəmir tordan, yaxud qalın dəridən geyim.
**ZİREHLİ** – 1. zireh geydikləri dəmir tordan, yaxud qalın dəridən geyim; 2. hərbi texnikada xüsusi polad laylardan ibarət möhkəm qoruyucu örtü; 3. zireh geymiş.
**ZİYAMƏT** – Osmanlı imperatorluğunda XIV-XV əsrlərdə xidmət müqabilində verilən şərti torpaq sahibliyi.
**ZORXANA** – keçmişdə: ağır idman məşğələləri və yarışları keçirilən bina, yer.
**ZUBATOVÇULUQ** *rus.* – (Moskva xəfiyyə polis naçalniki Zubatovun adından). Güclənməkdə olan fəhlə hərəkatı ilə mübarizə etmək üçün çar hökumətinin tətbiq etdiyi üsullardan biri (XX əsrin əvvəllərində).
**ZÜLQƏDƏRLƏR** – Kiçik Asiya və Azərbaycanda yaşamış türkdilli tayfa.
**ZÜLQƏDƏROVLAR** – 1920-ci il inqilabından əvvəl Azərbaycanda (Yelizavetpol quberniyasında: indiki Gəncə) iri mülkədar nəslindən biri. 34 278 desyatin torpağı var idi.
**ZÜLM** – özbaşınalıq və zorakılıq əsasında qurulan idarə üsulu; istibdad.
**ZÜZ (YÜZ)** *qazaxca* – hissə, tərəf.



# TERMİN GÖSTƏRİCİSİ

## A


abbasi -7
abbasilər -7
abbasilər xilafəti - 7
abbat - 7
abbatlıq - 8
abdalilər - 8
abdallar - 8
abidə - 8
abituriyent - 8
abolisionistlər -8
abolisionist hərəkatı -8
abolisionizm - 8
abordaj -8
aborigenlər -8
absenteizm -8
absolyutizm -8
açıq qapı -8
adıgey -9
adıqlar -9
adilşahlar-9
admiral -9
aeropaq -9
afrodita -9
agent -9
agentlik - 9
agentura - 9
ağ - 9
ağ qvardiya - 9
ağa- 9
ağacərilər - 9
ağalıq - 10
ağbil türbələri -10
ağqoyunlu dövləti - 10
ağqoyunlular -10
ağqvardiyaçı -10
ağməscid -10
ağsaqqallar şurası -10
ağsonqurilər (ağsunqurilər) -11
axça -11
axill -11
axill dabanı - 11

axilles -11
axund -11
axundluq -11
ajiopaj -11
akademiya-11
akın -11
akmeizm -11
akr -12
akropol -12
aqora -12
aqrar -12
aqrar çevriliş-12
aqrar islahatlar -12
aqrar məsələ -12
aqrari -12
aqrarilər -12
alagöz yaylaqları -12
alanlar -12
alarlılar -12
alban -12
alban kitabələri -12
albaniya -12
ali baş komandan -13
ali məhkəmə-13
ali müsəlman silki -13
ali sovet -13
allahaxtarıcı -13
allahaxtarıcılıq -13
allaharayıcı -13
allaharayıcılıq -13
allod -13
almanlar -13
alternativ -13
alyans -13
amazonlar -13
amfiteatr -13
amfora -14
amil -14
amildar -14
amnistiya -14
amon-14
ampula -14
amunisiya -14
anabaptist-14
anabaptizm -14
anarxist -14
anarxiya -14
anarxizm -14
anaxronizm -14
anarxo-sindikalist-14



anarxo-sindikalizm -14
anayasa-15
animizm -15
anqlikan kilsəsi -15
anqlofob-15
anqlofobluq-15
annenfeld -15
anşlyus -15
antaqonist-15
antaqonizm -15
